# BUGÜNKÜ AZƏRBAYCAN BÜTÜN TARİX BOYUNCA ƏN QÜDRƏTLİ AZƏRBAYCANDIR!


BÖYÜK LİDERLİK MİSSİYASI: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ
səhifə-3-də

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ DİLLƏRİN TƏDRİSİ MƏSƏLƏLƏRİ
səhifə-12-də

ŞAGİRDLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA MÜTALİƏNİN ROLU
səhifə-16-da

SÖZƏ, HAQQA TAPINAN ŞAİR
səhifə-17-də

VƏTƏN MÜHARİBƏSİNİN QƏHRƏMANI, TƏLƏBƏ-HAKİM
səhifə-22-də


NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*



# YENİ FİKİR


TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

2 iyul 2021-ci il, №5 (39)


# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ TEXNOLOGİYALAR PARKI YARADILIR





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2020-ci il dekabrın 14-də "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncam imzalamış, müvafiq dövlət qurumları qarşısında Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı tapşırıqlar qoyulmuşdur.

İyunun 16-da Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının təməlatma mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək demişdir ki, hazırda universitetin bakalavr üzrə 42 ixtisası, magistr üzrə 80 ixtisasdan 43-ü Texnologiyalar Parkının fəaliyyət sahəsinə daxildir. Ali Məclis Sədrinin parkın yaradılması ilə bağlı müvafiq Sərəncamı mühüm əhəmiyyətə malikdir. Çünki dünyada az sayda universitetdə texnopark vardır. Naxçıvan Dövlət Universitetində innovativ inkişafla əlaqədar olaraq gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün İnnovasiya Mərkəzi və innovasiya laboratoriyası da yaradılmış, ixtisaslar dövlət qurumlarına hamiliyə verilmişdir. Bütün bunlar kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi




sahəsində mühüm addımdır.

Məlumat verilmişdir ki, yeni qurulacaq texnoparkda energetika, gülkarlıq, tingçilik, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, üzümçülük, meliorasiya, arıçılıq sahələri, tədris otaqları və sərgi biopark, texnopark binaları, eləcə də Nəbatət bağı fəaliyyət göstərəcəkdir. Texnopark üçün zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət yeni bina inşa olunacaqdır. Zirzəmidə texnoservis, nano araşdırmalar, biotexnologiyalar, prototip mərkəzləri, proqramlaşdırma və avtomatlaşdırma, kafe və təsərrüfat otaqları nəzərdə tutulmuşdur. Birinci mərtəbədə Şərur sənaye məhəlləsinin, Naxçıvan Məhsullarının, Microsoft şirkətinin, Naxtel 4G operatorunun, CİSCO, KOİCA, Bakunity və digər gələcək rezident şirkətlərin ofisləri yerləşəcəkdir. İkinci mərtəbədə innovasiya, layihələrin əlaqələndirilməsi, informasiya texnologiyaları xidmətləri, süni intellekt elmi-tədqiqat mərkəzləri, incəsənət, dizayn və memarlıq layihələri xidməti, elektronika və digər iş otaqları olacaqdır. Üçüncü mərtəbədə biznes inkubatoru, ideya bankı, Co-working mərkəzi, startap mərkəzləri nəzərdə tutulmuşdur. Dördüncü mərtəbədə 3 müzakirə otağı və 240 nəfərlik akt zalı yerləşəcəkdir.




Biopark binasında Naxçıvan faunasına aid nümunələrin yerləşdiyi muzey, APİAİR müalicə sahəsi, arı südü, arı zəhəri analizləri laboratoriyası, arı mayalandırma, barama, dovşan, ağ siçan və zəli yetişdirmə sahələri fəaliyyət göstərəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Naxçıvan Dövlət Universitetinin nəzdində Texnologiyalar Parkının yaradılması zamanın tələbidir. Çünki XX əsr texnika, XXI əsr isə texnologiyalar əsridir. Təhsil də yeni texnologiyalar üzərində tədris olunmalı və gənclər müasir dövrün tələblərinə uyğun təhsil almalıdırlar. Texnopark tələbələrin dərsləri həm nəzəri, həm də praktik olaraq mənimsəmələrinə imkan verəcəkdir.




Ali Məclisin Sədri demişdir: Muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM kabinələri qurulur. Artıq "Naxçıvan Muxtar Respublikasında STEAM Təhsil Metodunun tətbiqi ilə bağlı Tədbirlər haqqında" Sərəncam imzalanmışdır. Sərəncama əsasən Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılacaqdır. Bütün bunlar gənclərin XXI əsrin tələbləri səviyyəsində təhsil almalarına və özlərini gələcəyə hazırlamalarına imkan verəcəkdir. Texnologiyalar Parkında qurulanların hamısı nanotexnologiyalara əsaslanacaqdır. Ölkəmizdə ilk dəfə olaraq bu layihəyə ağıllı texnologiyaların əlavə edilməsi texnoparkın tələblərinə tam cavab verəcəkdir. Ona görə də dünya təcrübəsinə əsaslanaraq burada universitetin profilinə və ixtisaslara uyğun nümunələr seçilib tətbiq olunmalıdır. Bu da imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti dünya universitetləri içərisində öz reytinqini artırsın. Universitetdə tədris yüksək səviyyədə ola bilər. Lakin əsas tələb dünya universitetləri sırasında öz yerini tutmaq və müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməkdir. Müasir dövrün tələbləri də gəncləri yaradıcı təfəkkürə sövq edən yeni texnologiyalardır. Bunun vacibliyi nəzərə alınaraq 14 dekabr 2020-ci il tarixdə Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması ilə bağlı Sərəncam imzalanıb. Bu gün isə parkın təməli qoyulur. Layihənin müəllifi universitetin Memarlıq və mühəndislik fakültəsinin müəllimi və universitetin yetirməsidir. Hər il ölkəmizdə elm, təhsil, incəsənət və digər sahələrdə xüsusi fərqlənən gənclərə Prezident mükafatları təqdim olunur. Bu il isə "2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən layihənin müəllifi İsmayıl İsmayıllı da mükafata layiq görülüb.



Ali Məclisin Sədri Prezident mükafatını İsmayıl İsmayıllıya təqdim edərək təbriklərini çatdırmışdır.

İsmayıl İsmayıllı minnətdarlıq edərək demişdir: "Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin məzunu olmuşam. Təhsil aldığım illərdə yaradılan şəraitdən yararlanmışam. Bu gün isə günü-gündən inkişaf edən doğma universitetimdə həm də müəllim kimi fəaliyyət göstərməyimlə qürur duyuram. Prezident mükafatına layiq görülməyim məsuliyyətimi artırır. Naxçıvanın qədim memarlıq ənənələri Ali Məclis Sədrinin qayğısı ilə özünə qaytarılıb. Biz də bunu qədim və müasir memarlıq üslubunun vəhdəti şəklində həyata keçirəcək, yeni layihələr hazırlayacağıq".

Ali Məclisin Sədri Texnologiyalar Parkının təməlini atmış, tikintinin keyfiyyətlə aparılması və tələblərə uyğun qurulması barədə tapşırıqlar vermişdir.

*Naxçıvan Muxtar Respublikası*
*Ali Məclisinin mətbuat xidməti*







# “BÖYÜK LİDERLİK MİSSİYASI: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ” MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə keçirilən konfransı universitetin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev açıb. Rektor qeyd edib ki, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbovun “Azərbaycan” qəzetinin 4 iyun 2021-ci il tarixli sayında dərc olunmuş, bir sıra mərkəzi informasiya agentliklərinin saytlarında, muxtar respublikanın kütləvi informasiya vasitələrində yer alan “Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə” adlı konseptual məqaləsini təhlil edib. Qeyd olunub ki, məqalədə görkəmli dövlət xadiminin unikal, təkrarolunmaz liderlik fəaliyyəti, ümummilli liderin böyük xilaskarlıq missiyasını, siyasi varislik prinsiplərində də Azərbaycanı böyük uzaqgörənliklə düşünərək cənab İlham Əliyev kimi ölkəni regionun liderinə çevirəcək bir siyasi xadimə etibar etməsi elmi-siyasi cəhətdən dərin təhlil edilmişdir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov “Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, siyasi nəzəriyyələrdə müxtəlif meyarlara görə liderlərin tipologiyasını aparırlar. Bu, liderliyə hansı aspektdən və hansı sosial-siyasi kontekstdə yanaşmadan asılı olur. Bunlardan başqa, liderləri təsir miqyaslarına görə də təsnifatlandıran nəzəriyyəçilər vardır. Müasir nəzəri təlimlərdə ümummilli liderlər, bütövlükdə, xalq və dövlət miqyasında, həm də ölkə masştabından kənarda da real liderlik edə bilən şəxsiyyətlər kimi səciyyələndirilir. Onlar mövcud sosial-siyasi, iqtisadi və geosiyasi vəziyyəti ciddi surətdə dəyişmək qüdrətinə malik olurlar. Ümummilli liderlər ölkənin sosial-siyasi strukturunu yenidən təşkil edə bilirlər. Azərbaycan xalqının ulu öndəri, görkəmli dövlət xadimi Heydər Əliyev liderlikdən ümummilli liderliyə qədər inkişaf edən və həm ölkəsində, həm də dünyada əsl lider olaraq qəbul edilən fərqli şəxsiyyətdir. Liderlik haqqında dünya təlimindəki əsas keyfiyyətlər Heydər Əliyevin simasında ümumiləşir.

Qeyd olunub ki, Heydər Əliyev postsovet məkanında yeganə ölkə rəhbəri və Prezident idi ki, görkəmli dövlət başçısı funksiyasını birləşdirə bilmişdi. Müasir siyasi-hüquqi təlimlərin görkəmli yaradıcılarının qənaətinə görə, hər bir rəhbər millətə real lider ola bilmir və əksinə, heç də hər liderin ölkəyə səmərəli rəhbərlik etməyi bacarmadığı hallar olur. Bununla bağlı tarixdə və günümüzdə kifayət qədər misallar var. Bu səbəbdəndir ki, Heydər Əliyevin ümummilli lider kimi yüksək dövlətçilik-idarəçilik qabiliyyəti və bacarığı ilə dövlətə yüksək səviyyəli rəhbərliyi bir-birini üzvi surətdə tamamlayır. Məsələnin bu cəhətdən təhlili digər vacib məqamlarla yanaşı, Heydər Əliyevin Azərbaycanda müasir liderlik ənənəsinin banisi və həm də dünya miqyaslı lider olmasının əsas parametrlərini dərk etməyə şans yaradır. Heydər Əliyev liderliyi qüdrətli ümummilli lider səviyyəsinə qaldırmış nadir dövlət xadimlərindən biridir. Bu qeyri-adi liderlik istedadına malik olan dövlət xadiminin keçirdiyi çətin, məsuliyyətli və şərəfli yolun təcrübəsi əsasında ulu öndərin liderlik istedadının başlıca təşkiledici prinsiplərini müəyyənləşdirmək mümkündür.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev lider və dövlət başçısı kimi unikal, təkrarolunmaz və XX əsrdə kimsənin yaşamadığı ibrətamiz həyat və mübarizə yolu keçmişdir. Heydər Əliyev yeganə siyasi xadimdir ki, iki böyük tarixi-siyasi epoxada və keçid dövründə ümummilli lider statusuna yüksələ bilmişdir. Keçmiş sovet hakimiyyəti mərhələsində də, müstəqillik dövründə də Heydər Əliyev təkrarsız liderlik istedadına malik görkəmli dövlət xadimi olduğunu isbat etmişdir. Bu dahi şəxsiyyətin çətin və mürəkkəb tarixi şəraitdə Naxçıvan Muxtar Respublikasını işğaldan xilas etməsi, yaşatması və inkişaf etdirməsi, bu həssas regionda Azərbaycanın ərazi bütövlüyünü qoruyub möhkəmləndirməsi də əsl liderlərə xas olan böyük xilaskarlıq missiyasının yüksək səviyyədə həyata keçirilməsinin nümunəsidir.

Vurğulanıb ki, Heydər Əliyev hələ sovet dövründə elan olunmamış ümummilli lider funksiyasını göstərə bilmişdir. Və bu reallıq o dərəcədə məsuliyyətli idi ki, qısqanc SSRİ rəhbərləri içərisində həmin miqyasa çatmaq və onu qoruyub saxlamaq ayrıca qabiliyyət, xüsusi liderlik tələb edirdi. Heydər Əliyev Sovet İttifaqı dövründə SSRİ-yə daxil olan müttəfiq respublikalardan birinin liderliyindən Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini səviyyəsinə yüksəlmək qədər böyük missiyanı gerçəkləşdirmiş və özünün böyük liderlik istedadı ilə həm də qoruyub saxlamağı və yaşatmağı da uğurla həyata keçirmişdir. Bu mənada, Heydər Əliyev SSRİ dövründəki özünəməxsus ümummilli liderlik fəaliyyətinin əsas məqamlarının nəzəri-hüquqi baxımdan geniş tədqiq edilməsi ölkə və dünya üçün də əhəmiyyətlidir. Çünki ikinci elə bir nümunə yoxdur ki, ərazicə kiçik respublikada bütün fəaliyyət sahələri mərkəzdən idarə edildiyi şəraitdə ölkə rəhbəri SSRİ rəhbərliyinin razılığı olmadan real surətdə xalqa liderlik edə bilsin, onun təhlükəsizliyini, mövcudluğunu və inkişafını bacarmaq vəzifəsini qətiyyətlə həyata keçirsin. Sovet dövründə Heydər Əliyevin xalqla bir olması təcrübəsi insanlarda bu qüdrətli Liderə böyük inam, yüksək ehtiram və etibarlılıq hissi yaratmışdı. Bu nəinki Azərbaycanın və Türk dünyasının siyasi ənənəsində, hətta dünya miqyasında tarixi hadisə idi.

Sovetlər birliyi dövründə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə milli kadrların hazırlanması, iqtisadi, mədəni və digər sahələrdə böyük nailiyyətlərin əldə olunduğunu bildirən Seymur Talıbov qeyd edib ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir əsrdə ikinci dəfə məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Həmin dövrdə ölkəyə səriştəsiz adamların rəhbərlik etməsi və düşmənin respublikamızın ərazi bütövlüyünə davamlı təcavüzü, bütövlükdə, xalqımızı “ölüm-qalım” faktı qarşısında qoymuşdu. Məhz belə çətin məqamda tale ikinci dəfə Heydər Əliyevə lider-xilaskar rolunu həyata keçirmək üçün imkan yaratmışdır. Xalqın tələbi və dəstəyi ilə 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyev faktiki olaraq Xilaskar lider missiyasını həyata keçirmişdir. Heydər Əliyev qısa müddətdə bu çətin tarixi mərhələdə də siyasi liderliklə ümummilli liderliyin və dövlət rəhbərliyi ilə ümummilli maraqların sintezini yarada bilən şəxsiyyət olduğunu sübut etmişdir.

Heydər Əliyevin lider və dövlət başçısı kimi böyük xidmətləri sırasında siyasi varisliyi yüksək səviyyədə təmin etməsinə ayrıca toxunan Seymur Talıbov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi dünya və ölkə miqyaslı siyasi lider kimi yetişdirməklə Heydər Əliyev Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısında misilsiz tarixi xidmət göstərmişdir. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi müddətdə sübut etdi ki, o, Heydər Əliyev məktəbini yüksək səviyyədə mənimsəmiş və yeni tarixi epoxanın irəli sürdüyü çağırışları qabaqlamış, mühüm strateji zəkaya və praktik səmərəli fəaliyyət metodlarına malik olan dünya miqyasında yenitipli liderdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın çoxəsrlik tarixi salnaməsinə Zəfər günü həqiqətlərini yazmaqla bərabər, həm də ölkəmizi bütün sahələr üzrə irəli aparmağı bacaran, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli lider kimi qəbul olunur. Möhtərəm Prezidentin qətiyyətlə həyata keçirməyə başladığı Böyük Qayıdış proqramı həm Qarabağın, həm də geniş mənada Azərbaycanın yeni sabahlarını aydın surətdə təsəvvür etməyə imkan verir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün dünyanın söz sahibi olan əsl liderlərindən biri kimi qəbul edilir.

Diqqətə çatdırılıb ki, müstəqil Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin mükəmməl dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində özünün əsas siyasi-ideoloji və iqtisadi dayaqlarını qurub möhkəmləndirmişdir. Bu gün Prezident İlham Əliyevin simasında müstəqil Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Əməkdaşlıq Şurasında, Ümumdünya Səhiyyə Təşkilatında, digər mötəbər beynəlxalq qurumlarda tutduğu mövqe, qazandığı böyük nüfuz yalnız superdövlətlərlə müqayisə oluna bilər.

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Böyük liderlik missiyası” adlı filmə baxış olub.

## “15 İYUN-MİLLİ QURTULUŞ GÜNÜ” İLƏ ƏLAQƏDAR OLARAQ UNİVERSİTETDƏ GƏNC PARTİYA ÜZVLƏRİ İLƏ GÖRÜŞ TƏŞKİL EDİLİB



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti Ərazi İlk Partiya Təşkilatının birgə təkilatçılığı ilə “15 iyun Milli Qurtuluş Günü” münasibətilə Naxçıvan Dövlət Universitetində gənc partiya üzvləri ilə görüş keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, YAP Naxçıvan MR Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov muxtar respublikada gənclərə göstərilən yüksək dövlət qayğısından danışıb. Bildirib ki, gənclərimizin savadlı, dünyagörüşlü və vətənpərvər şəxsiyyət kimi formalaşması məhz ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün tam əminliklə demək olar ki, ulu öndərin gəncliyə və gənclərə qayğısı yeni mərhələyə qədəm qoyub. Diqqətə çatdırılıb ki, muxtar respublikada da ümumilli lider Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasəti uğurla davam etdirilir. Gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi, yüksək səviyyədə təhsil alması, cəmiyyətin müxtəlif sahələrində fəal iştirakının təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Nazir qeyd edib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 40,5 faizini gənclər təşkil edir. Yeni Azərbaycan Partiyasının üzvü olan gənclərdən 12 min 203-ü qadındır. Gənc üzvlərdən 13 min 731-i ali, 1840-ı orta ixtisas, 7 min 507-si orta təhsillidir. Bununla yanaşı üzvlərdən 12 nəfəri fəlsəfə doktoru, 3 min 72-si isə tələbədir. Azad Cabbarov bildirib ki, Yeni Azərbaycan Partiyasının üzvü olan gənclər təhsil, səhiyyə, elm, mədəniyyət və incəsənət, darəetmə, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə və digər xidmət sahələrində çalışır.

Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan, tariximizə qızıl hərflərlə yazılmış “15 İyun Milli Qurtuluş Günü” böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ulu Öndər olub. Təhsilə göstərilən yüksək diqqət və qayğıdan danışan rektor diqqətə çatdırıb ki, universitetdə yaradılan müasir tədris şəraiti gənclərin savadlı kadr kimi yetişməsində mühüm rola malikdir. Bildirilib ki, ali təhsil ocağında möhkəm təhsil bazasının formalaşdırılması bu gün gənclərin günün tələbləri səviyyəsində təhsil almalarına gətirib çıxarıb. Universitetdə həyata keçirilən yeniliklərdən danışan Elbrus İsayev yeni yaradılacaq Texnoparkın, müasir avadanlıqlarla təchiz edilən binlarlardakı laboratoriyaların muxtar respublikanın ictimai-siyasi, mədəni həyatına mühüm töhfələr verən gənclərin yetişməsində mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti Ərazi İlk Partiya təşkilatının sədri Arzu Abdullayev Ulu Öndərin tarixi missiyasından və Azərbaycan gəncliyinə verdiyi misilsiz xidmətlərdən danışıb. Bildirilib ki, Ulu Öndərin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycan gerçəkliyinə çevrilib.

Universitetdə təhsil alan gənc partiya üzvü, ingilis dili üzrə I kurs magistrant Lalə Rzayeva gənclər üçün yaradılan geniş imkanlardan danışıb. Bildirilib ki, universitetdə tələbələrin hərtərəfli qayğı ilə əhatə olunması muxtar respublikada nümunəvi gəncliyin formalaşdırılması üçün zəmin yaradıb.

Daha sonra ali təhsil ocağında yeni yaradılan Estrada orkestrinin konsert proqramı təqdim edilib. “Azərbaycan”, “Vətən savaşı”, “Sway”, “Çırpınırdı Qaradəniz”, “Qaytağı”, “Məşəl kimi yanan ürək” və “İlhamla sabaha” ifaları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Tədbirin davamında universitetdə təhsil alan Yeni Azərbaycan Partiyasına yeni üzv olan tələbələrə üzvlük vəsiqələri təqdim edilib.

Sonda universitetin ictimai və təhsil işlərində fərqlənən gənc partiya üzvləri Gənclər və İdman Nazirliyi tərəfindən diplom və hədiyyələrlə təltif ediliblər.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# BÖYÜK LİDERLİK MİSSİYASI: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ



Siyasi nəzəriyyələrdə müxtəlif meyarlara görə liderlərin tipologiyasını aparırlar. Bu, liderliyə hansı aspektdən və hansı sosial-siyasi kontekstdə yanaşmadan asılı olur.

Məsələn, liderliyin "Böyük insan", "bayraqdar lider" (M.C.Hermann), "Ənənəvi lider", "Rasional lider", "Xarizmatik lider" (Maks Veber), "Əsl qəhrəman lider" (F.Nitsşe) və sair kimi xarakteristikaları mövcuddur. Hegel ideal lideri öz missiyasını dərk edən tarixi şəxsiyyət kimi təqdim edirdi. XIX əsr ingilis alimi Tomas Karleyl yazırdı ki, "dünya tarixi böyük insanların tarixidir" və "qəhrəmanlar mahiyyətə vara bilirlər".

Bunlardan başqa, liderləri təsir miqyaslarına görə də təsnifatlandıran nəzəriyyəçilər vardır. Məsələn, "Qrup lideri", "Siyasi lider", "Ümummilli lider" və sair Lider haqqında müasir nəzəri təlimlərdə ümummilli liderlər, bütövlükdə, xalq və dövlət miqyasında, həm də ölkə masştabından kənarda da real liderlik edə bilən şəxsiyyətlər kimi səciyyələndirilir. Onlar mövcud sosial-siyasi, iqtisadi və geosiyasi vəziyyəti ciddi surətdə dəyişmək qüdrətinə malik olurlar. Ümummilli Liderlər ölkənin sosial-siyasi strukturunu yenidən təşkil edə bilirlər. Nümunə olaraq Mustafa Kamal Atatürkü, Ruzvelti göstərmək olar.

Azərbaycan xalqının Ulu Öndəri, görkəmli dövlət xadimi Heydər Əliyev liderlikdən Ümummilli Liderliyə qədər inkişaf edən və həm ölkəsində, həm də dünyada əsl lider olaraq qəbul edilən fərqli şəxsiyyətdir. Liderlik haqqında dünya təlimindəki əsas keyfiyyətlər Heydər Əliyevin simasında ümumiləşir.

Heydər Əliyev postsovet məkanında yeganə ölkə rəhbəri və Prezident idi ki, görkəmli dövlət başçısı funksiyasını Ümummilli Liderliklə üzvi surətdə birləşdirə bilmişdi. Müasir siyasi-hüquqi təlimlərin görkəmli yaradıcılarının qənaətinə görə, hər bir rəhbər millətə real lider ola bilmir və əksinə, heç də hər liderin ölkəyə səmərəli rəhbərlik etməyi bacarmadığı halları olur. Bununla bağlı tarixdə və günümüzdə kifayət qədər misallar var. Bu səbəbdəndir ki, Heydər Əliyevin Ümummilli Lider kimi yüksək dövlətçilik-idarəçilik qabiliyyəti və bacarığı ilə dövlətə yüksək səviyyəli rəhbərliyi bir-birini üzvi surətdə tamamlayır. Məsələnin bu cəhətdən təhlili digər vacib məqamlarla yanaşı, Heydər Əliyevin Azərbaycanda müasir liderlik ənənəsinin banisi və həm də dünya miqyaslı lider olmasının əsas parametrlərini dərk etməyə şans yaradır. Heydər Əliyev liderliyi qüdrətli Ümummilli Lider səviyyəsinə qaldırmış nadir dövlət xadimlərindən biridir. Bu qeyri-adi liderlik istedadına malik olan dövlət xadiminin keçirdiyi çətin, məsuliyyətli və şərəfli yolun təcrübəsi əsasında Ulu Öndərin liderlik istedadının başlıca təşkiledici prinsiplərini müəyyənləşdirmək mümkündür.

Vurğulanan məqamların işığında Heydər Əliyevin liderlik istedadının müxtəlif kontekstlərdə təzahürlərinə diqqətlə nəzər yetirmək lazımdır. Hər şeydən əvvəl qeyd edək ki, Heydər Əliyev lider və dövlət başçısı kimi unikal, təkrarolunmaz və XX əsrdə kimsənin yaşamadığı ibrətamiz həyat və mübarizə yolu keçmişdir. Heydər Əliyev yeganə siyasi xadimdir ki, iki böyük tarixi-siyasi epoxada və keçid dövründə Ümummilli Lider statusuna yüksələ bilmişdir. Keçmiş sovet hakimiyyəti mərhələsində də, müstəqillik dövründə də Heydər Əliyev təkrarsız liderlik istedadına malik görkəmli dövlət xadimi olduğunu isbat etmişdir. Bu dahi şəxsiyyətin çətin və mürəkkəb tarixi şəraitdə Naxçıvan Muxtar Respublikasını işğaldan xilas etməsi, yaşatması və inkişaf etdirməsi, bu həssas regionda Azərbaycanın ərazi bütövlüyünü qoruyub möhkəmləndirməsi də əsl liderlərə xas olan böyük xilaskarlıq missiyasının yüksək səviyyədə həyata keçirilməsinin nümunəsidir.

Bəli, Heydər Əliyev hələ sovet dövründə elan olunmamış Ümummilli Lider kimi fəaliyyət göstərə bilmişdir. Və bu reallıq o dərəcədə məsuliyyətli idi ki, qısqanc SSRİ rəhbərləri içərisində həmin miqyasa çatmaq və onu qoruyub saxlamaq ayrıca qabiliyyət, xüsusi liderlik tələb edirdi. Heydər Əliyev Sovet İttifaqı dövründə SSRİ-yə daxil olan müttəfiq respublikalardan birinin liderliyindən Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini səviyyəsinə yüksəlmək qədər böyük missiyanı gerçəkləşdirmiş və özünün böyük liderlik istedadı ilə həm də qoruyub saxlamağı və yaşatmağı da uğurla həyata keçirmişdir.

Bu mənada, Heydər Əliyevin SSRİ dövründəki özünəməxsus Ümummilli Liderlik fəaliyyətinin əsas məqamlarının nəzəri-hüquqi baxımdan geniş tədqiq edilməsi ölkə və dünya üçün də əhəmiyyətlidir. Çünki ikinci elə bir nümunə yoxdur ki, ərazicə kiçik respublikada bütün fəaliyyət sahələri mərkəzdən idarə edildiyi şəraitdə ölkə rəhbəri SSRİ rəhbərliyinin razılığı olmadan real surətdə xalqa liderlik edə bilsin, onun təhlükəsizliyini, mövcudluğunu və inkişafını bacarmaq vəzifəsini qətiyyətlə həyata keçirsin.

Məhz buna görədir ki, Azərbaycan xalqı müstəqillik dövründə səsləndirilən "xalq-Heydər, Heydər-xalq" şüarını bütün qəlbi ilə dərhal qəbul etdi. Sovet dövründə Heydər Əliyevin xalqla bir olması təcrübəsi insanlarda bu qüdrətli liderə böyük inam, yüksək ehtiram və etibarlılıq hissi yaratmışdı. Bu nəinki Azərbaycanın və Türk dünyasının siyasi ənənəsində, hətta dünya miqyasında tarixi hadisə idi.

Görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı aparılan tədqiqatlarda vurğulanır ki, keçən əsrin 30-cu illərində Azərbaycan SSR-də təhlükəsizlik orqanlarında rəhbər vəzifədə olanların əksəriyyəti qeyri-azərbaycanlılardan ibarət idi. Heydər Əliyev özü də dəfələrlə ifadə edib ki, bu fakt respublikada narahatlıq yaradırdı. Həm də ona görə ki, həmin dövrdə Rusiyaya və başqa İttifaq respublikalarına xüsusi ixtisaslar üzrə təhsil almağa göndərilənlərin sayı çox az olduğu üçün və təhlükəsizlik xidməti üzrə respublikadan mərkəzə təhsil almaq məqsədilə göndərilənlərin içərisində azərbaycanlılar azlıq təşkil etdiyinə görə seçim və dəyişiklik etmək çətinliklər törədirdi. Həmin o proses belə davam etsəydi, gələcək illərdə Azərbaycan SSR-in rəhbərliyinə yad millətlərin nümayəndələri gələ bilərdi. Onda isə istər-istəməz, bütövlükdə, xalqın, ölkənin siyasi taleyi risk altına düşərdi. Vəziyyəti daha da ağırlaşdıran məqam kimi Ulu Öndər mərkəzin Azərbaycana qarşı digər müttəfiq respublikalarla müqayisədə ikili mövqe tutmasını görür və bütün bunlara qarşı mübarizə aparmaq üçün son dərəcə ağıllı, məsuliyyətli və mövcud ideologiyaya uyğun incə siyasət aparırdı. Heydər Əliyevin müdrik və uzaqgörən lider kimi böyük istedadı bu məsul vəzifənin öhdəsindən təhlükəsiz olaraq yüksək səviyyədə gəlməyə imkan yaratmışdır.

Heydər Əliyev xalqımızın xilası naminə səlahiyyət əldə etmək üçün əvvəlcə respublikada yüksək vəzifəyə təyinat aldı, birinci şəxs olaraq ölkəni idarə etməyə başladı. Sonrakı mərhələdə isə Sovet İttifaqının rəhbəri Leonid Brejnevi inandıraraq onun Azərbaycan SSR-ə fərqli münasibət bəsləməsini təmin edə bildi. Nəticədə, Heydər Əliyev Azərbaycan SSR-ə ittifaq miqyası üçün ayrılan təhsil üzrə kvotanı 500 nəfərə qədər çoxaltmağa nail oldu və təhsil almağa gedənlərin say tərkibində doxsan faizdən çox azərbaycanlı təmsil edildi. Bu, Ulu Öndərin respublika rəhbəri olmaqla yanaşı, xalqın lideri olmasının mühüm əlamətlərindən biri idi. Çünki başqa respublikalara təhsil almağa göndərilənlər bu müddətdə Azərbaycan rəhbərliyinin həyata keçirdiyi siyasət sayəsində respublikaya vətənpərvər və yüksəkixtisaslı kadrlar kimi qayıdırdılar. Kadrların azərbaycanlılaşdırılması Heydər Əliyev üçün onların öz ölkəsini, mənsub olduqları xalqı, onun tarixini bilmək və mədəniyyətini sevmək məramına vicdanla xidmət etmək mənasını daşıyırdı. Bu məqam Heydər Əliyevin sovet dövründə, mərkəzin nəzarətinin güclü olduğu, siyasi fəaliyyət alətlərinin kənardan təşkil edildiyi şəraitdə siyasi lider kimi, əslində, Ümummilli Lider səviyyəsinə yüksəlməsinin təsdiqi idi. Məhz bu addımlardan sonra Ulu Öndər yüksək dövlət idarəçiliyində azərbaycanlılaşdırma siyasətini yüksək səviyyədə həyata keçirməyi bacarmışdır.

Digər bir məqam Azərbaycan mədəniyyətinin təbliği və inkişafı ilə bağlıdır. Heydər Əliyev mərkəzdən bir sıra dairələrin yalnız Azərbaycanın ərazisinə və sərvətlərinə deyil, həm də milli kimliyinə, ədəbiyyatına və mədəniyyətinə, xüsusilə ana dilimizə qəsd etmək istədiyini dərindən bilirdi. Ona görə də müdrik və uzaqgörən dövlət xadimi bu hallara qarşı heyrətedici səviyyədə müasir, sivil, mədəni mübarizə üsulunu seçmişdi. Bu məsələdə Ulu Öndərin liderlik istedadı xüsusi məna kəsb edir. Heydər Əliyev keçmiş ittifaq səviyyəsində bir-birinin ardınca Azərbaycanın böyük ədəbiyyat və incəsənət xadimlərinin yubileylərini təntənəli surətdə təşkil etmiş, onların xidmətlərini geniş miqyasda ictimailəşdirmişdi. Heydər Əliyev bu yolla Azərbaycan yazıçı və şairlərini fəal şəkildə müxtəlif təzyiqlərdən qorumuş, nəinki onların həyatını xilas etmiş, gələcək fəaliyyətlərinə də yol açmağı bacarmışdı.

Azərbaycanın XX əsrdəki görkəmli siyasətçilərinə, xüsusən Nəriman Nərimanova qarşı mərkəzdə olan mənfi əhvali-ruhiyyəni Heydər Əliyev dəyişdirmişdi. Uzaqgörən müdrik rəhbər bununla kifayətlənməmiş, Azərbaycan dilini dövlət dili kimi hüquqi müstəvidə mərkəzə qəbul etdirmişdi. Konkret olaraq Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasına ana dilinin dövlət dili kimi daxil edilməsi nadir siyasi-tarixi hadisə idi. Onu deyək ki, həmin dövrdə başqa respublikalar üçün, məsələn, Ermənistan və Gürcüstan üçün adi sayılan, aksiom kimi qəbul edilən bu dəyərləri Azərbaycan üçün yalnız ciddi və ağıllı mübarizə ilə qəbul elətdirmək mümkün olurdu. Görkəmli dövlət xadimi Heydər Əliyev belə məsul vəzifələri siyasi müstəvidə əsl lider olaraq həyata keçirməyin öhdəsindən layiqincə gəlirdi.

Heydər Əliyevin dövlət rəhbərliyi ilə liderliyi yüksək səviyyədə sintez etdiyi başqa bir sahə asayişin qorunması, nizam-intizamın təmin edilməsi və respublikanın daxili sabitliyə qovuşdurulması ilə bağlıdır. Bu məqam həm də ona görə ciddi əhəmiyyət kəsb edir ki, asayişin təmini, ciddi intizam, möhkəm sabitlik tarixən dövlətçilik ənənəsinin mühüm sütunlarından biri olub. Heydər Əliyev bütün bunları sovet rejimi kimi yad bir siyasi mühitdə yüksək istedadla təmin etmişdi. Bunun üçün hüquq-mühafizə orqanları və ideologiya sistemi üçün milli kadrlar hazırlayıb yetişdirmiş və onların məqsədyönlü şəkildə yerləşdirilməsini, səmərəli fəaliyyətini formalaşdırmışdı.

Təcrübə göstərir ki, bu addımı ilə Heydər Əliyev faktiki olaraq sonrakı müstəqillik mərhələsində asayiş və sabitliyin təmin edilməsi üçün real baza hazırlayıb. Bununla hətta sovet dövründə belə, Azərbaycan dövlətçilik ənənəsinin vacib prinsiplərindən birini yaşatmış və möhkəmləndirmişdi. Həqiqətən, bu, heyrətedici liderlik istedadıdır! Bu addımlar Lider kimi taktiki və strateji məqamları konkret zaman-məkan çərçivəsində ümummilli maraqlara xidmət etməyə yönləndirən və bütün nəzarət sistemini "yarıb keçən" əsl siyasi liderlik xəttidir. Çünki siyasi sabitlik olmadan, anarxiya şəraitində böyük inkişafa nail olmaq qeyri-mümkündür.

Nəhayət, sovet dövründə Heydər Əliyevin Ümummilli Liderliyini təsdiq edən faktor iqtisadi sferada aparılan işlər oldu. Heydər Əliyev Azərbaycanın sosial, mədəni və iqtisadi cəhətdən lazımi səviyyədə inkişaf edə bilməyəcəyi fikrini mərkəzə sırımağa çalışanların qarşısını həm də ölkədə güclü iqtisadiyyat yaratmaqla kəsmişdi. Respublikaya rəhbərlik etdiyi müddətdə Azərbaycan 12 dəfə Keçici Bayraq almış, çoxlu sayda zavod və fabrikin inşasına nail olmuşdur. Respublikada hərtərəfli inkişaf etmiş sosial-iqtisadi infrastruktur yaranmışdı.

Bununla görkəmli dövlət xadimi Heydər Əliyev həm SSRİ-nin mərkəzi hökumətinə, həm Azərbaycanın düşmənlərinə, həm də bütün dünyaya sübut etdi ki, Azərbaycan SSR respublika kimi var olmağa və inkişaf etməyə qadirdir! Bu, Heydər Əliyevin siyasi lider və dahi rəhbər kimi tarixdə ən böyük qələbələrindən biri idi. Bu mənada, Heydər Əliyevin Azərbaycanı ilk xilas etməsi sovet dövründə oldu. Yəni XX əsrin 80-ci illərinə Heydər Əliyev artıq SSRİ-nin rəhbərlərindən biri olmaqla yanaşı, həm də Azərbaycanın xilaskar Ümummilli Lideri kimi qədəm qoymuşdu.

Müasir siyasi nəzəriyyəçilər yazırlar ki, Ümummilli Liderləri böhran yetişdirir. Onlar xalq, millət və bütövlükdə, cəmiyyətin böyük və kəskin dönüş zamanlarında, miqyaslı dəyişiklik ərəfəsində, mövcud siyasi rejimin laxlaması və xaosun üstünlük təşkil etməyə başlaması şəraitində meydana çıxırlar. Daha doğrusu, əgər xalq və cəmiyyət buna qadirdirsə, onda öz içərisindən belə bir Lideri ortaya çıxara bilir. Heydər Əliyev nümunəsində XX əsrdə xalqın və ölkənin ən çətin dövründə dövlət başçısı ikinci dəfə özünün liderlik istedadını isbat etmişdir.

Məlumdur ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir əsrdə ikinci dəfə məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Həmin dövrdə ölkəyə səriştəsiz adamların rəhbərlik etməsi və düşmənin respublikamızın ərazi bütövlüyünə davamlı təcavüzü, bütövlükdə, xalqımızı "ölüm-qalım" faktı qarşısında qoymuşdu. Məhz belə çətin məqamda tale ikinci dəfə Heydər Əliyevə lider-xilaskar rolunu həyata keçirmək üçün imkan yaratmışdır. Xalqın tələbi və dəstəyi ilə 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyev faktiki olaraq xilaskar lider missiyasını həyata keçirmişdir.

Heydər Əliyev qısa müddətdə bu çətin tarixi mərhələdə də siyasi liderliklə Ümummilli Liderliyin və dövlət rəhbərliyi ilə ümummilli maraqların sintezini yarada bilən şəxsiyyət olduğunu sübut etmişdir. O, əvvəlcə Ermənistanın işğalçılıq siyasətini atəşkəs diplomatiyası ilə dayandırmışdır. Sonra daxili sabitlik təmin edilmişdir. Heydər Əliyev paralel olaraq elə bir geosiyasi gediş etmişdir ki, ən böyük rəqiblər belə, çaşbaş qalmışdır. Heydər Əliyev mürəkkəb şəraitdə "Əsrin müqaviləsi"ni nəinki imzalamış, hətta qonşu Gürcüstanı geosiyasi baxımdan güzəştli addımlarla himayə etmişdir. Nəticədə, tarixi Bakı-Tbilisi-Ceyhan layihəsi reallaşmış, Gürcüstan bu tarixi dəyişdirən prosesdə tamhüquqlu ölkə kimi iştirak etmək imkanı qazanmışdır. Beləliklə, həm də Ermənistanın regionda təklənməsi siyasəti həyata keçirilmişdir. Azərbaycan isə daha geniş miqyasda qələbə əldə etmişdi. Heydər Əliyev düşünülmüş seçimi ilə sübut etmişdi ki, Azərbaycan Respublikası müstəqil dövlət kimi nəinki mövcud olmaq və hətta inkişaf etmək potensialına malikdir. Bu mesajı Kremldə ilk dəyərləndirənlərdən biri Rusiya Federasiyasının lideri Vladimir Putin oldu. Rusiyanın Prezidenti hakimiyyətə gələn kimi Azərbaycanı müstəqil dövlət olaraq tərəfdaş ölkə kimi qəbul etdi və əməkdaşlığa yaşıl işıq yandırdı. Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəllə etibarlı münasibətləri və qarşılıqlı əlaqələri də müstəqillik dövrünün çətinliklərinin aradan qaldırılmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, Heydər Əliyevin dünya miqyaslı lider kimi beynəlxalq aləmdə böyük nüfuza malik olması Azərbaycanı müstəqillik illərinin başlanğıcındakı böyük bəlalardan xilas etmiş, ölkənin yeni inkişafına mühüm stimul vermişdir. Nəticədə, Azərbaycan müstəqil dövlət kimi XX əsrin 90-cı illərinin ikinci yarısına artıq özünü təsdiq etmiş ölkə kimi qədəm qoymuşdur. Bu, Heydər Əliyevin ümummilli lider olmasını təcəssüm etdirən konkret faktdır. Bundan sonra dünyanın böyük siyasi liderləri Heydər Əliyevə Azərbaycanın Ümummilli Lideri kimi xüsusi ehtiramla yanaşdılar.

Bu prosesə Ulu Öndərin beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də etdiyi tarixi çıxışlar da sürətli təkan verdi. Heydər Əliyev XX əsr Azərbaycan dövlətçiliyi tarixində ilk dövlət başçısı və siyasi lider idi ki, beynəlxalq miqyaslı yüksək tribunadan dövlətin daxili və xarici siyasətinin prioritetlərini açıq surətdə təqdim edirdi. Bu baxımdan Heydər Əliyevin BMT-nin 49-cu sessiyasında (1994-cü il) və bu təşkilatın 50 illiyinə həsr edilmiş xüsusi toplantısında (1995-ci il) Azərbaycan dövlətçiliyi ilə əlaqədar, daxili və xarici siyasəti ilə bağlı irəli sürdüyü siyasi tezislərlə yanaşı, dünya siyasəti haqqında da çox dəyərli və strateji xarakterli fikirlər ifadə etməsi, fövqəlgücləri bəşəriyyətin təhlükəsizliyi və inkişafı üçün məsuliyyət daşımağa dəvət etməsi böyük uzaqgörənlik və cəsarət tələb edirdi.

Bunlarla yanaşı, Heydər Əliyevin liderlik istedadı müstəqillik mərhələsində onun cəmiyyəti birləşdirə bilən ideoloji sistem hazırlayıb həyata keçirməsi ilə əlaqəlidir. Bu uzaqgörən sistem Azərbaycançılıq təlimi idi. Heydər Əliyev yeganə siyasətçidir ki, Azərbaycançılığı romantik-bədii ideyalar sferasında da ciddi siyasi-ideoloji sistemə çevirə bilmiş, ona konkret məzmun vermişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycançılığı ölkənin parçalanmasının qarşısının alınmasına, dövlətçiliyin müasir tələblərə uyğun inkişaf etdirilməsinə, cəmiyyətdə möhkəm və etibarlı birliyin yaranmasına, fərqli mədəniyyətlərlə ünsiyyətin gücləndirilməsinə və müstəqil dövlət quruculuğunun davamlı olaraq aparılmasına xidmət edən konsepsiya kimi meydana qoymuş və dönmədən həyata keçirmişdir.

Ardı 4-cü səhifədə

Bununla Heydər Əliyev müstəqillik mərhələsində Ümummilli Liderliyin xilasedici, nizamlayıcı və qurucu aspektlərinin vəhdətinə nail olmuşdur. Dahi rəhbər bu yolla Azərbaycanda müasir mərhələdə yeni liderlik ənənəsinin əsasını qoymuşdur. Görkəmli dövlət xadiminin siyasi mühitdə tətbiq etdiyi Azərbaycan dili, Azərbaycan xalqı, Dünya Azərbaycanlıları və Azərbaycançılıq ideologiyası geniş mənada dövlət siyasəti kimi müəyyən edilmiş Azərbaycançılıq təliminin Heydər Əliyev modelinin dayaqlarıdır.

Bütün bunların fonunda Heydər Əliyevin lider və dövlət başçısı kimi böyük xidmətləri sırasında siyasi varisliyi yüksək səviyyədə təmin etməsinə ayrıca toxunmaq lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi dünya və ölkə miqyaslı siyasi lider kimi yetişdirməklə Heydər Əliyev Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısında misilsiz tarixi xidmət göstərmişdir.

Bir sıra tanınmış siyasi nəzəriyyəçilər belə hesab edirlər ki, ümummilli liderlər ancaq fəaliyyətləri müddətində deyil, həm də özündən sonrakı dövr üçün liderlik məktəbini yarada bilən şəxsiyyətlərdir. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi müddətdə sübut etdi ki, o, Heydər Əliyev məktəbini yüksək səviyyədə mənimsəmiş və yeni tarixi epoxanın irəli sürdüyü çağırışları qabaqlamış, mühüm strateji zəkaya və praktik səmərəli fəaliyyət metodlarına malik olan dünya miqyasında yenitipli liderdir.

İlham Əliyev XXI əsrdə Azərbaycanı yüksək inkişaf etmiş müstəqil dövlətlər sırasına çıxarmağa tam qadir olan əsl liderdir. Bununla da Ulu Öndərin sovet dövründə Azərbaycanı ölkə kimi, XX əsrin 90-cı illərində isə respublikamızı müstəqil dövlət kimi xilas etməsi prosesi Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla və qətiyyətlə həyata keçirilmişdir. Bu tarixi mərhələdə İlham Əliyev işğalçı Ermənistan üzərində savaşı qazanaraq sübut etdi ki, Azərbaycan nəinki müstəqil dövlət kimi inkişaf etməyə qadirdir, o həm də regionun aparıcı dövləti və qalib lideri olmaq qüdrətindədir.

Bu gün Prezident İlham Əliyevin sayəsində Azərbaycan Respublikası regionun lideri kimi dünya səviyyəsində aktiv fəaliyyət göstərmək imkanına sahib olan qalib dövlətdir. Bu çoxcəhətli fəaliyyət böyük iqtisadi inkişafı, milli mədəniyyəti, multikulturalizmi, enerji layihələrini, sivilizasiyalar, mədəniyyətlər və dinlərarası münasibətlərin təşkilini, regionda balansı saxlaya biləcək hərbi qüdrəti təmin etmək məsələlərini əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın çoxəsrlik tarixi salnaməsinə Zəfər günü həqiqətlərini yazmaqla bərabər, həm də ölkəmizi bütün sahələr üzrə irəli aparmağı bacaran, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli lider kimi qəbul olunur. Möhtərəm Prezidentin qətiyyətlə həyata keçirməyə başladığı Böyük Qayıdış proqramı həm Qarabağın, həm də geniş mənada Azərbaycanın yeni sabahlarını aydın surətdə təsəvvür etməyə imkan verir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün dünyanın söz sahibi olan əsl liderlərindən biri kimi qəbul edilir.

Göründüyü kimi, müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin mükəmməl dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində özünün əsas siyasi-ideoloji və iqtisadi dayaqlarını qurub möhkəmləndirmişdir. Prezident İlham Əliyevin liderliyi ölkəmizi müasir dövrün yeni tarixi inkişaf mərhələsinə çatdırmışdır. Bu gün Prezident İlham Əliyevin simasında müstəqil Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Əməkdaşlıq Şurasında, Ümumdünya Səhiyyə Təşkilatında, digər mötəbər beynəlxalq qurumlarda tutduğu mövqe, qazandığı böyük nüfuz yalnız superdövlətlərlə müqayisə oluna bilər.

Bütün bunlar göstərir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir dünyanın güclü dövlət liderlərindən biridir. Azərbaycan Respublikası Prezident İlham Əliyevin liderliyi ilə böyük sabahlara doğru inamla addımlamaqda davam edir.

**Seymur TALIBOV**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent***

***"Azərbaycan" qəzeti 4 iyun 2021-ci il***

## YAP NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ ƏRAZİ İLK PARTİYA TƏŞKİLATININ TƏŞƏBBÜSÜ İLƏ KƏNGƏRLİ RAYON MƏDƏNİYYƏT EVİNDƏ 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜ QEYD OLUNUB

Yeni Azərbaycan Partiyası Kəngərli rayon təşkilatı və Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti Ərazi İlk Partiya Təşkilatının təşəbbüsü ilə Kəngərli rayon Mədəniyyət Evində "Milli Qurtuluş Günü Azərbaycanın taleyini dəyişən Zəfər tarixi" mövzusunda tədbir keçirilib.

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin büstü ziyarət edilib.



Yeni Azərbaycan Partiyası Kəngərli rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, hər il respublikamızda iyunun 15-i Milli Qurtuluş Günü kimi qeyd olunur. Bildirilib ki, cəmiyyətin bütün təbəqələrinin nümayəndələri müasir Azərbaycanda sabitliyin, iqtisadi inkişafın, sosial rifahın, milli həmrəyliyin əsasının qoyulduğu Qurtuluş Gününü fərəh və məmnunluq, həmçinin minnətdarlıq hissi ilə qeyd edir. Bütün bunlar dahi rəhbər Heydər Əliyevin Azərbaycan xalqına miras qoyduğu ərməğandır.

Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi Ərazi İlk Partiya Təşkilatının sədri Arzu Abdullayev Ulu Öndərin tarixi misiyasından danışaraq bildirib ki, Azərbaycan müasir tarixinin bir qərinədən artıq mərhələsi müdrik dövlət xadimi umummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu günbəgün artır.

Sonra universitetin "Azərbaycan tarixi" kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Zəhmət Şahverdiyevin "Milli Qurtuluş Günü-Azərbaycan Dövlətçiliyinin xilas günüdür" mövzusunda məruzəsi dinlənilib. Diqqətə çatdırılıb ki, Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın çağırışına səs verərək Bakıya qayıtması, Azərbaycanı parçalamaqdan, dövlətçiliyi məhv olmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən qurtardı. Qeyd olunub ki, bu gün müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf edir.

Sonra tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli rayon təşkilatının gənc əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Tədbirdə eyni zamanda 15 iyun Milli Qurtuluş günü ilə əlaqədar universitet tələbələrinin bədii kompozisiyası və Kəngərli rayon məktəblilərinin hazırladığı bədii qiraət nümayiş edilib.

Sonda Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən film izlənilib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



## FRANSA RESPUBLİKASININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLUB

Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Zakari Qross Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.

İkitərəfli görüşdə universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnunluğunu ifadə edib. Rektor ali təhsil ocağının tarixi, kadr potensialı və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Bildirilib ki, ali təhsil ocağında 63 ixtisas üzrə bakalavr, 76 ixtisaslaşma üzrə magistr, 60 ixtisas üzrə doktorant, 24 ixtisas üzrə isə rezident hazırlığı həyata keçirilir. Rektor qeyd edib ki, ali təhsil ocağı əcnəbi tələbələrin sayına görə ölkə universitetləri arasında öncüllüyünü qoruyur. Vurğulanıb ki, 1998-ci ildən etibarən universitetdə "Fransız dili müəllimliyi" ixtisası üzrə kadr hazırlığı həyata keçirilir və indiyə kimi ixtisasın 242 məzunu olub. Rektor hər il ali təhsil ocağında qeyd olunan Frankafoniya bayramından danışıb. Mütəxəssis hazırlığı istiqamətləri, tədrisin və elmi fəaliyyətin məzmununun təkmilləşdirilməsi sahəsində həyata keçirilən islahatlar və qarşıya qoyulan strateji hədəflər barədə danışan Elbrus İsayev sürətlə modernləşən ali təhsil ocağının beynəlxalq əməkdaşlıq üzrə prioritetlərini diqqətə çatdırıb.

Universitetdə olmaqdan məmnunluğunu bildirən səfir Zakari Qross Azərbaycanla Fransa arasında ikitərəfli əməkdaşlıqda təhsil sahəsinin önəmli yer tutduğunu bildirib. Fransız-Azərbaycan Universitetinin (UFAZ) uğurlu fəaliyyətini vurğulayan diplomat Fransada ali təhsil imkanları, ingilis dilində təqdim edilən proqramların davamlı artması və xarici vətəndaşlar üçün təqaüd imkanları haqqında danışıb. Vurğulanıb ki, 2014-cü ildə Azərbaycan və Fransa Prezidentlərinin təşəbbüsü ilə yaradılan və uğurla davam edən Fransız-Azərbaycan Universiteti (UFAZ) 2016-cı ilin sentyabr ayından etibarən fəaliyyət göstərir və bu universitetdə 4 texniki ixtisas üzrə tələbə qəbulu həyata keçirilir.

Görüşdə fransız dilinin tədrisi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Hərtərəfli diqqətə görə minnətdarlıq bildirən səfir universitetin xatirə kitabına ürək sözlərini yazıb.

Sonra ali təhsil ocağının Xarici dillər fakültəsində fəaliyyət göstərən "Fransız dili" mərkəzində olan qonaqlara məlumat verilib ki, mərkəzdə tələbələrlə dərsdən kənar məşğələlər, diskussiyalar, tədbirlər keçirilir. Diqqətə çatdırılıb ki, dil mərkəzi bədii əsərlər, professor-müəllim heyətinin elmi nailiyyətləri, dərs vəsaitləri ilə təchiz olunub. Müəllim və tələbələr istədikləri vaxt bu vəsaitlərdən həm tədris həm də elmi-tədqiqat üçün yararlana bilərlər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## UNİVERSİTETİN TƏRƏFDAŞ OLDUĞU ERASMUS+ LMQ SANTE LAYİHƏSİNİN NÖVBƏTİ ONLAYN KONFRANSI

Avropa Birliyinin Erasmus+ LMQ SANTE "Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistri" layihəsi çərçivəsində onlayn konfransı keçirilib. Səhiyyə maarifinin yüksəldilməsi, səhiyyə sisteminin inkişafı və ixtisaslı tibbi kadrların hazırlanması, onların tibbi bacarıqlarının inkişaf etdirilməsindən ibarət olan layihədə universitetin Tibb fakültəsinin müəllimləri də təmsil olunublar.




Avropa Birliyinin layihə üzrə baş koordinatoru Yunanıstan Qərbi Attika Universitetinin professoru Panos Yannakopoulos və fransalı konsultant professor Jan Noel Paşu, Avropa eksperti Katalin İlasku iştirakçıları layihə ilə bağlı ətraflı məlumatlandırıb.

Onlayn görüş zamanı layihə çərçivəsində həyata keçiriləcək işlər, hazırlananacaq sənədlər müzakirə olunub. Layihədə tərəfdaş ölkələrin ali təhsil ocaqlarının təhsil prosesini Avropa standartlarına və Tuninq metodologiyasına uyğun hazırlanması, ikili diplom və diploma əlavələrin verilməsi, səhiyyə sektorunda keyfiyyətin daha da yaxşılaşdırılması, ixtisaslı tibbi kadrların artırılması, tədrisdə innovativ metodların tətbiqi məsələləri geniş müzakirə olunub.

Görüşdə layihə ilə bağlı suallar da cavablandırılıb.



## "BEŞİNCİ BEYNƏLXALQ ASİYA MÜASİR ELMLƏR KONFRANSI"

Naxçıvan Dövlət Universitetində "Beşinci beynəlxalq Asiya müasir elmlər konfransı" keçirilib.

Əvvəlcə Azərbaycan və Türkiyə Respublikasının Dövlət himnləri səsləndirilib, sonra Naxçıvan Dövlət Universitetinin tanıtım videoçarxı nümayiş olunub. Naxçıvan Dövlət Universitetinin və İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun (İKSAD-ın) təşkilatçılığı ilə keçirilən onlayn konfransı giriş sözü ilə universitetin rektoru, dosent Elbrus İsayev açıb. Ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar, beynəlxalq əlaqələrin sürətlə genişləndirilməsi haqqında ətraflı məlumat verən rektor müxtəlif ölkələrin ali təhsil ocaqları ilə tələbə və müəllim mübadiləsinin həyata keçirildiyini bildirib. Qeyd edib ki, ali təhsil ocağı əcnəbi tələbələrin sayına görə ölkə universitetləri arasında öncüllüyünü qoruyur. Vurğulanıb ki, ali təhsil ocağında 10 ölkədən 1000-dən artıq əcnəbi tələbə təhsil alır. Türkiyə universitetləri ilə ikili diplom layihəsi mövcuddur.

Konfransda 33 ölkədən elm adamları tədqiqatlarla çıxış edib. İki gün davam edən konfrans 6 sessiya üzrə fəaliyyət göstərib. Konfransda 28 bölmə üzrə 272 məruzə dinlənilib. 500-ə yaxın tədqiqatçının iştirak etdiyi konfransda ali təhsil ocağının 26 əməkdaşı 22 mövzu ilə çıxış edib.

İKSAD-ın rəhbəri, dosent Mustafa Latif Emekin adından İKSAD-ın Azərbaycan təmsilçisi, Azərbaycan Pedaqoji Universitetinin müəllimi Əlvan Cəfərov çıxış edib. Naxçıvan Dövlət Universitetinə plaket təqdim olunub.

# “TƏHSİLDƏ RƏQƏMSALLAŞDIRMA: ELEKTRON TƏHSİL VƏ İNFORMASİYA CƏMİYYƏTİ” MÖVZUSUNDA ONLAYN RESPUBLİKA ELMİ KONFRANSI

Naxçıvan Dövlət Universitetində “Təhsildə rəqəmsallaşdırma: Elektron təhsil və informasiya cəmiyyəti” mövzusunda onlayn respublika elmi konfransı keçirilib.

Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, 2003-cü ildə qəbul edilmiş "Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)" Azərbaycan üçün məhz təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik istiqamət hesab edilib. Azərbaycanda təhsilin modernləşdirilməsi, təhsildə informasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm addımlar atıldığını diqqətə çəkən rektor muxtar respublikada bu sahədə görülən işlərdən, dövlətimizin təhsilin inkişafına göstərdiyi böyük qayğının nəticəsi olaraq ali təhsil ocağında İKT-nin uğurlu tətbiqindən danışıb. Vurğulanıb ki, universitetdə 2012-ci ildən hazırlıqlarına başlanılan “Naxçıvan Dövlət Universiteti üçün elekron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsi çərçivəsində 2015-ci ildən etibarən də İnformasiya-Kommunikasiya Texnologiyaları mərkəzi istifadəyə verilib. Tədris prosesində elektron vasitələrdən, informasiya texnologiyalarından istifadə edilməsinə tam nail omaq, distant təhsili həyata keçirmək, universitetlərdə keçirilən elektron test imtahanlarında edilən dəyişikliklər bu sahənin ciddi inkişafından xəbər verir. Vurğulanıb ki, ali təhsil ocağında “Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsinin icrası və elektron universitetin fəaliyyətə başlaması Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdən biri kimi tarixə düşüb. Elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə və s. kimi təhsilin idarəedilməsi modellərini özündə birləşdirən Elektron Universitet təhsilin elektron vasitələrlə həyata keçirilməsini, eyni zamanda elektron imtahanları da əhatə edir. Rektor vurğulayıb ki, universitetə qəbul olunmuş tələbələrə LMS sistemindən istifadə üçün istifadəçi adı və şifrəsi təqdim edilib, LMS sistemində dərslərin yerləşdirilməsi davam etdirilib, Memarlıq və mühəndislik fakültəsində “Elektron qeydiyyat jurnalı” fəaliyyətə başlayıb. Rektor bildirib ki, universitetin Media Mərkəzində hazırlanmış teledərslər mütəmadi olaraq universitet televiziyası vasitəsilə tələbələrə çatdırılıb.

Rektor diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2020-ci il dekabrın 14-də “Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında” Sərəncamına əsasən bu ilin iyun ayının 16 –da universitetdə Texnologiyalar Parkının təməlatma mərasimi keçirilib. Müasir dövrün tələbi olan bu layihənin əsas məqsədi dünya universitetləri sırasında öz yerini tutmaq və müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməkdir. Rektor layihənin gələcək perspektiv-



lərindən danışıb və konfransın işinə uğurlar arzulayıb.

“IV sənaye dövründə elektron təhsildə inqilablar: meyllər və perspektivlər” adlı çıxışında AMEA İnformasiya Texnologiyaları İnstitutunun Şöbə müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Firudin Ağayev bildirib ki, təhsildə 4.0 texnologiyası smart, virtual və rəqəmsal bir inqilabdır. Vurğulanıb ki, bu müasir texnologiya tədris üçün ən yaxşı metod və üsullar təqdim edir və bu metodları modernləşdirərkən bir çox prosesi avtomatlaşdıraraq inzibati yükü azaldır. Firudin Ağayev elektron tədris sahəsində əsas anlayışlar, elektron təhsil standartlarına qoyulan tələblər, Big Datanın təhsildə rolundan danışıb.

Naxçıvan Dövlət Universiteti, Memarlıq və mühəndislik fakültəsinin dekanı, riyaziyyat elmləri doktoru, professor Cavanşir Zeynalov “Tədris robotları” adlı çıxışında bildirib ki, fakültədə bir ilə yaxındır ki, Robototexnika kabinəsi yaradılıb. Bildirilib ki, müasir avadanlıqlarla təmin olunan kabinədə tələbələr həm tədris planına uyğun dərslər keçir, həm də sərbəst işlərini layihələr haqqında təqdim edirlər. Diqqətə çatdırılıb ki, fakültədə Robototexnika, Süni intellekt, Mexatronika, Kodlaşdırma , Qeyri səlis məntiq nəzəriyyəsi və s. kimi müasir tələblərə cavab verə biləcək fənlər tədris olunur. Robotların növləri haqda danışan professor tədris prosesində robotların mühüm rolu, Robotoexnika elmi üçün vacib olan elmlər haqda məlumat verib. “Elektronika və informasiya texnologiyaları” kafedrasında tələbələrin hazırladıqları ağıllı ev, ağıllı şkaf, ödənişli zibil qutusu layihələri haqda məlumat verilib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Gülşən Hacıyeva Onlayn tədris modelində universitetlərarası müştərək dərslərin və maarifləndirici tədbirlərin biologiya üzrə müəllim kadrlarının hazırlanmasında mühüm əhəmiyyətindən danışıb.

Naxçıvan Dövlət Universiteti İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli “Təhsilin keyfiyyətinə İKT-nin təsiri” adlı çıxışında universitetdə elektron təhsil sistemindən, LMS (Örənmənin idarəolunması sistemi) haqda ətraflı məlumat verib.

Konfrans “Distant təhsil”, “İKT və təhsil”, “İnnovasiya və təhsil”, “Elm və təhsil”, “Yenilikçi tədris metodları” adlı 5 bölmə iclasları ilə davam edib. Qeyd edək ki, bölmələrdə 60 tədqiqatçı 48 mövzu ilə çıxış edib.





# “BEYNƏLXALQ DUZDAĞ ARAŞDIRMALARI” KONQRESİ

Plenar iclası giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun və Duzdağın böyük əhəmiyyəti olub. Bildirilib ki, Naxçıvanın simvollarından biri hesab edilən, təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağ qədim diyarımızda ilkin şəhər mədəniyyətinin formalaşmasında böyük rol oynayıb. Ölkəmizdə təkcə saf və təmiz duzuna görə deyil, həm də şəfaverici xüsusiyyətinə görə tanınan bu dağdan hələ min illər əvvəl, Nuh Peyğəmbər dövründən duz çıxarılıb, Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə duz yolu vasitəsilə bu



nemət daşınıb. Vurğulanıb ki, Naxçıvanın tarixində Duzdağın və duzun oynadığı mühüm rol nəzərə alınaraq aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, arxeoloji tədqiqatlar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyi yaradılıb. Rektor bugünkü mövzunun aktuallığından danışaraq gələcəkdə doktorant və dissertantların bu istiqamətdə aparacaqları elmi tədqiqat işlərinin vacibliyindən danışıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, Naxçıvan tarixini tədqiq etmək üçün, ilk növbədə, Naxçıvan duzunun tarixini öyrənmək lazımdır. Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun, Duzdağın böyük əhəmiyyəti olduğunu diqqətə çəkən akademik vurğulayıb ki, Duzdağ olmadan Naxçıvanı öyrənmək, iqtisadi, mədəni hətta ictimai-siyasi qiymət vermək çox çətindir. Bildirilib ki, Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə aparılan arxeoloji tədqiqatların davamı kimi “Uluslararası qaynaqlarda Naxçıvan”, “Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan”, “Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi”, “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzularında keçirilən beynəlxalq elmi simpozium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti bir daha elmi əsaslarla təsdiqini tapıb, xarici mütəxəssislərin də iştirakı ilə Naxçıvan Duzdağı haqqında elmi materiallar hazırlanıb, kitablar nəşr olunub. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyi keçirilib, “Naxçıvan Duzdağı” adlı yeni, nəfis şəkildə nəşr olunan elmi kitab işıq üzü görüb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Naxçıvana həmişə böyük maraq olub, Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılıb, bizim eradan əvvəl V-III minilliklərə aid maddi-mədəniyyət nümunələri aşkar edilib, tarixi əhəmiyyət daşıyan nəticələr əldə olunub. Müəyyən edilib ki, Naxçıvan Duzdağı dünyanın ən qədim duz mədənidir. Burada duz mədən üsulu ilə eramızdan əvvəl V minillikdən çıxarılmağa başlanılıb. Akademik qeyd edib ki, bir neçə min il bundan əvvəl Duzdağın insanlara məlum olması, duzun çıxarılması, istifadəsi, daşınması, satışı Naxçıvanda yaşayış məskənlərinin genişlənməsinə və şəhərləşmə işinin inkişafına təkan verib. Duzdağ Naxçıvanda şəhərtipli mədəniyyətin əsasında dayanan ən mühüm amil olub.

İğdır Universitetinin rektoru, professor Mehmet Hakkı Alma dünyada ən çox duz istehsal edən ölkələrin adlarını sadalayıb. Vurğulanıb ki, Türkiyənin Çankırı Duz Mağarası Türkiyənin ən çox qaya duzu çıxarıldığı bölgələrdəndir. Eyni zamanda bu duz mağarasının muxtar respublikada olan Duzdağı ilə bərabər tənəffüs yolu xəstəliklərinin müalicəsində mühüm əhəmiyyətə malik olduğu vurğulanıb. Qardaş ölkənin rektoru birgə konfransların önəmini diqqətə çəkib, ortaq elmi tədqiqatların, akademik elmi araşdırmaların əhəmiyyətindən danışıb.

AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əlövsət Quliyev bildirib ki, diyarımızın qədim tarixini və mədəni potensialını özündə cəmləşdirən Duzdağ həm də özünün şəfaverici xüsusiyyətinə görə tanınır. 1979-cu ildə yaradılan Duzdağ Fizioterapiya Mərkəzində hazırda bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Vurğulanıb ki, son illərdə muxtar respublikamıza gələn yerli və xarici turistlərin ən çox ziyarət etdikləri ünvanlardan biri olan Duzdağı, hətta müalicə səbəbi olmadan gəlib-görmək istəyənlərin də sayı çoxalıb.

Konqres “Duzdağın kimyası və müalicəvi əhəmiyyəti, “Sosial, iqtisadi və mədəni təsirdə Duzdağ”, “Duzdağ və ətrafının florası” adlı 3 bölmədə davam edib.

**Səadət Əliyeva**
*Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri*

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ TƏLƏBƏLƏRİ ARASINDA I STARTAP MÜSABİQƏSİ

Naxçıvan Dövlət Universiteti tələbələri arasında I Startap müsabiqəsi keçirilib. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev startap layihələrinin əhəmiyyətindən danışaraq qeyd edib ki, bu layihələrin məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır. Bildirilib ki, belə müsabiqələrin həyata keçirilməsi nəticəsində tələbə komandaları azad sahibkarlığın prinsiplərini öyrənir,




öz ideyalarını təcrübədə tətbiq edir və əldə etdikləri bilikləri digərləri ilə bölüşürlər. Vurğulanıb ki, universitetdə yeni təməli atılan texnoparkda “Startap” mərkəzinin yaradılması bu müsabiqələrin aktuallığını daha da artırır.

İnformasiya - kommunikasiya texnologiyaları və Elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli qeyd edib ki, startap hərəkatının fəal iştirakçısına çevrilən ali təhsil ocağında yeni texnologiyaları yaxından izləyən və tətbiq edən bir mühit vardır. Belə müsabiqələrin keçirilməsinin tələbələrin muxtar respublikada innovasiyayönümlü iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, I startap müsabiqəsində ndu.edu.az internet saytı üzərindən ideya bankına göndərilən 15 layihədən 10-u seçilərək final turuna vəsiqə qazanıb.

Muxtar respublika üzrə startap müsabiqəsinin qalibi, “İqtisadiyyat” ixtisası üzrə IV kurs tələbəsi Kamil Hüseynli müəllifi olduğu “Vita Blok” startap layihəsi barədə məlumat verib.

Sonra müsabiqənin final turu keçirilib. “Ağıllı bitki”, “Ağıllı ölçü cihazı”, “Ağıllı şkaf”, “Easy buy”, “Sensorla idarə olunan təmizlik qutusu”, “Naxçıvan 360 dərəcə veb saytı və mobil tətbiqi”, “Buy-sell” və bir neçə layihələr nümayiş etdirilib.

Münsiflər heyətinin qərarına əsasən, universitetin “Memarlıq və mühəndislik” fakültəsinin “İnformasiya texnologiyaları” ixtisası üzrə III kurs tələbələri “Ağıllı bitki” layihəsi ilə müsabiqənin qalibi olublar. “Easy buy” layihəsi üzrə “İqtisadiyyat və idarəetmə” fakültəsinin tələbələri II, “Buy-sell” layihəsi üzrə “Memarlıq və mühəndislik” fakültəsinin “İnformasiya texnologiyaları” ixtisası üzrə III kurs tələbələri III olublar.

Qalib komandalar sertifikat, kubok və pul mükafatı ilə təltif edilib.

Qeyd edək ki, layihələr finala hazırlanarkən tələbələrə peşəkar mütəxəssislər tərəfindən maarifləndirici seminar-treninqlər keçirilib.

**Sevda Qənbərova**
*“Jurnalistika” ixtisası üzrə I kurs tələbəsi*

# MAGİSTRANTLARIN XII REGİONAL ELMİ KONFRANSI

Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Universiteti magistrantlarının birgə konfransı keçirilib. Tədbiri giriş sözüylə universitetin rektoru Elbrus İsayev açaraq bildirib ki, muxtar respublikada yerləşən ali təhsil müəssisələrinin magistrantlarının elmi konfraslarının təşkili artıq ənənə halını alıb. İxtisaslı kadrların hazırlanmasında magistr pilləsinin mühüm əhəmiyyətindən danışan rektor bu gün universitetin magistraturasını bitirən məzunların muxtar respublikanın təhsil sahəsinə mühüm töhfələr verdiyini vurğulayıb. Qeyd edilib ki, muxtar respublikada təhsilə göstərilən yüksək qayğı təhsilverənlərin və təhsilalanların qarşısına çox böyük məsuliyyət qoyur. Belə ki, tələbələr müasir tədris metodları ilə yanaşı geniş imkanlara malik maddi-texniki bazası olan ali təhsil müəssisələrində həm nəzəri biliklərə, həm də təcrübi bazaya malik olur, gənclər daha çevik, innovativ metodlarla işləməyi öyrənirlər. Vurğulanıb ki, elmə, təhsilə göstərilən diqqət və qayğının nəticəsidir ki, cəmiyyətdə savadlı, bilikli, öz fəaliyyəti ilə doğma diyarımıza töhfə verən gənclər yetişməkdədir. Ali təhsil ocağında magistr hazırlığı sahəsində görülən işlərdən danışan rektor magistrantların hazırlanması sahəsində ciddi işlərin həyata keçirildiyini diqqətə çəkib. Qeyd olunub ki, universitetdə növbəti tədris ilindən magistr dissertasiyalarının xüsusi proqram vasitəsilə yoxlanılması həyata keçiriləcək. Bildirilib ki, hal hazırda universitetin Magistratura təhsil səviyyəsində I kurslarda 64 ixtisaslaşma üzrə 204 nəfər, II kurslarda isə 47 ixtisaslaşma üzrə 144 magistrant təhsil alır. Qeyd olunub ki, bu il kecirilən magistraturaya qəbulun nəticələrinə görə bakalavr mərhələsini bitirən məzunların 187 nəfəri imtahanda iştirak edib, bunlardan 158 nəfəri müsabiqə şərtlərini ödəyiblər.



Rektor universitetdə yaradılması nəzərdə tutulan Texnologiyalar Parkının da magistraturada təhsil alan tələbələrin öz bacarıqlarını nümayiş etdirmələri baxımından mühüm əhəmiyyət kəsb edəcəyini vurğulayıb. Eyni zamanda bildirilib ki, tələbələr gələcəkdə Texnopark vasitəsilə beynəlxalq şirkətlərlə də əməkdaşlıq etmək imkanı qazanacaq.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək ali təhsil sistemində magistr pilləsinin əhəmiyyətindən danışaraq bildirib ki, əvvəlki dövrlərlə müqayisədə müasir tədris proqramına uyğun keçirilən dərslər tələbələrin ixtisaslı kadr kimi yetişməsinə xidmət edir. Qeyd olunub ki, muxtar respublikanın dərindən tədqiq edilərək öyrənilməsi məqsədilə yaradılan akademiyada elmi-tədqiqat işlərinin həyata keçirilməsi uğurla davam etdirilir. İsmayıl Hacıyev elmi-tədqiqat işlərinin daha da geniş vüsət alması üçün magistratura təhsilini başa vuran məzunların akademiyada fəaliyyət göstərməyi üçün yaradılan şəraitdən danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov muxtar respublikada elmə, təhsilə göstərilən böyük dövlət qayğısından danışıb. Bildirilib ki, konfransların keçirilməsi tələbələrin elmi-tədqiqat işlərinin qiymətləndirilməsi baxımından xüsusi rola malikdir. Bu gün dünyanın nüfuzlu platformalarında tarixi faktalara əsaslanan məqalələrin yer alması bu sahədə ixtisaslı kadrlara olan tələbatı daha da artırır. Azad Novruzov rəhbərlik etdiyi ali təhsil ocağında 5 pedoqoji ixtisas üzrə magistr hazırlığının aparılmasından danışıb.

"Naxçıvan" Universitetinin rektoru Nurlana Əliyeva bildirib ki, təhsilin və elmin qarşısında duran əsas vəzifə yüksək ixtisaslı kadrların hazırlanmasıdır. Qeyd edilib ki, universitetdə 8 ixtisas üzrə magistr hazırlığı həyata keçirilir. Hər üç ali təhsil müəssisəsinin birgə qatıldığı konfransın əhəmiyyəti vurğulanıb.

Naxçıvan Dövlət Universitetinin magistrantı Lalə Rzayevanın "Magistr təhsilinin tarixi və müasir dövrdə əhəmiyyəti" mövzusunda çıxışı dinlənilib.

Sonda Naxçıvan Dövlət Universitetində I kurs magistrantların müxtəlif musiqi alətlərində ifaları təqdim edilib.

Qeyd edək ki, Magistrantların XII regional konfransında Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, "Naxçıvan" Universitetinin, İqtisad Universitetinin, "Azərbaycan" Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin və AMEA Botanika İnstitutunun magistrantları 12 bölmədə 208 məqalə ilə məruzə ediblər.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# TEC XƏTTİ İLƏ YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNDƏ FƏRQLƏNƏN TƏLƏBƏLƏR MÜKAFATLANDIRILIB

Naxçıvan Dövlət Universitetində 2020-2021-ci tədris ilində Tələbə Elmi Cəmiyyətinin xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekun konfransı keçirilib. Tədbirdə TEC-in fəaliyyətini özündə əks etdirən videoçarx nümayiş olunub. Tədbiri giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, TEC-nin əsas məqsədi ali təhsilli mütəxəssislərin hazırlanması keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi, tələbələrin elmi-texniki potensialının qorunub saxlanılması, magistr və bakalavr tələbələrin elmi tədqiqat fəaliyyətini müasir şəraitə uyğun təşkil etməkdir. Bildirilib ki, cəmiyyətin işi tələbələrə elmi eksperiment aparmaq və alınmış nəticələri təhlil etmək, yerinə yetirilmiş tədqiqatların nəticələrinə dair hesabat hazırlayaraq çıxış etmək və elmi diskussiya aparmaq bacarıqlarının aşılanmasına xidmət etməkdir. Rektor vurğulayıb ki, muxtar respublikada elmə, təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, TEC işində fəallıq nümayiş etdirənlər 30 iyun-2 iyul tarixlərində "Ağbulaq" istirahət Mərkəzində "Elm və innovasiya" düşərgəsində olacaq, asudə vaxtlarının səmərəli keçirəcəklər.



2020-2021-ci tədris ilində Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekunları barədə Tələbə Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırova bildirib ki, TEC-in başlıca vəzifəsi tələbələrdə elmə olan marağı və münasibəti müsbət istiqamətə yönləndirməkdən ibarətdir. Vurğulanıb ki, hər tədris ilində olduğu kimi cari tədris ilində də təşkilatın iş planının tərtib olunması və tələbələrlə əlaqələrin gücləndirilməsi kimi məsələlərin həllinə baxılıb, fakültələr üzrə cəmiyyətin sədrləri tələbələrlə xüsusi iş aparıb. Qeyd edilib ki, bu tədris ilində 437 müəllim elmi-tədqiqat işlərinə rəhbərlik edib, 571 tələbə 570 mövzu üzrə məşğul olub.

Tədbirdə TEC xətti ilə ən yaxşı elmi-tədqiqat işləri yerinə yetirən kafedralar kimi qeyd olunan "Biologiya" kafedrasının müdiri, biologiya üzrə elmlər doktoru, dosent Daşqın Qənbərov, "Ümumi təbabət və kliniki fənlər" kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Gültəkin Əliyeva kafedralarında yerinə yetirilən elmi-tədqiqat işləri barədə danışıb.

Universitet üzrə TEC xətti ilə ən yaxşı elmi-tədqiqat işini yerinə yetirən "Müalicə işi" ixtisası üzrə IV kurs tələbəsi Çinarə Orucova yazdığı elmi-tədqiqat işinə I yerə layiq görülüb. "Marketinq" ixtisası üzrə I kurs tələbəsi Elsun Cəfərov, "Fortepiano ifaçılığı" ixtisası üzrə IV kurs tələbəsi Xanım Əsgərova II, Stomatologiya ixtisası üzrə IV kurs tələbəsi Fərid Cəfərli, "Biologiya müəllimliyi" ixtisası üzrə II kurs tələbəsi Arzu Sultanova isə III yeri bölüşüblər.

Sonra Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərində universitet üzrə seçilən tələbələrə plaket, fakültələr üzrə fərqlənən tələbələrə diplom, TEC-in ümumi işində seçilən tələbələrə isə təşəkkürnamə, təqdim edilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# JURNALİSTİKA İXTİSASININ TƏLƏBƏLƏRİ ÜÇÜN SEMİNAR

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar "Şərq qapısı" qəzetinin Naxçıvan Dövlət Universiteti ilə birgə hazırladığı, 2020-2021-ci tədris ili üçün nəzərdə tutulan Tədbirlər Planına əsasən silsilə tədbirlər həyata keçirilir. Həmin tədbirlərin davamı olaraq ali təhsil ocağında "Müasir dövrdə ənənəvi qəzetlərin və elektron nəşrlərin tərtibat prinsipləri" mövzusunda seminar keçirilib.



Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şiraliyeva açıb. Bildirib ki, muxtar respublikamızda kütləvi informasiya vasitələrinin inkişafına, ali təhsilli jurnalist kadrların hazırlanmasına dövlət qayğısının ifadəsi olaraq 2001-ci ildən universitetdə Jurnalistika ixtisası fəaliyyətə başlayıb, 2002-ci ildə "Jurnalistika və dünya ədəbiyyatı" kafedrası yaradılıb, 2005-ci ildən etibarən Mətbuat tarixi və Radiotelejurnalistika ixtisasları üzrə magistr hazırlığına başlanıb. Ötən dövrdə Jurnalistika ixtisasını 200-ə yaxın tələbə bitirib. Bu gün məzunlarımız ölkəmizdə, eləcə də muxtar respublikamızda müxtəlif kütləvi informasiya vasitələrində çalışırlar. 2011-ci ildə ali təhsil ocağının Media Mərkəzi fəaliyyətə başlayıb. 2006-cı ildə yaradılan tədrisyönümlü Universitet televiziyası Ali Məclis Sədrinin təşəbbüs və qayğısı ilə mart ayının ortalarından etibarən muxtar respublika miqyasında yayımlanır.

Çıxışda müvafiq Sərəncamdan irəli gələn vəzifələrin icrası, hami təşkilatların əməkdaşlarının Jurnalistika ixtisasının tələbələri ilə mütəmadi görüşlərinin keçirilməsi haqqında da məlumat verilib.

"Şərq qapısı" qəzetinin İqtisadiyyat və təhlil şöbəsinin müdiri Səbuhi Həsənov "Ənənəvi mətbuatla elektron medianın oxşar və fərqli cəhətləri" mövzusunda çıxışında informasiyanın insan cəmiyyətinin formalaşmasındakı əhəmiyyəti rolundan bəhs edib. Qeyd edilib ki, bu gün texnoloji inkişafla əlaqədar operativlik baxımından elektron media öndə olsa da, ənənəvi mətbuat öz tarixiliyini, jurnalistika ənənələrinə sadiqliyini, arxiv fondunu yenə də qoruyub saxlayıb.

"Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov "Ənənəvi medianın fəaliyyətinə qoyulan müasir tələblər" mövzusunda çıxış edərək bildirib ki, bu gün Naxçıvan mətbuatına böyük qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 1 iyun tarixli Sərəncamına əsasən bu mətbu orqanın 100 yaşının dövlət səviyyəsində qeyd edilməsi yaradılan şəraitin, mətbuata göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Muxtar respublika mətbuatının dövrün salnaməsini yaratdığını bildirən Muxtar Məmmədov gənc jurnalistləri qəzetlə fəal əməkdaşlığa dəvət edib, onların gələcəyin peşəkar jurnalisti kimi yetişə bilmələri üçün redaksiyada yaradılan hərtərəfli şəraitdən danışıb.

"Şərq qapısı" qəzetinin Xəbərlər, ictimai-siyasi məsələlər və kənar müəlliflərlə iş şöbəsinin əməkdaşı Güntac Şahməmmədli "Şərq qapısı" qəzetin elektron güzgüsü – www.serqqapisi.az saytının fəaliyyət prinsipləri" mövzusunda çıxış edərək vurğulayıb ki, qəzetin 2012-ci ildən etibarən www.serqqapisi.az saytı fəaliyyət göstərir. Sayt 2019-cu ildə yenilənib və bu il Ali Məclis Sədri tərəfindən yubileylə bağlı sərəncamla təsdiq olunan Tədbirlər Planına əsasən təkrar yenilənəcək. Azərbaycan, rus və ingilis dilləri olmaqla, 3 dildə informasiya yayan sayt vasitəsilə Naxçıvanla bağlı informasiya tələbatı operativ şəkildə ödənilir. Qəzetdə yaradılmış yeni bölmələr, o cümlədən "Estafet" rubrikası tələbə jurnalistlərin də fəaliyyətinə stimul yaradıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb, fikir mübadiləsi aparılıb.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***



# NAXÇIVAN TELEVİZİYASININ ƏMƏKDAŞLARI JURNALİST TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜB

Naxçıvan Dövlət Universitetində "Sosial şəbəkələr, informasiya təhlükəsizliyi və müasir durum" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada Universitetin "Jurnalistika" ixtisasında təhsil alan tələbələrlə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin baş redaktorları iştirak ediblər.

Tədbirdə "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şiraliyeva qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamlara əsasən ixtisasların hamiliyə verilməsi bilikli və təcrübəli gənc kadrların hazırlanmasına böyük imkanlar yaradır. Bu cür görüşlərin keçirilməsi həm də gənc jurnalistlər üçün stimul xarakteri daşıyır.

Sonra Naxçıvan Televiziyasının Sənədli filmlər və dublyaj redaksiyasının baş redaktoru Müzəffər Əsgərov jurnalistika ixtisasında təhsil alan tələbələrə televiziyada görülən yaradıcılıq işləri və hazırlanan verilişlər barədə məlumat verib, bu materialların sosial şəbəkələrə yerləşdirilməsi, izləyicilərin onlara yazdığı şərh və rəylərdən danışıb. Tədbirdə, həmçinin Naxçıvan Televiziyasının baş redaktorlarından Ruhiyyə Rəsulova, Fizzə Bağırova, Elnarə Heydərova, Nihad Bayramlı və universitetin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Səadət Əliyeva və "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müəllimi Səməd Canbaxşıyev çıxış ediblər.

Naxçıvan Televiziyasının baş redaktorlarının iştirakı ilə keçirilən tədbirdə jurnalist tələbələrin istər televiziya və radioda, istərsə də mətbuatda fəal iştirakı haqda məlumat verilib. Universitetdə gələcəyin peşəkar jurnalistləri üçün yaradılan münbit şərait, eyni zamanda buranı bitirən jurnalistlərin hazırda muxtar respublikanın müxtəlif KİV-də, o cümlədən Naxçıvan Televiziyasında uğurla təmsil olunduqları qeyd edilib.

Tədbirdə sosial şəbəkələr, informasiya təhlükəsizliyi və müasir durum mövzusu ətrafında geniş müzakirələr aparılıb və tələbələrin sualları cavablandırılıb.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# AŞIQ ƏLƏSGƏRİN 200 İLLİK YUBİLEYİ QEYD EDİLİB

Naxçıvan Dövlət Universiteti Tələbə Teatr Studiyasının təşkilatçılığı ilə “Aşıq Ələsgər-200” adlı aşıq məclisi təşkil edilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, bu 2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyinin qeyd



edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq keçirilən Aşıq Məclisinin məqsədi ustad sənətkarın yaradıcılığına nəzər salmaqdır.

Tədbirin moderatoru filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov qeyd edib ki, Aşıq Ələsgər zəngin yaradıcılığı Azərbaycan aşıq ədəbiyyatının barlı-bəhərli əbədiyyət ağacıdır. Zaman-zaman nəsillər bu ağacı ziyarət edəcək, Aşıq Ələsgərin söz dünyasından nübar sözlər, misralar, fikirlər dərəcək, Ələsgər möcüzəsi yenə də bitib-tükənməyəcək.

Məclisin qonaqlarından filologiya üzrə fəlsəfə doktoru, dosent, şair Xanəli Kərimli bildirib ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan aşıq ədəbiyyatında Aşıq Ələsgər möcüzəsi ilə sazın, sözün yeni ömrü başladı. “Haqq aşığı” ifadəsi Dədə Ələsgərin simasında yenidən dirilib gerçəkləşdi. Xanəli Kərimli ustad sənətkarın zəngin yaradıcılığından bəhs edərək diqqətə çatdırıb ki, ustad sənətkarın yaradıcılığının bənzərsizliyi söz dünyamızı bəzəyib, xalqın ruhuna, yaddaşına köçüb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Əbülfəz Əzimli gözəlliyə, sevgiyə, torpağa, elə, vətənə, təbiətə münasibətin Aşıq Ələsgər yaradıcılığında yeni bir formada, real və səmimi boyalarla əks olunduğunu qeyd edib.

Naxçıvan Muxtar Respublikası “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin direktoru Kamal Xanəgahlı Aşıq Ələsgər poeziyasında dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divan şeir növləri özünü ən gözəl şəkildə, yüksək sənətkarlıqla büruzə verdiyini diqqətə çatdırıb. Bildirilib ki, bir çox görkəmli sənətkarlarımız kimi, Dədə Ələsgərin yaradıcılığı da ideya və məzmun baxımından zəngin, rəngarəng və hərtərəflidir.

Aşıq Ələsgər yaradıcılığından qoşma, şeir, qəzəllərindən ibarət musiqi nömrələri Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar artisti Tural Bağırov, Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin üzvü Aşıq Aydın, Naxçıvan Dövlət Universitetinin müəllimi Zeynəb Yusifov və tələbələrdən ibarət ansamblı, “Xalq çalğı alətləri” kafedrasının muğam üçlüyü- Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Aqib Seyidov, Vahid Məmmədov və tələbələr-Nübar Qəmbərli, İsrafil Qibləliyevin ifalarında alqışlarla qarşılanıb.

Tələbə Teatr Studiyasının bədii qiraətçiləri Səkinə Məmmədova, Xəlil Hüseynov, Nurgül Müslümova qüdrətli söz ustadının yaradıcılığından nümunələr səsləndiriblər.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, yazıçı-şair, dramaturq, publisist Asim Yadigar çıxış edərək, vurğulayıb ki, Aşıq Ələsgər bizim aşıq sənətimizin ən yüksək zirvəsidir. Onun tək aşıq sənətinə yox, bütün ədəbiyyatımıza təsiri var.

Folklorşünas-ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Yusif Səfərov vurğulayıb ki, aparılan araşdırmalar nəticəsində Aşıq Ələsgərin “Naxçıvan səfəri” və bir çox şeirləri XIX- XX əsrlər Göyçə aşıq mühitinin Naxçıvan aşıq mühiti ilə sıx sənət və yaradıcılıq ənənələrinə malik olduğunu aydın göstərir. Dədə Ələsgər yaradıcılığı və məktəbi Şərur-Naxçıvan-Şahbuz aşıqlarının yaradıcılığına, sənətdə inkişaf edib təşəkkül tapmalarına güclü təsir edib.

Qeyd edək ki, Aşıq Məclisi Aşıq Ələsgərin həyat və yaradıcılığından hekayələrlə və səsləndirilən xoş ifalarla tədbir iştirakçılarında xoş abu-hava yaradıb.

Sonda kollektiv xatirə şəkli çəkdirilib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# 26 İYUN - SİLAHLI QÜVVƏLƏR GÜNÜ

26 İyun – Silahlı Qüvvələr Günü münasibəti ilə universitetin açıq idman meydançasında tədbir keçirilib. Tədbirdən öncə “Çağırışaqədərki hazırlıq və mülki müdafiə” kafedrasının baş müəllimi mayor Nazim Həsənov raport verib. Universitetin rektoru Elbrus İsayev tədbir iştirakçılarını Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik edib və ulu öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla 26 iyun tarixinin Silahlı Qüvvələr Günü elan edildiyini vurğulayaraq Azər-



baycanda güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordu yaradılmasının ümummilli liderin adı ilə bağlı olduğunu bildirib. Rektor Ermənistan silahlı birləşmələrinin təxribatlarına qarşı Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında əks-hücum əməliyyatları ilə başlanan və 44 gün davam Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun tarixi torpaqlarımızın işğaldan azad edilməsində qazandığı qələbədən danışıb.

Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev fakültədə görülən işlərdən danışıb. Bildirilib ki, öz yenilikləri ilə hər zaman öndə olan fakültədə sıra təlimi üçün açıq meydançada təlim meydançası, bütün standartlara cavab verən “Atıcılıq otağı”, “Hərbi topoqrafiya” fənninin hərbi hissədə tədrisi dediklərimizə əyani sübutdur.

Sonra “Orkestr alətləri və dirijorluq” kafedrasının müəllimi Yusif Əsgərovun rəhbərliyi ilə yaradılan “Hərbi orkestr”in müşayiəti və idmançı tələbələrin iştirakı ilə hərbi idman oyunları nümayiş olunub. “Fiziki tərbiyə çağırışaqədərki hazırlıq müəllimliyi” ixtisası tələbələri müəllimləri ilə birgə hərbi paradda iştirak ediblər. İdmançı tələbələrin iştirakı ilə ədəbi-bədii kompozisiya səsləndirilib. Şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq tələbələrin “Şəhidlər ölməz, vətən bölünməz” şüarı ilə çıxışı maraqla qarşılanıb.

Sonra bir qrup müəllim və idmançı tələbələr təşəkkürnamə ilə təltif edilib.

Fakültənin foyesində “Məşqçilik” ixtisası üzrə I kurs tələbəsi Özcan Babayevin rəsm əsərlərinin sərgisinə baxış olub. Əlamətdar tarixi günə həsr edilən sərgidə 30-ya yaxın rəsm əsəri nümayiş olunub. Həvəskar rəssam Özcan Babayev təşəkkürnamə ilə təltif edilib. Rektor qeyri-ixtisasda oxuyan tələbələrin bu cür qabiliyyətlərini yüksək qiymətləndirib, gələcəkdə belə sərgilərin keçirilməsi haqda öz təklif və tövsiyələrini çatdırıb.

Sonda fakültədə “Texnologiya” mərkəzi nəzdində fəaliyyət göstərən kabinələrə baxış olub və tədbir “Kulinariya” kabinəsində çay süfrəsi ətrafında davam edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# MEMARLIQ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNDƏ MEMARLIQ VƏ ROBOTOTEXNİKA ÜZRƏ SƏRGİ



Naxçıvan Dövlət Universiteti Memarlıq və mühəndislik fakültəsində Memarlıq və robototexnika üzrə sərgi keçirilib. Sərgini giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev fakültədə keçirilən bu cür sərgilərin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirilib ki, texnologiya ilə bağlı sahə olan robototexnika elminə müasir dövrümüzdə xüsusi maraq vardır. Dünyanın bir çox ölkələrində olduğu kimi bu elm sahəsinə ölkəmizdə də böyük dəstək olduğunu dilə gətirən rektor qeyd edib ki, bu sahənin inkişafı öz növbəsində, sənayenin avtomatlaşdırılmasının sürətli inkişafına təsir göstərir. Çünki bu texnologiyalar sənayedə insan faktorunun gücünü azaltmağa kömək edir. Rektor fakültədə yeni yaradılan Robototexnika kabinəsinin uğurlu fəaliyyətindən danışıb. Bildirilib ki, tələbələrin nəzəri biliklərinin praktiki olaraq həyata keçirilməsini nəzərdə tutan kabinə zəruri avadanlıqlarla təhciz olunub. Gələcək perspektivlərin də xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan rektor diqqətə çatdırıb ki, artıq fakültədə Qeyri səlis məntiq nəzəriyyəsi, Süni intellekt, Nanotexnologiya, Mexatronika və Robototexnika kimi yeni seçmə fənlər tədris olunacaq.

Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov bildirib ki, tələbələr Robototexnika kabinəsində sxemotexnika və kodlaşdırma ilə də məşğul olurlar. Burada tələbələr özlərinin sərbəst işlərini, kurs işi və layihələrini yerinə yetirmək üçün oz bilik və bacarıqlarını nümayiş etdirirlər. Vurğulanıb ki, tələbələrin startap layihələrini də yerinə yetirmək üçün burada hər bir şərait yaradılıb. Təyin olunmuş layihələr əsasında tələbələrə proqramlaşdırma və elektronika üzrə kurslar təşkil olunur. Sonda isə tələbələr qazandığı bilik və bacarıqlar sayəsində müxtəlif robotik sistemlər hazırlaya biləcəklər ki, bu da gələcəkdə elm və texnikanın müxtəlif sahələrinə öz töhfəsini verəcəkdir.

Sonra 15 eskiz, 20 memarlıq layihələri, 20 xalçaçılıq ornamentlərinə dair əl işlərinin təqdim olunduğu sərgiyə baxış olub. Bu günkü sərgi müəllim və tələbələrin birgə ərsəyə gətirdikləri əl işlərindən ibarət olub.

Müxtəlif binaların eskizləri, hazır maketlər, birmərtəbəli, ikimərtəbəli, çoxmərtəbəli binaların layihəsi sərgidə nümayiş olunub. Fakültənin gələcəkdə qurulması nəzərdə tutulan binasının da eskiz layihəsi nümayiş olunub.

Qeyd edək ki, sərgidə, həmçinin muxtar respublikada tikintisi həyata keçirilən layihələr də yer alıb. Tələbələr sərgidə müxtəlif maketlər də təqdim ediblər.

Robototexnika sahəsinə dair 20-yə yaxın iş təqdim edilib. İnsan boyunu ölçmək üçün ağıllı ölçü cihazı, səs vasitəsilə idarə olunan ev, sensor vasitəsilə ürək döyüntüsünü ölçən cihaz, telefonla idarə olunan maşın, kart vasitəsilə idarə olunan şlaqbaum, sensorlu su kranı, sensorla idarə olunan təmizlik qutusu, şirə aparatı, ağıllı şkaf və. s əl işləri sərgi iştirakçılarının xüsusi marağına səbəb olub.

Sonda rektor Memarlıq və Robotexnika üzrə sərgidə əsərləri təqdim olunan müəllim və tələbələri diplomla təltif edib. Məlumat üçün onu da bildirək ki, fakültənin bir qrup müəllimləri keçdikləri nümunəvi dərslərə görə də təşəkkürnamə ilə təltif ediliblər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# “KİMYA ZEHİN XƏRİTƏLƏRİ İLƏ” ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında “Kimya” kafedrasının professoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Yasin Babayev və Azərbaycan Dövlət Pedoqoji Universitetinin “Ümumi kimya və kimyanın tədrisi texnologiyası” kafedrasının baş müəllimi, kimya üzrə fəlsəfə doktoru Nigar Babayevanın həmmüəllifi olduğu “Kimya zehin xəritələri ilə” adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru Elbrus İsayev nəşr olunan dərs vəsaitinin müasir tədris metodlarına uyğun tərtib edildiyini diqqətə çəkib. Bildirilib ki, yeni




təhsil proqramı- kurikulum üzrə abituriyentlər üçün ölkədə ilk dəfə zehin xəritələri ilə hazırlanan dərs vəsaitinin yeni yanaşma, innovativ metodlarla, yeni təhsil proqramına qoyulan tələblər əsasında işlənməsi ağır dərs yükü olan kimya fənnini daha asan şəkildə öyrənməyi təmin edəcək.

Naxçıvan Müəllimlər İnstitutunun “Ümumi fənlər” kafedrasının müdiri, Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, pedoqogika üzrə fəlsəfə doktoru, dosent Qızıllı Əliyeva məruzəsində qeyd edib ki, zehin xəritələri ilə hazırlanan dərslik insan fəaliyyətinin bütün sahələrində mühüm rol oynayan



kimya fənninin şagirdlərə müasir təlim metodlarından istifadə etmək, sərbəst işləməyə, kreativ düşüncəni artırmağa kömək etmək, fənni daha rahat şəkildə qavramaq məqsədilə tərtib edilib.

Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, kimya üzrə fəlsəfə doktoru, dosent Şəmil Mahmudov bildirib ki, üzvi kimyanın əsas anlayışlarının, qaydalarının, reaksiyalarının və bütün önəmli məqamlarının zehin xəritələri ilə izah edilməsi ümumtəhsil məktəblərin kimya müəllimləri və bu fənn üzrə hazırlaşan abituriyentlər üçün əhəmiyyətli dərslikdir.

“Kimya” kafedrasının müdiri Sevinc Kərimova qeyd edib ki, kitabdakı xəritələrdə rənglərin seçilməsi, simvolların yerləşdirilməsi, kimya fənninin tədrisində, öyrənilməsində və mənimsənilməsində qarşıya çıxan bütün çətinlikləri aradan qaldırmağa kömək edəcəkdir. Qeyd olunub ki, passiv əzbər tələb etməyən, beynin məntiqi və vizual yaddaşını fəaliyyətə gətirən və möhkəmləndirən bu metod şagird və müəllimlər üçün ən effektli bilgi toplusudur.

“Kimyanın tədrisi metodikası və metodologiyası” ixtisası üzrə I kurs magistrant Məhəbbət Qarayeva kitabdakı “Məhlullar”, “Kimya müəllimliyi ixtisası III kurs tələbəsi Bağdagül Cəfərli “Saf maddələr və qarışıqları”, “Kimya ” ixtisası üzrə I kurs tələbəsi Xanım Hüseynova “Oksidlərin alınması və kimyəvi xassələri”, “Kimya” müəllimliyi I kurs tələbəsi Qumral Abbasova “Kimyəvi elementlərin dövri sistemi” bölmələrini zehin xəritələr vasitəsilə izah ediblər.

Sonra kitabın həmmüəllifləri kitab haqqda səsləndirilən dəyərli fikirlərə görə öz minnətdarlıqlarını ifadə ediblər.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# DOSENT İSMAYIL ZEYNALOVUN 80 İLLİK YUBİLEYİ QEYD OLUNUB




Naxçıvan Dövlət Universitetində keçirilən tədbiri giriş sözü ilə açan universitet rektoru Elbrus İsayev ali təhsil ocağında müəllimlərin yubileylərinin keçirilməsini artıq ənənə halını aldığını qeyd edib. Bildirilib ki, bu gün 80 illik yubileyi qeyd olunan İsmayıl Zeynalovun universitetdə tarixin öyrədilməsi sahəsində müstəsna xidmətləri olub, muxtar respublikada tarixçi kadrların yetişməsinə mühüm töhfələr verib. Bunun nəticəsidir ki, İsmayıl Zeynalovun yetirmələri muxtar respublikanın ictimai-siyasi, mədəni həyatında öz fəaliyyətləri ilə seçilir-deyə rektor vurğulayıb. Elbrus İsayev yubilyara universitetin fəxri fərmanını və gül dəstəsi hədiyyə edib.

Tarix-filologiya fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov müəllimi və bu gün eyni kollektivdə çalışdığı İsmayıl Zeynalovun 1968-ci ildə Mordoviya Dövlət Universitetini bitirdiyini və 52 illik əmək fəaliyyətini məhz Naxçıvan Dövlət Universitetində davam etdirdiyini diqqətə çatdırıb.

47 illik dostluq münasibətlərindən danışan, "Ümumi tarix" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Ələkbər Cabbarov çıxışında qeyd edib ki, İsmayıl Zeynalov peşəkar pedaqoq olmaqla yanaşı gözəl ailə başçısı və cəmiyyətdə seçilən ağsaqqaldır.

"Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Məmməd Əliyev İsmayıl Zeynalovun tələbkar və peşəkar müəllim olduğunu və bütün bunlarla yanaşı tələbələrinə qarşı hər zaman xeyirxah və ədalətli olduğunu vurğulayıb.

Tədris və tərbiyə işləri üzrə prorektor Rafiq Rəhimov, Pedaqoji fakültənin dekanı, Vəli Əliyev, fakültənin müəllimləri Abdulla Mustafayev, Qadir Əkbərov yubilyarla bağlı xoş xatirələrini bölüşüb, ona uzun ömür cansağlığı arzu ediblər.

Qeyd edək ki, İsmayıl Zeynalov çoxillik elmi-pedaqoji fəaliyyətinə görə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı, Naxçıvan Dövlət Universiteti rəhbərliyi tərəfindən fəxri fərmanları ilə təltif olunub. 42 elmi məqalənin və 3 kitabın müəllifi olan İsmayıl Zeynalov həmçinin, ümumittifaq və respublika konfranslarının iştirakçısı olub.

# DOSENT RÖVŞƏN HƏSƏNOVUN 70 İLLİK YUBİLEYİ QEYD EDİLİB

Bu münasibətlə keçirilən tədbiri universitetin rektoru Elbrus İsayev giriş sözü ilə açaraq bildirib ki, 70 illik ömrünün 50 ilini məhz elə ali təhsil ocağına elmə, təhsilə həsr edən Rövşən Həsənov çalışdığı illər ərzində səmərəli pedaqoji fəaliyyəti ilə müəllim və tələbələrin böyük rəğbətini qazanıb. Rektor qeyd edib ki, universitetin yetirmələri bu gün muxtar respublikanın ictimai-siyasi, mədəni həyatına töhfələr verir, öz fəaliyyətləri ilə fərqlənirlər. Riyaziyyat fakültəsinin ilk məzunlarından olan Rövşən Həsənovun riyaziyyatçı kadrların hazırlanmasında xüsusi rolu vardır. Universitetin rektoru yubilyarı 70 yaşı münasibətilə ilə təbrik edərək, ona cansağlığı və pedaqoji fəaliyyətində uğurlar arzulayıb.

Fizika-riyaziyyat fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Orxan Cəfərov çıxış edərək bu gün müəllim kimi fəaliyyət göstərməyində Rövşən müəllimin böyük rolu olduğunu qeyd edib. Bildirilib ki, bir zamanlar müəllimi olduğu Rövşən Həsənovla bu gün eyni kollektivdə fəaliyyət göstərmək böyük fəxrdir.



Tədbirdə çıxış edən "Ümumi riyaziyyat" kafedrasının müdiri, baş müəllim Daşqın Seyidov bir müəllim üçün ən gözəl hədiyyənin müəllim və tələbələr tərəfindən verilən dəyər olduğunu qeyd edib. Bildirilib ki, dərslərə hər zaman ciddi və tələbkar yanaşan Rövşən müəllim dəyərli fikirləri və zəruri məsləhətləri ilə öz tələbələrinə yol göstərib. Qeyd edilib ki, Rövşən Həsənov peşəkar müəllim olmaqla yanaşı eyni zamanda gözəl ailə başçısıdır.

Daha sonra çıxış edən yubilyar 50 illik fəaliyyəti zamanı keçdiyi həyat yolundan danışıb. Diqqətə çatdırılıb ki, cəmiyyətdə seçilməyin yeganə yolu gücdür, güc isə elmdədir. Buna görə də çalışdığı illər ərzində savadlı, bilikli riyaziyyatçı kadrların hazırlanması hər zaman əsas məqsədi olub. Yubilyar tədbir iştirakçılarına və universitet rəhbərliyinə göstərilən diqqətə görə minnətdarlığını bildirərək bundan sonra da öz işini eyni məsuliyyət və tələbkarlıqla icra edəcəyini söyləyib.

Sonda yubilyara hədiyyələr təqdim edilib və xatirə şəkli çəkdirilib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# İDMANÇI TƏLƏBƏLƏR MÜKAFATANDIRILIB

Naxçıvan Dövlət Universitetində "XV universiada və 2021- ci ilin I yarısında muxtar respublika üzrə yarışlarda mükafata layiq görülmüş idmançılar təltif olunub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev altı ay davam edən universiadanın uğurla başa çatdığını diqqətə çatdırıb. Qeyd edilib ki, tələbələr müxtəlif idman sahələri üzrə yarışlarda universiteti, muxtar respublikanı dünya arenasında yüksək şəkildə təbliğ edirlər. Universitetdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışan rektor bildirib ki, ali təhsil ocağında idmanın kütləviliyinə diqqət yetirilir, universitetdə 15 idman növü üzrə məşğələlər fəaliyyət göstərir. Hər il aprel, may aylarında universitetdə təqvim planına uyğun tələbələrin "Universiadası" keçirilir. Rektor İdman kompleksinin yenidən təmir olunmasını, yeni idman ixtisaslarının əlavə olunmasını muxtar respublikada idmana göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi kimi dəyərləndirib. Bildirilib ki, həmçinin idman sahəsinə aid müxtəlif metodik vəsaitlər hazırlanır, idmançı kadrlar yetişdirilir. Elbrus İsayev vurğulayıb ki, XV Universiada yarışlarında idmançı tələbələrlə yanaşı, qeyri- ixtisasdan olan tələbələr də yer alıb. Rektor tələbələri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



"XV Universiada"nın yekun hesabatı mövzusunda universitet İdman klubunun sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Məmmədəli Rəhimov çıxış edərək universitetin idman sahəsində uğurlarından danışıb. Qeyd edilib ki, ümumilikdə universiadada cəmi 467 idmançı tələbə iştirak edib ki, bunlardan 95 nəfəri qız, 372 nəfəri oğlan, 100 nəfəri isə əcnəbi tələbə olub. Universitet idmanının qazandığı uğurlardan danışan Məhəmmədəli Rəhimov bildirib ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş peyntbol üzrə Naxçıvan Muxtar Respublikası açıq birinciliyində universitetin komandası 20 komanda arasında II yerə layiq görülüb. Bundan əlavə ali və orta ixtisas təhsil müəssisələrinin komandaları arasında peyntbol üzrə keçirilən Naxçıvan Muxtar Respublikası açıq birinciliyində isə Naxçıvan Dövlət Universitetinin komandası I yerə layiq görülüb. Ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında keçirilən "Vətən naminə" hərbi idman oyununda universitetin "Qələbə" komandası bütün rəqiblərinə qalib gələrək I yerə layiq görülüb. Gənclər arasında keçirilən "Hədəf" atıcı təlimində fərqləndiyinə görə Məhəmməd Şahbazov fəxri fərmanla təltif edilib. Bakı şəhərində keçirilən "Cüdo" güləşi üzrə Azərbaycan "Cüdo" federasiyasının keçirdiyi seçmə yarışında "Pedaqoji" fakültənin I kurs tələbəsi Abbas Məmmədov iştirak edərək II yerə çıxıb, Azərbaycan yığma komandasının tərkibinə daxil edilib. Naxçıvan Şəhər Gömrük İdarəsi yanından Duzdağ mağarasına qədər keçirilən 5 kilometr məsafəyə kross qaçışda Xatun Orucova II yerə layiq görülüb.

Futbol, basketbol, oğlanlar və qızlar arası voleybol, stolüstü tennis, şahmat, atıcılıq üzrə idman növləri üzrə universiadanın ümumi nəticələrinə görə Tibb fakültəsi ümumi hesabla qalib olub. İqtisad fakültəsi II, Pedaqoji fakültə isə III olub.

"Bədən tərbiyə və idman" ixtisası üzrə II kurs tələbəsi, Dünya ikincisi, Avropa üçüncüsü olan Aslan İsmayılov qazandığı uğurlar haqqında tələbələrə məlumat verib, universiada iştirakçılarını təbrik edib.

Sonra mükafatlandırma mərasimi keçirilib. İştirakçılara universitet rəhbərliyi tərəfindən fəal iştiraklarına görə diplom və hədiyyələr təqdim edilib.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# TƏLƏBƏLƏRİMİZ PEYNTBOL ÜZRƏ MUXTAR RESPUBLİKA BİRİNCİSİ OLUB

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi peyntbol üzrə yarışda Naxçıvan Dövlət Universitetinin komandası qalib olub. Atıcılıq Mərkəzinin peyntbol arenasında keçirilən yarışda ali və orta ixtisas təhsili müəssisələrinin oğlanlarından ibarət komandaları iştirak edib.






Final qarşılaşmasında Naxçıvan Dövlət Universiteti və Naxçıvan Universiteti qarşı-qarşıya gəliblər. Həlledici oyunun qalibi Naxçıvan Dövlət Universitetinin peyntbol komandası olub. Naxçıvan Universiteti və Naxçıvan Tibb Kollecini təmsil edən komandalar II və III yerləri tutublar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov və Federasiyanın sədr müavini Vasib Abdullayev mükafatlandırma mərasimində çıxış edib, komandaları təbrik ediblər.

Sonda hər üç komandaya diplom, kubok və peyntbol mərmiləri təqdim edilib.

Qeyd edək ki, keçirilən yarışların məqsədi atıcılıq idman növləri üzrə kütləviliyin artırılması, perspektivli idmançıların müəyyənləşdirilərək yarışlara hazırlanması, gənclərdə hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsinə xidmət edir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# XALQ ARTİSTİ ŞƏFİQƏ MƏMMƏDOVA TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜB



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında və Naxçıvan Dövlət Universitetində xalq artisti, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri Şəfiqə Məmmədova ilə görüş keçirilib.

Xalq artistinin keçdiyi ustad dərsində aktyor və tamaşaçı münasibətləri, müasir aktyor texnikası, kamera önündə aktyorun işi və səhnə mədəniyyətinə dair digər məsələlər müzakirə olunub, tələbələri maraqlandıran suallar cavablandırılıb.

Şəfiqə Məmmədova Hüseyn Cavidin "Xəyyam" tamaşasından bir parçanı ifa edib



# ƏCNƏBİ TƏLƏBƏLƏR "QARABAĞ AZƏRBAYCANDIR" ADLI KONSERT TƏŞKİL EDİBLƏR

Naxçıvan Dövlət Universitetində "Qarabağ Azərbaycandır" adlı konsert təşkil edilib. Konsert xarici tələbələrlə iş üzrə dekanlığın hazırlıq kursu tələbələrinin iştirakı ilə keçirilib. Türkiyəli tələbələr türk xalq mahnıları ilə yanaşı, Azərbaycan xalq mahnıları da ifa ediblər. Nigeriyalı tələbə Joseph Okpamenin Azərbaycan xalq mahnısı "Sarı gəlin"i ifa etməsi tamaşaçılara xoş ovqat bəxş edib. Tələbələr konsertin sonunda "Qarabağ Azərbaycandır" şüarı ilə mahnı ifa ediblər.

Sonra konsert haqda yekun söz deyən universitetin rektoru Elbrus İsayev əcnəbi tələbələrin gözəl təşəbbüsünü təqdir edib. Bildirilib ki, muxtar respublikada təhsil alan tələbələr yüksək dövlət qayğısı ilə əhatə olunmaqla bərabər, həmçinin universitetin ictimai-mədəni işlərində də fəallıq nümayiş etdirirlər. Rektor artıq bir neçə tədbirlərdə fəal mövqeləri ilə çıxış edən hər bir tələbəni təbrik edib, onlara uğurlar arzulayıb.

Sonda hər bir tələbəyə universitetin sertifikatı təqdim olunub.

Qeyd edək ki, konsertin bədii rəhbərləri İncəsənət fakültəsi müəllimləri olub.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# BAKI MUSİQİ AKADEMİYASININ PROFESSORU, ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ, ELNARA DADAŞOVA İLƏ ONLAYN GÖRÜŞ

Baki Musiqi Akademiyasının professoru, əməkdar incəsənət xadimi, bəstəkar Elnara Dadaşova ali təhsil ocağının İncəsənət fakültəsinin müəllim və tələbələri üçün vebinar keçib. Bəstəkarlıq sənəti, yeni üslub və cərəyanlar haqda danışan Elnara Dadaşova eyni zamanda canlı ünsiyyətdə olduğu görkəmli Azərbaycan bəstəkarları, xüsusilə də bəstəkarlıq sinfində təhsil aldığı müəllimi Qara Qarayevlə bağlı xatirələrini bölüşüb. Professor müəllim və tələbələrə musiqi əsərlərinin təhlili və solfecio fənninin tədrisinə gətirdiyi yeniliklərdən bəhs edib və bəzi metidik göstərişlər verib. Elnara Dadaşova bəstəkar Qara Qarayevin preludunu ifa edərək əsəri təhlil edib.



Sonda müəllim və tələbələrin sualları cavablandırılıb.

# HESABAT KONSERTİ

Ali təhsil ocağının "İncəsənət" fakültəsində "Musiqi təlimi" kafedrasının hesabat konserti keçirilib. Kafedranın müdiri, dosent İsmayıl Mürsəlov tədbiri giriş sözü ilə açaraq qeyd edib ki, 1999-cu ildən fəaliyyət göstərən kafedrada hal-hazırda 16 müəllim tələbələrin təlim-tərbiyəsi ilə məşğul olur. Vurğulanıb ki, bunlardan 1 nəfər Azərbaycan Respublikasının Əməkdar artisti, 2 nəfəri Pedaqogika üzrə fəlsəfə doktoru, 1 nəfəri Sənətşünaslıq üzrə fəlsəfə doktoru, 1 nəfər dosent, 12 nəfəri isə baş müəllim vəzifəsində çalışır. Vurğulanıb ki, kafedranın vəzifəsi ali təhsil ocaqlarına musiqi müəllimi yetişdirməkdir. Belə ki, fakültənin məzunları hal-hazırda muxtar respublikanın müxtəlif ümumtəhsil məktəblərində fəaliyyət göstərirlər.

"Musiqi müəllimliyi" ixtisası üzrə IV kurs tələbəsi Sevinc Şərifovanın "Musiqi fənnini tədris edən müəllimin fəaliyyətinin ümumi məsələləri" mövzusunda çıxışı dinlənilib.

Konsertdə "Musiqi təlimi" kafedrasının müəllim və tələbələrinin ifaları səsləndirilib. Belə ki, kafedranın müəllimləri – Rüfət Əhmədov, İradə Vəliyeva, Samirə Səfərova, Sevda Cəfərova, Afaq Zamanova, İlhamə İsgəndərova və başqaları tələbələri ilə birgə çıxış ediblər. Konsertdə yerli bəstəkarlardan Cahangir Cahangirovun "Ay qız", Səid Rüstəmovun "Qaytağı", Fikrət Əmirovun "Vals", Emin Sabitoğlunun "Azərbaycan", Tofiq Quliyevin "Gəzinti", Ramiz Mirişlinin "Bir xumar baxışlı", Azərbaycan xalq rəqsi "Dilican" və xarici ölkə bəstəkarlarının musiqiləri səsləndirilib. Azərbaycan xalq mahnılarından "Aman ovçu", Qubanın ağ alması" mahnıları ifa edilib. Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi professor Səidə Məmmədovanın bəstəsi olduğu "Naxçıvanım" mahnısı hər kəs tərəfindən maraqla dinlənilib.

Universitetin rektoru Elbrus İsayev proqramın zənginliyini diqqətə çəkərək tələbə və müəllimlərin işini yüksək qiymətləndirib, hesabat konsertini qənaətbəxş hesab edib.



Konsertdə I kurs tələbələrinin üstünlük təşkil etməsini təqdirəlayiq hal kimi qiymətləndirən rektor tədbirdə əməyi olan hər kəsi təbrik edib və uğurlar arzulayıb.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# MUXTAR RESPUBLİKADA İLK DƏFƏ KEÇİRİLƏN - "MUĞAM LEKTORİYASI"

Zəngin mədəniyyətə və istedadlı musiqiçilərə malik olan doğma diyarımız Naxçıvanda ilk dəfə olaraq "Muğam lektoriyası" layihəsi həyata keçirilib. "Bayatı Qacar" muğamının instrumental ifasına həsr olunan bu lektoriya Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsində Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, fakültənin müəllimi tarzən İmamqulu Əhmədovun təşəbbüsü ilə baş tutub. Layihənin əsas məqsədi daha az ifa olunan muğamların təbliğinə və onların gələcək nəsillərə düzgün çatdırılmasına xidmət edir.

"Muğam lektoriyası" "Şərq gecələri" adlanan muğam axşamlarının bir növ davamıdır. Hələ XIX əsrin ikinci yarısında Azərbaycanın müxtəlif bölgələrində muğam axşamları keçirilirdi. Əsrlərin sınağından çıxmış muğam sənətinin təbliğinə yönələn "Şərq gecələri" sonralar "Muğam axşamları" adını aldı. Müasir dövrümüzdə "Muğam lektoriyası" da bu ənənəni gələcək nəsillərə ötürür.

"Muğam lektoriyası" layihəsi çərçivəsində müraciət olunan ilk muğam "Bayatı-Qacar" dəstgahıdır. Bu muğam "Rast" ailəsinə aiddir, lad əsası və kökü "Rast"la eynidir. Əvvəllər "Dügah" muğamının tərkibində olan "Bayatı-Qacar" daha sonra müstəqil muğama çevrilmişdir. Maraqlıdır ki, "Dügah" muğam kimi geniş yayıldığı vaxtlarda "Bayatı-Qacar" həmin muğamın bir şöbəsi idi. Sonralar "Dügah" zaman keçdikcə təbəddülata uğradı və şöbə əhəmiyyətini kəsb etdi. Hazırda o, məhz "Bayatı-Qacar"ın tərkibində çalınıb-oxunur. Əlavə etmək lazımdır ki, Bayatı-Qacar bir şöbə kimi Şur dəstgahının tərkibində də "Şur-Şahnaz" ilə "Şikəsteyi-fars"ın arasında işlənir. Lakin "Şur" dəstgahında bu şöbə "Bayatı-Türk" adlandırılır.

İnsanlarda qəm-qüssə və kədər yaradan "Bayatı-Qacar"ı XIX əsrin məşhur Azərbaycan musiqişünası Mir Möhsün Nəvvab özünün "Vüzuhül-ərqam" risaləsində muğam şəklində deyil, şöbə halında göstərmişdi. Tarzən Mirzə Fərəc Rzayev isə "Bayatı-Qacar"ı səkkiz şöbə və güşədən ibarət muğam kimi qeyd etmişdir. Həmin şöbələr bunlardır: "Bayatı-Qacar", "Bayatı-türk", "Qatar", "Bayatı", "Çoban bayatı", "Hacaz", "Gəbri" və "Şikəsteyi-fars". Hər hansı bir dəstgahın başlanğıcı və sonu olmalıdır. Lakin bu cədvəldə prinsip pozulub. "Bayatı-Qacar"la başlanan muğam, "Bayatı-Qacar"la da tamamlanmalı idi. Ancaq cədvəldə muğam "Şikəsteyi-fars"la tamamlanır.

1925-ci ildə Ü.Hacıbəylinin rəhbərliyi ilə tərtib olunan proqramda "Bayatı-Qacar" muğamı göstərilməmişdir. 1952-ci ildə isə tarzən Əhməd Bakıxanovun redaktorluğu ilə hazırlanmış proqramda "Bayatı-Qacar" beş şöbəli muğam kimi verilmişdir: "Mayə", "Hüseyni", "Şikəsteyi-fars", "Zil Bayatı-Qacar", "Bayatı-Qacara ayaq". Bu proqramda da çatışmazlıq ondan ibarətdir ki, "Bayatı-Qacar" "Mayə"dən başlanır, "Bərdaşt" göstərilmir. Əgər biz Mirzə Fərəcin cədvəli ilə Ə.Bakıxanovun proqramındakı "Bayatı-Qacar" muğamının şöbələrini müqayisə etsək görərik ki, "Şikəsteyi-fars"dan başqa heç birində şöbələr təkrarlanmır.



1980-cı ildə tarzən Kamil Əhmədovun tərtib etdiyi proqramda "Bayatı-Qacar" on şöbə və guşədən ibarət idi: "Bərdaşt", "Mayeyi-Bayatı-Qacar", "Hüseyni", "Şikəsteyi-fars", "Zil Bayatı-Qacar", "Zəminxarə", "Dügah", "Mavərənnəhr", "Şah Xətai" və "Bayatı-Qacara ayaq". Hal-hazırda da "Bayatı-Qacar" bu ardıcıllıqla ifa olunur.

Bu gün muğam öz layiqli yerini taparaq, müəyyən beynəlxalq statusda qərarlaşıb. YUNESKO səviyyəsində mühafizə edilən muğamlar beynəlxalq festivallarda səslənir, yüksək səviyyədə təbliği həyata keçirilir.

Muxtar Respublikada bir ilk olaraq baş tutan "Muğam lektoriya" layihəsinin də bundan sonra silsiləli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Ali təhsil ocağında davamlı şəkildə baş tutacaq layihə milli musiqi xəzinəmizin incisi olan muğamlarımızın gənclər tərəfindən daha yaxşı mənimsənilməsinə, bu mədəni irsin qorunub saxlanılmasına, eləcə də təbliğinə müsbət mənada təsirini göstərəcək.

**Rumiyə Məmmədova**
***"Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının müəllimi***

# ELMİ MƏQALƏ ESTONİYANIN TALLİN ŞƏHƏRİNDƏ DƏRC OLUNUB

Naxçıvan Dövlət Universiteti “Biologiya” kafedrasının dosenti, pedaqogika üzrə elmlər doktoru Zərövşən Babayevanın “Bioloji təhsilin müasir problemləri: qarşıda duran vəzifələr” adlı elmi




məqaləsi Estoniyanın Tallin şəhərində II Beynəlxal elmi-praktik konfransının "SCIENCE, EDUCATION, INNOVATION: TOPICAL ISSUES AND MODERN ASPECTS"( Elm, təhsil, innovasiya: Mövzu və müasir aspektlər” - seriyasında nəşr olunub. Məqalədə bioloji təhsilin keyfiyyətinin yüksəldilməsi və müasir dünya standartları səviyyəsinə qaldırılması, modern texnologiya və proqramlardan istifadənin zərurətindən, qarşıda duran vəzifələrdən bəhs edilir. Həmçinin, artıq dünyada ixtisaslaşmış təhsilin deyil, fərdi yanaşma və müşahidə ilə öyrənənlərin dəyərləndirilməsinin ön plana çıxarılmasının əhəmiyyəti göstərilib. Məqalədə birlikdə öyrənmənin dəqiqləşdirilməsi, şərait yaratmaq, dəyişməyə hazır olmaq, gənc nəslin təkmilləşməsi, yeni dünyaya hazırlanması, fərqli formata istiqamətləndirilməsi tövsiyə edilir.

# UNİVERSİTETİN MÜƏLLİMİ İLƏ MAGİSTRANTIN BİRGƏ YAZDIĞI ELMİ MƏQALƏ HİNDİSTANDA DƏRC OLUNUB

Naxçıvan Dövlət Universiteti “Biologiya” kafedrasının müdiri, biologiya üzrə elmlər doktoru Daşqın Qənbərov, Biologiya fənninin tədrisi metodikası və metodologiyası üzrə II kurs magistrant, universitetin Elm və innovasiyalar bölməsinin könüllü əməkdaşı Fatimə Babayevanın birgə ərsəyə gətirdikləri “Naxçıvan Dövlət Universiteti şəhərciyi ərazisinin yaz florası” adlı elmi məqalələri Hindistanın Nyu Delhi şəhərində “Beynəlxalq Botanika Jurnalında” (“İnternational Journal of Botany”) dərc olunub. Məqalədə universitet şəhərciyi ərazisinin erkən yaz florasının taksonomik tərkibi, ekoloji qrupları və coğrafi areal




sinifləri haqqında məlumat verilib. Qeyd olunub ki, tədqiq olunan ərazinin erkən yaz florası 12 fəsilənin 25 cinsinə aid 33 növlə təmsil olunur.

Məqalədə həmçinin, muxtar respublika florasının, bitki aləminin hər tərəfli sistematik, biomorfoloji, bioekoloji, fitosenoloji, biokimyəvi və bitki ehtiyatlarının öyrənilməsi istiqamətlərində kompleks tədqiqat işləri aparılıb.

Qeyd edək ki, zaman keçdikcə aparılan tədqiqatların nəticələrinin köhnəlməsi, yeni növlərin yaranması, yaxud qonşu ölkələrdən bu əraziyə növlərin miqrasiya etməsi vaxtaşırı onların araşdırılmasına və yeni yaranmış xüsusiyyətlərinin tədqiq olunmasına gətirib çıxarır.




# ƏMƏKDAŞIMIZIN ELMİ MƏQALƏSİ YÜKSƏK İMPAKTFAKTORLU JURNALDA DƏRC OLUNUB

Naxçıvan Dövlət Universiteti “Biologiya” kafedrasının dosenti, pedaqogika üzrə elmlər doktoru Zərövşən Babayevanın elmi məqaləsi Rusiyada dərc olunub. "XXI əsrin yeni kitab formatı- Elektron dərsliklər" adlı elmi məqalə “Elm və təcrübə bülleteni” (“Bulletın of science and practice”) adlı yüksək impaktfaktorlu jurnalda nəşr olunub.

Məqalədə müəllif belə qənaətə gəlir ki, ali və orta məktəblər üçün hazırlanan dərsliklərin formatı dəyişilməli, metodik, dərs vəsaitləri və dərsliklərin hazırlanmasında elektron və interaktiv formatlara keçilməlidir. Məqalədə həmçinin elektron dərsliklərin üstünlükləri, xüsusilə biologiyanın tədrisində müxtəlif istifadə formatları analiz edilir, dərsliklərin onlayn və ya offlayn rejimdə, kompüter, planşet, mobil telefon vasitəsilə istifadə imkanının olması, əyani vəsaitlərin mövcudluğu - qrafika, animasiya, interaktiv fəaliyyət və digər multimedia xüsusiyyətləri, böyük həcmli məlumatların saxlanması, mətnlər üzərində qeydlərin aparılması mümkünlüyü, rahat istifadə-axtarış sisteminin mövcudluğu araşdırılır. Məqalədə həmçinin bildirilir ki, elektron dərsliklər istifadəçilərin təhsil prosesində fəal iştirak etmək, onların öyrənmə prosesini fərdiləşdirmək üçün optimal şərait yaradır.

**Səadət Əliyeva**

***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI: KƏND TƏSƏRRÜFATI VƏ MƏHSULDARLIQ

29 mart 2021-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalanmışdır. Qeyd edək ki, Sərəncam muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılması məqsədini daşıyır. Təbii ki, istehsal iqtisadiyyatın əsasıdır. Buna görə də cəmiyyət üzvlərinin artan tələbatlarının qarşılanmasında, istehlak sahəsindəki əlçatanlığının təmin olunmasında istehsal anlayışının müstəsna əhəmiyyətə malik olduğunu qeyd etmək olar. Məhz bu baxımdan təsdiq olunan yeni Dövlət proqramının zəruri əhəmiyyəti vardır.

Keçdiyimiz dövrlər üzrə muxtar respublika iqtisadiyyatının inkişaf mərhələləri üçün etibarlı baza rolunu oynayan kənd təsərrüfatı eyni zamanda mezoiqtisadi əhəmiyyətliliyinə görə də aktuallığını artırmaqdadır. Bu sahə həm də ASK inteqrasiyası fonunda xammal, emal və istehsal həlqəsinin qırılmazlığını gücləndirmişdir. Məhz yeni Dövlət proqramı kənd təsərrüfatının davamlı inkişafı ilə bu sahədə dövlət tənzimlənməsinin də gerçək ifadəsi olaraq çıxış etməkdədir. Qeyd edək ki, bu sahədə bir sıra hüquqi tənzimləmələr həyata keçirildi ki, onların da bir qismini aşağıdakı kimi göstərmək olar:

- 28 yanvar 2005-ci il tarixdə “Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında”;
- 11 aprel 2005-ci il tarixdə “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı”nın (2005-2010-cu illər) təsdiq edilməsi haqqında;
- 17 sentyabr 2008-ci il tarixdə imzalanmış Sərəncamla təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın təsdiq olunması haqqında;
- 18 noyabr 2016-cı il tarixdə “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında;
- 27 noyabr 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında;
- 14 fevral 2012-ci il tarixdə 2012-2015, 8 fevral 2016-cı il tarixdə 2016-2020, 12 mart 2021-ci il tarixdə isə 2021-2025-ci illəri əhatə etməklə, Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramının təsdiq olunması haqqında Ali Məclisin Sədri tərəfindən imzalanan Sərəncamlar muxtar respublikada kənd təsərrüfatının sürətli və uzaq gələcəyə hesablanan inkişafı məqsədlərini daşıyır.

Nəzərə alsaq ki, kənd təsərrüfatı:

- əhalinin istər məşğulluq və özünüməşğulluq imkanlarının artrılmasında;
- ərzaq məhsulları ilə etbarlı təminatında və bu sahədə təhlükəsizliyin möhkəmləndirilməsində;
- təsərrüfatçılıq formalarının fəaliyyətinin səmərəli təşkili və idarə olunmasında;
- kəndlərin iqtisadi inkişafında;
- dayanıqlı məskunlaşma siyasətinin təmin olunmasında mühüm əhəmiyyəti ilə seçilir, onda bu tənzimlənmə mexanizmləri mövcud potensial üçün güclü təsisatlara malik perspektivlər açacaqdır.

Məhz yeni Dövlət proqramının məqsədlərinə baxdıqda aydın olur ki, bu, kənd təsərrüfatı məshullarının istehsalı, emalı və ixrac imkanlarını nəzərdə tutmaqla və strateji mahiyyətə malik olmaqla, aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracını stimullaşdırmaq;
- kənd təsərrüfatı istehsalına əsaslanan ailə təsərrüfatlarını formalaşdırmaq;
- muxtar respublikada özünüməşğulluğu təmin etmək.

Bütün bunlar kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində keyfiyyət göstəricilərinin də həcmini artıracaqdadır. Məhz regional inkişaf üzrə Dövlət proqramlarının təsiri və digər sahəvi tənzimləmələr vasitəsilə Naxçıvan Muxtar Respublikasında istehsal olunan kənd təsərrüfatı məhsullarının artım dinamikası da təmin olunmuşdur.

Ulu öndər böyük Heydər Əliyevin həmişəyaşar ideyaları ilə müasir müstəqilliyimizin son 26 ilində daha mütərəqqi inkişaf yolu keçən kənd təsərrüfatı muxtar respublikanın makroiqtisadi inkişafının təmin olunmasında etibarlılığı ilə seçilmişdir. Belə ki, 1995-2020-ci illərdə istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmi 14 dəfə artmışdır. Bu, regional inkişaf üzrə Dövlət proqramlarının icrasının birinci mərhələsi, yəni 2004-2008-ci illər ərzində 2, ikinci mərhələsi ərzində, yəni 2009-2013-cü illərdə 1,8 dəfədən artıq, üçüncü mərhələsində isə, yəni 2014-2018-ci illər ərzində isə 1,4 dəfə təşkil etmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsal həcmi 2004-2020-ci illərdə 7 dəfəyə yaxın, 2009-2020-ci illərdə 3



dəfəyə yaxın, 2014-2020-ci illərdə isə 1,5 dəfədən çox artmışdır. Qeyd edək ki, 2021-ci ilin yanvar-fevral aylarında muxtar respublikada 16 milyon 689 min 300 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Kənd təsərrüfatı məhsullarının istehsalı həcminin artan dinamikası bu sahənin artan tələbatlar qarşısındakı dayanıqlılığının və müqavimətliliyinin ifadəsi olub, iqtisadiyyatın sahə strukturunun təşkilatlanmasının gerçək təsdiqidir. Bu, eyni zamanda, kənd təsərrüfatı sahəsində istehsalçıların stimullaşdırıcı fəaliyyətinin göstəricisi olmaq etibarı ilə daha əhəmiyyətli olmaqdadır. Məhz 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması makroiqtisadi hədəflərin əlçatanlığı və reallaşması sahəsində kənd təsərrüfatının rolunun artmasını bir daha göstərmiş oldu. Ardıcıl olaraq, 2020-ci ilin də “İxrac İli” olaraq elan olunması yeni Dövlət proqramının da məqsədlərinə uyğun olaraq kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracı sahəsindəki proseslərin sosial, iqtisadi və məntiqi nəticəsi olaraq çıxış etməkdədir. Yaxın gələcəkdə isə bu sahədə keyfiyyətcə yeni mərhələnin daha böyük uğurları özünü göstərəcək.

Məlumdur ki, iqtisadi inkişafın müasir mərhələsində mühüm makroiqtisadi məqsədlərdən birini idxalın məhdulaşdırılması və bu əsasda yerli məhsul istehsalının stimullaşdırılması, nəticə etibarı ilə ixracyönümlü məhsul istehsalının həcminin artırılmasından ibarətdir. Buna görə də nəzərdə tutulan tədbirlər məhz kənd təsərrüfatı məhsulları istehsalının artırılması, bununla da, daxili tələbatın ödənilməsi ilə ixrac məhsullarının həcminin artırılmasını hədəfləyir.

Təhlillər göstərir ki, geridə qalan illər üzrə muxtar respublikanın sosial-iqtisadi inkişafında kənd təsərrüfatında bu amillər diqqət mərkəzində saxlanılmış və bu əsasda təmin olunan iqtisadi və hüquqi tənzimləmələr məhz həmin məqsədin reallaşmasına xidmət etmişdir. Və bu istiqamətdə regional inkişaf üzrə Dövlət proramlarının da mühüm təsirə malik olduğunu qeyd edə bilərik. Belə ki, hələ 2014-cü ildə muxtar respublikada tələbatdan çox istehsal olunmuş 95 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur. Bu göstərici müvafiq olaraq:

2015-ci ildə 97 milyon ABŞ dollarından artıq;

2017-ci ildə 101 milyon 478 min 400 ABŞ dolları;

2018-ci ildə 101 milyon 781 min 300 ABŞ dolları;

2019-cu ildə 102 milyon 230 min 400 ABŞ dolları;

2020-ci ildə isə 103 milyon 158 min ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Bu göstəricilərin təşəkkülü milli iqtisadi quruculuq proseslərinin müasir mərhələsində Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının etibarlılığını ifadə etməklə, onun müəyyən olunan hədəflərin əlçatanlığına xidmət etməsini bir daha göstərir.

Təsdiq olunan yeni Dövlət proqramının həyata keçirilməsi üzrə 16 bənddən ibarət olan Tədbirlər Planı da qəbul olunmuşdur. Qeyd edək ki, Tədbirlər Planında kənd təsərrüfatı məhsullarının istehsal, emal və ixrac potensialının gücləndirilməsi, emal olunmuş kənd təsərrüfatı məhsullarının çeşidinin və əmtəəlik göstəricilərinin yüksəldilməsi, ailə təsərrüfatlarının ixracyönümlü məhsul istehsalına təşviq olunması, ixrac bazarları haqqında sahibkarlar və ailə təsərrüfatlarının məlumatlandırılması, ixracyönümlü məhsul istehsalçılarına lazımi şəraitin yaradılması, gömrük yoxlamalarının sadələşdirilməsi, özünüməşğulluq proqramı çərçivəsində aztəminatlı ailələrin məşğulluğu ilə bağlı işlərin davam etdirilməsi və digər zəruri tədbirlərin icrası nəzrədə tutulmuşdur. Həmin tədbirlər, müvafiq strukturların icrası ilə 2021-2025-ci illəri əhatə edəcəkdir.

Kənd təsərrüfatının inkişafı sahəsində tənzimlənmənin həyata keçirilməsi özünün məqsədyönlülüyü, konkret hədəflərə istiqamətlənməsi, qarşıya qoyulan məqsədlərin reallaşması sahəsindəki qətiyyətliliyi ilə daha da önəmlilik daşıyır. Çünki, muxtar respublika əhalisinin 70 faizdən artığı kənd yerlərində yaşayır. Yəni torpağa, kəndə, təsərrüfata bağlı olan və zəhmətkeşliyi ilə strateji mahiyyət kəsb edən məşğulluq imkanlarının artırılmasında fəallıq göstərən insanlar üçün bu Dövlət proqramının müstəsna əhəmiyyəti olacaqdır. Kəndli bir daha biləcək və əmin olacaq ki, o, bir istehsalçıdır, istehsal etdiyi məhsulun bazarı, yəni alıcısı var və bu proses daha səmərəli xarakterə malik olacaq.

Elə Dövlət proqramının icrası, muxtar respublikanın kənd təsərrüfatına gətirəcəyi yeni nəfəslər və işıqlı yol baxımından aşağıdakı nəticələri özündə əks etdirir:

- kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması;
- istehsal olunan məhsulların ixrac potensialının artırılması;
- kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulmasından ibarət olan yüksək faydalılıq göstəricilərini ifadə edir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında kənd təsərrüfatının rolu həm artır, həm də makroiqtisadi dayanıqlılığın gücləndirilməsinə öz töhfələrini verməkdədir. Təbii ki, bu isə ümumilikdə, həm də mezo və makroiqtisadi mahiyyətliliyinə görə daha böyük uğurlar gətirəcəkdir. Bunu mövcud potensial və gələcək perspektivlər də göstərir.

**Cavadxan Qasımov**

***“Dünya iqtisadiyyatı və menecment” kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru***



## KOREYA MƏRKƏZİNDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏRİN MƏZUN GÜNÜ KEÇİRİLİB

Ali təhsil ocağında Cənubi Koreya Mərkəzinin tələbələri üçün məzun günü təşkil edilib. Tədbirin əvvəlində Azərbaycan və Cənubi Koreyanın Dövlət Himnləri səsləndirilib. Daha sonra qabiliyyət yarışması keçirilib. Yarış çərçivəsində rəqs etmək, mahnı oxumaq, Koreya dilində nitq söyləmək, şeir oxumaq və müxtəlif nömrələr təqdim edilib.

Yarışın sonunda tədbir iştirakçılarının səsverməsi nəticəsində qaliblər müəyyənləşdirilib. Qaliblər müxtəlif hədiyyələr və sertifikatlarla mükafatlandırılıblar. Tədbirdə eyni zamanda kursu müvəffəqiyyətlə bitirənlər sertifikatla təltif ediliblər.

Qeyd edək ki, 2011-ci ildə istifadəyə verilən Cənubi Koreya Mərkəzinə yalnız universitet tələbələri deyil, Naxçıvanın istənilən bölgələrindən olan şəxslər də koreya dilini öyrənmək üçün müraciət edə bilərlər. Mərkəzdə 1 il olmaqla Koreya dili dərsləri və Koreya mədəniyyəti dərsləri keçirilir. Dərslərdə tələbələr Koreya filmləri izləmə, yemək hazırlama, milli oyunlar, milli rəqslər və milli musiqi alətlərində çalmaq kimi bir sıra təcrübələrə yiyələnə bilirlər.

# TƏLƏBƏLƏRİN BATABAT ASTROFİZİKA RƏSƏDXANASINA EKSKURSİYASI

Ali təhsil ocağının "Fizika müəllimiyi" və "Fizika" ixtisası üzrə II kurs tələbələrinin AMEA Naxçıvan Bölməsi Batabat Astrofizika Rəsədxanasına ekskursiyası təşkil edilib. Ekskursiyada Rəsədxananın direktoru Fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev tələbələrə rəsədxana haqda məlumat verib. Bildirilib ki, Batabat Astrofizika Rəsədxanası Naxçıvan şəhərindəki inzibati binadan, Batabat stansiyasından və Ordubad rayonu ərazisindəki Ağdərə stansiyasından ibarətdir. Məlumat verilib ki, Batabat ərazisindəki ikimərtəbəli yeni inzibati binada fotometriya və kompüter otaqları fəaliyyət göstərir.Vurğulanıb ki, rəsədxanada müşahidələr əsasən gecə saatlarında aparılır.

Rəsədxana ilə tanışlıq zamanı bildirilib ki, dəniz səviyyəsindən 2050 metr yüksəklikdə və 39 dərəcə coğrafi enlikdə yerləşən rəsədxana binasının günbəzində "SEYYS-600" tipli teleskop quraşdırılıb. Ekskursiya zamanı Qulu Həziyev teleskopun iş prinsipi, istifadə qaydaları haqqında tələbələrə ətraflı məlumat verib. Qeyd olunub ki, muxtar respublika ərazisinin astronomik şəraiti normal, səması təmiz və şəffaf olduğundan digər rəsədxanalardan fərqli olaraq bu stansiyada günəşdən başqa bütün göy cisimlərini və yaxın qalatikaları teleskop vasitəsilə müşahidə və tədqiq etmək eyni zamanda daha dəqiq işləmək mümkündür.

Ekskursiya zamanı diqqətə çatdırılıb ki, Batabat Astrofizika Rəsədxanasının "Fizika" ixtisası üzrə tələbələri hamiliyə götürməsi onların keçdikləri dərslərin təcrübi cəhətdən mənimsəməsi üçün əlverişli mühit formalaşdırır.

Tələbələr tərəfindən maraqla qarşılanan ekskursiyada suallar cavablandırılıb. Sonda xatirə şəkli çəkdirilib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***




# QİYMƏTLİ TƏBİİ SƏRVƏTİMİZ: NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA QUM-ÇINQIL YATAQLARI VƏ TİKİNTİ QUMU

Müasir dövrdə də qum-çınqıl qarışıqları yol tikinti işlərində və beton istehsalında aparıcı xammal növlərindən biri hesab olunur. Çınqıl və qumun əsas istehlakçısı sənaye, mülki və yol tikintisi müəssisələridir. Qum-çınqıl qarışığının içərisində rast gəlinən iri daşlar xırdalayıcı-çeşidləyici zavodlarda xırdalanır və alınmış çınqıl dəmir yollarının tikintisində ballast kimi, müxtəlif markalı adi və xüsusi betonların istehsalında, dəmirbeton və yol tikintisi işlərində istifadə olunur.

İndi artıq demək olar ki, hər gün "xəbərlər" proqramında Qarabağın işğaldan azad olunmuş bölgələrində həyata keçirilən möhtəşəm quruculuq işləri ilə bağlı verilişlərdə də bunu görürük.

Çınqıl və qumlar dağ çaylarının aşağı axınlarında daha geniş yayılmışdır. Qeyd olunan çöküntülər tikinti işlərində, dəmir yollarında ballast material kimi və avtomobil yollarının tikintisi məqsədilə istismar olunur.

Naxçıvan MR-də onların sənaye əhəmiyyətli yığımları Arpaçay, Naxçıvançay, Əlincəçay, Gilənçay, Ordubadçay, Gənzəçay və s. çaylarda aşkar edilmişdir. Bunların böyük əksəriyyəti müasir çöküntülərə aiddir.

Əksər çayların qum-çınqıl çöküntüləri 70% iri daşlardan və çınqıldan təşkil olunmuşdur. Çınqılla birlikdə ümumu kütlənin tərkibində 15%-dən 35%-dək qum müşahidə olunur. Qum-çınqıl qarışığı adətən birlikdə istismar edilir. Çınqılın tərkibi onların daşındığı dağ sistemlərinin təşkil olunduğu süxurların tərkibindən asılıdır. Çınqıllar adətən möhkəm dağ süxurlarının – andezit, qranit, diabaz, kvarsit, sərt mineralların – kvars və s., bəzən isə daha zəif süxurların – əhəngdaşı, qumdaşı və s. hissəciklərindən ibarət olur. Qum-çınqıl çöküntülərinin çatışmayan cəhəti onlarda çoxlu miqdarda iri daşlar və yüksək miqdarda gil və lil hissəciklərinin iştirak etməsidir. Bu isə müvafiq zənginləşmə tələb edir.

Hazırda Naxçıvan MR-də ümumi ehtiyatları 77 387 000 $m^3$ təşkil edən 7 qum-çınqıl qarışığı yatağı kəşf olunmuşdur. Onlar respublika ərazisində aparılan mülki və sənaye tikintilərini tam təmin etməyə qadirdirlər. Bundan əlavə bənd tikintisi işləri üçün ümumi ehtiyatları 14 375 000 $m^3$ olan 2 yatağın və ehtiyatı 12 366 000 $m^3$ olan 1 qum yatağının kəşfiyyatı aparılmışdır.

Qumlar tikinti işlərində betonun hazırlanmasında doldurucu kimi, şose yollarının tikintisində və təmirində, bəndlərin bərkidilməsində, silikat kərpiclərin və əhəngli-qumlu divar bloklarının istehsalında əsas xammal kimi geniş istifadə olunur.

Ən iri qum-çınqıl qarışığı yatağı Naxçıvançay hesab olunur və muxtar respublikada tikintiyə lazım olan qum-çınqıl materialının əsas kütləsi həmin yataqdan daxil olur.

Ordubad yatağı Ordubad dəmiryol stansiyasından 0,4 km şimal-qərbdə, Ordubad şəhərindən 0,3 – 0,4 km cənubda, Ordubad və Kotam çaylarının mənsəbində yerləşir. Yatağın geoloji quruluşunda iri daşların, çınqıl və qumgil qarışığı ilə təmsil olunmuş çöküntülər iştirak edir.

Çınqıl-daş qarışığı çeşidlənmiş xammal kimi dəmir yollarında ballast örtüyünə yararlıdır. İri daşlar isə xırdalandıqdan sonra dəmir yolları üçün ballast kimi istifadə olunan çınqıl istehsalında istifadə oluna bilər.

Yataq hazırda istismar olunur. Yataqda qalıq ehtiyatları 2 921$m^3$ təşkil edir.

Gənzəçay yatağı Ordubad şəhərindən 0,5 km şərq-cənub-şərqdə, Gənzəçayın quru çaybasar hissəsində yerləşir. Yataq 1,2 $km^2$ sahəni əhatə edir və Gənzəçayın Araz çayına qovuşduğu yerdən başlayaraq şimala doğru 50 – 80 m-dən 400 – 600 m-dək enində 4 km məsafədə uzanır. Faydalı qat qalınlığı 1,1 – 5,0 m-ə çatan qayma, ayrı-ayrı iri qırıntılar və çınqıl-qum qarışığından ibarətdir.Yatağın ehtiyatları 5400 000$m^3$ təşkil edir

Betonla aparılan tədqiqatlar göstərir ki, hazırlanmış çınqıllar "300" markadan aşağı olmayan tikinti betonu istehsalı üçün yararlıdır. .

Əylis yatağı Ordubad rayonu ərazisində Ordubad şəhərindən 1,0 – 2,0 km qərbdə yerləşir. Yataqdan 1,0 km cənub-şərqdə Ordubad dəmiryol stansiyası keçir. Yataq Araz çayının sol sahilində, Ordubad və Əylis çaylarının mənsəbləri arasında yerləşərək, 46,3 ha sahəni əhatə edir.



Yataq bölünməyən Müasir və Üst Dördüncü dövr yaşlı kompleks süxurlardan təşkil olunaraq, az və ya çox dərəcədə bərabər paylanmış qayma və çınqıllardan və qum hissəcikləri ilə birlikdə qeyri-bərabər paylanmış lil və gil hissəciklərindən təşkil olunmuş daş-çınqıl-qum qarışığından ibarətdir. Bu qarışıqlar Araz çayı hövzəsinin sol sahilində geniş ərazini əhatə edərək 10 km uzunluğunda sahə əmələ gətirir. Bu sahədə Gənzəçay, Ordubad və Əylis yataqları yerləşir.

Yatağın üst hissəsi 3 – 4 m qalınlığında əsasən böyük miqdarda iri (0,5 m-dən böyük) daşlardan təşkil olunmuşdur. Bu çöküntüləri təcrübi olaraq bir-birindən ayırmaq mümkün olmadığına görə qrunt sularının səviyyəsinə qədər (10 – 20 m) kəşf olunmuş bütün qalınlıq Dördüncü dövr sisteminin bölünməyən Üst və Müasir şöbələrinə aid edilmişdir.

Faydalı qatın qalınlığı kəsilişlər üzrə 6 m-dən 20 m-dək dəyişərək orta hesabla 14,69 m təşkil edir. Faydalı qat bütövlükdə Dövlət Standartının tələblərinə cavab verir və tikinti işləri üçün çay daşlarından çınqıl və qum istehsalı üçün yararlıdır. İstismar zamanı çıxarılmış qumun bir hissəsi (46%) yol tikintisi işlərində istifadə oluna bilər.

Bütün qumlu çöküntülər və ələnmiş qum dəmir və avtomobil yollarının tikintisində drenləşmə qruntu kimi istifadə oluna bilər. Yatağın hidrogeoloji şəraiti əlverişlidir. Faydalı qazıntının karxana daxilində ehtiyatları 6 586 000 $m^3$ təşkil edir.

Azaçay yatağının qum-çınqıl çöküntülərinin geoloji quruluşu çox sadədir. Stratiqrafik cəhətdən burada Üst Dördüncü və Müasir dövr yaşlı çöküntülər iştirak edir. Azaçayın çöküntüləri makroskopik cəhətdən çox möhkəm, iri və müxtəlif ölçülü süxurlardan ibarətdir. Onların ölçüləri bir neçə millimetrdən 1,0 m-dək dəyişir. Yataqda 10%-dən çox olmamaqla əhəng daşlarından və kvarslı qumlardan təşkil olunmuşdur. Yastı və hamar formalara demək olar ki, rast gəlinmir.

Yatağın ehtiyatları 4 374 000 $m^3$ təşkil edir.

Əlincəçay yatağı Culfa rayonu ərazisində Əlincəçay hövzəsində yerləşərək, 26,5 km uzunluğunda 250 – 300 m enində ərazini əhatə edir. Yataq 7 m-dən 12 m-dək olub süxurlardan təşkil olunmuşdur.

Əlincəçay yatağının çınqılları yuyulduqdan sonra bütün növ tikinti işlərində və avtomobil yollarının tikintisində istifadə oluna bilər. İstifadədən əvvəl qumların yuyulması tələb olunur.

Yatağın ehtiyatlı 1 845 000 $m^3$ təşkil edir.

Naxçıvan I yatağı Babək rayonu ərazisində Naxçıvan şəhərindən 1,5 – 2,0 km cənubda, Naxçıvançay hövzəsində yerləşir. Yatağın geoloji quruluşunda Naxçıvançayın çınqıl və lilli çöküntülərlə təmsil olunan Müasir dövr çöküntüləri iştirak edir. Yatağın kəşf olunan dərinliyi 15 m-ə qədərdir. Qum-çınqıl qarışığında qumun miqdarı 26%-dir. Yüngül fraksiya əsasən karbonatlardan, kvars və xloriddən ibarətdir. Yuyulduqdan sonra çınqıl və qumdan "300" markalı beton istehsalında istifadə etmək olar.

Naxçıvan II yatağı Babək rayonu ərazisində Naxçıvan şəhərindən 10,0 – 12,0 km şimal-şərqdə yerləşir. Yatağın kəşf olunmuş hissəsinin uzunluğu 6,3 km, eni isə 150 m-dir. Faydalı qatın kəşf olunmuş qalınlığı 6,0 m-ə çatır. Geofiziki və hidrogeoloji məlumatlara görə Dördüncü dövr çöküntülərinin qalınlığı 50 m-dən çoxdur. Yataq ərazisində Dördüncü dövr çöküntüləri geniş inkişaf taparaq iki şöbə ilə – Üst və Müasir şöbələrlə təmsil olunur.

Naxçıvan II yatağının çınqıllarından adi, ağır və hidrotexniki betonların istehsalında istifadə etmək tövsiyə olunur. Tədqiq olunan qumlar iridənəli qrupa aid edilir. Yatağın qumları yuyulduqdan sonra xırda doldurucu kimi "250" markalı adi və hidrotexniki beton istehsalında istifadə oluna bilər. Üzvi qalıqların yalnız izlərinə rast gəlinir. Yatağın 3,0 – 3,5 m dərinliyində sulara rast gəlinir, sulu horizontun orta qalınlığı 15 m-dir. Su axını karxanada ciddi mürəkkəbləşməyə səbəb olmayacaqdır.

Cəhriçay yatağı bilavasitə Cəhri və Payız kəndlərinin yaxınlığında, Cəhriçay hövzəsində yerləşir. Yataq müasir dövr çöküntüləri ilə mürəkkəbləşərək müxtəlif çökmə (karbonat) və vulkanogen süxurlardan təşkil olunmuş iri daşlar, çınqıl və qumdan ibarətdir. Yataq əsasən əhəngdaşlarından, mergellərdən təşkil olunmuşdur. Üzvi qalıqların yalnız izlərinə rast gəlinir.

Cəhriçay yatağının qumları iridənəli qumlara aid olub, irilik ölçüsü 2,55 – 2,87 arasında dəyişir. Adi və texnoloji sınaqlarda aparılmış tədqiqatların nəticələri göstərir ki, Cəhriçay yatağının çınqıl və qum qarışığı əsas parametrlər üzrə bənd tikintisi üçün nəzərdə tutulan tələbatlara cavab verir. Yataq sənaye istismarına hazırlanmışdır.

Yatağın ehtiyatları 10 000 $m^3$ təşkil edir.

Arpaçay yatağı Şərur rayonunun Dizə kəndindən 400–500 m cənubda, Şərqi Arpaçayın hövzəsində yerləşir. Yatağın geoloji quruluşunda Müasir və Dördüncü dövr çöküntüləri iştirak edir və iri daş-çınqıl və qumlarla təmsil olunmuşdur. Faydalı qat 5 m dərinliyədək öyrənilmişdir. Tərkibində dolomitləşmiş, kristallaşmış əhəngdaşları və əsas tərkibli digər süxurlar təşkil edir.

Arpaçay yatağının çınqılları yuyulduqdan sonra "400" markalı sementdən istifadə etməklə, "225" və "300" markalı beton istehsalında istifadə oluna bilər. Çınqıl və qum yuyulduqdan sonra hidrotexniki beton istehsalına yararlıdır.

Yatağın ehtiyatları 10 409 000 $m^3$təşkil edir.

Pircüvardüzü qum yatağı Babək rayonu ərazisində Naxçıvan şəhərindən 7 km cənub-şərqdə yerləşir. Faydalı qat Orta və Üst Dördüncü dövr yaşlı, əsasən xırda və orta dənəli qumlardan təşkil olunmuşdur. Yatağın cənub-şərq və şərq hissələrində müxtəlif formalı təpələr uzanır və onun quruluşunda orta Dördüncü dövr yaşlı yaşılımtıl-boz rəngli incə və xırdadənəli qumdaşları iştirak edir. Faydalı qat morfoloji cəhətdən dəyişkən quruluş və keyfiyyətə malik layşəkilli formada olub, qranulometrik tərkibinə görə 2 qata bölünür.

Üzvi qalıqlar və kükürdlü birləşmələrə rast gəlinmir.

Bəzi sınaqlar üzrə 5 mm-dən yuxarı dənələrin miqdarının yüksək olduğunu və tək-tək sınaqlarda isə 10 – 15 mm-lik çınqıllara rast gəlindiyini nəzərə alaraq istifadədən əvvəl qumların yuyulması vacibdir.

Pircüvardüzü yatağının qumlarından ilkin yuyulmadan sonra "200" markadan aşağı olmayan beton istehsalında istifadə etmək olar. 10 – 20 mm-lik çınqıl fraksiyasından istifadə olunarsa, daha yüksək markalı beton almaq mümkündür.

Beləliklə, yuxarıda verilən məlumatlardan da bir daha aydın olur ki, Azərbycanımızın qədim diyarlarından olan Naxçıvan MP digər təbii sərvətlərlə yanaşı çox mühüm tikinti materialı olan qum-çınqıl yataqları ilə də zəngindir. Bu yataqların ehtiyatı kifayət qədə böyükdür və muxtar respublikanın qum və çınqıla olan tələbatını bundan sonra da uzun illər boyu ödəməyə yetərlidir. Muxtar respublikamızda müstəqilik dövründə ən son texnologiyalar əsasında sement zavodunun da inşası tikinti işləri və beton istehsalı qarşısında geniş imkanlar açır.

**Tofiq Əliyev**
***AMEA NB Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor***

**Bayram Rzayev**
***AMEA NB Təbii Ehtiyatlar İnstitutunun Elmi işlər üzrə direktor müavini, kimya üzrə elmlər doktoru***

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ DİLLƏRİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

Respublikada dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev hələ sovet dövründə mərkəzin ciddi müqavimətinə baxmayaraq, respublikamızda Azərbaycan dilinin dövlət dili statusunun 1978-ci il Konstitusiyasında əks olunmasına nail ola bilmişdi. Müstəqil Azərbaycan dövlətinin ulu öndərin rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş yeni Konstitusiyasında isə dövlət dili haqqında ayrıca bənd verilmişdir. Müasir dövrümüzdə qloballaşma prosesi inkişaf etdikcə müxtəlif millətlər və cəmiyyətlər, irqlər və ölkələr arasında ictimai-siyasi, sosial-mədəni və digər əlaqələr yeni mahiyyət qazanır. Cəmiyyətin bütün sahələrində olduğu kimi təhsil sahəsində də, mühüm dəyişikliklər baş verir, şəxsiyyətin formalaşmasına, müəllim-tələbə münasibətlərinə, qaabaqcıl təcrübə mübadiləsinə, elm və təhsilin milli-bəşəri məzmununa qloballaşmanın bir sıra prinsipləri əhəmiyyətli dərəcədə təsir göstərir.

Azərbaycan milli müstəqilliyə nail olduqdan sonra beynəlxalq əlaqələrin genişlənib inkişaf etməsi xarici dillərin, xüsusilə ingilis dilinin tədrisində yeni pedaqoji və psixoloji forma və üsulların tətbiqini zəruri edir. Bu həm də müəllim-tələbə münasibətlərinin də inkişaf tempinə müsbət mənada təsir etməklə yanaşı, onu müasir dünya təhsilinin tələblərinə uyğunlaşdırır. Bu baxımdan qloballaşma şəraitində milli təhsil məkanında xarici dillərin, o cümlədən ingilis dilinin tədrisi prosesində həm müəllim, həm də tələbə beynəlxalq təhsil sistemina daha çox meyl edir. Müəllim-tələbə münasibətləri nə qədər qlobal prinsiplərdən bəhrələnsə də, bu formalaşma milli zəmindən gen düşməməli, milli-mənəvi və tarixi-genetik əlaqələr unudulmamalıdır.

Qloballaşma milli dillərə və ümumən mədəniyyətlərə, ilk növbədə paradokslarla daxil olur. Ziddiyyətlər, görünən və görünməyən qarşıdurmalar yaradır. Mahiyyət isə bundan ibarətdir ki, qlobal-bütün dünya üçün ümumi, universal olan hadisə insan üçün maraqlı və cəlbedicidir.

Fikrimcə, təbii-tarixi bir proses olan qloballaşmadan çəkinmək, ona qarşı çıxmaq çıxış yolu deyil.

Qloballaşma bütün milli istiqamətlərdən, o cümlədən milli dil mövqeyindən təqdir olunmalıdır. Əvvəlcə qeyd etdiyimiz kimi, qloballaşmaya qarşı çıxmaq dilimizin milli xüsusiyyətlərini qorumaq deyildir. Qloballaşma şəraitində dilə xüsusi diqqət və qayğı lazımdır. Odur ki, "Azərbaycan dilinin qlobal-



laşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının hazırlanıb Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilməsi çox mühüm tarixi hadisədir. Müasir dövrün tələblərini, konkret olaraq, qloballaşma prosesinin fəlsəfəsini nəzərə alan Dövlət proqramının məqsədi "Azərbaycan dilinin istifadəsinə və tətbiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual prblemləri ilə əlaqələndirilməsini təmin etməkdir. Dövlət Proqramının əsas vəzifələrindən biri də qloballaşma şəraitində Azərbaycanda dil situasiyasının və dillərin qarşılıqlı əlaqəsinin öyrənilməsinin intensivləşdirilməsidir. Dövlət Proqramında yer almış bütün bu məsələlər, ümumiləşdirilmiş şəkildə dil siyasətinin tərkib hissəsidir.

Hər keçən gün informasiya texnologiyalarının sürətli inkişafı, dünyada informasiya kütləsinin və sürətinin artması, aparıcı dillərin bu informasiya kütləsində hakim mövqedə dayanması dilimizin dayanıqlılığının artırılmasını vacib şərtə çevirir. Eyni zamanda, rus dilinin dilimizə təsiri hələ də hiss edilməkdədir. Xarici dillərə marağın artması, Türkiyə türkcəsindən qarşılığı olduğu halda söz almağımız və kütləvi şəkildə ədəbi danışıqda işlədilməsi və bu kimi faktlar Azərbaycanda dil situasiyasının aydın mənzərəsidir. Biz ölkədə Azərbaycan dili əsasında sabitləşmiş dil situasiyasını tam bərqərar etməliyik.

Bu gün dünyada 50 milyondan çox soydaşımızın olduğunu nəzərə alsaq, dilimizin həmrəyliyimiz üçün nə qədər mühüm bir əhəmiyyətə malik olması müqayisəedilməzdir.

Müasir dünyada gedən qloballaşma prosesləri şəraitində Azərbaycan dilinin işləkliyinin təmin edilməsi, saflığının qorunması, tədqiqinin dərinləşdirilməsi Prezident İlham Əliyevin bir il əvvəl imzaladığı Dövlət Proqramının əsas qayəsini təşkil edir.

İngilis dilinin, amerikan mədəniyyətinin hegemonluğu cəmiyyətdə müəyyən narahatlıqlar doğurur. Lakin, unutmaq olmaz ki, qloballaşmadan imtina dünyanın ümumi inkişafından geri qalmaqla nəticələnə bilər. Ümumiyyətlə, qloballaşma heç də dinlərə, dillərə, mədəniyyətlərə sədd çəkmir. Qloballaşma özünün sosial-fəlsəfi mahiyyəti ilə çox geniş sahələri, o cümlədən tədris prosesini əhatə edən dünyəvi bir hadisədir. Bu prosesdə baş verən inteqrasiya və differensasiya meylləri tələbə-müəllim münasibətlərində, dillərin tədrisində, şəxsiyyətin formalaşmasında yeni təhsil modelinin beynəlxalq standartlara uyğunlaşmasını təmin edir.

**Rübabə Məmmədova**
***"İngilis dili və metodika" kafedrasının baş müəllimi***

# İNGİLİS DİLİNİN TƏDRİSİNİN VƏ DİL TARİXİ FƏNNİNİN ƏHƏMİYYƏTİ

Müasir dövrümüzdə aparıcı dillərdən biri olan ingilis dili mahiyyət etibarilə qlobal dil hesab olunur. İstər Böyük Britaniyanın vaxtilə apardığı müstəmləkə siyasəti, istərsə də Amerika Birləşmiş Ştatlarının iqtisadi, siyasi manevrləri ingilis dilinin əhəmiyyətini və əhatə dairəsini illər keçdikcə daha da genişləndirməkdə davam edir. İngilis dili müasir dövrümüzdə diplomatiyanın, kommersiyanın, elm və texnikanın, mətbuatın dili hesab olunur. İstər dəqiq elmlər, istərsə də humanitar elmlər sahəsi ədəbiyyatlarının əksəriyyəti bu dildədir. Əksər dillərin leksikonuna ingilis dilindən alınma terminlər, sözlər daxil olmuşdur. Bu gün ingilis dili gənc nəslin ünsiyyət dilidir.

Texniki terminologiyanın əksəriyyəti ingilis dilindədir. Buna nümunə olaraq qeyd etməliyəm ki, müəllifinin hansı ölkə vətəndaşı olmasından asılı olmayaraq, əgər siz dünyada baş verən iqtisadi, siyasi xəbərlər, ən son inkişaf və kəşflərdən xəbər tutmaq istəsəniz, bu məlumatları yalnız ingilis dilində nəşr olunmuş məcmuələrdən və bu sahələrə dair tədqiqat işlərinin nəticələrinin dərc olunduğu jurnallardan əldə edə bilərsiniz.

Statistikaya nəzər salsaq görərik ki, Hind-Avropa dil ailəsinin german dilləri qrupuna aid olan ingilis dili 410 milyon insanın ana dili, 1 milyard insanın isə ikinci dilidir. Ana dili meyarına əsasən ingilis dili çin və ispan dillərindən sonra üçüncü sıradadır. İngilis dili ABŞ, Birləşmiş Krallıq, Kanada, Avstraliya, Yeni Zellandiya və İrlandiyanın əhalisinin mütləq əksəriyyətinin ana dili, Sinqapurun dövlət dili olmaqla yanaşı həm də Karib adaları, Afrika, Cənubi Asiya, Cənub-Şərqi Asiya və Okeaniyanın bəzi hissələrində geniş şəkildə ünsiyyət vasitəsi kimi istifadə olunur. BMT-nin 6 rəsmi və işçi dili vardır ki, onlardan biri də ingilis dilidir; Avropa İttifaqı və başqa qlobal, həmçinin regional əhəmiyyətli beynəlxalq təşkilatların işçi dilləri sırasındadır.

Dillərin analitik tipinə aid olan ingilis dilinin leksikonunun 70%-i alınma sözlərdən ibarətdir. İngilis dilində danışanlar "anqlofonlar" adlandırılır. Müxtəlif ölkələrdə və müxtəlif xalqların istifadə etdikləri ingilis dilinin fərqli aksent və dialektləri vardır. Eləcə də lüğəvi, idiomatik, qrammatik və orfoqrafik müxtəlifliklər də mövcuddur. Bütün bunlara baxmayaraq həmin xalqlar aksent və dialektindən asılı olmayaraq bir-birlərini anlayır və rahatlıqla ünsiyyət qura bilirlər.

Məhz yuxarıda sadaladığımız səbəblərdəndir ki, istənilən dilin mövcud mövqeyi, istifadə dairəsi, keçdiyi inkişaf yolu və sair məsələləri aydınlaşdırmaq üçün həmin dilin tarixi inkişaf mərhələlərinə nəzər salmaq lazım gəlir. Buna görə də ali məktəblərdə "Xarici dil müəllimliyi" ixtisaslarının tələbələri üçün "dil tarixi" fənninin tədrisinə də yer verilir.

İstənilən xarici dildə işlədilən atalar sözlərinin, məsəllərin, idiomların, frazeoloji birləşmələrin, hətta lətifələrin belə tam mahiyyətini anlamaq üçün bu məfhumların əsasında dayanan tarixiliyi, necə yaranması və dilin leksikonuna daxil olma səbəblərini araşdırmaq-tarixinə nəzər salmaq lazım gəlir.




"Dilin tarixi xalqın tarixidir"- deyiblər. Hər hansı bir dilin tarixini bilmək həmin dildə danışan xalqın tarixini, təkamül yolunu öyrənmək deməkdir. Məsələn, alınma sözlərin dilə necə daxil olması birbaşa tarixi səbəblərdən asılı olur; ingilis dilində modal feillərin dəyişməməsinin səbəbi onların alınma sözlər olmasıdır. Bundan başqa sözlərin qrammatik quruluşu, dilin qrammatik qanunlarına tabe olmayan sözlərin mövcudluğu da məhz həmin dilin tarixinə nəzər salmağa əsas yaradır.

İngilis dilinin tarixi Proto-Germanic (Əski ingiliscə), Middle English (Orta əsrlər ingiliscəsi) və Modern English (müasir ingiliscə) olmaqla müxtəlif inkişaf mərhələlərindən keçmişdir.

İngilis dilinin ən qədim forması Old English (Əski İngiliscə) və Anqlo-sakson adlanır. V əsrdə anqlo-saksonların Britaniya ərazisində məskən salması və Roma iqtisadiyyatı və hakimiyyətinin süqutu ilə ingilis dilinin VII əsrdən başlayaraq anqlo-sakson variantı dominant dil kimi Britaniyada selt və latın dillərini əvəz etdi. "İngiltərə" və "ingilis" sözləri anqlların şərəfinə belə adlandırılıb.

İngilis dilinin əlifbası VII əsrdən latın qrafikasına əsaslanır. Orta əsrlərin əvvəllərində əlavə hərflərdən istifadə olunsa da, sonralar təkmilləşmə nəticəsində sıradan çıxmışlar. İngilis dili üçün xarakterik olan qısa sözlərin əksəriyyəti bu dilə alman tayfalarının dilindən keçmişdir və əsasən gündəlik danışıq dilində və jarqonlarda istifadə olunur. Daha çox elmdə və publisistikada istifadə olunan uzun sözlər isə ingilis dilinin leksikonuna fransız və latın dillərindən keçmişdir. Bu gün ingilis dilində işlənən sözlərin 45%-i fransız dilindən alınma sözlərdir.

İngilis dilinin erkən müasir dövründə bu dil daha da sadələşmiş, sait səslər-xüsusən də uzun saitlərin tələffüzündə dəyişiklik baş vermişdir. V Henrinin dövründə ingilis dilinin nüfuzu daha da artdı. 1476-cı ildə Londonda ingilis dilində ilk kitablar nəşr olundu.

Müasir dövr ingiliscəsi XVIII əsrin sonlarında Britaniya İmperiyası vasitəsilə koloniyalarda və geosiyasi dominantlıq vasitəsilə bir sıra ölkələrdə geniş yayılmağa, ticarətin, elm və texnikanın, diplomatiyanın, incəsənətin dili olmağa başladı.

Düzdür, bu gün sözdə və əməldə haqq səsimizi beynəlxalq aləmə çatdırmaq üçün xarici dilləri öyrənməliyik. Lakin xarici dilləri öyrənərkən xüsusilə gənc nəsil ana dilini daha çox sevməli, dəyər verməli və qoruyub-saxlayaraq gələcək nəsillərə miras kimi ötürməlidir.

**Bülbül Hacıyeva**
***"İngilis dili və tərcümə" kafedrasının baş müəllimi***

# XARİCİ DİL ÖYRƏNMƏK ZƏRURİ VƏ FAYDALIDIR

Xarici bir dil öyrənməyin insan üçün faydalarından biri beyin gücünü artırmasıdır. Yəni, insan yeni bir dil öyrəndiyi zaman beyinin müxtəlif bacarıqları inkişaf etməyə başlayır. Yeni xarici bir dil öyrəndiyimiz zaman beynimiz öyrəndiyimiz asan və çətin sözləri, qarışıq qrammatika qaydalarını anlayır, qavrayır və daha sonra müəyyən bölmələrdə bu məlumatları saxlamalı olur. Bu proses davamlı olaraq baş verdiyi üçün də zamanla beyinin məlumatlararası əlaqə qurma, məntiqi düşünmə, bir problemi tez və effektiv bir yolla həll etmək kimi bacarıqları sürətlə inkişaf etməyə başlayır, beyinin funksiyaları inkişaf edir, yaddaş güclənir. Araşdırmalara görə, bir və ya bir neçə dil bilən insanlar daha multifunksional olur. Bunun səbəbi isə, yuxarıda qeyd etdiyimiz xarici bir dil öyrənmənin beyin gücü və yaddaşı inkişaf etdirə bilmə bacarıqlarıdır.

Dil, bizim dünyaya baxışımızı və onu necə dərk etdiyimizi müəyyənləşdirir. Buna görə də bir insan birdən çox dil bildiyində onun üçün dünyaya açılan pəncərə də birdən çox olur. Bu isə müqayisə edilməyəcək qədər zəngin bir həyat deməkdir. Qeyd edim ki, 2 dil bilən insanlara bilinqv, 2 dildən çox dil bilənlərə polilinqv, 6 dildən çox dil bilənlərə isə poliqlot deyirlər.

İngilis dili "beynəlxalq ortaq dil" statusunu qazanmış ilk dildir, yəni başqa dillərdə danışan insanlar arasında ortaq ünsiyyət vasitəsidir. Bu dil 53 ölkənin və BMT də daxil olmaqla əksər beynəlxalq təşkilatların əsas rəsmi dillərindən biridir. İngilis dili elmin, incəsənətin, diplomatiyanın, turizmin və bir çox başqa sahələrin də dilidir. Dünya təcrübəsindən faydalanmaq, elmi mübadilə aparmaq, yaxşı bir karyera imkanı üçün bu dili bilmək vacibdir. Yəni istər elmi biliklərin öyrənilməsində, istər diplomatik münasibətlərin, istər ticari, iqtisadi əlaqələrin qurulmasında, xarici ölkələrə səfərlərdə dünyanın hansı uzaq nöqtəsi olur-olsun, ingilis dili əvəzedilməz funksiya ifa edir. Dünyanın önəmli olan təşkilatları və digər lazımı yerlərin internet saytları var və həmin internet saytların ingilis dili versiyası da vardır. Bu səbəbdən də bu dili öyrənməklə nələri əldə edəcəyimizi aydın şəkildə başa düşə bilərik. Bu dili bilmək insanlar üçün yeni təhsil və iş imkanları yaradır. İnternetdə olan məlumatın xeyli hissəsi ingilis dilinin payına düşür. Dünyanın ən tanınmış akademik jurnalları İngiliscə yayımlanır. Ən yeni, ən son nəşr edilən kitablar hər mövzuda İngiliscə çap olunur. Təkcə Vikipediyada 4.4 milyon İngiliscə məqalə var. Bu informasiya çoxluğunun həyatımızda nə qədər əhəmiyyətli dəyişikliklərə təsir edə biləcəyini təsəvvür etmək çətin deyil. Media sənayesinin dili ingilis dilidir. Yeni çıxan filmlərin böyük əksəriyyəti ilk olaraq ingilis dilində tamaşaya qoyulur. Bu dili bilən şəxs xarici filmləri, televiziya proqramlarını, kitabları, mahnıları başa düşmək üçün tərcüməyə ehtiyac duymayacaq.

Ümummilli lider Heydər Əliyev dilimizi yüksək qiymətləndirərək çıxışlarında qeyd edirdi ki, hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dahi rəhbərin fikrincə, hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Heydər Əliyev öz ana dilini bilməyənləri şikəst adamlar adlandırırdı. Şübhəsiz, ana dili bizim varlığımızı, kimliyimizi, şəxsiyyətimizi sübut edən əsas "pasport"dur. Ancaq bununla yanaşı o çox gözəl deyirdi: "Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis, Puşkini rus, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun."

Dünyaya inteqrasiya etmək, mədəniyyətlərarası əlaqələr və fərqli dünyagörüşləri tuta bilmək, üfüqü genişləndirmək üçün bir və ya bir neçə xarici dili bilmək bacarığı, xüsusilə də ingilis dili zamanın tələbinə uyğun prioritet məsələlərdəndir. Tanınmış filosof Sokratın da məşhur aforizminə istinad etsək, neçə dil bilirsənsə, o qədər insansan. "Vashington Post" qəzetinə görə yazılı nəşrlər üçün ən çox seçilən dil İngilis dilidir. İngilis dili həm də dünyanın müxtəlif ölkələrindən olan oxucu kütləsini birləşdirir. İngilis dili elm, riyaziyyat, texnologiya, turizm, maliyyə, iş və saysız-hesabsız sahələri də birləşdirir. Bu ticarət sahələrinin hər biri, sənayenin beynəlxalq səviyyədə inkişafı, ünsiyyət qurmaq üçün İngilis dilini ortaq bir dil olaraq istifadə edir. İnternetdə İngilis dili ən çox istifadə olunan dildir. İngilis Dili Mərkəzi tərəfindən paylaşılan statistika göstərir ki, dünyanın ən çox baxılan veb saytlarının 52% -i ingilis dilində göstərilir. İnsanların hansı xarici dili seçməsi bir çox səbəblərdən–coğrafiyadan, şəxsi maraqlardan, ailə bağlarından müəyyən qədər asılı olsa da, iqtisadi və peşə amilləri daha həlledici rol oynayır. Qlobal mühitdə ingilis dilinin gələcəyi, inkişaf perspektivləri ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi yanaşmalara görə, yaxın illərdə bu dildə sərbəst danışanların sayı 3 milyarda çatacaq. Bütün fəaliyyət sahələrində ingilis dili hakim mövqeyə yüksələcək. Digər yanaşmalarda isə, ingilis dilinin müxtəlif variantlarının mövcud olduğuna diqqət çəkilir. Hesab edilir ki, yaxın gələcəkdə bu variantlar arasında fərqlər daha da artacaq, əsas rəqabət isə Britaniya və Amerika variantları arasında gedəcək.

Günün tələbi olan ingilis dilinin tədrisinə Naxçıvan Dövlət Universitetində də xüsusi diqqət yetirilir, bu dilə olan maraq tələbələr arasında da çoxdur. Universitetdə peşəkar ingilis dili mütəxəssisləri çalışır, ayrıca Xarici dillər korpusu var və ən son avadanlıqlarla təchiz edilmiş multimedia otaqları, linqafon kabinələr mövcuddur. Naxçıvan Dövlət Universitetində tədrisi ingilis dilində olan İqtisadiyyat ixtisası açılmış, belə ixtisasların gələcəkdə də açılması nəzərdə tutulur. Bu həm artan elmi, iqtisadi, diplomatik əlaqələrin gücləndirilməsi üçün ingilis dilli kadrlara olan ehtiyac, həm də Naxçıvan Dövlət Universitetinin uğurlarının davamıdır.

**Röya Quliyeva**
***"İngilis dili və metodika" kafedrasının müəllimi***

# ƏLYAZMALARIMIZ XALQIMIZIN MİLLİ XƏZİNƏSİDİR

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda 600-dən çox qədim əlyazma və çap kitabı saxlanılır. Bunların arasında Naxçıvanın tarixi və mədəniyyəti ilə bağlı bir sıra tədqiq olunmamış əlyazma, qədim kitab və məktublar vardır. Fondda toplanılan əlyazmaları aşağıdakı kimi qruplaşdırmaq olar.

a) Tarix, dil və ədəbiyyat;
b) Məntiq, fəlsəfə və tibb;
c) Təfsir və hədis;
d) Fiqh və ilahiyyat;
e) Həndəsə, coğrafiya və astronomiya

Fondda mühafizə olunan "Qürrətül-əbsar" əsərinin müəllifi 1847-ci ildə anadan olmuş naxçıvanlı Molla Məhəmməd Naxçıvanidir. Molla Məhəmməd Naxçıvani Azərbaycan dilində üç cilddən ibarət kitab yazmışdır. Birinci cilddə Həzrəti Məhəmməd (s), İmam Əli (ə), Həzrəti Fatimə (ə) İmam Həsən (ə) və İmam Hüseyn (ə) həyatları barəsində danışılır. Bu əsər iki adla adlandırılmışdır: "Qürrətül-əbsar" və "Dürrətül-əbrar". 1895- ci ildə şairin sağlığında Təbrizdə çap edilmişdir. İkinci cild "Səhabəd-Dumu" adlandırılmışdır ki, Kərbəla faciəsi barəsindədir. Üçüncü cild isə "Məzahirül-ənvar fi əqaidul-əxyar" adlandırılıb. Bu kitabın əsas mövzusu əqidə və imanın əsaslarından ibarətdir. Molla Məhəmməd Naxçıvani özünün bu əsərində ərəb və fars dillərində olan şeirlərinə də yer vermişdir. Molla Məhəmməd Naxçıvaninin 1913- cü ildə 66 yaşında Kərbəlada vəfat etdiyi göstərilir. Qəbri Nəcəfi Əşrəfdədir.

Naxçıvanlı müəlliflərin bəziləri haqqında əlimizdə az qaynaq olduğundan onların həyatı barədə dəqiq məlumata malik deyilik. Lakin buna bxmayaraq bəzi faktlara söykənərək onlar haqqında müəyyən qənaətlərə gəlmək olar. Məsələn, Mirzə Məhəmməd Haşim ibn Müseyib Naxçıvaninin əsərinin sonunda göstərilən tarixdən (1805) və möhrdən bu qənaətə gəlmək mümkündür ki, O, XVII əsrinin ikinci yarısı, XVIII əsrin əvvəllərində yaşamış, dövrünün yaradıcı ziyalılarından biri olmuşdur. Onun fondda saxlanılan əsərinin adı "Həqaiqi-ət-tarix" olduğu ehtimal olunur. Əsərin əvvəlindən vərəqlər düşdüyü üçün onun adını dəqiq şəkildə müəyyən etmək çətindir. Əsər mövzu etibarilə islam tarixini əhatə edir. Ərəb-fars dilində yazılmış bu əsərdə Şərq paqinasiya (vərəqləmə) üsuluna tam əməl olunmuş, yəni sonrakı vərəqin ilk sözü əvvəlki vərəqin aşağı hissəsində yazılmışdır. İslam tarixini əhatə edən bu əsər 20 məclisdən ibarətdir. Başlıqlar qırmızı rənglə verilmiş, aşağısından xətt çəkilmişdir.



Məhəmməd Həsən astronomiyaya aid əsəri isə 1860-cı ildə yazmışdır. Əsərin müəllifinin Naxçıvanın dilbər guşələrindən biri olan Ordubad şəhərindən olduğu aşkarlanmışdır. Əsərin sonunda göstərilən tarixə əsasən Məhəmməd Həsən Ordubadinin XIX əsrin birinci yarısında, təqribən 1780-1860-cı illərdə yaşayıb fəaliyyət göstərdiyini təxmin etmək olar. O bir alim, maarifpərvər ziyalı kimi öz dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuşdur. M.H.Ordubadi şərq dillərini öyrənmiş və bir sıra görkəmli alimlərlə fikir mübadiləsi etmişdir. Müəllifin ərəb dilində, nəstəliq xətti ilə yazılmış 73 səhifəlik bir əsəri əlyazma şəklində bizə çatmışdır. Əsərin həm əvvəlindən, həm də sonundan bir hissəsinin düşməsi səbəbindən onun adını müəyyən etmək mümkün olmamışdır. Bununla belə müəllifin astronomiyadan bəhs edən həmin əsəri istər öz dövrü üçün, istərsə də özündən sonrakı dövrlər üçün əhəmiyyətli olmuşdur. Əsərin müqəddiməsindəki açıqlamadan məlum olur ki, həmin dövrdə Ordubad şəhərində Əl-Həqiqət adlı məşhur elm mərkəzi olmuşdur. Məhəmməd Həsən Ordubadi bu mərkəzin ən görkəmli aparıcı simalarından biri kimi fəaliyyət göstərmişdir. Tərtib olunmuş bu əsər isə həmin elm mərkəzində, təlim və tədris vasitəsi kimi istifadə edilmişdir. Əsər mövzu baxımından dəqiq və hümanitar elmləri əhatə edərək astronomiya, həndəsi fiqurların fəza nəzəriyyəsi, riyaziyyat və coğrafiyanın müxtəlif sahələrinə aiddir. Müəllif müqəddimədə özündən əvvəl yaşamış və dövrünün bəzi alimlərinin adını çəkmiş, Ömər Xəyyam, Sufi Əbdülrəhman, Bəhmənyar, Əbu Əli ibn Sina, Ptolomey və onların nəzəriyyələrinin müqayisəli şəkildə təhlil etmiş, həmçinin özünün bu nəzəriyyələrə münasibətini bildirərək obyektiv nəticə çıxarmağa çalışmışdır.

Əsər iki əsas bölmədən ibarətdir. Hər bir bölmənin müqəddiməsində onun nədən bəhs etdiyi və neçə məqalədən ibarət olduğu açıqlanmışdır. Həmin məqalələrin müqəddimələrinin qısa məzmunu aşağıdakı kimidir:

Birinci bölmə: Kainatın quruluşu, göy cisimlərinin daxili və müstəvi hərəkətləri, ulduzlar barəsində bilgi, ulduzların hərəkət dairələri və bu hərəkətlərin mərhələləri haqqında. Bu bölmə beş məqalədən ibarətdir.

İkinci bölmə: Yer kürəsi və ona aid olan tədqiqatlar haqqında. Yer kürəsinin ölçüləri, yeddi iqlim və onun xassələri, hüdudları, başlanğıc və son nöqtələri. Bu bölmə üç məqalədən ibarətdir.

Fondda saxlanılan digər qiymətli əlyazma Naxçıvan MR Ali Məclisinin Sədri tərəfindən hədiyyə edilmiş, Məhəmməd Tağı Sidqinin məktubunun avtoqrafıdır. 14 may 1896-cı ildə Azərbaycan dilində ərəb qrafikası ilə yazılmış bu məktub 20 səhifədən ibarətdir. Məktubda maarif və mədəniyyət məsələlərindən bəhs olunur.Naxçıvanda maarif işlərinin təşkilinə dair bəzi təkliflər verilir.

Naxçıvanlı müəlliflərin nəsillərdən nəsillərə keçərək bu günədək gəlib çatan qədim əlyazma və çap kitabları xalqımızın milli sərvətidir. Onların öyrənilməsi və təbliği naxçıvanşünaslığın vacib məsələlərindən biridir.

**Fəxrəddin Eylazov**
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu Əlyazmaların toplanması şöbəsinin müdiri***

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA FARSDİLLİ TƏRCÜMƏLƏRİN TARİXİ

Öz milli kökləri üzərində inkişaf edən Azərbaycan ədəbiyyatının tərəqqisində milli-ədəbi ənənələrlə yanaşı, digər xalqların ədəbiyyatının mütərəqqi ideyalarından faydalanmanın da rolu danılmazdır. Belə ki, ictimai-siyasi birgəyaşayış tərzindən dolayı bir çox ədəbi-bədii nümunələrimiz digər dillərə tərcümə edildiyi kimi, sözügedən xalqların ədəbi mənbələri də mədəniyyətimizin, o cümlədən ədəbiyyatımızın inkişafında əsas amil qismində çıxış etmişdir. Qarşılıqlı təsir nəticəsində ədəbiyyatımızı zənginləşdirən belə ədəbi sərvətlərdən biri də fars ədəbiyyatı örnəkləridir.

Qlobal mədəniyyət hadisəsinə çevrilmiş minillik ənənələrə malik fars ədəbiyyatı, əsasən, Şərq-İslam təfəkkür sintezinin məhsulu olaraq tarixin müxtəlif mərhələlərində lokal ədəbi fikrin formalaşmasında, ayrı-ayrı milli söz sənəti xəzinələrinin yeni incilərlə zənginləşməsində bu və ya digər dərəcədə rol oynamışdır. Fars ədiblərinin yaradıcılığının təsiri, tarixi-sosial şərtiliklərdən dolayı, müəyyən dönəmlərdə yaddilli əsərlərin çəkisi yüksək olmuş, Azərbaycan söz sənətindən də yan ötməmişdir. Bu sahədə özünəməxsus yeri olan tərcümə sənətinin tarixi zərurət kimi ortaya çıxmasını şərtləndirən başlıca amil isə Azərbaycan türklərinin əsrlər boyu ərəblərlə yanaşı, farslarla da sıx ədəbi-mədəni əlaqədə olması və müştərək İslam mədəniyyətinin yaranmasında bilavasitə iştirakı olmuşdur. Hələ erkən orta əsrlərdən etibarən ana dilimizə olunan farsdilli tərcümə abidələri yazılı ədəbi dilimizin inkişaf tarixində də mühüm yer tutmuş, onun yeni-yeni anlayışlarla zənginləşməsində müstəsna rol oynamışdır. Orta yüzilliklərdə fars dilindən çevrilmiş əsərlərin - bədii ədəbiyyat nümunələrinin üstünlük təşkil etməsinin başlıca səbəbi isə həmin dövrdə fars dilinin Yaxın və Orta Şərq ölkələrinin böyük əksəriyyətində şer dili kimi geniş nəşət tapması ilə bağlı idi. Bir sıra digər xalqlar kimi Azərbaycan türklərinin də XII əsrdən etibarən sənət örnəklərini daha çox fars dilində qələmə almaları məhz bundan qaynaqlanırdı. Azərbaycan alim və şairləri uzun müddət öz bədii və elmi əsərlərini fars dilində yazmış və bu dildə ədəbiyyatımızın gözəl nümunələrini yaratmışlar.

XI əsrdən başlayaraq təkcə Azərbaycan deyil, hind, əfqan, özbək və türk şairləri də öz əsərlərini yeni fars-dəri dilində yazmışlar. Qədim və Orta fars dillərindən fərqlənən bu dil Yaxın Şərqdə uzun müddət şeir dili olmuşdur. Azərbaycan xalqının da bir çox qüdrətli sənətkarları, o sıradan xalqımızın ölməz şairi və dahi mütəfəkkiri Nizami Gəncəvi əsərlərini fars-dəri dilində yaratmışdır.

Nizami adına Ədəbiyyat və Dil İnstitutu əməkdaşları Nizami irsinin Azərbaycan dilinə tərcümə edib geniş oxucu kütləsinə ana dilində çatdırılmasında zəhməti çox olmuşdur. Səməd Vurğun, Abdulla Şaiq, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Mikayıl Rzaquluzadə kimi görkəmli şairlər Nizami poemalarının poetik tərcümələrini Azərbaycan oxucularına təqdim etmişlər.

Fars dilindən edilmiş bədii tərcümələrin üstünlük təşkil etməsini şərtləndirən amillərdən biri də sözügedən dildə qələmə alınmış sənət nümunələrinin Yaxın və Orta Şərq ölkələrində geniş məkan koordinatını əhatə etməsi və böyük şöhrət qazanması idi. Fars-tacik klassik şeirinin fəxri Firdovsinin hikmət və gözəllik aşiqlərini öz pərəstişkarlarına çevirmiş "Şahnamə"sinin qəhrəmanlıq dastanı, Nizaminin "Xosrov və Şirin"inin məhəbbət, Sədinin "Gülüstan"ının isə hikmət xəzinəsi kimi şöhrət tapması buna əyani sübutdur. Məhz bu səbəbdən dolayı orta yüzilliklərdə sözügedən əsərlərin hər üçünün türk dillərinə müxtəlif tərcümələri ortaya çıxmışdır. Həmin tərcümələr içərisində Seyf Sərainin "Gülüstan" (XIV əsr), Qütbün "Xosrov və Şirin" (XIV əsr) və Şərifinin "Şahnamə" (XV əsr) tərcümələri xüsusilə əhəmiyyətlidir.

Azərbaycan tərcümə ədəbiyyatı tarixində XIII əsr tərcümə abidəsi, "Sindbadnamə", "Kəlilə və Dimnə"nin də özünəmxsus yeri vardır. Belə ki, XIII əsrin məşhur tarixçisi Həmdulla Qəzvininin "Tarixe-qozide" ("Seçilmiş tarix") əsərinə əsasən, Məlik Səid İftixarəddin Qəzvini "Min bir gecə" nağılları əsasında yazılmış "Sindbadnə"ni farscadan türkcəyə tərcümə etmişdir. Bəzi tədqiqatçılar Azərbaycan tərcümə ədəbiyyatının yaranmasını Nəsiminin adı ilə bağlayırlar. Nəsiminin Marağalı Əvhədinin bir qəsidəsini farscadan azərbaycancaya çevirməsi belə mülahizələrin səsləndirilməsinə səbəb olmuşdur.

Tərcümə əsərlərinin böyük əksəriyyəti isə XV-XVI əsrləri əhatə edir. İlkin nüsxələri hələ XIV yüzillikdə meydana çıxmış klassik fars ədəbiyyatının korifeyi Sədinin "Gülüstan"ının Mustafa bin Qazi Arac tərəfindən edilmiş tərcüməsi sözügedən yüzillikdə bu ədəbiyyatın ən bariz nümunələrindəndir.



Şirazi təxəllüslü şair-mütərcimə məxsus "Gülşəni-raz" və Əhmədinin "Əsrarnamə" əsərləri XV yüzilliyin tərcümə abidələrindəndir. Bunlardan birincisi Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" ("Sirlər bağçası"), digəri isə məşhur sufi şair və ariflərdən olan Şeyx Fəriəddin Əttar Nişapurinin bir qism hekayələrinin tərcüməsidir. Şirazinin 1429-cu ildə tamamladığı klassik tərcüməsindən sonra XVII əsrdə sözügedən əsər türk şairi Mahmud Haləvi tərəfindən "Şərhi-gülşəni-raz" adı altında yenidən türkcəyə çevrilmişdir. Əhmədinin "Əsrarnamə" tərcüməsi də Azərbaycan bədii tərcümə tarixinin hərtərəfli araşdırılması, klassik tərcümə sənətinin özünəməxsus xüsusiyyətlərinin müəyyən edilməsi, orijinalla tərcümə mətnlərinin müqayisəli təhlili baxımından da əvəzsiz və zəngin mənbələrdəndir.

XVI əsrə aid digər iki tərcümə -"Şuhədənamə" ilə "Şeyx Səfi təzkirəsi" istedadlı tərcüməçi Məhəmməd bin Hüseyn Katib Nişatinin qələmindən çıxmışdır. Nişati görkəmli ilahiyyatçı alim Kaşifinin "Rövzətüş-şühəda" ("Şəhdilər bağçası") əsərini, orijinallığı saxlamaq şərtilə dəqiqliklə tərcümə etməyə səy göstərmişdir. Nişatinin digər tərcüməsi -"Şeyx Səfi təzkirəsi" adlı tərcümə əsəri də Orta yüzilliklərə aid tərcümə nümunələri içərisində mühüm yer tutur. Lakin bu əsər Azərbaycan elmi ictimaiyyətinə ötən yüzilliyin ikinci yarısında bəlli olmuşdur.

Əlyazmalar İnstitutunda qorunub saxlanılan F.Əttarın "Pəndnamə", S.Şirazinin "Bustan", Ə.Caminin "Yusif və Züleyxa", Hafizin "Divan"ının tərcümə əlyazmaları isə XVII-XVIII yüzilliklərin ədəbi abidələrindəndir.

Azərbaycan klassik ədəbiyyatının korifeyi M.Füzulinin fars sənətkarı Ə.Caminin "Çehel hədis" ("Qırx hədis") əsərinin "Hədisi-ərbəin" adlı tərcüməsi isə Orta əsrlərdə nəzmlə edilmiş tərcümə nümunələrindəndir. M.Füzuli əsərin orijinal xüsusiyyətlərini saxlamağa çalışmaqla yanaşı, sözügedən sənət nümunəsinə müəyyən dəyişikliklər etməkdən də çəkinməmişdir. Orta əsrlər tərcümə ədəbiyyatının xarakterik xüsusiyyətlərini özündə əks etdirən Seyf Sərainin Sədi Şirazidən etdiyi "Gülüstan" tərcüməsi də yaradıcı tərcümə ənənəsinin məhsullarındandır.

Azərbaycan bədii nəsr tarixində önəmli bir hadisə olan "Hədiqətüs-süəda"ya ("Xoşbəxtlər bağçası") gəlincə isə qeyd edək ki, onun orijinal yaxud tərcümə əsəri olması haqqında müxtəlif fikirlər səsləndirilir. Katib Çələbi, ŞəmsəddinİSami, Süleyman Nazif, Fuad Köprülü, Gibb və digər bir çox Şərq və Avropa şərqşünasları Həzrəti Hüseynin Kərbəlada şəhid olması münasibətilə qələmə alınmış sözügedən əsəri Hüseyn Vaiz Kaşifinin yaratdığı "Rövzətüş-şühəda" ("Şəhidlər bağçası") adlı qəm dastanının tərcüməsi kimi təqdim etmişlər. M.Sultanov, H.Əfəndiyev, Ə.Səfərli və s. kimi görkəmli ədəbiyyatşünaslar isə bir çox sübutlar əsasında "Hədiqətüs-süəda"nın orijinal sənət əsəri olmasını nəzərə çatdırmışlar.

Orta əsr tərcüməçiləri nəinki ənənəyə görə çevirdikləri əsərə sonluq yazmış, hətta onu öz qələminin məhsulu hesab etmələri səbəbindən dolayı orijinal örnəklərin adını dəyişdirməyə də səy göstərmişlər.

Bədii əsərlərin vaxtaşırı təkrar tərcüməsi tərcüməçilik ədəbiyyatının ayrıca bir problemi kimi özünü büruzə verir. Belə ki, zaman axarında milli dillərin söz ehtiyatının, yazı və cümlə quruluşu qaydalarının yeniləşməsi müşahidə olunur ki, bu da əcnəbi əsərlərin yenidən ana dilimizə çevrilməsi zərurətini yaradır. Keçən əsrin əvvəllərində R.Əfəndiyev Firdovsi "Şahnamə" sindən bir hissəni "Ata və oğul", Mir Əbdül Vahab Seyyid Zərgər Badkubə Sədi Şirazinin "Bustan" əsərindən bir hissəni "Bəhrül-həqayiq" adı ilə, Əli Nəzmi, İbrahim Tahir, Azər Əbasət, M.Müşfiq, M.Seyidzadə, Abdulla Şaiq, Mirzə Möhsün İbrahiminin Ə.Firdovsi "Şahnamə"sinin müxtəlif hissələrindən etdikləri tərcümələr bu sahədə görülən dəyərli işlərdəndir. "Molla Nəsrəddin" jurnalının əsas müəlliflərindən olan M.Ə.Sabirin Ə.Firdovsi "Şahnamə"sindən, Sədi Şirazidən etdiyi tərcümələr də İran ədəbiyyatı nümunələrinə Azərbaycanda olan marağın ifadəsidir.

XX əsrin ortalarına doğru dilimizə çevrilən farsdilli örnəklərin siyahısı daha da zənginləşmişdir. Sədinin "Bustan", Caminin "Baharistan" əsərləri M.Seyidzadə, M.Eşqinin "Müntəxəbat", Caminin "Yusif və Züleyxa", İmam Xomeyninin "Eşq qibləsi", Mehdi Həmidinin "Dan sökülür", Ə.Firdovsinin "Şahnamə"si tam şəkildə M.Əlizadə, Sədinin "Gülüstan"ı R.Sultanov, M.Sultanov, İ.Şəms, "Qabusnamə", "Ərdəşir Papəqan" tarixi əsərləri R.Sultanov, Ə.Lahutinin "Seçilmiş əsərləri" İ.Cəfərpur, XX əsr İran yazıçılarının əsərlərindən H.Əlibəyli tərəfindən edilmiş tərcümələr bu sahədə atılan addımlardandır. Hafiz Rüstəm XX əsr Fars dili və ədəbiyyatı mütəxəssisi kimi orijinaldan Baba Tahir Üryan, Ömər Xəyyam, Əfzələddin Xaqani, Hafiz Şirazi, İrəc Mirzə, Məlikülşşüəra Bahar, Əbülqasim Lahuti, Mirzadə Eşqi, Fərruxi Yəzdi, Məhəmmədhüseyn Şəhriyar, Nadir Nadirpur, Jalə, Səyavuş Kəsrai, Gülçin Gilani, Firudin Zərğami və s. kimi klassik və müasir fars şerinin təmsilçilərinin əsərlərindən nümunələri doğma dilimizə çevirmişdir.Ancaq bədii tərcümə yaradıcılığı təkcə İran-fars ədəbiyyatı ilə məhdudlaşmır. Farsdilli Əfqanıstan şairlərindən Əbdülhəq Bitab, Xəlilüllah Xəlili, Bareq Şəfii, Mahmud Farani, Abdulla Naibi; Tacikistan şairlərindən Baqi Rəhimzadə, Mirza Tursunzadə, Əmincan Şokuhi, Gülçöhrə, Mömin Qənaət, Mirsəid Mirşəkər və s.; Hindistan və Pakistanın farsdilli şairlərindən Məhəmməd İqbal, Faiz Əhməd Faiz, Bastani Parizi və s-in əsərlərindən nümunələri tərcümə edərkən onların bəzilərinin yazıldıqları əruz bəhrlərini də nəzərə almışdır.

Tərcümə ədəbiyyatı Azərbaycan mədəniyyətinin inkişafında, sənətkarlıq baxımından püxtələşməsində mühüm rol oynadığı kimi, bədii əsərlərimizin fars dilinə çevrilməsi prosesi də sözügedən xalqların ədəbiyyatını zənginləşdirir. Digər tərəfdən, milli ədəbi nümunələrimizi əcnəbi dillərə çevirməklə mədəniyyətimizi dünya arenasına daha dolğun və əhatəli şəkildə təqdim etməyə müvəffəq oluruq. Belə ki, bir çox sənətkarlarımız milli əsərlərimizi farsdilli oxuculara çatdırmaq məqsədilə də tərcüməçilik fəaliyyəti ilə məşğul olmuşlar. Bu baxımdan M.F.Axundovun əsərlərinin Şərq xalqları arasında yayılmasında mühüm xidmətləri olan Mirzə Məmməd Cəfərin adını qeyd etməliyik. O, 1871-1874-cü illər arasında ölməz mütəfəkkirin "Təmsilat"ını farscaya çevirmişdir.

Həbib Sahir, Qulamhüseyn Beqdeli, Həmid Nitqi, Əhməd Şəfayi, Həmid Məmmədzadə, Məhəmmədəli Fərzanə və s. kimi görkəmli elm xadimlərinin bir sıra ədəbi nümunələrimizi fars dilinə çevirmələri milli ədəbiyyatımıza olan marağın təcəssümüdür. 1979-cu il inqilabından sonra Məhəmmədəli Fərzanənin bir sıra tərcümələri işıq üzü görmüşdür. Onun ədəbiyyatımızın ilkin qaynaqlarından olan "Kitabi-Dədə Qorqud"u, C.Məmmədquluzadənin "Molla Nəsrəddin xatirələri və novellaları"nı, M.Şəhriyarın şeirləri və "Heydərbabaya salam" poemasını, Sabirin "Hophopnamə"sini, Ə.Babayevanın "Haradasan, dost, haradasan" romanını fars dilinə çevirməsi sözügedən xalqın mədəni inkişafına müsbət təsir göstərən amillərdəndir. "Gülüstan" və "Mərzəbannamə"ni, o cümlədən bir çox fars ədəbi örnəklərini Azəri türkcəsinə tərcümə edən Həbib Sahir ötən yüzilliyin sonlarında tərtib etdiyi "Türk şeiri antologiyası"na bir sıra sənətkarlarımızın poetik nümunələrini türkcədən çevirərək farsdilli oxuculara təqdim etmişdir.

Fars dilininin incəliklərinə yaxından bələd olan Həmid Məmmədzadə də bu sərvətdən bacarıqla istifadə edərək Azərbaycan mədəniyyətinin tərcümə ədəbiyyatı xəzinəsinə gözəl incilər bəxş etmişdir. Böyük sənətkar, dahi dramaturq C.Cabbarlının "Füruzə", "Aslan və Fərhad", "Dilbər" və s. kimi hekayələrinin tərcüməsi isə Əhməd Şəfayinin adı ilə bağlıdır. Müəllif ana dilindən çevirdiyi bu əsərləri 1980-cı ildə nəşr etdirərək fars oxucularının mühakiməsinə təqdim etmişdir.

**Zeynəb Məmmədova**
***"Rus və Şərq dilləri" kafedrasının müəllimi***

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ KRİPTOQRAFİYA

Kütləvi kompüterləşmə ən yeni informasiya texnologiyalarının tətbiqi və inkişafı təhsil, biznes-sənaye istehsalı və elmi tətqiqatlar sahəsində irəliyə doğru hiss olunan sıçrayışa gətirib çıxarmışdır. Elmi-texniki inqilab informasiya cəmiyyətinin yaranmasına səbəb olmuşdur. Bu cəmiyyətdə informasiya ən mühüm resurs və başlıca amil olmuşdur. XXI əsrdə vətəndaşların cəmiyyətin və dövlətin həyatında informasiyanı, informasiya resurslarını və texnologiyalarının rolunun artması, milli təhlükəsizliyin təmin olunmasi sistemində informasiya ön plana çıxır. İnformasiya təhlükəsizliyinin təmin olunması probleminin vacibliyini və aktuallığını aşağıdakı səbəblər şərtləndirir:

· Muasir kompüterlərin hesablama gücünün artması və eyni zamanda onların istismarının sadələşməsi;

· Kompüterlərin köməyi ilə toplanılan, saxlanılan və emal edilən informasiyanın həcminin kəskin artması;

· Hesablama resurslarına və verilənlər massivinə girişi olan istifadəçilərin dairəsinin kəskin genişlənməsi;

· Hətta minimal təhlükəsizlik tələblərinə cavab verməyən proqram vasitələrinin yüksək inkişafı;

· Şəbəkə texnologiyalarının hər yerdə yayılması və lokal şəbəkələrin qlobal şəbəkələr halında birləşməsi;

· İnformasiya emalı sisteminin təhlükəsizliyinin pozulmasına praktik olaraq mane olmayan internet şəbəkələrinin inkişafı.

İnformasiya təhlükəsizliyi dedikdə informasiya və ona xidmət edən istifadəçilərə ziyan vurmağa səbəb olan təbii və ya süni xarakterli təsadüfi və ya qəsdli təsirlərdən, informasiyanın və ya ona xidmət edən infrastrukturun mühafizəliyi nəzərdə tutulur. İnformasiyanin muhafizəsi informasiyanin təhlükəsizliyinin təmin olunmasına yonəlmiş tədbirlər kompleksidir. Praktikada bu informasiyanın və ya verilənlərin daxil edilməsi, saxlanılması və ötürülməsi üçün istifadə edilən resursların tamlığının, müxtəlifliyinin təmin edilməsi deməkdir. İnformasiyanın mühafizəsinin məqsədi istehlakçı üçün informasiyanın tamlığını əlyetənliyinin və müxtəlifliyin pozulması səbəblərinin itkilərin minimal endirilməsi.

Təhlükə dedikdə sistemə dağılma, verilənlərin üstünün açılması və ya dəyişdirilməsi, xidmətdən imtina formasında ziyan vurulanlara səbəb ola bilən istənilən hal və hadisələr nəzərdə tutulur. Təhlükələri təbii və suni xarakterli təhlükələrə ayırırlar. Süni xarakterli təhlükələr öz növbəsində bilməyərəkdən və qəsdən törədilən təhlükələrə bölünür. Təsir məqsədlərinə görə təhlükələrin 3 əsas tipi ayırd edilir.

1. İnformasiyanın məxfiliyinin pozulmasına yönələn təhlükələr
2. İnformasiyanın tamlığının pozulmasına yönələn təhlükələr.
3. Sistemin iş qabiliyyətinin (xidmətdən imtina) pozulmasına yönələn təhlükələr

Məxfiliyin pozulmasına yönələn təhlükələr məxfi və ya gizli informasiyanın üstünün açılmasına yönəlib. Belə təhlükələrin reallaşması halında informasiya ona icazəsi olmayan şəxslərə məlum olur. Kompüter sistemində saxlanan və ya rabitə kanalı ilə ötürülən infomasiyanın tamlığının pozulmasına yönələn təhlükələr onun dəyişdirilməsinə yönəlib ki, bunlar da onun keyfiyyətinin pozulmasına və tam məhvinə səbəb ola bilər.



Bu təhlükə informasiyanın ötürülməsi sistemləri, kompüter şəbəkələri və telekommunikasiya sistemləri üçün aktualdır. İş qabiliyyətinin pozulmasına (xidmətdən imtina) yönələn təhlükələr elə situasiyaların yaranmasına yönəlib ki, bu zaman müəyyən qəsdli hərəkətlər ya sistemin iş qabiliyyətini aşağı salır, ya da sistemin müəyyən resurslarına girişi bağlayır.

Ziyanverici proqramlar- kompüter virusları.

İnformasiyanın qorunması üçün əsas təhlükələrdən biri də kompüterə girmiş ziyanverici proqramlardır. Belə ziyanverici proqramlar verilənlərin tamlığı üçün də təhlükə yarada bilər. Kompüterdə saxlanılan verilənlərə və proqramlara zərər vuran proqramlara ziyanvurucu proqramlar deyilir. Ziyanvurucu proqramların ən geniş yayılmış növü kompüter viruslarıdır. Kompüter virusu proqramın sənədi içərisinə yaxud da verilənlər daşıyıcısının müəyyən sahələrinə daxil olan parazit proqram kodudur. Bu kod daxil olduğu kompüterdə öz-özünü çoxalda, müxtəlif icazəsiz və ziyanlı işlər görə bilər. Öz-özünü çoxaltma qabiliyyəti virus proqramlarının başlıca xüsusiyyətidir. Virusun fəaliyyət senarisi təxminən aşağıdakı kimidir.

1. Kompüterdə yoluxdurulması mümkün olan bütün proqramları tapmaq;
2. Özünü proqramın əvvəlinə yaxud sonuna yazmaq;
3. Əgər virusun hücuma keçəcəyi gün çatıbsa dağıdıcı işlər görmək;
4. Əgər həmin tarix çatıbsa hər hansı xırda zərər yetirmək; məsələn: kompüterin sərt diskində hər hansı kiçik sahəni şifrələmək.

Kompütərə ziyanverici proqramların girməsini bildirən bir sıra əlamətlər vardır.

1. Ekarana nəzərdə tutulmamış məlumatların və görüntülərin çıxması;
2. Nəzərdə tutulmamış səs siqnallarının verilməsi;
3. CD -DVD disk surətinin öz-özünə açılıb bağlanması
4. Kompüterdə hər hansı proqramın özbaşına başlanması
5. Kompüterin tez- tez sıradan çıxması və işləməsi
6. Fayl və qovluqların yoxa çıxması yaxud dəyişdirilməsi
7. Sərt diskə tez-tez müraciət və s.

Antivirus vasitəsilə informasiyanın mühafizəsi.

Yoluxma faktını aşkarlama, virusların çoxalmasının və virus hücumunun qarşısını almaq üçün antivirus proqramlarından istifadə olunur. Viruslara xas olan baytların aşkar edilməsi və viruslar üçün xarakterik hərəkətlərin qeydə alınması onların axtarışının əsasını təşkil edir.

*Kompüter cinayətkarlığı və kriptoqrafiya anlayışı*

Fərdi kompüterlərin sayının sürətlə artması, internetə sərbəst çıxış və yeni kommunikasiya qurğularının sürətlə inkisafı həm asudə vaxtın keçirilməsi, həm də biznesin aparılması üsullarını dəyişdirdi. Eyni zamanda qara niyyətli insanlar üçün də yeni imkanlar açıldı. Yəni yeni cinayət üsulları meydana çıxdı. Bəşəriyyət yeni cinayət növü olan kiber cinayətkarlıqla qarşılaşdı. Kiber cinayətkarlıq dedikdə internet yaxud başqa kompüter şəbəkələrindən istifadə olunmaqla törədilən cinayətlər başa düşülür. Kiber cinayətkarların əsas hədəfi banklar, birjalar, internet mağazaları olur. Cinayətin həyata keçirilməsində kompüterlərdən yaxud şəbəkələrdən aşağıdakı kimi istifadə olunur:

1. Kompüter və yaxud şəbəkə cinayət aləti ola bilər;
2. Kompüter və ya şəbəkə cinayətin hədəfi ola bilər;
3. Kompüter və ya şəbəkə cinayətli məqsədlərə çatmaq üçün yaradıcı vasitə ola bilər.

*Xakerlər*

Kompüter xakerlər yenicə çıxan vaxtı xaker sözü hörmətlə çəkilirdi. Əməliyyat sistemini daha yaxşı işləmək üçün hamının unutduğu administrator parolunu ləğv edən kompüter dahiləri adlandırırdılar. Lakin zaman keçdikcə bu söz mənasını itirdi. Xakerlərin bəziləri pis mühafizə olunmuş kompüterlərə girməyə başladılar və bunun mümkünlüyünü sübut etdilər. Proqram məhsulunun alıcısı əslində həmin proqramın istifadə hüqunu əldə edir. Proqramın özu isə onun mülkiyyətinə keçmir. Ona görə də proqram məhsulunun üzünün çıxarılıb yayılması qanun pozuntusu hesab olunur. Xaker hücumlarının əsas məqsədi informasiyanın məhv edilməsi deyil, həmdə onların icazəsiz ələ keçirilməsidir. Əgər bunun qarşısını texniki vasitələrlə almaq mümkün olmursa onda şifrələnmə sistemindən istifadə olunur. Şifrələnmə üsulları ilə kriptoqrafiya məşğul olur (gizli yazı ).

Kriptoqafiya- yunanca gizli, sirli və yazı sözlərindən yaranıb. Bu terminin mənası kriptoqrafiyanın əsas mənasını verir- vacib məlumatı mühafizə etmək və ya məxfi saxlamaq. Mövcud şifrələnmə üsulları iki qrupa ayrılır: gizli açarlar və açıq açarla şifrələnmə. Gizli açar ele açara deyilir ki, gizli olaraq yazışan iki abonent əvvəlcədən onu bir-birinə verirlər. Əsas məqsəd bu açarı 3-cü şəxsdən gizli saxlamaqdır. Məhz kriptoqrafiya saxtalaşdırmanın, əvvəllər edilmiş hərəkətlərdən imtinanın, digər qeyri-qanuni hərəkətlərin aşkarlanması üçün vasitələr verir.

İnformasiyanın təhlükəsizliyinin məqsədləri aşağıdakılardır:

· Konfidensiallığın təmin olunması – informasiyaya icazə hüququ olmayan şəxslərin informasiyanın məzmunu ilə tanış olmasından informasiyanın mühafizə probleminin həlli;

· Tamlığın təmin olunması–informasiyanın icazəsiz dəyişilməsinin qeyri-mümkünlüyünə zəmanət verilməsi;

· Autentikasiyanın təmin olunması – informasiyanın qarşılıqlı təsiri prosesində tərəflərin informasiyanın özünün həqiqiliyinin təsdiqlənməsi metodlarının işlənməsi;

· Müəllifikdən imtinanın qeyri-mümkünlüyünün təmin olunması.

*Rəqəmli imza*

Açıq açarlı kriptoqrafiyanın ən vacib tətbiq sahəsi rəqəm imzasıdır. İstənilən sənəd yalnız onda müəllifin imzası (möhürü) olduqda hüquqi qüvvə qazanır. Son zamanlar rəqəmli imza texnologiyası imzalanmış sənədi ancaq kağız şəklində çatdırmaq zərurətini aradan qaldırmışdır. Rəqəmli imza şəxsi gizli şifrədir və onun açarı yanlız onun sahibinə məlumdur. Rəqəmli imza məlumatın həqiqiliyini imza sahibi tərəfindən təsdiq olunduğunu bildirir. Rəqəmli sertifikat səlahiyyətli orqan tərəfindən imzalanmış elə məlumatdır ki, açıq açarın həqiqətən imza sahibinə aid olması təsdiqlənir. Sertifikatlaşdırma səlahiyyət olan orqandan sertifikat almaq üçün istifadəçinin kimliyini bildirən sənədlər olmalıdır. İstər əl, istərsədə rəqəm imzasının aşağıdakı kimi ümumi xüsusiyyətləri vardır:

· Sənədin müəllifinin kim olduğu dəqiq göstərilir (avtorizasiya funksiyası);

· Sənədi imzalayanın sənəddə qeyd olunmuş məlumatla razı olması haqqında şəhadət verir (prosedur funksiyası). İmzalayan şəxs imzaladığı sənəddən boyun qaçıra bilməz;

· Göndərənin başqa sənədi deyil, məhz göndərdiyi sənədi imzaladığını təsdiq edir. Başqa sözlə, ona başqa və ya oxşar sənədi zorla qəbul etdirmək olmaz, çünki onda orijinalın imzalanmış surəti var;

· Sənədin ilkin mətninin sonrakı dəyişiklik və təhriflərdən mühafizəsinə zəmanət verir.

**Zinyət Hüseynova**
*Kadr və ümumi işlər şöbəsinin müdir müavini*

# SOSİAL ŞƏBƏKƏLƏR BU GÜN

Bu gün internetdən demək olar ki, hər kəs istifadə edir. İnsanlar sosial şəbəkələrdə bir-birləri ilə ünsiyyət qurur, videoroliklər izləyirlər, maraqlı məlumatlar əldə edirlər. Sosial şəbəkələrdən istifadə edənlərin arasında məşhurlar, məmurlar, ölkə başçıları da var. Hətta buradan qazanc əldə edənlərin sayı da az deyil. Bir sözlə, sosial şəbəkələr artıq həyat tərzinə, gündəlik fəaliyyət sferamıza daxil olub.

Məlumat üçün bunu da vurğulayım ki, ilk şəbəkələr 1990-cı illərin ortalarında meydana çıxıb. Rusiya, Brazilya, Kanada vətəndaşaları internetdən daha çox istifadə edən ölkələr sırasındadır. Məsələn ruslar gün ərzində internetdən 6-7 saat istifadə edirlər.

İkinci olaraq isə Brazilya əhalisi 6,3 saat sosial mediada vaxt keçirirlər. Qardaş ölkə Türkiyə bu ölkələrdən heç də geri qalmır. Türkiyə əhalisinin gündəlik həyatında internet 4,7- 5 saatlarını alır.

Sosial şəbəkələr sanki virtual bir cəmiyyət olduğu üçün insanların buradan istifadəsi də müxtəlif məqsədlərə xidmət edir. Bildiyimiz kimi sosial şəbəkələrdə hər cür informasiya, məşğuliyyət, reklam və digər sahələr var. İnsanların məqsədləri və maraqları real həyatda müxtəlif olduğu üçün internetdə də bu aləmin müsbət və ya mənfi tərəflərini seçən zümrələr var. İnternetin hər kəs üçün əlçatan olması istifadəçilərin yaş həddinə belə təsir edə bilmir. Bu gün hətta internet mənbələrindən az yaşlı uşaqlar da istifadə edir və şəbəkə yaradıcıları bunu unutmur. Ona görə də proqramın ətraflı məlumat bölməsində yaş həddini mütləq şəkildə vurğulayırlar. Təbii ki, bununla yanaşı valideyn nəzarəti də mütləq olmalıdır ki, daha sonra xoşagəlməyən hadisələr baş verməsin. Elə bu hallara toxunmuşkən istərdim ki, sosial şəbəkələrin mənfi tərəflərini də diqqətinizə çatdırım. Bilirik ki, zəmanə texnologiya zəmanəsidir. Uşaqdan böyüyə kimi hər kəs ünsiyyət portallarından, instagram, feysbuk və digərlərindən istifadə edir. Amma o da danılmaz faktdır ki, bəzən bu sosial şəbə-



kələrdə etik cəhətdən xoşa gəlməyən ifadələr, video materiallar, kiminsə şəxsi həyatını əks etdirən şəkillər, məlumatlar yer alır. Nəticədə həm kiminsə şəxsi həyatına müdaixlə edilir, həm də yaş həddi aşağı olan yeniyetmələr onların əxlaqına zidd olan informasiya almış olurlar. Ona görə də sosial şəbəkələrə bu qədər rahat daxil olma bir qədər nəzərətlə aparılsa, məncə bunun həlli tapılar. Məsələn, şəbəkəyə daxil olan hər kəs vəsiqə yolu ilə qeydiyyatdan keçməlidir və müəyyən yaş həddi olmalıdır. Bununla yanaşı təbii ki, hər bir istifadəçi hüquqlarının qorunmasından da əmin olmalıdır. Ümumiyyətlə isə, insanlar internetin müsbət tərəflərinə daha çox meyl etsələr bütün xoşagəlməz hallar aradan qalxar.

**Nailə Kərimli**
*Jurnalistika ixtisası üzrə II kurs tələbəsi*

# QADIN HÜQUQLARI KEÇMİŞDƏN BU GÜNƏ

Bəşər tarixinin başlanğıcından bəri qadın cəmiyyətin ən mühüm vəzifələrini çiyinlərində daşımışdır. Qadın bütün bəşərin özəyi-anadır.

Tarixə nəzər salsaq, müxtəlif dövrlərdə, müxtəlif ölkələrdə qadınlara münasibət fərqli olmuşdur. Məsələn; Qədim Misirdə qadınlar kişilərlə eyni hüquqlara malik idi. Qadınların məhkəmələrdə şahidlik etmək və övladlığa uşaq götürmək kimi hüquqları da var idi.

Qədim Afinada qadınlar heç bir hüquqi imtiyazlara malik deyildilər və kişilərin rəhbərliyindəki ailənin bir hissəsi hesab edilirdilər. Qadınların məhkəmə işlərində iştirakına qadağa qoyulduğu üçün kişilər bunu onların yerinə icra edirdilər.

Bizansda da qadınların hüquqi vəziyyəti VI əsrdə ürəkaçıcı deyildi. Cəmiyyətdə qadının azad olmasına qarşı ənənəvi düşmənçilik hissi hakim idi.

Orta əsrlərə baxdıqda, Qərbi Avropada vəziyyət bir qədər fərqli idi. Bu dövrdə qadın hüquqları xristian kilsəsi tərəfindən qorunurdu. Lakin İngilis kilsəsi və orta əsr ənənələri qadını günaha meyilli, zəif, məntiqsiz və idarə altında saxlanılmalı bir varlıq kimi görürdü. Bu baxış xristian inancına öz təsirini göstərmişdi. Orta əsr qadınları bir kişidən statusuna görə daha aşağıdaydı. Onlar məhkəmələrdə iştirak edə bilməzdi və qadının qanuni işlərini həyat yoldaşı həyata keçirməli idi. Qadınlar hüquqi baxımdan kişinin mülkiyyəti hesab edilirdi və kişi qadını cəzalandırmaq hüququna malik idi.

1500-cü ildə Avropada iki cür dünyəvi hüquq mövcud idi. Məsələn, İtaliya, Fransada miras ailədə ən böyük oğula verilirdi. Bu qanunlar bütün bölgələrdə kişilərə həyatları, mülkləri və həyat yoldaşları üzərində geniş hüquqlar verirdi. Buna baxmayaraq qadınlara köhnə hüquqa nisbətən daha geniş imkanlar tanınırdı. Qardaşı olmayan qadın mirasa sahib ola bilərdi. O cümlədən dul qadınlar bəzi hüquqi prosedurları özləri yerinə yetirə bilərdilər. Digər hüquq ilə idarə olunan ərazilərdə isə qadınlar kişilərin mülki və hüquqi öhdəliyi altında idilər. Belə ki, ataların qızları üzərində, kişilərin həyat yoldaşları üzərində, kişi qohumlarının isə dul qadınlar üzərində qəyyumluğu mövcud idi. Məsələyə dini aspektdən yanaşsaq, müxtəlif dinlərdə qadın hüquqlarına yanaşma fərqi özünü göstərirdi. Məsələn, İncil qadınlara bir sıra hüquqlar vermişdir. Belə ki, qadınlar özlərini məhkəmədə təmsil etmək, müqavilə imzalamaq, alqı-satqı ilə məşğul olmaq və miras almaq hüquqlarına sahib olmuşdur. Dinimizdə vəziyyət bu cür idi: İslamdan öncə qadın adı ilə çağırılmazdı. Rəqəmlə və yaxud da rənglə səslərdilər. İslam gəldi və qadına miras haqqı tanıdı. Ona qədər qadınların miras haqları yox idi. Məsələn, əgər ata dünyasını dəyişirdisə, mirasdan qızına heç bir pay düşməzdi. İslam bu haqqı da qadına verdi. Bununla da dinimiz qadınları yalnız mənəvi cəhətdən deyil, eyni zamanda sosial-iqtisadi tərəfdən də dəstəklədi.

Bəs müasir dövrümüzdə qadınların hüquqları hansı səviyyədə qorunur? Müasir dövrdə ölkələr üzrə danışmaqdan daha çox bütün dünya üzrə qəbul edilmiş qadın hüquqlarının müdafiəsindən bəhs etmək daha məqsədəuyğun sayılar.

1946–1948-ci illərdə hazırlanan və 1948-ci ildə qəbul edilən "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qadın hüquqlarının müdafiəsi tarixində dönüş nöqtələrindən biri hesab edilir. Qadın haqlarının qorunmasına yönəldilmiş beynəlxalq sənədlər içərisində "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT Konvensiyasının özünəməxsus yeri vardır. Bu Konvensiyanın əsas məqsədi qadınlara qarşı istər öz cəmiyyətlərində, öz ailələri tərəfindən tətbiq olunan zorakılığın, onların təhsil və karyera hüquqlarının məhdudlaşdırılmasının qarşısını almaqdır.

Qadın hüquqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının milli qanunvericiliyinin fəailləti nədən ibarətdir?

Qadınların konstitusion-hüquqi statusu ilk növbədə Azərbaycan Respublikası Konistitusiyasının "bərabərlik hüququ" adlı 25-ci maddəsi ilə müəyyən olunur. Bu maddəyə əsasən hamı qanun və məhkəmə qarşısında bərabərdir; kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

İnsanlığa verilən ən böyük nemətlərdən biri də qadındır. Beləliklə, nəzərə almaq lazımdır ki, cəmiyyətin əsasını təşkil edən qadınların hüquqlarının pozulması yolverilməz haldır. Həmçinin unutmamaq lazımdır ki, qadınlarımız öz hüquqlarını bilsələr və haqlarını tələb etsələr, mənfi halların qarşısı da müəyyən qədər alınar. Belə ki, hər işin başında maarifləndirmə dayanır. Qadınlarımız, xüsusən də hüquq mövzusunda məlumatlı olmalıdırlar.

**Aysel Nuriyeva**
*Jurnalistika ixtisası üzrə I kurs tələbəsi*

# OXUDUQLARIM, EŞİTDİKLƏRİM-UNUDULMAYANLAR

1918-ci ildə ermənilər tərəfindən müsəlman əhalinin soyqırımı başlayarkən Çobankərə kəndində 300-ə yaxın ev, bir neçə tayfa olub. Bu tayfaların hamısının adlarını, Zəngibasar rayonuna daxil olan 37 kəndin adlarını akademik Budaq Budaqov "Elim obam mənim" adlı kitabında göstərib. Bu tayfaların adlarını dəfələrlə nənəmin söhbətlərində eşitmişəm və yaddaşıma yazılıb. Erməni vəhşiliyi sayəsində doğma yurdundan didərgin düşən bu insanlar Türkiyədə, İranda, həmçinin Azərbaycanın Gəncə, Qazax, Yevlax, Bərdə, Göyçay və s. rayonlarında, Naxçıvan Muxtar Respublikasının müxtəlif ərazilərində və Naxçıvan şəhərində məskunlaşırlar.

Nənəm yaxında olan qohumlarla tez-tez görüşürdü. Uzaqdakılara məktub yazdırırdı. Məktubları mən yazırdım, cavablarını da mən oxuyurdum nənəm üçün. İndi həmin tayfalardan kompakt şəkildə Şərurun Xanlıqlar kəndində, Babək rayonunda (keçmiş Yamxana kəndi), Şıxmahmud, Əliabad, Qaraxanbəyli kəndlərində yaşayırlar.

Atamın anası Fatma nənəm Çobankərə kəndində anadan olub. Canlı tarix idi rəhmətlik. El ağbirçəyi idi. Bir məclisə gedəndə hamı ayağa qalxar, məclisin yuxarı başında yer verərdilər. Bu hörməti əliaçıqlığı, hamıya canıyananlığı ilə qazanmışdı. Savadı olsaydı bəlkə də yaxşı bir həkim, bəlkə də müəllim, yaxud aqronom və s. olardı. Bacarmadığı iş yox idi. Kiməsə paltar tikərdi, dişi ağrıyanın dişini çəkərdi, qolu-ayağı sınana yaxu salardı. Yazın əvvəlində bağımızda üzüm kollarını budayardı. Evdə olan doğuşlara elə yardım edirdi ki, həm ana, həm də uşaq sağ salamat qurtarırdı. Heç bir təmənnasız. Heç vaxt deməzdi ki, filankəsin dadına çatdım mənə pul vermədi. O dadına çatdığı xəstələr Novruz bayramı günü təbrikə gələrdilər bir-iki almaynan. Hərdən atam, ya da əmilərim narazılıq edib deyirdilər ki, əlindən kiməsə ziyan dəysə səni həbs edəcəklər. Nənəm isə hər dəfə gülüb deyərdi: "Neyliyim, əlimdən gələn işə heç kimə yox deyə bilmirəm. Allaha da xoş getməz".

O dövrün qayınanaları kimi deyildi, nə sandığı, nə də saxlancı vardı. Hər nəyi olsa ehtiyacı olanlara paylardı. Ürəyində gizlədib saxladıqlarını hərdən mənimlə paylaşırdı. 1918-20-ci illərdə ermənilərin Azərbaycanlıları doğma yurdlarından didərgin salmasından yana-yana danışırdı:

"A bala, o zaman mən uşaq olsam da gördüklərim hamısı yadımdadı. Kimin atı, ya dəvəsi vardı onlar Arazdan keçib Türkiyəyə pənah apardılar. Atı, dəvəsi olmayanların çoxu Arazda boğuldu. Bu qırılmış ermənilər həmişə yaz vaxtı qudururlar. Bilmirsən ey, ay bala, gözümün qabağında elə cavanları sellər-sular batırdı ki, heç yadımdan çıxmır.

Arazdan keçib elliklə İğdirə, oradan Ərzuruma, Qarsa getdik. Ərzurumun gədiyində Nərgizin (mənim anamın) cavan bir əmisi qarlı uçuruma düşdü, heç ölüsünü də tapa bilmədilər. Oralarda rahat bir düşərgə tapa bilmədik. İrana köçdük. Mərənd, Xoy, Urmiya, Səlmas, Sofyan, Təbrizəcən getdik. Bəxtimizdən burda da əncüməmnik (İran inqilabı) düşmüşdü. Vətənsizlik bizi yorub əldən salmışdı. Ağsaqqallar məsləhətləşib geriyə qayıtmağı qərarlaşdırdılar. Çox çətinliklə Şaxtaxtı körpüsünəcən gəldik. Körpüdən keçib Çobankərəyə getmək istədik. Xanlıqlar (Şərur rayonu) kəndindəki qohumlar getməyimizi məsləhət görmədilər. 1924-cü ildən 1936-cı iləcən Xanlıqlarda yaşadıq, sonra köçdük Əliabada".

1988-ci ilin baharında ermənilər təkrar torpaq iddiasına başlayanda nənəm sanki o illəri yenidən yaşayırdı. Hər gün ağlayıb-sızlayır, onlara lənətlər yağdırırdı. Tez-tez yeganə qardaşı Muxtarı xatırlayır, Hitlerə də lənət deyirdi.

Nənəmin atası Hacalbəyoğlu Əlimərdan Paşa hərbçi olub. İndi onun adını qardaşım Mərdan daşıyır. Əliabadda nənəmdən çox yaşlı olan kişilər qardaşımı hər dəfə görəndə deyirdilər: Əlimərdan Paşa.

Əlmərdan Paşanın yeganə oğlu Muxtar Paşayev də hərbçi olub. 30-40-cı illər arasında Ali Partiya Məktəbində təhsil alıb. 1941-ci ildə muharibəyə gedəndə o, əsgər kimi deyil zabit kimi gedib, mayor rütbəsində. Azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasında vuruşub. Döyüşlərdə uğurlu əməliyyatlara həmişə öndə gedib, çoxlu orden və medallar alıb. 1943-cü ildə Ukranyada, Zaparojye yaxınlığındakı bir kənddə həlak olub. Hal hazırda məzarı orda qorunub saxlanır. Pionerlər məktub yazmışdı. 1980-ci illərin əvvəllərində atamla əmim məzarını ziyarət etməyə getdilər.

Bir dəfə nənəmdən soruşdum ki, biz niyə Paşayev familiyasındayıq?

"Nə bilim, a bala. Babam (atasına baba deyirdi) cavan öldü. Anam da onun dərdini çəkə bilmədi. O da cavan öldü. Əmimnən arvadı da bu dünyadan cavan köçdülər. Qaldıq Muxtarla mən, bir də iki qardaş əmimin uşaqları. Türkiyədən bibim gəlmişdi məni aparsın. Ağsaqqallar vermədi ki, bu getsə qalan üç oğlan uşağı baxımsız qalacaq. Xanlıqlara gələndən sonra bizə familiya yazırdılar. Babam mənim də, qardaşımın da doğum tarixini mis sininin kənarına yazdırmışdı. Mən yaşca böyük idim. Soruşdular ki, babanın adı nə olub. Atama camaat arasında Paşa deyirdilər. Üstündə silahları, yanında atlı dəstəsi olurdu. Mən də elə bildim atamı soruşurlar. Çünki atama baba deyirdim. Dedim ki, babamın adı Paşa olub. Eləcə əmim uşaqlarını da, Muxtarnan məni də Paşayev yazdılar".

Zəhra nənəm (anamın xalası): "İrandan qayıdanda böyük qızım Pürüzənin (Firuzə)14-15 yaşı olardı, kəndxudanın oğluna nişanlıydı. Biz gələndə Pürüzəni vermədilər gətirək. Toyunu da görmədim. Arazı bu yana keçəndə ana bala qucaqlaşıb ayrıldıq. Bu tayda Pürüzənin ana harayı hələ qulağıma gəlirdi. Pürüzəni son gördüyüm o oldu".

Ana tərəfim Qulubəyli tayfası da Çobankərədən Türkiyəyə sonra da İrana köçüb, 1924-cü ildə birbaşa Naxçıvana gəliblər, Kalba Musa bəyin həyətində yerləşiblər. Şəhərdəki Kalba Musa bulağının üst tərəfində bəyin geniş həyəti mülkü var idi. Kalba Musa bəy Qulubəyli kişilərinə atlı bələdçi verib deyir ki, gəzib dolansınlar, haranı bəyənsələr, orada məskən salsınlar. Atlılar gəzib, dolanıb, Əliabadın yuxarı başından axan bol sulu bulağı görəndə oranı bəyəniblər. Elə o zamandan da bu kənddə məskunlaşıblar.

Qulubəylilər Əliabada köçdükdən sonra Əziz babam (anamın atası) karvanla İrana, oradan da Asiya ölkələrinə gedib. Bu babamın karvanla son səfəri olub. Sonralar yollar bağlanıb, heç kim xaricə çıxa bilməyib. Zəhra nənəm gəlib babamdan xahiş eliyib ki, İrana getsə, Firuzəni görüb bir xəbər gətirsin. Əziz babam bir neçə ay sonra səfərdən qayıdıb. Axşam evə çatanda Fizzə nənəyə (anamın anası) bir paltar verib deyir ki, Firuzənin nişanəsidi. Qayınanası verib dedi ki, uşaq doğulanda Firuzə öldü. Əziz baba Fizzə nənəyə tapşırır ki, paltarı gizlətsin, anasına göstərməsin.

Fizzə nənə paltarı sandıqda gizlədir. Səhər tezdən inəyi sağmağa gedir. Evə qayıdanda astanada evdən çıxan bacısı Zəhra ilə qarşılaşır. Zəhra nənə Fizzə nənəni görcək deyir: "Bu paltarı axşamnan ərin gətirib, niyə gizlədibsən? Gecə yuxunda mənə dedilər ki, Pürüzənin nişanasını Əziz gətirib, Fizzə sandıqda gizlədib".

Rəhmətliyin qəribə bir hissiyatı var idi. Hər olacağı da, olanları da yuxuda görərdi. Zəhra nənə öz nənəsindən türkəçarənin sirlərini öyrənmişdi, özü dərman hazırlayırdı. Yayın əvvəlində baş barmağının ucunda özü hazırladığı qara maz götürürdü, nəvələrini və bizləri (bacısının nəvələrini) gücələ tutub damağımıza sürtürdü. İçinə piy qatılmış bu maz yapışırdı damağımıza, sorub udmağa məcbur olurduq və isti yay günlərində mədə-bağırsaq problemi yaşamırdıq.

Zəhra nənəmin xatirələrindən: "Babam Məşə Xudunun (atası) çiynində çini (saçaqlı epolet) varıydı. Çobankərədə bir neçə yekə ev vardı. Bizim ev də bunlardan biri idi. Bir gün evimizin yanından keçən iki cavan evin yekəliyinə baxıb xoşa gəlməyən bir söz deyiblər. Nökərlər bunu tez babama çatdırıb. Babam deyib ki, gedin onları tutub gətirin bura. Nökərlər həmin cavanları tutub gətirmək istəyəndə, dava düşür, onlardan biri qaçıb gedir, digərini öldürürlər. Xəbər babama çatanda babam nökərləri bərk danladı: "Üzünüz qara olsun. Mən dedim gedin gətirin yanıma. Demədim ki, gedib vurun, öldürün".

Bundan qıssa müddət sonra yığışıb yaylağa köçdük. Əyricə yaylağındaydıq, ürənnik (çar uryadniki) gəldi. Babam çıxdı çadırın qapısına, ürənniyi görəndə çuxasını istədi mənnən. Çuxanı gətirib babamın çiyninə saldım. Çiynindəki saçaqları görəndə ürənnik babamın qarşısında əlini gicgahına qoydu, qurudu qaldı. Nökərlər öldürdüyü adamın qohumları şikayət eləmişdi. Ürənnik ona görə gəlmişdi. Babam öldürülən adamın ailəsinə 2 inək, 10 qoyun, əlavə də pul verdi ki, ailə ac qalmasın. Həm də nökəri həbsdən qurtardı".

Əziz babamla Fizzə nənəm Çobankərədə olarkən evləniblər. O zaman ailədən hər bir kişi növbə ilə karvana gedirdi. Toydan sonra kişilər karvana getməyə hazırlaşırlar. Əziz babam ayağını sarıyıb axsaya-axsaya gəzir. Böyük qardaş Yusif soruşur ki, ayağına nə olub. Əziz deyir ki, ayağı bərk ağrıyır. Gecə Yusif sakitcə gəlib Əzizin ayağındakı sarığı açır, o biri ayağına bağlayır. Əziz səhər o biri ayağı üstündə axsayıb gəzir. Bunu görən qardaşı Yusif deyir ki, bu səfərə Əziz getmiyəcək, onun əvəzində karvana mən gedəcəm.

Karvan bir dəfə səfərə gedəndə hansısa bir səhrada Əzizi göndərirlər ki, gedib su quyusu tapsın. Əziz gedib su quyusunu tapır, tuluqları suynan doldurur, dəvəyə yükləyib gətirir. Növbəti səfərlərdə hər dəfə həmin yerə çatanda deyirlər ki, Əziz quyunun yerini bilir, gedib su gətirsin. Bir dəfə də həmin quyuya çatanda Əziz başlıyır qışqırmağa ki, tez gəlin canavar məni yeyəcək. Karvandan kimin nə silahı varsa götürüb qaçırlar Əzizin harayına. Çatanda görürlər ki, Əziz oturub quyunun yanında. Soruşurlar ki, canavar hanı. Əziz quyunu göstərib deyir ki, baxın quyu budu. Hamınız tanıyın. Bundan sonra su götürməyə növbəynən gələcəyik.

Əfruz nənə (Əliabad kəndi): Qaçaqaç vaxtında (1918-ci ildə) cavan gəliniydim. İki yaşında ekiz oğlum varıydı. Qayınatam görəndə ki, ermənilər gəlir, ata mindi, əlini atıb məni də götürdü, uşaqlar arxamızca qışqıra-qışqıra qaldılar. Bir daha oraya qayıda bilmədik. Onların səsi gecə də, gündüz də qulağımda səslənir.

Firuzə nənə (Əliabad kəndi): Qaçaqaç vaxtında (1918-ci ildə) mən cavan qız idim. Böyük bacımın iki oğlu varıydı. Ermənilər gələndə kiçik uşağı özü götürdü, böyüyü mən aldım boynuma, özümüzü atdıq Araza. Çayın ortasına çatanda gur su uşağı boynumdan alıb apardı.

Anamın xatirələrindən: Toyum olanacan (54-cü ildə) hər il Məsmə (böyük bacısı) məni öz uşaqları ilə birlikdə Sisiana, Gorusa yaylağa aparardı. Sisianda bir gün axşamüstü gördüm ki, bir neçə arabada böyük bir erməni ailəsi meydançaya girdi. Arabadakılar çox zəngin geyimdə idilər. Qızların gəlinlərin geyimindən hiss olunurdu ki, zəngin ailədilər. Dedilər ki, bunlar İrandan köçüblər. Bu vaxt kolxoz işindən qayıdan qadınlar yoldan keçirdilər. Onların yorğun görkəmini, kirli, çırıq paltarlarını görən ana soruşdu ki, bunlar kimdi. Yerli ermənilərdən biri ona nə dedisə, qadın əlini ürəyinə qoydu, elə ordaca öldü. Həmin kişi onun dediyini tərcümə elədi: "Vay, evim yıxıldı. bizi necə aldatdılar. Mənim qızlarım, gəlinlərim bunlar kimi bədbəxt olacaqlar?"

Bunlar gələrkən digər qardaş ailəsiynən İranda qalır və əvvəlcədən şərtləşdikləri kimi burdakı qardaş İranda qalana sifariş eliyir: "Qardaş get atamnan məsləhətləş, o gəlsə sən də gəl" (atası neçə il əvvəl ölmüşdü).

Əliabadda Əbdürəhman baba (Kənddə hamı onu Adam dayı çağırırdı) bir də xanımı Hava nənə var idi. Hava nənə danışırdı ki, 16 uşağımdan bircə Əli qalmışdı onu da Hitler əlimdən aldı. Hava nənənin dərddən beli bükülmüşdü, gücələ yeriyirdi. Əliabadda kolxoz quruculuğu yeni başlayan vaxtda Əbdürəhman baba iclasa gedir, evə gec qayıdır. Gəlib görür ki, Hava qapını bağlayıb. Səslənir ki, Hava qapını aç. Hava nənə "r" hərfini deyə bilmirdi. İçəridən deyir: "Açmığam Əbdüğəxman. Get hağda qalxoz olufsan oğda qal".

Bunu eşidcək kişi qapıya bir təpik vurur, qapı açılır. Döyüləcəyindən qorxan Hava nənə tez gülərək kişini qarşılıyır: "Əbdüğəxman zağafat eliyiğdim ey, zağafat eliyiğdim"... Əbdürəhman baba bir dəfə nənəmə dedi: "İydirdə səkkiz bibin qaldı. Elə qoçaq idilər ki, başbaşa versələr bir gündə bir ev tikərdilər". Nənəm bibilərinin adlarını xatırlayırdı, amma harda olduqlarını xatırlamırdı. Bəlkə də bizə demirdi.

İndi Naxçıvanda Hacalbəyoğlu Əlimərdan Paşanın soyundan bir mən qalmışam. Paşa babamızın Paşa soyadını fəxrlə daşıyıram. Ən böyük arzum atamın dayısı Muxtar Paşayevin sənədlərini hərbi arxivdən tapıb Naxçıvan Xatirə Muzeyinə verməkdir. İstəmirəm ki, belə bir insan tarixdən izsiz silinsin. Ən azı Xatirə Muzeyində yaxşı bir hərbçi kimi adı qalsın.

**Sənəm Paşayeva**
***"İngilis dili və metodika" kafedrasının baş müəllimi***

# "GÜN VAR ƏSRƏ BƏRABƏR" ROMANINDA "MANQURT"

XX əsrin bədii ədəbiyyatının və ictimai fikrinin ən qüdrətli yaradıcılarından biri olan Cingiz Aytmatov dünyaya gözəl əsərlər bəxş etmişdir. C.Aytmatovun yaradıcılığı sovet dövrünün sərt rejiminin hökm sürdüyü bir vaxta təsadüf edirdi. Lakin buna baxmayaraq Cingiz Aytmatov milli mövqeyini müdafiə etməkdən və bu mövzuda yazdığı kitabları nəşr etdirərək həm öz ölkəsinə, həm də dünyaya çatdırmaqdan çəkinməmişdi. Onun atdığı bu addım o dövr üçün möcüzə sayıla biləcək bir addım idi.

Dünya şöhrətli, görkəmli qırğız yazıçısı Çingiz Aytmatov XX əsr ədəbiyyatın və ictimai fikrin ən qüdrətli yaradıcısı kimi qəbul olunur. O, mənəvi aləmin bütün zənginlikləri, qəribəlikləri ilə yeni olan sadə insanın həyatını ciddi bir ədəbiyyat səviyyəsində təbii şəkildə təsvir etmişdir. Onun yaradıcılığının pik nöqtəsi "Əsrə bərabər gün" romanıdır. Bu əsər müasir dünyanın ibrətamiz insanlıq dərsidir.

Torpağı almaq olar, mal-dövləti almaq olar, lap adamın həyatını da almaq olar, ancaq adamın hafizəsinə kim qəsd edə bilər, bunu kim fikirləşib tapıb?"

Çoxlarına ta uşaqlıq illərindən tanış olan bu fəryad qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanındakı Manqurtla bağlı hissədəndir. Hələ orta məktəb dərsliyində romandan kiçik bir parça kimi verilən hissədə böyük faciədən söz açılır. Elə bir faciə ki, uşaq yaşımıza baxmayaraq, ağrısını iliklərimizə qədər hiss edib, bir anlıq özümüz qəhrəmanın yerində imiş kimi əlimizi qorxuyla başımıza aparıb yoxlayardıq. Yox, bizim başımıza heç kimi qaynar dəvə dərisi keçirtməyib, biz kimik, adımız nədir, atamız kimdir, anamızı xatırlayırıqmı? Bəli, bütün suallara cavab verə bilirik, deməli, biz Manqurt deyilik. Bəs nə idi bizi bu qədər təlaşlandıran? Yaddaşı itirməklə nə baş verir? Bütün bunların faciəsini müəllif kiçik bir hekayə ilə oxucusuna təsvir edir. Daha doğrusu, yaşadır.

Bəs əsər nədən bəhs edir? Bu suala cavab verməzdən öncə yaxşı olardı ki, "manqurt" sözünün mənasını və hardan gəldiyini xatırlayaq. Manqurt- türk, altay və qırğız əfsanələrində bəhs edilən şüursuz kölədir. Manqurt halına gətirilmək istənən adamın başı qırxılır, yaş dəvə dərisi sarılar və beləcə əlləri qolları bağlı olaraq Günəş altında buraxılır. Dəvə dərisi quruduqca gərilir. Gərilən dəri başı sıxır və inanılmaz ağrılar verərək adamın ağlını itirməsinə səbəb olur. Belə bir adam şüursuz və hər istənilən şeyi sorğu-sualsız icra edən bir köləyə çevrilir.

Əsərdə bu cür amansız cəzanı juanjuanlar tətbiq edirlər. Onlar tutduqları ərazilərdə yaxaladıqları əsir döyüşçüləri ya satar (bu əsirlər şanslı hesab olunardı, çünki qurtulmaq şansları vardı), ya da dediyimiz üsulda manqurta çevirərdilər. Əsiri axtaran, onu xilas etməyə çalışan qohumları, döyüş yoldaşları belə onun manqurta çevrildiyini eşidəndə ondan biryolluq əl üzürdülər. Çünki bu cür insanın xilası mümkün deyildi.

Demişdik ki, manqurtdan ən yaxınları belə əlini üzürdü. Bircə Nayman ana vardı ki, o, öz balasının manqurtlaşdırılmasını qəbul etmirdi.Ana oğlunu axtarıb tapmaqda qərarlıydı. Elə bu ümidlə də yola düzəlir. Nəhayət, gəlib onu




Sarı-özək səhrasında tapır. Amma oğlunu görəndə dəhşətə düşür. Çünki başına dəvə dərisi keçirilmiş oğlunun bir mumiyadan, müqəvvadan fərqi yoxdur. Oğlu Jolaman nəinki anasını, heç özünü də tanımır, deyilən sözləri eyninə almır, ancaq boş-boş baxmaqla kifayətlənir. Ana isə yenə də ondan əlini üzmür, adını, kimliyini, atası Donanbayı, uşaqlığını xatırlatmağa çalışır, balasını bu qaniçən juanjuanlardan xilas etməyin yollarını axtarır. Ancaq düşmən çox ayıq-sayıq və hiyləgərdir. O, manqurtu inandırır ki, onun anası yoxdur, bu qadın isə onun başındakı dərini çıxarıb, başını buğa vermək istəyir. Başındakı dərinin çıxarılması qorxusu manqurt üçün əsl faciədir və o, bu qorxu ilə ağasının hər dediyini edəcəkdi. Necə ki, edir. Ona keçmişini, kimliyini xatırlatmağa çalışan, onun üçün uzun yolları aşan qoca anasını bir oxla öldürür. O gündən həmin yerlər Ana Beyit qəbiristanlığı adlanır. Əslində biz düşünsək "Əskidən əslini, nəslini, soykökünü, tarixini unutmuş insanlara "manqurt" deyilirdi. Bu gün də duyğusuzlaşmış, kökündən qoparılmış və nəyi nə üçün etdiyini bilməyən, verilən əmrləri heç düşünmədən uyğulayan insanlar da "Manqurtdur".

**Sevda Qənbərova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# ŞAGİRDLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA MÜTALİƏNİN ROLU

Mütaliə istənilən cəmiyyətin inkişafı üçün böyük və əhəmiyyətli rol oynayır. Xüsusilə, erkən yaşlarında kiçik yaşlı uşaqların və şagirdlərin mütaliəyə cəlb edilməsi onların sonrakı həyatının inkişafında müstəsna əhəmiyyətə malikdir. Hər birimizə yaxşı məlumdur ki, xalqımızın zəngin ədəbiyyat xəzinəsi mövcuddur. Bədii ədəbiyyat şagirdlərin formalaşmasında, onlarda əməyə, zəhmətə məhəbbət hisslərinin aşılanmasında böyük rola malikdir. Belə ki, "Kitabi-Dədə Qorqud" dastanının hər bir boyunu oxuyan şagirdlərimiz özünü həmin dastandakı müsbət qəhrəmanlara bənzətməyə çalışacaq. Əlbəttə, bu dastan şagirdlərə ədalət, vətənə məhbbət, yurdumuzu qorumaq və s. ideyaları aşılamaqla, onları bir şəxsiyyət kimi formalaşdırır.



Müasir dövrdə cəmiyyətimizdə mütaliə mədəniyyətinin inkişafi xüsusi əhəmiyyət kəsb edir. Mütaliə bizi elmli, savadlı, bilikli biri kimi formalaşdırmaqla yanaşı, həm də mənəvi cəhətdən zənginləşdirir. İnsan cəmiyyətdə sahib olduğu məlumatların yarıdan çoxunu mütaliə vasitəsilə əldə edir. Daima öz üzərində çalışan və mütaliəni vərdişə çevirən insanlar həm düşüncə, həm də bacarıq baxımından başqalarından fərqlənirlər. Çünki mütaliə bilmədiyimiz sirli aləmləri, dünyaları bizə açır, hətta elə imkan yaradır ki, insan öz daxili aləmini tanısın. Mütaliə insan psixologiyasına və səhhətinə də müsbət təsir göstərir. Britaniyalı alimlərin qənaətinə görə, cəmi 6 dəqiqə kitab oxumaq insanda stresin səviyyəsini üç dəfə azaldır.

Hər bir şagirdin hərtərəfli şəxsiyyət kimi formalaşmasında mütaliə qeyd etdiyimiz kimi son dərəcə vacibdir. Mütaliə mədəniyyətinin şagirddə formalaşması, onun nitq qabiliyyətinin də formalaşmasına, gələcəkdə uğurlu natiq kimi yetişməsində xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, davamlı mütaliə ilə məşğul olan şagirdlər digərlərinə nisbətən özünü ifadə etməkdə çətinlik çəkmir.

Cəmiyyətdə oxumağı, yazmağı bacaranların sayı nə qədər çox olarsa, əlbəttə ki, o cəmiyyət daha çox inkişaf edər və hər zaman, hər yerdə öz dəyərləri ilə seçilmiş olar. Mütaliənin əsasını sonsuz xəzinə hesab edilən kitablar təşkil edir. Kitab isə bəşər mədəniyyətinin ən böyük nailiyyətlərindən biridir. Bu bir həqiqətdir ki, bilik xəzinəsinin qapılarını bizim üzümüzə bəşəriyyətin yaratdığı möcüzələrdən olan kitablar açır. Kitab insanı formalaşdırır, onun düşüncəsini, əqlini müəyyənləşdirir və onu uğura doğru aparır.

Bu gün mütaliə mədəniyyətinin formalaşması şagirdlərdə hələ erkən yaşlarından mütaliəyə hörmət hisslərinin aşılanması dövlətimizin diqqət mərkəzindədir. Muxtar respublikamızın bütün guşələrində Avropa standartlarına cavab verən, yüksək zövqlə inşa edilmiş yeni binalarda fəaliyyət göstərən kitabxanalar insanları kitab oxumağa və mütaliə etməyə həvəsləndirir. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin "Oxunması zəruri olan kitablar" haqqında 2017-ci il 28 avqust tarixli Sərəncamı mütaliə ilə bağlı imzalanmış mühüm tarixi sənəddir. Bu Sərəncamın mütaliənin gənc nəsildə vətənpərvərliyin tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasında, həmçinin oxucu kütləsinin düzgün kitab seçimində böyük əhəmiyyəti var.

Müasir dünyada informasiya kommunikasiya texnologiyalarının sürətlə inkişaf etməsi istər-istəməz insanlarda yeni maraqlar, axtarışlar formalaşdırmağa başlayır. Bir pedaqoq kimi fikrimizcə, yeni texnoloji imkanlar nə qədər inkişaf etsə də, unutmamalıyıq ki, bu texnoloji imkanlar məhz elmin, biliyin məhsuludur. Hər birimiz vaxt məhdudiyyətini nəzərə alaraq, hazırkı dövrdə mütaliə üçün internet resurslarını üstün tuturuq. Belə ki, internet resursları vasitəsilə istənilən vaxt istənilən məlumat tez və əlçatan olur. Lakin bəşər cəmiyyətində İKT vasitələri nə qədər inkişaf etsə də bilik xəzinəsi kitabı əvəz edə bilməz!

Qeyd etmək yerinə düşərdi ki, şagirdlər gündəlik dərs vəsaitlərindən aldıqları müxtəlif faydalı məlumatlarla kifayətlənməməli, boş vaxtlarında daim öz üzərlərində çalışmalı, yeni bədii kitablar oxumalıdırlar. Çünki kitablar onların ən yaxın dostlarıdır. Kitablar onları məqsədlərinə aparan yeganə vasitədir.

Mən özüm də bir valideyn kimi övladlarımı mütaliə etməyə daim həvəsləndirir, bu məqsədlə onlara ad günlərində və digər milli bayramlarımızda ancaq bədii kitablar hədiyyə edirəm. Düşünürəm ki, oxuduqları bu bədii kitablar onların gələcək həyatlarına müsbət təsir göstərən əsas amillərdən biri olacaq.

Gəlin, biz də bir valideyn kimi gələcəyimiz olan övladlarımızın dünyagörüşünün formalaşmasında mütaliə mədəniyyətinin vacibliyini onlara həmişə aşılayaq.

**Gültac Muradova**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***



# KİTAB ƏN SƏDAQƏTLİ DOSTDUR

İnsan üçün öyrənməyin, kamilliyə çatmağın ən təsirli yolu kitab oxumaqdır . Kitabı, mütaliəni sevən cəmiyyətlər uğurlu inkişafla yanaşı həmdə yenilməyən bir güc qazanmış olur. Çünki insan beyni oxuyaraq güclənir, dünyaya fərqli baxış bucağından baxır. Kitab oxumağı sevən insanların həm söz xəzinələri geniş olur həm də yeni -yeni məlumatlar əldə etmək istəyi də artır. Oxumağın nə yaşı nə də ki, zamanı olmur. İnsan hər yaşda oxumalı, öyrənməli, oxumaqla düşüncələrini inkişaf etdirməlidir. Belə bir deyim vardır "Ən gözəl kitab ümidlə açılıb qazancla bağlanandır".Oxumaqda əsas olan kəmiyyət yox keyfiyyət olmalıdır. İnsan nə qədər çox kitab oxumağına yox oxuduğu kitablardan nə öyrəndiyinə baxmalıdır. Bəzən anlayaraq oxunan bir səhifə belə insana çox şeylər qazandıra bilər.

Həyatda öyrənmək üçün ömrümüzün çatmadığı məlumatları kitablardan əldə etdiyimiz biliklərlə qısa bir zamanda öyrənə bilərik. Çünki kitab oxumaq öyrənməklə birlikdə vaxtını daha xoş keçirməyin və dünyaya səyahət etməyin ən qısa və asan yoludur. Atalar yerində deyib: "Heç bir gəmi bizi kitab qədər uzağa apara bilməz". Bundan əlavə insan oxuduqca kamilləşir, özünü başqasının yerinə qoymağı və problemlərlə qarşılaşanda onu həll etməyin yollarını öyrənərək həm də cəmiyyətdə hər zaman hörmət edilən bir şəxsə çevrilir.

Mütaliədə kitab seçimi də çox vacib amillərdəndir. Özümüzə insanlar arasından dost seçərkən göstərdiyimiz diqqəti kitab seçərkən də göstərməliyik. Məlumatın, elmin mənbəyi olan kitablar həm də insan üçün sadiq bir dostdur. Ondan bezəndə hirslənməyən məsləhət istəyəndə isə aldatmayan əsl dost. Onlarla keçirdiyimiz vaxt müddətində bəzən əylənər bəzən kədərlənərik, amma heç vaxt vəfasızlıq görmərik. Bu vəfalı dostun tək istəyi isə onda yazılanları düşünərək, anlayaraq oxumağımızdır.Hər bir kəliməsi ilə dünyanın sirlərindən xəbər verən kitablar uşaq, gənc, yaşlı deyə ayırmadan hər kəslə danışar, öz dostuna dünyanın sirlərini öyrədərək kamillik zirvəsinə ucalda bilər. Ümidsizliyi ümidə, çarəsizliyi çarəyə, cəhaləti isə dünyanın günəşi olan biliyə çevirən belə bir dostdan uzaq durmaq ən böyük peşimançılıq olar. Kitabı özünə dost seçən insan yaradanın ona bəxş etdiyi bu qısa həyatın sonunda geridə hər kəsə örnək ola biləcək ömür səhifələrindən ibarət əsər buraxar. Odur ki, hər birimiz bizi həyatın bütün sahələrində yüksəldən kitablarla sözün əsl mənasında dost olmalıyıq.

**İlahə Alahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# ƏN AZINDAN BİR KİTAB OXUYAQ

Hər kəs əminəm ki, yaşadığı müddətdə ən azından bir kitab oxumuşdur. Əks halda isə ən azından, heç olmazsa, yaxınları tərəfindən oxunulan kitabı dinləmişdir. İnsanların zövqləri müxtəlifdir, bəziləri detektiv kitablar, bəziləri psixologiya, bəziləri isə sevgi romanları sevirlər. Qeyd etdiyim kimi zövqlər fərqlidir. Əslində əsəri yazan yazıçıdan çox şey aslıdır, məncə. Çünkü detektiv əsər sevən bir şəxs, elə bir yazıçının əsərini oxuya bilər ki, həmin mövzuda yazılmış əsərləri bir daha oxumaq istəməz. Buna görə də, yazıçı əsər yazarkən bütün həyatını tamamilə yazacağı əsərə yönəltməli sanki hər bir problemin həlli bu əsərin yazılması ilə həll olunacaq şəkildə,özünü əsərin tam mərkəzində hiss etməlidir. Yazıçı,özündən daha çox onun əsərini oxuyacaq oxucuların diqqətini nəzərə almalıdır. Belə olduqda əminəm ki, daha çox oxucu rəğbəti qazanacaqdır. Oxucunun rəğbətini qazanmaq qədər yazıçını, xoşbəxt edəcək ikinci bir hiss yoxdur. Mən, istər detektiv kitabları istərsə də psixologiya kitabları və yaxud sevgi romanlarını oxumağı sevirəm, hər bir kitabda, hər bir əsərdə başqa bir məna var. Hər biri insana, müxtəlif anlayışlar bəxş edir. Ancaq ki, vaxt edib heç birini oxuya bilməmişdim,buna görə də çox heyfslənirdim. Ancaq elə oldu ki, təxmini keçən yay yaxın bir dostum mənə bir kitab məsləhəti verdi ki,çox təsirli kitabdı, oxu mütləq. Məndə, dostumun xahişi ilə bu kitabı oxumuşdum. Kitab Miraxur Əsgərli tərəfindən yazılmış "Ölümdən sonrakı şizofreniya" idi. Bu əsəri oxudum həqiqətən də təsirli əsər idi, qısaca belə deyim ki, bəzən insanlar xoşbəxtliyin haqqını verməyəcək insanlara daha çox dəyər verirlər və bu da sonda peşimançılıq yaradır. Hətta o hekayədən bir-iki bənd şeirdə əlavə edəcəm, az da olsa hekayə haqqında düşüncələriniz qətiləşər.

Gözləri zümrüdtək parlayan gözəl,
Gözündən bir damla yaş axdımı heç?
Qəlbimi sındırıb, pərişan etdin.
Gedərkən geriyə bir baxdınmı heç?
İndi heç olmasa peşimanmısan,
Yoxsa keçənləri tam unutmusan.
Bəlkə heç səhvini dərk eyləmirsən,
Etdiyin əmələ don geydirirsən...

Düşünürəm ki, bu misralar hekayəni oxumasanız da sizdə hansısa təsüratları canlandırdı. Deməк olar ki, "Ölümdən sonrakı şizofreniya" hekayəsini bitirdikdən sonra bir müddət yeni kitab oxumadım. Bir gün maraqlı kitablar axtararkən, qarşıma Varis Yolçuyevin kitabları çıxdı. Diqqətimi çəkdi kitablar, başladım hər birini oxumağa.Varis Yolçuyev, 7 iyun 1966 cı ildə Sumqayıt şəhərində anadan olub.1990-cı ildə isə Bakı Dövlət Universtetinin "Tarix-filologiya" fakültəsini bitirib. Varis Yolçuyev Azərbaycan Respublikasının Əməkdər Jurnalisti və "Dan ulduzu"ali jurnalistika mükafatına laiq görülmüşdür. Varis Yolçuyevin, oxuduğum hekayələri "Sənə inanıram"və "Əzilmiş fotoşəkillər"dir. Əslində yazıçın hər iki hekayəsində də oxşarlıqlar vardır. Hər iki hekayədə varlı və kasıb ailə müqayisəsi demək olar ki, hekayələrinin kulminasiya zirvəsini yaşayır. Yəni, yazıçın məqsədi bəlkə də varlı və kasıb arasında olan fərqi müəyyən etməkdir, oxucularına bunu çatdırmaqdır. Yazıçının "Əzilmiş fotoşəkillər" hekayəsini oxumamışdan öncə, beynimdə bu fikirlər yaranmışdı ki, yəqin sıxıcı bir hekayədi, oxumağa dəyməz. Ancaq hekayəni oxumağa başladıqca göz yaşlarım yanağımda düyünlənir, hekayəyə olan rəğbətim artırdı. Hekayədə qısaca, "kasıbçılığın"qurbanı sayılan cavan bir gəncin həyatından söz açılır. Həmin gənc qız, intihar edir həyatının ən gözəl çağında heç nəyə baxmadan canına qıyır. Bəzən insanlar axtardıqları xoşbəxtliyi tapa bilmirlər, buna görə də həyatlarından nakam köçürlər. İnsan hər şeyə rəğmən güclü olmalıdır, axı biz belə öyrənmişik. Hər ayağımız büdrədiyində məqsədimizə çatmaqdan əl çəksəydik onda heç yaşamaq amalımız olmazdı. Yazıçı, yəni Varis Yolçuyev intihar haqqında bəzi araşdırmalar aparmışdır. Yazıçının belə bir sözü vardır ki, insan vəfat edərkən ölüm ona qonaq gəlir, intihar edərkən isə əksinə o, ölümə qonaq gedir.Yolçuyev intihara başqa belə bir tərif də verir ki, intihar-sosial səbəblər ucbatından insanın öz mövcudiyyatını dayandırmasından ibarət sosial fenomenə deyilir. Əslində intihar edən gənc qızın ailəsi, imkanlı ailə olmuşdur. Lakin gənc qızın ailə həyatı qurduqdan sonrakı həyatı tamamilə fərqli olubdu. Çəkdiyi sıxıntı, onu gündən-günə daha da bezdirir, sanki ömründən bir neçə il geri gedirmiş. Artıq heç nəyə tab gətirməyən gənc qız, belə bir hərəkət etməli olur. Etdiyi hərəkət tamamilə yanlış olsa da, artıq hər şey üçün çox gec idi. İnsan nə qədər sıxıntı çəksə də hər şeyə dözməli, səbr etməlidi. Belə bir deyim var, hər qaranlıq gecənin mütləq ki, aydınlı sabahı vardır. Nə bilmək olardı ki, bəlkə gənc qızın sonrakı həyatı daha da gözəl olacaqdı. Həyat bizə yaşanılmaq üçün verilibdi, biz tərəfindən sonlandırmaq üçün yox. Bu həyatı yaşayana gözəldir, yazıçı intihar, varlı-kasıb arasındakı zidiyyətləri bariz nümunə olaraq qeyd edirdi. Əsas məqsədi də oxucularına doğruları göstərməkdir. Hər cümləsində bir dərin məna yatan "Əzilmiş fotoşəkillər" hekayəsi mənimçün yazıçının ən gözəl və ən təsirli hekayələrindən biridir. Cümlələri oxuduqca, səhnələr gözümün önündə canlanır. Sizlərə də tövsiyə edirəm ki, ən azından bir kitab oxuyasınız. Ən ali həqiqətləri görmək üçün.



**Gülnarə Abbasova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***



# SÖZƏ, HAQQA TAPINAN ŞAİR

Bu dünya əslində bir savaş meydanıdır. Xeyirlə Şər daima mübarizə aparır, hərə öz haqqını sübuta yetirməyə çalışır. Bu savaşda kimin haqlı, kimin haqsız olduğunu demək çox çətindir. Bundan ötrü zamana, olaylara hakim, vicdan tərəzisində ədaləti bərpa etməyə qadir olmalıdır insan. Elə insanlar vardır ki, hər sözü, əməli, sevgisi, vətənpərvərliyi və s. müsbət keyfiyyətləri ilə sevilir, təqdir edilir. Bələləri insanları sülhə, barışığa səsləyir və əslində insanlığı məhv olmaq təhlükəsindən qorumağa çalışırlar. Onlar dünyanın Tanrıya sevgidən ibarət olduğunu bizlərə xatırladan şairlərimiz, söz, sənət fədailərimizdir. Aqillərdən biri deyir ki, insanda hər şey gözəl olmalıdır. Özü də, sözü də, əməlləri də!

Belə insanlardan bir də söz səngərində möhkəm silahlanmış, könlünü, ürəyini söz dünyasına verən şair Xanəli Kərimlidir.

Adam var, elçi daşıdır,
Adam var, yolçu daşıdır.
Adam var ki, ayaq daşı,
Adam da var, baş daşıdır.

Şair kimdir? Elçi daşı?
Ya baş daşı, ayaq daşı?
Ya da, bəlkə, yolçu daşı?
Bəlkə, zamanın savaşı?...

Bu suallar yorur məni,
Cavab tapmaq yaman çətin
Ancaq nəçi olursan ol,
Tükənməsin məhəbbətin,
Tükənməsin sədaqətin.

X.Kərimlinin ömür yoluna nəzər saldıqda şairin həyata, insanlara həssas münasibətin, nəcib, ülvi duyğuların şeirlərində öz əksini tapdığının şahidi oluruq.

X.Kərimlinin qəlb dünyasında, şeir dənizində elə söz və ifadələrə rast gəlirsən ki, bu söz inciləri səni coşdurur, limandan-limana atır. Şeirlərində sadəlik və təbiilik olan, xalq dilindən mayalanan ifadələri ilə zəngin olan şair yazır:

Ayaqlarım girdən düşəndə,
Dizlərim dözməyib bükülən də
otururam bir skamyada
tək – tənha...

X.Kərimli yazır: "Mən o vaxta qədər yazıram ki, sözlər üzümə bozarmasın. Hiss edəndə ki, sözlər hissini, duyğusunu məndən gizlətməyə başlayır, onda qələmi yerə qoyub, ayrı bir işin dalınca gedirəm".

Şairin dilindəki ifadə zənginliyi o qədər genişdir ki, maraqlı hikmətli sözlər, kəlamlar elə yerli-yerində işlənir ki, bunlar oxucunu düşündürür, tərbiyə edir, insanın həyatında böyük izlər qoyur:

O qədər ucaya yüksəlmə ki, sən,
Yerə düşəndə də əzilməyəsən...
***
Yediyi çörəyə dönük çıxan kəs,
Haqqa can atsa da,haqqa yetişməz.
***
Bir udum su verdilər,
Əvəzində dənizi
ərmağan istədilər.
Mən dənizi bağışladım...
Di gəl, üzüm gəlmədi
bir damla istəməyə.
Dedilər:
Ya xəstədi,
ya gicdi,
ya sərsəri.

Ancaq öz aramızdı,
Ağlından şikayətçi
olmayanlar içində
mənim kimilərin də
hərdən görünür yeri.

Yaxud da:

"Tənqiddə üç mühüm şərt gözlənilməlidir: ünvanlılıq, inandırıcılıq və qərəzsizlik.

-"Mən" və "mənəmliyin" başlandığı yerdə nə sənət var, nə də sənətkar.

-Özündə özünü kəşf etməyənlər özgənin hiss və duyğularını, sevinc və fərəhini, ağrı-acılarını da kəşf edə bilməz.

-Hamı tərəfindən bir mənalı qəbul edilən sənətkar ölü sənətkardır. Çünki ölüyə birmənalı münasibət var – artıq o, ölüdür.

- Öz zəmanəsinə mənsub olmayan bir sənətkar heç bir zəmanəyə mənsub ola bilməz" və s.

Xanəli Kərimli yaradıcılığı ilə tanış olanda misra-misra çırpınan, söz-söz döyünən bir ürəyin poetik duyğuları ilə tanış olursan. Və başa düşürsən ki, bir qərinəyə yaxın dövr ərzində şeirlə nəfəs alan, gənclik dövründən, hətta, uşaq yaşlarından indiyə qədər duyğu və düşüncələrini şeirə çevirən "şeir yolçusu"nun söz dəryasındasan.

X.Kərimli şeirlərinin mövzu dairəsi çox genişdir.

Məhəbbət mövzusu, Vətən sevgisi, Qarabağ dərdi, Tanrı sevgisi, Tanrıya tapınmaq, musiqi, adət-ənənəmiz, əxlaq, tərbiyə və davranış qaydalarına qədər hər şey var onun şeirlərində. Şairin dili aydın və sadədir. Bu dil ulularımızın ürək sözü, babalarımızın, atalarımızın nəsihəti, kəlamları, nənələrimizin laylaları, bir sözlə, saf, təmiz, anlaşıqlı, zəngin bir dildir. Şair sözü ürəyinin qanı ilə suvarır, sözü kəsərdən düşməyə qoymur. Hər sözündə, kəlməsində oxucu özünü tapır bu söz çələngində:

Mən sözdən qorxuram – Tanrıdan qorxan kimi,
Çünki söz Tanrının, Tanrı sözün özüdür.
O, bir nurdur süzülüb ərş-əladan gəlir,
Ərşlə fərşin zatı, astarıdır, üzüdür.

Şair tanrı ruhu, söz şairin ruhudur,
O, boyun əyməmiş xaqanlara, şahlara.
Haqdan gələn haqçün haqqa tapındığından
Sözləri də şairlər tək çəkiblər dara.

Vətənini sevən, torpağına, elinə bağlı şair "Naxçıvanım mənim" şeirində doğma torpağını, Naxçıvanımızın ecazkar gözəlliyini, tarixini vəsv edərək, bu ulu diyarı "əbədi ünvanım" adlandırır.

Ey şəhidlər qanı ilə
yoğrulan torpağım mənim!..
Fırtınalar qucağında
sönməyən çırağım mənim!..
Sən tarixə sığışmayan
özün boyda bir qüdrətsən!..
Sən peyğəmbərlər Vətəni,
bir müqəddəs məmləkətsən!..

...Bu dünya bir cənnətdirsə,
O cənnətin qapısı sən!
Varım, yoxum – nəyim varsa,
Cümləsi sən, hamısı sən!
Yaşa, xoşbəxt anım mənim,
Əbədi ünvanım mənim-
Doğma Naxçıvanım mənim!..

Xanəli Kərimli sonuncu, yeni çap olunan "Tanrı müjdəsi" şeirlər və poemalar kitabında da maraqlı, dünyəvi, vətənpərvər mövzulara geniş yer ayırmış, ürəyini, könlünü söz vermiş, şanlı tarix yazan ordumuzun, əsgərlərimizin məğrurluğundan söhbət açmışdır.

Şeir, poeziya obrazlı təfəkkürün məhsuludur. Şairin yazdığı sətirlərdə baxışları fərqlidir. O, misralara öz nəfəsini gətirir, məcazlar sistemi ilə bu misraları daha da zənginləşdirir. Döyüşkən ruh, sabaha inam, ağ günlər üçün çarpışmaq, mübarizə aparmaq əhval ruhiyyəsi ilə yazdığı"Vur,əsgərim,haqq sənin,həqiqət də sənindir!" şeirində şair deyir:

Otuz ildir qələmim qəzəbindən boğulur,
Otuz ildir ümidlər bələyində boğulur,
Otuz ildir arzular sinələrdə dağ olur,
Otuz ildir millətin səbiri də sovrulur...
İndi zaman dəmidir, indi Günəş doğulur,
Vur, çatlasın, əsgərim, düşmənim qan yaddaşı!...
Ucalsın enməzliyə Vətənin məğrur başı!...

Bu günün şairi də, qibləgahı da sənsən,
Sənin qalib zəfərin zamanın dastanıdır.
Səngər-səngər döyüşüb qaldırdığın o bayraq
Vətən şəhidlərinin al qırmızı qanıdır...
Vur, əsgərim, düşmənin sönsün o son çırağı!...
Kəsilsin düşmən əli, qoy pozulsun növrağı!...

X.Kərimlinin bütün şeirləri gözəldir,qəlbə,ruha yaxındır, çünki içdən gəlir, ürəkdən süzülür. Onun şeirlərindəki sözlərdə ifadə tapıntısı, poetik kəşflər mövcuddur. Elə buna görə də X.Kərimli şeirləri çox sevilir, insanların maraq dairəsinə çevrilir. O,sözü sözlə cilalayaraq onu özünün dərddaşı,qibləgahı sayır.

X.Kərimli yaradıcılığında poema janrında yazdığı əsərlərin də mühüm rol və əhəmiyyəti vardır. Akademik İ.Həbibbəyli X.Kərimlinin poemalarınından danışarkən haqqlı olaraq yazır: "Poemalarında X.Kərimli daha çox şair-vətəndaş kimi çıxış edir. Onun vətəndaşlıq qayəsinin poetik ifadəsi şeirlə ifadə olunmuş şüarçılıqdan yox, can yanğısından doğan şair narahatlığından ibarətdir".

X.Kərimli yaradıcılığı günümüzün reallığını, xalqın fikir və düşüncələrini yazıya köçürmə bacarığı olan, dolğun, elmi, səlist, məntiqi, mənalı nitqi ilə sevilən pedaqoq, insan, şairidir. Onun söz dünyasında öz sözü, öz dünyası, öz fikirləri vardır. Heç kimin sözünə, fikirlərinə şərik çıxmağı sevmir. Elə buna görədir ki, X.Kərimli cəmiyyətdə,geniş mənada, çağdaş elmi-ədəbi mühitdə sevilir və yaradıcılıq üslubu ilə tanınır.

Xalq şairi M.Araz deyir: "anadan, bacıdan gizlətdiyimi, qələmdən, kağızdan gizlətməmişəm". X.Kərimli isə bu fikrə tamamilə başqa bir rakusdan,fərqli bir mövqedən yanaşır:

Ürəyimi yeyə-yeyə yaşayıram,
Əvəzində bu dünyanın dərd yükünü
ürəyimə daşıyıram...
Elə dərd var,
ürəyi zərrə-zərrə,qram-qram
əritsə də,çürütsə də,
kağıza da,qələmə də açmaq olmur.
Dərd də var ki,
bir dost iələ,sirdaş ilə
bölüşməkdən qaçmaq olmur...

Yaxud da, şair əsrimizin az qala bir nömrəli bəlasına çevrilən tənhalığın gətirdiyi acılıqlardan,mənəvi sarsıntılarından insanlığı qurtarmaq üçün İlahiyə üz tutub

İlahi, sən mənə bir dərddaş yetir,
İçimi qurd kimi yeyir dərdlərim.
Nə aça, nə də ki bükə bilirəm,
Havalı adam tək bilinmir yerim.

... Sən göydə tənhasan, mən Yer üzündə,
Sənin səbrin çoxdur, mənim də dərdim.
Heyif ki, əlacım, imkanım yoxdur,
Yoxsa, dərdləşməyə Göyə gələrdim-

yazanda insanlığın keçirdiyi mənəvi sarsıntılara biganə qala bilmirsən...

Belə deyirlər ki, şairlər, yaradıcı insanlar, bir çox hallarda, öz talelərini qələmə alırlar. Yəqin ki, bu, belə də olmalıdır. Çünki insan özünü daha yaxından tanıyır, duyur, dərk edir. Özünü dərk etmədən, həyatda olanı bədii təfəkküründən keçirmədən, həyatda görmədiyini təfəkküründə yaşatmadan, yaratmadan, başqa sözlə, yanmadan, duyğulanmadan sözünü bu qədər sevdirə bilməzsən, şair ola bilməzsən. Bu mənada X.Kərimlinin hər sətrindəki sözü, misrası oxucusuna "açıq məktub"dur. Şair sözü cilalayıb milli mənəvi sərvətimiz kimi gələcək nəsillərə ərməğan edir.

Azərbaycanda,onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımızda kifayət qədər tanınan alim, şair, poetik söz ustadı, xalqına, elinə, Vətəninə bağlı mübariz ruhlu Xanəli Kərimli əsil Vətən oğlu, yurd oğludur. Söz adlı haqqa tapınan, sözə bu qədər bağlı olan şair inanırıq ki, gedəcəyi uzaq yolda bol-bol oxucu sevgisi, xalq alqışı ilə yeni şeirlər, əsərlər yaratmaqla bizləri sevindirəcəkdir.

**Arifə Zeynalova**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# NAXÇIVAN- NƏQŞİ CAHAN

Azərbaycanının ayrılmaz parçası olan Naxçıvan tarixi keçmişi və zəngin mədəniyyəti ilə seçilən bir diyardır. Naxçıvanı Nəqşi-cahan, yəni "dünyanın naxışı", "dünyanın bəzəyi" adlandırırlar. Naxçıvan təbiəti, təmiz havası və əsrarəngiz gözəlliyi ilə göz oxşayır. Naxçıvanın özünəməxsus iqlim şəraiti vardır. Elə buna görə Azərbaycanın digər ərazilərindən fərqlənir. Qədim Azərbaycan torpağı olan Naxçıvan dünyada həyatın başladığı ilk insan məskənlərindən biri, tarixi mədəniyyət ocağıdır. Naxçıvan bitib tükənməyən tarix və mədəniyyət xəzinəsidir, Nuh yurdudur. Naxçıvan sözü Nuh peyğəmbərlə, daha doğrusu, "dünya" tufanı" ilə bağlı olub "Nuhçuvan"- "Nuh tərəfdarlarının məskəni", "Nuhun diyarı" deməkdir. Nuh peyğəmbərin qəbri isə Naxçıvan şəhərinin özündədir.

Naxçıvan tarixən həm də ən qədim, ən zəngin və ən dadlı duz məkanıdır. Ən möcüzəli yerlərdən olan Duzdağın hər bir qarışında, dağında, daşında sirli-sehirli tarixin izləri yerləşir. Naxçıvanın duz mədənində aparılan arxeoloji qazıntılar, tədqiqatlar nəticəsində burada insanların müalicəsi üçün əhəmiyyətli olan böyük duz mağarası aşkar olunmuşdur.

Müəyyənləşdirilmişdir ki, duz mədənində çalışanların heç birində bronxit və ya asma kimi xəstəlikləri yoxdur. Duzdağ insanların müalicəsi üçün şəfa ocağıdır. Tarixdə duzun ilk kəşf olunması Naxçıvan diyarına aiddir. Duzu ilk dəfə mətbəxə gətirən də türk olmuşdur. Rəvayətə görə Nuh peyğəmbərin nəvəsi Türk xanın oğlu Tütək xan duz dağ ərazisində ət yeyərkən tikəsi yerə düşmüş, tikəni yerdən qaldırıb yedikdə, necə dadlı olduğunu duymuşdur. Ona məlum olmuşdur ki, bu duzdur. O vaxtdan duz mətbəxdə istifadə edilməyə başlanmışdır. Bu bir daha göstərir ki, Naxçıvan qədim diyar olmaqla, həm də ilk duz diyarıdır. Naxçıvanda yerləşən Duzdağ



oteli istirahət üçün çox əlverişlidir.

3500 ildən artıq yaşı olan Naxçıvan Şərqdə və bütün dünyada ən qədim şəhərlərdən biri hesab olunur. İslam dünyasında Naxçıvanı daha da məşhurlaşdıran qədim inanc yeri sayılan Əshabi-Kəhf müsəlmanların ziyarət yerinə çevrilmişdir. Ziyarətgah dünyanın müxtəlif ölkələrindən gələn turistlər üçün də böyük maraq doğurur. Əshabi-Kəhf dağlar arasında yerləşir. İnsanlar ziyarətgaha gəlib namaz qılır, dualar edirlər. Ən müqəddəs yerlərdən sayılan "Əshabi-Kəhf"-ə inam güclüdür. El arasında deyirlər ki, Əshabi-Kəfi yeddi il dalbadal ziyarət etmək Kərbəla, hətta Həcc ziyarətinə bərabərdir. "Əshabi- Kəhf"-ə piyada getmək çox savab sayılır . Quranda adı çəkilən abidə indiyədək qorunub saxlanılır. Qədim Naxçıvan torpağı Xan Sarayı,Gülüstan türbəsi, Cümə məscidi, Qeysəriyə, Gəmiqaya, Hüseyn Cavid məqbərəsi və başqa abidələri ilə də məşhurdur. Naxçıvanın memarlıq abidələrindən ən möhtəşəm nümunələrindən biri də Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa olunan Möminə Xatun türbəsidir. Möminə Xatun türbəsi mükəmməl sənət nümunəsidir. Qədim tarixə malik olan bu abidə tarix boyu yaşayaraq bu dövrümüzə qədər qorunub saxlanılmışdır. Azərbaycan abidələri içərisində öz gözəlliyi və dekorativ bəzəkləri ilə seçilən Möminə Xatun türbəsi dünyanın möhtəşəm memarlıq abidələri sırasında özünəməxsus yer tutur.

Qədimliyi, gözəlliyi, yüksək inkişafı ilə tanınan Naxçıvan öz mövqeyini, müstəqilliyini bu dövrədək qoruyub saxlamışdır. Bu sabitliyin və yüksək rifahın bir səbəbi var. Azəbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir.

**Səkinə Bağırova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# DAĞLARDAN SÜFRƏLƏRİMİZƏ GƏLƏN FAYDALI NEMƏTLƏR

Bəşər sivilzasiyasının mədəniyyət ocağı olan Naxçıvanımız özünəməxsus təbiət gözəllikləri, zəngin flora və faunası ilə bu yurdun seyrinə gələnləri daim özünə heyran qoyur. Diyarımızın bağ-bağatlarında yetişən meyvələri, münbit torpaqlarında boy verən bitkiləri, ucu şişpapaqlı dağlarının bağrını yara-yara qaynayıb çağlayan buz bulaqları can dərmanıdır. Ekoloji saf məhsulları, gəzib görməli yerləri, təmiz havası olan bu məkan bütün fəsillərdə bar-bəhrələrini, dillər əzbəri olan nemətlərini hər kəsə təmənnasız olaraq təklif edir.

Yaz fəsli də özü ilə birgə yurdumuza bolluq-bərəkət, xoş ovqat, əlvanlıq gətirib. Torpaqdan boylanan yaz pencərləri isə baharın müjdəçisi olmaqla bərabər, həm də səxavəti sayılır. Min bir dərdə dəva olan bu çöl nemətlərinin sorağı məni yenə doğma kəndimiz Vayxırın yolunu tutmağa vadar etdi. Yolboyu seyr etdiyim mənzərələr içərisində sözsüz ki, ən gözəli diyarımızın bağ-bağatlarında çalışan, münbit torpaqlarında yetişən məhsulları, göy-göyərtiləri toplayan zəhmətkeş insanlar oldu. İlin bu vədəsində işi-gücü "başından aşan" kənd sakinləri səhərin erkən saatlarından sahəyə çıxır, əkin-biçin üçün ilk hazırlıqlarını görürlər. Lakin bu qədər işin arasında bu günlərin ən ləziz, faydalı nemətləri sayılan – cacıq, qazayağı, çiriş, şomu, yarpız, quşəppəyi, salmanca, unnuca, əvəlik, ələyiz yığmağa da mütləq zaman ayırırlar. Elə ailəmizin ağbirçəyi Roza nənə kimi...

Əvvəlcə onu qeyd edək ki, Tanrının yetirdiyi min bir təbii sərvət, bu torpaqda bitən bitkilər şəfalı və faydalı olmaqla yanaşı, həm də burada hər fəslə, hər mövsümə uyğun zəngin mətbəx mədəniyyətinin əsasını qoyub. Qədim diyarımıza məxsus, yaz fəslində ağız ləzzəti ilə yeyilən mətbəx nümunələrimiz çoxdur. Bunların əsasını isə insan sağlamlığı üçün faydalı olan pencər yeməkləri təşkil edir.

Biz də həmin faydalı nemətlərlə yaxından tanış olmaq, oxucularımıza həm də onların necə bişirilməsini öyrətmək üçün Roza nənə ilə birlikdə kəndimizin bərəkətli dağ-dərələri gəzdik. Yol boyunca nənəmiz göyərtilərin yığılma qaydasından, bişirilməsindən, onların faydasından danışdı. Bir xeyli məsafə qət edib, lazım olan pencərləri- yabanı şəfalı otları topladıqdan sonra evdən hazırlıqlı gələn nənəmiz,- biraz dincələk,- deyib çantadan pendir dürməkləri çıxardı. Dağ ətəyində pencər yığa-yığa pendir dürməyi yeməyində öz gözəlliyi, ləzzəti var.

Artıq evdəyik... Xeyli pencər yığmışıq. Nənəmiz ilk öncə torbadan şomunu çıxarıb kətə üçün hazırlamağa başlayır və bu bitkinin faydaları haqqında danışaraq qeyd edir ki, şomu şəkərli diabetdən tutmuş qan təzyiqinə qədər bir çox xəstəliklərin müalicəsində istifadə olunur, həmçinin bu bitki həzm problemini də aradan qaldırır. O bu yeməyin bişirilmə qaydasından danışır: Şomunu yaxşı təmizlədikdən sonra kiçik ölçülərdə doğrayıb üzərinə soğan əlavə edirik. İçliyə zövqə görə duz, istiot, bir də başqa növ göyərtilərdə əlavə etmək olar. Əlimizlə yaxşıca qarışdırıb, ovuşdurduqdan sonra içliyimiz artıq hazır olur. Nənəmiz səhər erkəndən yoğurduğu xəmiri kiçik kündələrə ayırıb, duvağın üzərinə un əlavə edib açmağa başlayır. Duvağın üzərində aram-aram açılan xəmir lazımi ölçünü aldıqdan sonra, təxminən iki xörək qaşığı içliyi əlavə edib bükür və bişməsi üçün sacın üzərinə qoyur. Nənəmiz deyir ki, isti ocaq başında bişən yeməyin dadını heç nə verə bilməz, hələ ki o yemək sac kətəsi ola. Kətəmizin hər iki üzü yaxşıca qızardıqdan sonra "şırran" deyilən yerdən (kətənin yuxarı hissəsindən yağlamaq üçün bıçaqla azacıq yarılmış yer) kətənin içərisinə kərə, yaxud da istəyə görə nehrə yağı əlavə edir. Roza nənə deyir ki, zövqə görə xamada əlavə edilir ancaq içərisinə kərə yağı əlavə edilən kətə çox ləzzətli olur. Bununla da kətəmizin hazırlanma prosesi başa çatır.

Naxçıvan mətbəximizin dadlı yeməklərindən Naxçıvanda bişirilən şomu, qarışıq göyərti, çiriş, gicitkən, balqabaq, mərcimək, lobya, cəviz, halvalı, şirin, döymə, dürmək



kətələrindən söhbət edə-edə, somavar çayından içib kətələrdən yeyə-yeyə vaxtın necə gəlib keçdiyinin fərqinə də varmadıq.

Biraz dincimizi aldıqdan sonra milli mətbəximizin ən qədim və dadlı yemək növlərindən olan dovğanın hazırlanmasına keçdik. Roza nənə dovğa hazırlanması haqqında az öncə başladığımız söhbətə davam edir: – Çöldən salmanca, unnuca, yarpız, pərpətöyün, sarmaşıq, əvəlik toplayır, yaxşıca yuyur, doğrayırıq. Əvvəlcədən qaynamağa qoyduğumuz düyünün üzərinə tökürük. Əgər düyünün suyu azdırsa, üzərinə azca su əlavə edib qaynadırıq. Bir az bişəndən sonra soyumağa qoyuruq. Düyü ilə pencər birlikdə qaynayanda dadı bir-birinə qarışır. Dovğamızın dəni-düşü hazır olduqdan sonra qatığı və yumurtanı ələkdən keçirib bütün ədviyyatları hazırlayacağımız qazana əlavə edib ocağın üzərinə qoyuruq. Dovğanı qaynara düşənə qədər mütləq taxta qaşıqla dayanmadan qarışdırmaq lazımdır. Yeməyimiz bişdikdən sonra da onu ara-ara, soyuyana qədər qarışdırmaq lazımdır ki, çürüməsin. Soyuduqdan sonra ona duz əlavə edib süfrəyə verə bilərik. Nənəmiz deyir ki, bu yeməyi hər fəsildə bişirmək olar amma, yaz pencərləri ilə bişirilən dovğanın dadını heç nə verə bilməz. Bu yemək "xeyir-şər məclisləri"ndə, qonaqlıqlarımızda süfrələrimizin əvəzolunmaz təamıdır. Yaz və yay aylarında süfrənizdən əskik etməsəniz, sağlamlığınızın da qeydinə qalmış olarsınız. Müsahibim qeyd edir ki, bəzən dovğaya "qatıqaşı" deyənlər də olur, amma onlar arasında fərq var. Dovğaya yumurta vururuq ki, qatıq pencərlə, düyü ilə birlikdə qaynayanda çürüməsin. Un vuranlar da olur. Bişirdiyimiz dovğanın çürüməyinin qarşısını alan yumurta olsa da, düyünü əvvəlcədən bişirsək, həm dovğanı saatlarla bulamağa ehtiyac olmaz, həm də çürüməz. Amma ki, qatıqaşında qatıq odun üzərinə qoyulub bişirilmir, əvvəlcədən qaynadılmış, düyü və göyərti soyuq halda qatıqla qarışdırılır. Bu yemək növü də bir başqa cür ləzzətli olur.

Ömrünün 95-ci yazını yaşayan Sonabəyim nənə II Dünya Müharibəsi illərində yaşadıqları çətin dövrlərdən söhbət açaraq deyir ki, müharibə illərində övladlarımızın qarnını doyurmaq üçün bir loxma çörəyə belə möhtac idik. Belə ağır vəziyyətdə yurdumuzun münbit torpaqlarının bitirdiyi nemətlər həmişə bizim dadımıza çatıb. Çətin günlərimizdə bu göy-göyərtiləri toplayıb qatıq aşından, dovğadan hazırlayıb balalarımızı doyurar, beləcə, keçinərdik. İndi, şükür Allaha ki, belə qayğılarımız yoxdur, bolluq-bərəkət içindəyik.

Səhərin erkən çağından kəndimizin qonağı olduq, yurdumuzun qoynunda gəzib saf havasını ciyərlərimizə çəkib hər dərdə dəva olan müxtəlif pencərlərdən topladıq, həm də onların bişirilmə qaydasını öyrəndik. İstər istəməz bir fikir adamın ağlından keçir: "Ana təbiət bu yurddan heç bir varını əsirgəməyib. Əslində, Uca Yaradan bu diyarın insanlarına ruzisini özündən əvvəl verib. Bu yurda elə səxavətlə min bir naz-nemət bəxş edib ki, bunların qədrini bilib, yığıb istifadə etməklə yanaşı, həm də artıb-çoxalması qayğısına qalsaq, sağlamlığımız naminə süfrələrimizdən əskik etməsək, bar-bərəkətimiz də tükənməz, xəstəliyin də nə olduğunu bilmərik".

Bişirmək asandır, təki evlərimizdə bolluq, əmin-amanlıq, ruzi-bərəkət olsun...

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# QƏHRƏMAN JURNALİSTLƏRİMİZİ TANIMAQ HAMIMIZIN BORCUDUR

Jurnalist dedikdə nə başa düşürük? –Elə insanlar var sadəcə jurnalisti məşhur insanların həyatı haqqında mediaya məlumat verən biri kimi düşünür, elələri vardır ki, sadəcə televiziya və radioda mikrofon arxasında gündəlik xəbər paylaşan, dünyada baş verən hadisələri işıqlandıran bir şəxs kimi görürlər. Bəziləri isə öz vətəni üçün canından keçəməyə hazır olan, ən ekstremal şəraitdə belə vəzifə borcunu yerinə yetirməyə çalışan, ölümdən qorxmayan, peşəsinin vurğunu olan qəhrəman kimi görür. Bu yazım məhz qəhrəman, Qarabağ müharibəsində təhlükələrdən qorxmayıb, cəbhədə baş verənləri videolentə qeyd edib bütün dünyaya çatdırmağa çalışan jurnalistlərimiz haqqındadır.

Erməni terroru nəticəsində şəhid olan ilk jurnalistləri¬miz-dən biri öz peşəsini layiqincə yerinə yetirmiş Salatın Əsgərovadır. Hazırladığı reportajlarla müharibənin ən qızğın nöqtələrindən xəbər verən Salatın qısa müddət ərzində geniş oxucu kütləsi yığmağı bacarırmışdı. Gənc vaxtlarında ilk məqalələri belə hərbi mövzularda olmuşdu. Niyə məhz hərbi mövzular, çünki 1988-1989-cu illərdə Qarabağda baş verənlər, azərbaycanlıların başına gətirilən müsibətlər Salatın Əsgərovanı hərbi mövzularda yazmağa və reportajlar hazırlamağa vadar edirdi. Peşəsini sevən və ona sadiq olan qəhrəman xanım Salatın Əsgərova tez-tez cəbhənin qaynar nöqtələrində olur, daim ön cəbhədən informasiya toplayırdı…1991-ci il yanvarın 9-da Laçından Şuşaya yollanarkən erməni terroristləri gənc jurnalistimizin olduğu maşını şiddətli atəşə tuturlar və Salatın Əsgərova oradaca şəhidlik zirvəsinə ucalır. Cəsur jurnalistimizin hərbi mövzuda yazdığı məqalələri, hazırladığı reportajları həmkarlarının onun qorxmazlığı haqda yazdığı məqalələr və reportajlar əvəzləyir. Bu qəhrəman qadın haqqında oxuduğum məlumatlardan öyrənmişdim ki, Salatın Əsgərovanın boğazında zob var idi. Yaxınları onun əməliyyat olması üçün nə qədər israr etsələr də o, əməliyyata getmədi. O, Qarabağımızda o qədər qanlar tökülürkən mən cəbhəyə getməliyəm dedi. Qeyrətli vətən qızı Salatından geriyə torpaq üçün göstərdiyi qəhrəmanlıqları, hazırladığı reportajlar və bir oğlu qaldı. Hazırda onun oğlu da bu şərəfli peşənin davamçısıdır. Ceyhun Əsgərov tibbi biologiya ixtisasını bitirsə də jurnalist kimi fəaliyyət göstərmişdir ANS-də məşhurlaşan C eyhun Əsgərov bir sıra media qurumlarında çalışıb və hazırda İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri üzrə Dövlət Xidmətində mətbuat xidmətinin rəhbəridir.

Qəhrəman jurnalistlərimizdən biri də Osman Mirzəhüseyn oğlu Mirzəyevdir. Osman Mirzəyev kiçik yaşlarından təyyarəçi olmaq arzusunda idi. Ancaq sonralar onun marağı daha çox ədəbiyyata və incəsənətə yönəldi. Tanınmış, həm də prinsipial, jurnalistlərdən olan böyük qardaşı İmran Mirzəyevin yolu ilə getmək arzusu ilə o, Bakı Dövlət Universitertinin jurnalistika fakültəsini bitirir. Bir çox mətbuat orqanlarında çalışan Osman Mirzəyev Salatın Əsgərova kimi təkcə öz peşəsini layiqincə yerinə yetirməklə kifayətlənmir, həm də vətənini qorumağa can atırdı. Osman Mirzəyevin məqalələrinə "yuxarıdan" hücümlar edilsə də o özünün mübariz mövqeyi ilə bu hücumları dəf edə bilirdi. O zamanlar "sosializm" adlandırılan cəmiyyətdə və onun ideyaları altında yaşasa da, Osman müəllim daxilən o cəmiyyətlə barışa bilmirdi.

Osman Mizəyev 1991-ci ilin noyabrında əqidə dostları – Azərbaycanın müstəqilliyi uğrunda mərd mübarizlər İsmət Qayıbov, Tofiq İsmayılov, Məhəmməd Əsədov və digər vətən oğulları ilə birlikdə Qarakəndə köməyə tələsərkən Qarabağ səması üzərində vertolyotda vurulmuşdu. Uşaqlıq arzusu göylərdə təyyarə uçurtmaq olan jurnalistimiz elə göylərdə də şəhidlik zirvəsinə ucaldı.

Şəhidlik zirvəsinə çatmış jurnalistlərimizdən biri də Alı Mustafa oğlu Mustafayevdir.O da Osman Mirzəyev kimi BDU-nun jurnalistika ixtisasını bitirmişdir.1981 – ci ildə ali məktəbi bitirərək Xəbərlər proqramında jurnalist kimi fəaliyyətə başlamışdı. İlin ən yaxşı jurmalisti və Qızıl Qələm mükafatlarına layiq görülmüşdü. 20 noyabr 1991-ci ildə Tuğ, Xocavənd, Qaradağlı kəndlərində törədilən faciələrlə yerində tanış olmaq üçün gedən hökumət nümayəndələrini




aparan hərbi vertolyot erməni terrorçuları tərəfindən Qarakənd kəndi yaxınlığında vurulması nəticədə 23 nəfər faciəli surətdə həlak oldu. Bu qəhrəman jurnalistimiz də onların arasında idi. Salatın Əsgərova kimi bu igid jurnalistimizə də ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Sözsüz ki, xalqımızın qəlbi vətən məhəbbətilə döyünən övladları çoxdur. Öz peşəsini layiqincə görən və vətən uğrunda şəhidlik zirvəsinə çatan jurnalistlərimizdən biri də Çingiz Mustafayevdir. O həm vətənimin, xalqımın qəhrəmanı, həm də mənim həyatımın ən böyük arzusunun qəhrəmanıdır...

Jurnalistlik fəaliyyəti dövründə şəhidlik zirvəsinə ucalan və öz qəhrəmanlığı ilə adı dillər əzbəri olan Çingiz Mustafayev də ixtisasca həkim olsa da həqiqi arzusu olan jurnalistlik peşəsini seçmişdi. Çingiz cəbhə bölgələrini addım-addımı gəzib ən qaynar nöqtələrdən hazırladığı odlu-alovlu çəkilişləri ilə xalqın sevimlisi olmuşdu. O öz kiçik heyəti ilə birlikdə cəbhə bölgələrinə səfərlər edir və bu bölgələrdə real vəziyyət barədə birbaşa məlumatlar yayırdı. O, Qarabağın böyük dərdini dünyaya anlatmağa çalışırdı. Çingizin reportajları Azərbaycanın məruz qaldığı informasiya blokadasının aradan qaldırılmasında və erməni nəzarətində olan media strukturları tərəfindən qərəzli məlumatların yayılmasının qarşısının alınmasında əhəmiyyətli rol oynadı. Son nəfəsinədək qarabağlılarla və Qarabağın müdafiəsinə Azərbaycanın nıüxtəlif bölgələrindən könüllü gələn qəhrəman oğullarla bir yerdə oldu. Vətənpərvər ürəyi onu çəkib cəbhənin ən qaynar, ən təhlükəli yerlərinə apardı. Onu savaş meydanlarına çəkib aparan qəlbindəki böyük vətən eşqi idi. Onun üçün bu eşq qarşısında baş əyməmək mümkün deyildi. Çingiz hələ Azərbaycanın Milli Qəhrəmanı adını almamışdan xalqın qəhrəmanı olmuşdu. O, zirvə idi, zirvələrdə gözünü yumdu. Çingiz Mustafayev 1992-ci il 15 iyun tarixində Naxçıvanlı kəndində hərbi əməliyyatların çəkilişi zamanı aldığı mərmi qəlpəsindən həyatını itirdi.

Çingizin qorxmadan düşmənin bir addımlığından çəkdiyi kadrları izlədikcə məndə belə bir arzu yaranmışdı: böyüyəndə mən də Çingiz Mustafayev kimi jurnalist olacağam. Bu arzu o vaxtdan mənim ən böyük arzum oldu.

30 illik həsrətdən sonra torpaqlarımız erməni işğalçılarından azad olunduqdan sonra da jurnalistlərimiz xidməti borclarını yerinə yetirərkən şəhid oldular. Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və "Azərtac"ın əməkdaşı Məhərrəm İbrahimov hərbi avtomobillə reportaja gedərkən Kəlbəcərin Susuzluq kəndində minaya düşərək həlak oldular. Bir gündə doğulub, bir gündə ölmədilər, ancaq hamısı Vətən üçün bir qəhrəman oldular. Artıq Qarabağ həsrəti bitti. 44 günlük müharibənin nəticəsi bizə Qarabağımızı geri verdi. Bunun səbəbi bizim igid oğullarımızın və vətənini canından çox sevən jurnalistlərimizin zabitlərimiz, hərbiçilərimiz, əsgərlərimiz kimi döyüş meydanında özlərinin şücaətlə göstərmələri idi. Şəhid olmuş jurnalistlərimizin qanı yerdə qalmadı. Artıq Qarabağa müharibə və cəbhə xəbərlərini cəmiyyətə yayimlamaq üçün yox oranın təbiətini, gözəlliklərini bütün dünyaya çatdırmaq üçün gedəcəyik. Qarabağ bizimdir və əbədi olaraq da bizim olacaq. Mən fəxr edirəm ki, bu igid jurnalistlərin peşəsini seçmişəm. Onları tanımaq və tanıtmaq bizim borcumuzdur.

**Humay Muradova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# OXUCU İLƏ SƏMİMİ HƏKİM SÖHBƏTİ

2015-ci ildə Naxçıvan Dövlət Universitetinin xarici Universitetlərlə yaratdığı sıx əlaqələr çərçivəsində Ərzincan şəhərində tələbə müəllim heyyəti ilə yay təcrübəsində olduq. Qürurverici haldır ki, bizi qarşılayanda müsafir deyil can Azərbaycandan qardaşlarımız gəlib dedilər. Təcrübə dərsləri öz yerində hər kəs tələbələrə yardım etməyə nə isə öyrətməyə çalışır, iftar yeməkləri təşkil edrirdi. Boş zamanlarda şəhərin görməli yerləri ilə tanış olurduq. Bir gün doktor Mustafa bəyYenigün bizi mühazirə zalına dəvət etdi və bir mühazirəsini dinləməmizi xahiş etdi. Mövzunun Vit D haqda olduğunu biləndə bir az rahatsız olduq. Düşündük ki, yoxsa elə bilirlər ki, biz məktəblinin belə bildiyi bu vitamin haqda heç nə bilmirik. Bu başlanğıc və yanlış təsəvvür imiş. Mühazirəni dinlədik və başım suallarla doldu. Nədən bu illərin təcrübəsini qazanmış həkim, müəllim belə həyacanla EPİDEMİYA sözünü təkrarlayır, Vit D yetərsizliyi epidemiyası çox qorxunc nətcələrə səbəb olacağını söyləyir. Təbbi ki, həyacan dolu, fikirlərini çatdıra bilməmə əndişəsi də gözümdən qaçmadı. Doğrudur mən sonsuzluğun müalicəsində, hamilə və yaşlı qadınların müalicəsində Vit D dəyərlərinə diqqət yetirirdim Ancaq onun yetərsizliyinin kütləvi fəlakətlərə səbəb olduğunu və ya ola biləcəyini düşünmürdüm. Çünki düşünürdüm ki, nə qədər Günəş var Vit D alacağıq, nə qədər vitaminlərlə zəngin qida ehtiyat və mənbəyimiz dəniz, okean və çaylarımız var, balıqlar və digər dəniz məhsulları vitamin deposudur, belə təhlükələr gözlənilmir. Düşünürdüm ki, İnsanlar nədən kütləvi sürətdə vitaminlərdən xüsusi ilə də vit D-dən imtina edəcəklər ki, epidemiya yaranacaq.

Ancaq mühazirədən aydın olurdu ki, daha bizim günəş əvvəlki Günəş deyil. Onun da öz dərdi səri var, içində tufan qopan kimi partlamalar baş verir. Atmosferi o qədər kirləndirmişik ki ultrabənövşəyi şualar bu qatlardan keçib Yerə çatmır. Qidaları təbii halı ilə uyğun texnologiyalarla hazırlayaraq qəbul etməkdənsə, dondurub təkrar-təkrar isitməyə məruz qoyaraq, vitaminləri, mineralları məhv edərək qəbul edirik, birtərəfli məs, ancaq karbohidrat ağırlıqlı, paketlənmiş uzun müddət xarab olmasın deyə qatqıları olan məhsullarla qidalanmaya üstünlük veririk. Hörmətli Mustafa bəyin fikirlərinə hörmətlə yanaşaraq bəzi suallara cavab axtarmağa başladım, necə deyərlər mövzu özü məni tapdi.

2011-ci ildə Tibb fakultəmizin tapşırığı üzrə həmmüəlifi olduğum "Sağlam qidalanmaya gigiyenik tələblər" dərs vəsaitində vitaminlərə bolmə ayrılmışdi hətta bir rəsm də əlavə etmişdim ki, bütün İnsan vücudunda hansı vitamin yetərsizliyi nələrə səbəb olduğunu tələbə anlasın. Bu gün mən həmin rəsmi Sizinlə paylaşıram və hörmətli Mustafa doktorun hazırlayıb təqdim etdiyi mühazirədəki həyacanın və əndişənin səbəbinə öz düşüncəmlə aydınlıq gərirmək istəyirəm.

Ona görə vitaminlər nədir, nədən vitamin yetərsizliyi baş verir. Vitamin yetərsizliyi orqanizmdə nələrə səbəb olur. Vitamin yetərsizliyi baş verməməsi üçün nə etməliyik suallarına cavab axtaracayiq.

Vitaminlər – yüksək bioloji aktivliyə malik, kiçik molekullu üzvi birləşmələrdir. Orqanizmin bütün həyati prosesləri vitaminlərin birbaşa iştirakı ilə baş verir. İmmün sistemin fəaliyyətini tənzimləməklə insan orqanizmini xəstəliklərə qarşı dayanıqlı edir.Yetərsizliyi zamanı, baş ağrıları, görmənin zəifləməsi, yorulma, yuxu pozğunluğu, saç tökülməsi, depresiya baş verir. Çatmamazlığı orqanizmin mürəkkəb fizioloji prosesin ayrı-ayrı orqan və sistemlərin işi pozulur. Orqanizm vitaminləri sintez etmədiyindən, qida maddələri ilə orqanizmə daxil olmasına –balanslaşdırılmış qidalanmaya üstünlük verilməlidir. Stresli situasiyalara dayanıqsızlıq, əhval ruhiyyənin dəyişkənliyi, əmək qabliyyətinin enməsi, sümüklərin körəkləşməsi, təkrarlanan sınıqar baş verir.

Az miqdarı belə fizioloji aktivliyə malikdir. Vitaminlər orqanizmdə ya tamamilə sintez olunmur, ya da bəziləri (B qrupu, D vitaminləri) az miqdarda da olsa sintez olunur. Hazırda 30-dan çox vitamin məlumdur.

Vitaminlər fermentlərin təsirini aktivləşdirir, böyüməni, nəsilartırmanı, orqanizmin reaktivliyini, immuniteti, təmin edir, zehni və fiziki iş qabiliyyətini yüksəldir. Vitaminlər və hormonlar mərkəzi və periferik sinir sistemi ilə sıx əlaqədardır. Vitaminologiya vitaminlərin öyrənilməsi, tətbiqi, yetərsizliyi zamanı baş verən xəstəliklər, onların aradan qaldırılması haqda elm sahəsidir.

Biz vitaminləri 3 məbədən alırıq:

1. Dəridə günəş enerjisi ilə sintezindən( %60-70), 2. Qıdalarla (%10-20 )

3. VitD preparatları ( %10-30) alırıq bu doğru deyə düşündüm biz də belə bilirik. Ancaq gələcəkdə (Gələcəkdə %90!!) biz Vit D-ni demək olar ki, ancaq dərman preparatı və ya qida əlavəsi kimi qəbul edəcəyik.

Vitamin çatışmazlıqları 1. Vitaminin olmaması-Avitaminozlar 2.Vitaminlərin az olması hipovitaminozlar 3. Gizli vitamin çatışmazlığı kimi öyrənilir..

Vitamin çatışmazlığı zamanı ümumi və spesifik pozğunluqlar meydana çıxır. Ümumi simptomlara çəkinin azalması, boyun inkişafdan geri qalması, iştahanın itməsi, tez yorulma, əzələ zəifliyi, müqavimətin və immunitetin azalması, regenerasiyanın ləngiməsi, sinir sisteminin pozğunluqları və s. aiddir. Avitaminozlar əsasən yoxsulluq dərəcəsi yüksək olan ölkələrin əhalisi arasında yayılmış olur. Hipovitaminoz bitki məhsullarının az işlədilməsi, ərzaq məhsullarının uzun müddət saxlanılması və düzgün olmayan kulinariya emalı və s.nəticəsində baş verir. Məhsullarda olan antivitamin faktorların təsirindən, rasionların tarazlaşdırılması zamanı vitaminlər və digər maddələr arasında, eyni zamanda ayrı - ayrı vitaminlər arasında optimal nisbətlərin pozulması və bir sıra məhsullara qoyulan dini qadağa və qidanın təhrif edilməsi (saxtalaşdırılması və saflaşdırılması) qidada vitami yetərsizliyinə səbəb olur.




Eyni zamanda bir çox ağır xəstəliklər və infeksion xəstəliklər də vitamin azlığına səbəb ola bilər. Vitaminlərin azlığı kimi artıqlığı da xəstəlik yaradır. Bu vitaminlərin ifrat işlədilməsi zamanı baş verir məsələn bu söhbətimizdən sonra əminəm ki, aşağıda verilən kiçik testdən keçəcək, həmən vitaminlər qəbul edəcəksiniz. Bu da doğru deyil o, simptomları görən kimi dərhal vitaminlərin dərman və qida əlavəsi formasına müraciət edilməz. Əvvəlcə qida rasionuna və rejiminə nəzər salmalıyıq. Çünki, Ümum Dünya Səhiyyə təşkilatının məlumatında deyilir ki, İnsan sağlamlığının 15% tibbi xidmət və tibb işçilərindən, 15%i genetik xüsusiyyətlərdən, 70% isə sağlam həyat tərzi və sağlam qidalanmadan asılıdır.Yəni yetərsiz birtərəfli qidalanma kimi, izafi qidalanma da zərərlidir. Eləcədə izafi vitamin qəbulu da sinir oyanıqlıla, yuxusuzluq, baş ağrısı, ürək döyünmə, dərinin qızarması, ümumi zəiflik kimi əlamətlərlə müşaiyət olunur.

Vitaminlərin sintezində iştirak edən normal bağırsaq-mikroflorasının müxtəlif səbəblərdən pozulması, mədə-bağırsaq sisteminin xəstəlikləri, qeyri rasional kimyəvi terapiyanın nəticəsində də vitamin yetərsizliyi baş verir.

Vitaminlərin mənimsənilməsinin pozulması - Mədə-bağırsaq sistemində bütün proseslərin katalizatoru olan vitaminlərin sorulmasının pozulması nəticəsində baş verir. Qida vasitəsilə daxil olan vitaminlərin bağırsaq parazitləri və patogen bağırsaq mikroflorası tərəfindən utilizasiyası, toksiki və ya infeksion agentlərin təsiri altında irsi anomaliyalar və ya qazanılmış xəstəliklər zamanı vitaminlərin metobolizminin, dərman preparatlarının, ksenobiotiklərin -antivitamin təsiri də bu yetərsizliyə gətirib çıxarır.

Vitaminlərin -qəbul olunan qidanın tərkibində azlığı- məhsulların texnoloji emalı, onların uzun müddətli və düzgün olmayan şəraitdə saxlanılması qeyri düzgün kulinariya emalı nəticəsində vitaminlərin parçalanması nəticəsində, vitaminlərin sintezində iştirak edən normal bağırsaq-mikroflorasının müxtəlif səbəblərdən pozulması, mədə-bağırsaq sisteminin xəstəlikləri, qeyri rasional kimyəvi terapiyanın nəticəsində də vitamin yetərsizliyi baş verir.

Digər tərəfdən vitaminlərə orqanizmin tələbatının artması- stres və xəstəlik halları hamiləlik, uşağı ana südü ilə qidalandırma halları, uşaqlıq və ahıl yaş dövrü, orqanizmin xüsusi fizioloji vəziyyəti boyun intensiv artımı, xüsusi iqlim şəraiti, intensiv fiziki, sinir-psixi yük, stresli şəraiti, infeksion xəstəliklər və intoksikasiyalar, zərərli peşə faktorlarının təsiri, daxili orqanların və daxili sekresiya vəzilərinin xəstəlikləri, vitaminlərin orqanizmdən xaric olunmasının yüksəlməsi də əsas səbəblərdəndir.

Sonsuzluğun müalicəsi –xüsusilə EKM- dən hamiləliyin baş vermə ehimalı ehtimalı 4 dəfə azalır. QidadanKalsiyumun sorulması kəskin azalır. Piylənmə riski artır. Depresiya xüsusilə yaz-payız aylarında daha çox rast gəlinir.Prostat vəzin xərçənginin aqressiv formalarının əmələ gəlmə ehtimalı artır (46%).I-II tip Şəkərli Diabetin gedişi ağırlaşır.3 yaşadək uşaqlarda Raxitin səbəbidir.

Deməli 1.Vitamin yetərsizliyi şəkildə göstərilən və digər bir çox xəstəliklərin səbəbidir.2.Bəzi xəstəliklərin yaranmasına və inkişafına şərait yaradır.3. Bəzi xəstəliklərin gedişini ağırlaşdırır.

Koronovirus xəstələrinin müalicəsində vitaminlər mütləq göstəriş kimi yer tutmasa da bu xəstəliyin baş verməsinə, inkişafına əlverişli şərait yaratdığı bu epidemiyadan vəfat etmiş xəstələrin müayinə dəyərlərini araşdıran 3- İngiltərə Şərq universiteti və Karoleva Yelizaveta xəstəxanasının alımləri Vit D yetərsizliyi olanlarda Covid 19 ağır klinik gediş və yüksək letallıq göstərdiyini qeyd etmişlər. Rusiya Federasiyası Seçenov universititetində Avropanın 20 ölkəsindən olan pasiyentlərin ölüm statistikasını araşdırarkən Vit D səviyyəsi 30 nmol/L- dən aşağı olanlar arasında ölüm faizinin daha çox olduğunu qeyd ediblər. Həmin universititetin molekulyar dietologiya laboratoriyasının rəhbəri A. Skalnıy Zn –in Koronavirus əleyhinə təsirini açıqlamışdır. Belə ki, Zn virusların eləcədə koronavirusun artıb çoxalmasına-Replikasiyasına mane olur.Vit D kimi Zn və Selen də immuniteni bərpasında rolu olduğu üçün bu 3-lük profilaktik məqsədlə və viral infeksiyasının ağırlaşmamasina, letallığın azalmasına yardım edir. Araşdırmaya görə vitamin və mineral dəyərləri normal və ya normaya yaxın olanlarda bu xəstəlik yüngül və ya orta ağırlıqda keçib, letallıq –ölüm halı nadir hallarda rast gəlinib.

ABŞ Milli biotexnoloji informasiya mərkəzi alimlərinin araşdırmaları, da göstərilir ki, orqanizmdə Vitamin D səviyyəsi ilə Koronavirus arasında birbaşa əlaqə var.Bu əlaqə D vitamininin yetərsizliyinin Koronavirusa yoluxma riskinin yüksək olmasında, xəstəliyin klinik gedişinin xarakterində, ağırlaşma və letalıqda özünü göstərir. Yəni Vit D normal səviyyədə olanlarda klinik gedişdə ağırlaşmalar az rast gəlinir.Vit D Koronavirusun müalicə sxeminə birbaşa daxil edilməsə də digər vitaminlərlə birgə immuniteti normal səviyyədə saxlayır.Vitaminlərin xüsusi ilə C, D, B12 üçlüyü orqanizmin immuni müqavimətini artırdığından koronovirus xəstələliyinə youxma və xəstəliyin klinik şəklinin ağır və yüngül gedişli olacağı artıq Dünya alımləri tərəfindən elmi araşdırmalarla təsdiq olunmuşdur. Yəni bu sitatlarla müraciət etməkdə məqsədim vitaminlər haqda fikirlərə aydınlıq gətirməkdir.

Vitamin yetərsizliyini kompensə etmək üçün yaranma səbəblərini aradan aradan götürməliyik qaldırmamız lazımdır. 1. Günəşdən doğru yararlanıb payımıza düşən vit D almalıyiq. Ultrabənövşəyi şualar 280-315 nm uzunluqlu dalğa ilə günəşin şualarının şaquli düşdüyü zaman günəşlənmək xeyirlidir. Günəşin belə şaquli düşümü müxtəlif ölkələrdə müxtəlif saatlara dəng gəldiyindən, günəşlənmək zamanı məkana görə ayarlanmalıdır. E Yalnız bu zamanlarda dəriyə təmas nəticəsində Vit D sintez olunur. Ancaq nəzərə almaq lazımdır ki, günəşlənmə müddəti 20 dəqiqə ola bilər.Yenə də bu müddəti yaşayış yerinə görə tənzimləmək lazımdır. Məs. Şimal zonası ilə Cənubda yaşayanların günəşlənmək müddəti də dəyişilə bilər. Digər tərəfdən Günəş şualarına o qədər dümən olmuşuq ki, ultrabənövşəyi şuaların evimizə düşməməsi üçün ən ultrabənövşəyi şua düşməni, xarici markalı şüşələr işlədir, azmış kimi qalın pərdələr asır, səhər 9 da belə evdən çıxsaq çətir götürürük. Yəni artıq əvvəllər həkimlərin əzbərlədiyi Günəş girməyən evə həkim girər fikri unudulub. Halbuki, əvvəllər evərin bünövrəsi tökülməsi üçün yer seçiləndə daşı qaldırıb altına baxardılar ki, qarışqa və yumurtası varmı. Varsa torpaq münbitdir deməkdir. Evin səmti elə seçilərdi ki, Günəş həm doğarkən, həm də batarkən növbə ilə bütün otaqlara düşsün.Elə o zamanlarda Türk sultanları İstambul Dolmabaxça sarayında bəlli saatlarda a günəşlənmək üçün Büllur saray tikdirmişdilər.

Çimərliyə gedən zaman bahalı gunəş lasyon və kremləri aparılır. Əgər günəşin düz şuaları dəri səthinə düşub, vitamin sintez etməyəcəksə, günəşlənmənin mənası nədir.

Ancaq bu da o demək deyil ki, saatlarla qızmar günəş altında uzanmaq lazımdır . Bu zaman əhvalınız pisləşə, huşunuz itə bilər Buna səbəbvit D-nin artıq sintez olunması deyil, günəş vurmasıdır. Evimiz olan Yer kürəsi, onu atmosfer qatının, dəniz və çaylarımızin kirlənməsində Bizim də günahımız var, yoxsa planetimiz özü-özünü kirləndirir? Hər hansı bir ölkənin erməni qonşusu varsa, orda ekoloji kirlilik, zərərli maddələr qatkılı qida maddələrini ölkəmizə soxmaq istəyi və cəhdi, su mənbəələrimizin qarşısını kəsib məhsul qıtlığı yaratmaq istəyi, siyasi psixoloji kirlilik yaratmaq xüsusiyyəti şər fırtınası, yalan tufanı, sınıq salxaq atom elektrik stansiyasının saçdığı kirlilik, yanan və yandırılan meşələr, ətraf mühiti kirləndirmirmi?

Biz bir tərəfdən mənfur düşmənin yaratdığı kirlilikdən arınmağa çalışırkən digər tərəfdən bilərək və ya bilməyərəkdən bayramlarda üst-üstə yığılıb yandırılan günlərlə sönməyən köhnə avtomobil təkərlərin ərşə qalxan tüstüsü, digər tərəfdən təkrar emala verməkdənsə ətrafa saçdığımız tullantılar uzun illər boyu, torpağımızı, suyumuzu atmosfer qatlarını zəhərləmirmi? Yəni bu gün Günəşin bədənimizdə vitD sintez edən şuaları yerə doğru düzgün çatmaması, balanslaşdırılmamış qidalanmamış qidalanma bir çox vitamin və mineralların yetərsizliyi ya birbaşa xəstəliyimizə və ya dolayısı ilə bəzi xəstəliklərin yaranmasına səbəbdir.

Beləliklə, vitamin və mineral balansının pozulması orqanizmi xəstəliklər qarşısında aciz vəziyyətə salır. Ona görə hər hansı infeksiyanın epidemiya və ya pandemiyası zamanı deyil, tez-tez tərəvəz, meyvə salatları yeməmiz məsləhətdir. Səhərlə günorta yeməyi arasında meyvə salatıən azı 4 adda meyvə kiçik ölçüdə doğranır üzərinə yoğurd və ya azca duru qaymaq, ovulmuş cəviz əlavə edib yemək məsləhətdir. Axşamüstü isə 4 adda tərəvəz –xiyar, pamidor, bolqar bibəri, kələm növlərindən biri, 2-3 göyərtidən ibarə kiçik göyərti dəstəsi çox nazik doğrayıb, birlikdə xarmanlayaraq üzərinə limon şirəsi, zeytun yağı və ya durulaşdırılmış narşərab və ya alma sirkəsi əlavə edib yeyilsə qısa müddətdə orqanizm vitamin deposunu bərpa edir. İnsanın əhval ruhiyyəsi, əmək qabliyyəti yaxşılaşır .Yəni çoxlarının əhəmiyyət vermədiyi, küçümsədiyi vitaminlərin yetərsizliyi zamanı düşdüyu hallardan qurtarmaq üçün çoxsaylı müayinə və müalicə metodlarına pul xərcləyir. Halbuki, düzgün və sağlam qidalanma 100-lərlə xəstəliyin qarşısına sipər olan müdafiyə səddi yaradır. Vitamin yetərsizliyinin olduğunu anlamaq üçün bir neçə sadə testdən istifadə etsək, sonda hansı vitaminin yetərsizliyinin bir neçə əlaməti öyrənmək olar .

Aşağıda göstərilən əlamətlər varsa bir balla qiymətləndirilir, yoxsa bal verilmir.

1. Dodaqlarda, ağız bucağında çatlar əmələ gəlirsə, A vitamini yetərsizliyidir qida rasionuna kök daxil edilməlidir.

2. Soyuq havada burnun qızarması, dəridə damar ulduzcuqları görünürsə, damar yetərsizliyinin səbəbi Rutin yetərsizliyidir. Rasiona qarabaşaq yarması daxil edilir.

3.Dirsəklərin dərisi quruyursa C vitamini yetərsizliyidir. Kələm, itburnu dəmləməsi, sitrus meyvələri daha çox qəbul edilməlidir.

4.Saçlar qırılqan, parlaqlığını itirmiş, kəpəklənirsə B qrup vitaminlər yetərsizdir.

5.Gənclik yaşı keçməsinə baxmayaraq hələ də sızanaqlar keçmirsə orqanizmdə Zn yetərsizdir. Sink çuğundurda, göy soğanda daha çoxdur.

6. Dırnaqlar qırılırsa Biotin çatmamazlığına işarədir. Göyərti, quru lobya Biotinlə zəngindir.

7. Bədən dərisi quru və kəpəklənirsə, dərini nəmli saxlayan E vitamini normadan aşağıdır. Qoz ləpəsi, bitki yağları qidaya əlavə olunmalıdır.

8. Dəri solğundursa Fe-dəmir yetərsizliyidir. Qırmızı ət, paxlalılar, ispanaq dəmirlə zəngindir.

9. Saçlar gec uzanırsa Mn - manqan yetərsizliyi əlamətidir. Qoz ləpəsi, findiq yeyilməlidir.

Əlamətlərin varlığı 2 baldan azdırsa qidalanmanız balanslaşdırılmışdır. Ancaq bəzi qida ürünlərinə diqqət edilməlidir.

3-5 bal dəyərləndirmədə qidalanmanı sağlam hesab etmək olmaz, əlavə olaraq vitamin həbləri alınmalıdır.

Əgər 5 baldan yuxarıdırsa orqanizmdə kəskin vitamin yetərsizliyi var. Qidanın tərkibinə, hazırlanma texnalogiyalarına, qidalanma rejiminə xüsusi rəayət edilməlidir. Sağlam olmaq üçün qidalanmamıza, Allahın Bizə bəxş etdiyi Günəş hava suyunqədrini bilək bu nemətlərdən yararlanaq və qoruyaq .Qoy hamının heyran qadığı təmiz, yaşıl, gözəl Naxçıvanımızın gözəlliyinə zərər gəlməsin. 3-cü rəsmdən aydın olduğu kimi bu gün tullantıları aidiyatı olan xüsusi ayrılmış yerlərəqoyub təkrar emalına və ya məhv edilməsinə yardımçı olsaq, 100, 1000 illərlə torpağımız və gələcək nəsillərimiz ya bu kirlilikdən xəstə oğulacaq ya da müxtəlif xəstəliyə tutulacaq.Ümid edirəm ki, səmimi söhbəimiz alındı, yazıya əlavə etdiyim bu 3 rəsmlə söhbətimizə aydınlıq gətirə bildim. Sağlamlıq Dünyanın ən gözəl nemətidir onu qoruyaq!!!

Hər kəs naxçıvanlılar kimi doğma şəhərini, evini TƏMİZ saxlasın!!!

**Gültəkin Əliyeva**
***"Ümumi təbabət və klinik fənlər" kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent***

# "FÜYUZAT" JURNALINDA AVROPAYA MÜNASİBƏT

XX əsrin əvvəllərində ölkəmizdə müstəmləkəçilik siyasətinin yeridildiyi bir vaxtda ictimai-siyasi fikrin formalaşmasında milli mətbuat nümunələrimiz əhəmiyyətli rol oynayıb. Həmin dövrdə xalqın taleyi üçün narahatlıq keçirən ziyalılarımız mətbuatdan ictimai fikir tribunası kimi istifadə edərək cəmiyyətin inkişafı üçün var gücləri ilə mücadilə ediblər. Senzuranın hökm sürdüyü bir dövrdə bu böyük bir cəsarət tələb edirdi. Bu baxımdan nəşri həmin dövrə təsadüf edən "Füyuzat" jurnalı və onun redaksiya heyətinin xidmətləri təqdirə layiqdir. "Füyuzat" Əli bəy Hüseynzadənin baş redaktorluğu, maarifpərvər milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyevin maddi vəsaiti hesabına 1906-cı il noyabr ayının 1-dən Bakıda nəşr olunmağa başladı.

"Füyuzat" jurnalının baş redaktoru olan Ə. Hüseynzadə bütün ömrü boyu öz qələmi ilə ümumtürk mənəvi dəyərlərini təbliğ etmiş, türkün tərəqqisi naminə bütün gücü ilə mübarizə aparmaqdan yorulmamışdı. Əli bəy Hüseynzadə düşünürdü ki , Türk -İslam milləti "türkləşmək, islamlaşmaq və avropalaşmaq" ideyalarına söykənsələr inkişaf edəcəklər. O dövrün bir çox ziyalısı "Füyuzat"ın ətrafında toplanaraq bu şüarla XX əsrin əvvəllərində milli şüurun, milli özünüdərk prosesinin aparıcılarına çevrildilər. Füyuzatçılar ilk növbədə çarizmə, əsarətə qarşı mübarizə aparmış və türk xalqlarının mənəvi birliyinin göstəricisi olan turançılıq ideologiyasını təbliğ etmişdilər . Bu ideologiyanın əsasınıda isə tarixi reallıqlar və milli özünüdərk prosesi dururdu. Füyuzatçıların məqsədi istiqlal uğrunda mübarizə aparan türk xalqlarının milli şüurunu "türkləşmək, islamlaşmaq, avropalaşmaq" istiqamətində inkişaf etdirməkdən ibarət idi. Ə.Hüseynzadə həmçinin ədəbiyyatda romantizmin, ortaq türk dilinin təbliği ilə yanaşı farslaşma və ruslaşmaya qarşı türkçülük ideologiyasından çıxış edirdi.

Ə. Hüseynzadə islamı xurafatdan ibarət din kimi görənlərin əksinə cəmiyyəti islamın əsl mahiyyətini anlamağa səsləyirdi. Mütəfəkkir düşünürdü ki, məzhəb və dinlər türkləri bir-birlərindən ayırmamalıdır, əgər onların elm və mədəniyyətləri tənəzzül etsə, türklər yalnız "dini-islam ilə müqəddəyin, ərəb elmi ilə mütəllim, ərəb mədəniyyəti ilə mütəməddin olduqları halda əsla ərəbləşməyib, yenə "türk oğlu türk kimi" qalmalıdırlar.

Ə. Hüseynzadə milli birliyi dini birliklə bir arada götürürdü. Əgər türkləşmək məqsədi ilə türk dilini, tarixini, ədəbiyyatını öyrənməyini tələb edirdisə, islamlaşmaq məramı ilə islam dininin ümumbəşəri, ali, mənəvi-əxlaqi dəyərlərinin öyrənilməsini istəyirdi. Bu baxımdan ciddi şəkildə dini islahatların aparılmasının lazımlılığını önə çəkən Ə. Hüseynzadə ilkin islama qayıtmağı tərəqqiyə doğru atılan addım kimi qiymətləndirirdi.

Füyuzatçılar təbliğ etdiyi əsas ideyalardan biri də avropalaşmaq ideyası idi. Ə.Hüseynzadə bu ideyanı təbliğ etməklə cəmiyyətimizin Avropa elm və texnikasını, sənayesini öyrənərək öz həyati işlərində tətbiqini nəzərdə tutur və bu barədə yazırdı: "Tərəqqi və təməddün həvəsində olan hər bir millət öz milli üdəba və üləmasının əsərlərilə kifayətləndikcə çox da irəliyə doğru gedə bilməz... Bir ingilis, bir fransız, bir alman, bir italyan ibn Rüşdün, Əbu Əli Sinanın, Fərabinin, Firdovsinin, Sədinin, Mollayi-Ruminin, İmam Təzaminin asarından feyzyab olmağa, bu kimi üləmaya-tərcümə, şərh və təfsirlər vasitəsilə öz millətlərinə mal edilməyə çalışdıqları halda bizə də lazımdır ki, onların Laplasları, Laviazi yerləri, Russoları, Pastorları, Nyutonları, Spenserləri, Edissonları, Rentgenləri, Marksları, Ginnesləri vasitəsilə öz maarifimizi, öz ana dilimizdə olan ki-




tabxanaları təzyiqə çalışalım. Cəhalətin, təəssübün kökünü ancaq bu vasitə ilə qurutmaq, söküb atmaq olar. Başqa yol yoxdur."

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda məktəbyaşlı uşaqların böyük əksəriyyəti ibtidai təhsildən kənarda qalırdı. Bu səbəbdən də Ə. Hüseynzadə "Füyuzat" jurnalında Avropa təhsil sistemini cəmiyyətə örnək göstərirdi. Jurnalın 26 noyabr tarixli üçüncü sayında Almaniyada əlil uşaqlar üçün bir keşiş tərəfindən tikilən müalicə və təhsil ocağından, orada əlil uşaqların müalicə almaları ilə yanaşı həm də təhsil almalarından danışaraq Avropanı mövhumatın və cəhalətin zülmətində qalan o zamankı cəmiyyətə nümunə göstərmişdi. Şərqdə fiziki cəhətdən sağlam uşaqların, xüsusilə də qız uşaqlarının təhsildən az xəbərdar olduğu bir dövrdə Almaniyada, Fransada, İsveçrədə, Norveçdə əlil uşaqlar üçün həm müalicə, həm də təhsil almaq məqsədilə məktəblər tikilməsini örnək göstərərək Avropada gedən inkişafın səbəbini təhsildən qaynaqlandığını bildirirdi. Bu məktəblərdə müalicə və təhsildən əlavə uşaqlara əl işi öyrədilməsi xüsusilə vurğulanaraq alqışlanırdı. Hətta lal və karlar bu məktəbləri bitirdikdən sonra istedadları olan sahədə işə götürülür, heç vaxt cəmiyyətdən kənarlaşdırılmamaları təqdirəlayiq hal kimi nümunə göstərilirdi.

"Füyuzat"da təhsilin önəmindən bəhs olunan başqa bir məqalədə isə belə yazılırdı: "Avropada kitabların, jurnalların əvvəlində və insanların ağzında belə bir söz var ki, yaşamaq istəyən oxumalı! Oxumayan məhv olmalı və olacaqdır! "Bəli, cəmiyyəti inkişafa ancaq və ancaq təhsil aparacaq. Yalnız təhsili olan şəxslər millətin gələcəyini düşünür, cəmiyyətdə baş verən hadisələrdən agah olur, xalqın dili hesab olunan qəzetlərin yazdıqlarından məlumatlı olur. Avropada hətta taksi sürücülərinin əlindən qəzetin düşmədiyini yazan Əhməd Kamal Şərqdə qəzet oxumaq adətinin olmaması səbəbindən islam millətinə qarşı avropalıların törətdiyi soyqırım və ədalətsizlikdən bixəbər olmaq islamı lal, kar və kor etdiyini düşünürdü. Bir millətin mənəvi səadətə qovuşmasını tərəqqidə görən füyuzatçılar inkişafa gedən yolun isə təhsildən keçdiyini Avropadan verdikləri müxtəlif nümunələrdə göstərirdilər.

"Füyuzat"ın səhifələrində Avropa şair və yazıçılarının əsərlərinin tərcüməsinin çapı da bu məqsədə xidmət edir. Tolstoy, Höte, Russo, Monteskye kimi görkəmli simalar haqqında nisbətən ətraflı və dəqiq məlumatı Azərbaycan oxucuları ilk dəfə bu jurnalda çap olunan məqalə və tərcümələrdən almışdılar. Hötenin "Faust"u, Şeksprin "Yuli Sezar"ı Azərbaycan türkcəsinə tərcümə olunur, Avropa mədəniyyəti təbliğ edilirdi. Adı keçən əsərlərdə bizim milli mentalitetimizə zidd olan davranışları görən oxucular füyuzatçıları qınayırdılar. Ə. Hüseynzadə onu "avropalaşalım" şüarında günahlandıranlara cavab verərək yazırdı: "İndi bizə derlər ki, madam ingilislər, firənglər, filanlar böylə imişlər nə üçün siz də ... "Fyuzat"ımızda ingilislərə, firənglərə müraciət ediyorsunuz. Ortaya gah Hötenin "Faustu"nu, gah Şeksprin "Yuli Sezar"ını, gah nə bilim hanki avropalının hanki əsərini çıxarıyorsunuz? Avropalaşalım, firəngləşəlim diyorsunuz? Lakin, ey qare! Müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatına, sənayelərinə, elum və maariflərinə kəşfiyyat və ixtiraatlarına müraciət etmək istiyoruz, özlərinə deyil. Biz istiyoruz ki, islam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istiyoruz ki, ölkəmiz onların beyinlərini həzm etsin."

"Füyuzat "ın qarşısına qoyduğu məqsəd türk xalqları arasında dil və din birliyini yaratmaqla birlikdə həm də Avropanın elmi yeniliklərini cəmiyyətə təqdim edərək xalqı cəhalət buxovlarından azad edib müasirliyə doğru aparmaq idi .Yaşadıqları bütün təzyiqlərə baxmadan füyuzatçılar cəmiyyətin tərəqqisi naminə mücadilə etdilər. Ə.Hüseynzadənin ideyası bu gün məğrur-məğrur dalğalanan şanlı bayrağımızın rənglərində təcəssüm edib.

**İlahə Alahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# NAXÇIVAN TEATR SƏNƏTİ

Ümumilli liderimiz Heydər Əliyev bütün həyatı boyu mədəniyyətə, incəsənətə, teatra qayğı ilə yanaşmış, teatra olan sevgi və məhəbbətini belə ifadə etmişdir "Milli mədəniyyətimizin mühüm sahəsini təşkil edən teatrımızın böyük tarix, böyük ənənləri, gözəl nümunələri var və bu teatr bu gün də, gələcəkdə də yaşayacaqdır"

Dünyanın hər bir yerində teatr sənəti öz kökləri etibarilə xalqın məişəti, adət və ənənələri, mərasim və ayinləri, əyləncə və oyunları ilə sıx bağlıdır. Bu səbəbdən dövrün böyük maarifçiləri cəmiyyətin psixologiyasına xitab etməyin ən təsirli yolu kimi daim teatr sənətinə müraciət etmiş, komediyaların və satiranın acı gülüşü ilə onları qəflət yuxusundan oyatmağa çalışmışdır. Bununla yanaşı, teatr milli mədəniyyətin, milli incəsənətin ayrılmaz tərkib hissəsidir. Danılmaz bir həqiqətdir ki, incəsənətin mürəkkəb, kütləvi, sintetik və canlı növü olan teatr sənətinin həm mədəniyyətin inkişafında, həm də insanların ideya, bədii və estetik tərbiyəsində böyük rolu vardır. Təbii ki, bütövlükdə teatr sənətini tədqiq edərkən, ilk növbədə, bu sənətin söykəndiyi xalq yaradıcılığını, onun milli xüsusiyyətlərini, janr, üslub və forma cəhətlərini araşdırmaq və onun professional teatr sənətinin formalaşmasında və təşəkkül tapmasında rolunu və əhəmiyyətini müəyyənləşdirmək lazımdır.

Ölkəmizdə milli teatrımızın əsası 1873-cü ildə ömrünü xalqın maariflənməsinə həsr edən Həsən bəy Zərdabinin rəhbərliyi, Nəcəf bəy Vəzirov və Əsgər ağa Goraninin və realnı məktəbin şagirdlərinin birgə iştirakı ilə M. F. Axundzadənin "Lənkəran xanın vəziri" komediyasının tamaşaya qoyulması ilə yarandı. Həvəskar artistlərin hazırladığı bu tamaşa əslində Azərbaycanda professional dram teatrının fəaliyyətinin başlanğıcı oldu.

Bakıda bu tamaşadan bir neçə il sonra – 1875-ci ildə Qubada, 1882-ci ildə Şuşada, 1883-cü ildə Naxçıvanda, 1887-ci ildə Şəkidə, 1889-cu ildə Gəncədə yerli teatr həvəskarları tamaşalar göstərdi.

Naxçıvanda teatr ədəbi sənət məktəbinin yaranması 1883-cü il mayın 11-də dövrünün maarifpərvər ziyalısı Hacı Nəcəf Zeynalovun şəhərin məşhur "Zaviyə" məhəlləsindəki evində Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə və onların "huşyar dostları"nın cəhdləri sayəsində fəaliyyət göstərmiş "Naxçıvan Müsəlman İncəsənəti Dram Cəmiyyəti"nin təşəbbüsü ilə Mirzə Fətəli Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" komediyasının səhnələşdirilməsilə yaradılıb. Bu barədə sənətşünas alim Əli Qəhrəmanov yazır: "Naxçıvanda teatrın əsasının 1883-cü ildə qoyulması ilk peşəkar dünyəvi Azərbaycan teatrının yaradılmasının 10 illiyinə təsadüf edir. O dövrdə Naxçıvanda fəaliyyət göstərən "Naxçıvan Müsəlman İncəsənəti Dram Cəmiyyəti"nin nümayəndələri M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərini tamaşaya hazırlamış və İrəvana xalq məktəbləri inspektoru Tselovalnikova ...teleqram göndərmişlər. ...Teleqrama razılıq alındıqdan sonra tamaşa 1883-cü ilin may ayında (15-də) Hacı Nəcəf Zeynalovun evində göstərilir. ...Aparılan tədqiqatlar aydınlığı ilə sübut edir ki, 1883-cü ilin may ayında M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərinin tamaşası ilə Naxçıvan teatrının təməli qoyulur". Bu barədə fransız şərqşünası Lusyan Buvanın "Müsəlman aləmi" jurnalındakı qeydlər də olduqca maraq doğurur. O yazır: "Naxçıvanda həvəskar artistlər tərəfindən Azərbaycan və rus dillərində tamaşalar göstərilir. Bu tamaşalara baxmaq üçün cəmiyyətin təbəqələrinə mənsub olan adamlar gəlirdilər". Beləliklə, Naxçıvanda teatr fəaliyyəti getdikcə güclənir və bunun da sayəsində "qaranlıq dünyanın" köhnəlmiş sütunları qırılır, maarif və elmə olan münasibət dəyişərək yeni müstəviyə keçir, xalqda təhsilə, mətbuata və teatra ciddi maraq oyanır.

Naxçıvanda maarif və elmin, mədəniyyətin yayılması və təbliğində Eynəli bəy Sultanovun, Cəlil Məmmədquluzadənin, Məhəmməd Tağı Sidqinin, Əliqulu Qəmküsarın, Məhəmmədəli Sidqinin və başqa ziyalıların misilsiz xidmətləri olmuşdur. Naxçıvan ziyalıları teatrın rolunu düzgün dəyərləndirərək Naxçıvanda peşəkar teatrın formalaşmasına bütün qüvvələri ilə çalışırdılar. Çünki teatr səhnələrində xalqın həyatı, problem və qayğıları öz əksini tapır, xalqı avamlığa, fanatizmə, elmsizliyə vadar edən qüvvələr tənqid və ifşa olunur, xalq milli oyanış və maarifə dəvət olunurdu. Bu minvalla da səhnədə oynanılan hər bir əsər öz tərbiyəvi əhəmiyyətilə insanların əxlaqının və xarakterinin islah olunması və kamilləşməsinə öz təsirlərini göstərirdi. Necə ki, böyük ustad, dramaturgiyamızın banisi və müəllimi Mirzə Fətəli Axundzadə dram və teatr sənətindən bəhs edərkən göstərirdi: "Drama sənətinin məqsədi insanların əxlaqını yaxşılaşdırmaq, oxucu və qulaq asanları ibrətləndirməkdir". Böyük ustad Cəlil Məmmədquluzadə



də Naxçıvanda teatr tamaşasının göstərilməsi hadisəsini xatırlayaraq yazırdı: "Miladi tarixinin 1893-cümü, dördüncümü illərində Naxçıvanda teatr həvəskarları, bəndə də onların içində teatr oynayırdıq. O vədə Naxçıvanda teatr nümayişləri üçün tək bircə yerdə kiçik bir səhnə var idi... Naxçıvanda o vaxt səhnədə göstərilən pyeslər Mirzə Fətəlinin "Hacı Qara", "Məstəli Şah" və "Kimyagər, "Xan Sərabi" komediyaları idi. Burda mənim söhbətim "Kimyagər" komediyası barəsindədir ki, bir gün o pyesi biz həvəskarlar haman səhnədə mövqeyi-tamaşaya qoyurduq. O günü Naxçıvanın şəhər məktəbinin və məhəllə məktəblərinin cəmi şagirdləri tamaşanın müftə olmağını qənimət bilib gəlib dolmuşdular teatra. Belə ki, iki, bəlkə üç yüz şagirdi səhnənin zalına ancaq yerləşdirə bildik. Tamaşa pis də keçmədi. Şagirdlərə böyük təsir bağışladı. Səhnə ustadı Mirzə Fətəlinin nadir qələmindən törəyən ləzzətli komediya və duzlu və zərif məzhəkələri uşaqlara o qədər xoş gəldi ki, nümayiş qurtarandan sonra bunlar teatr həyatına və sonra küçəyə çıxa-çıxa bir ucdan virdi-zəban eləyib çığırışırdılar:

- Molla Həmid, körüyü bas!

Bir neçə dəqiqənin içində şəhər, küçə və bazarın hər yerində elə uşaq idi ki çığırırdı:

- Molla Həmid, körüyü bas!

Paha vaveyla! Naxçıvanın mollaları məscidlərdə namaz və ibadətə məşğul olduqları yerdə uşaqların bu fəryadını eşidirlər: "Molla Həmid, körüyü bas!" Balam, bu nə qiyamətdir? Necə Molla Həmid, kimdir körüyü basan Molla Həmid?

Axırda məlum olur ki, körüyü basan Molla Həmid teatr nağılı imiş…Bir dəstə növ cavan müsəlman müəllimləri teatr oyunu qurublar ki, mollaları lağa qoysunlar. Bu nə qiyamətdir, bu nə rüsfayçılıqdır ? Elə bu səbəbdən də camaat şəhərin mollası Axund Molla tağının yanına cəm olurlar. Qərar qoyurlar Naxçıvan naçalnikinə şikayət edib belə nümayişlərin bundan sonra qadağan olunmağını iltimas etsinlər."

Naxçıvan teatrı böyük bir mərhələni təşkil edən mədəni oyanış və inkişaf epoxası ilə yaxından bağlıdır. Naxçıvanın mədəni inkişaf və yüksəlişində birbaşa böyük xidmətləri olan Naxçıvan teatrı və onun aktyorları xalqımız və onun ümummilli lideri Heydər Əliyev tərəfindən həmişə yüksək qiymətləndirilmişlər. Ümummilli lider Heydər Əliyev teatrın xalqın mədəni inkişafındakı rolunu qiymətləndirərək deyirdi: "Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır. Orda çalışan insanlar fədakardırlar, fədaidirlər...". Bu mühüm amillərə görə teatrımız, o cümlədən, Naxçıvan teatrı həmişə ümummilli liderimiz və onun davamçıları tərəfindən daim qayğı və diqqətlə əhatələnmişdir. Heydər Əliyev siyası məktəbinin layiqli davamçılarından olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən böyük uğurla həyata keçirilən quruculuq və yenilənmə tədbirləri sırasında teatr və mədəniyyət sahəsinə də xüsusi diqqətin ayrılması mədəniyyətə qayğının bariz ifadəsidir. Təsadüfi deyil ki, mədəni inkişafa rəvac verən mədəniyyət ocaqları və yerləri ən müasir binalarla, ən müasir və rahat şəraitlə təmin edilmiş, böyük mədəni quruculuğa nail olunmşdur. Bu gün bölgə fərqi, yaxınlıq və uzaqlıq fərqi olmadan bütün yerlərdə fəaliyyət göstərən mədəniyyət müəssisələri xalqımızın mədəni inkişafına uğurla xidmət göstərir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı özünün möhtəşəm binası və yeni şəraiti daxilində ən sanballı tamaşalara ev sahibliyi edərək tamaşaçılarana mədəni zövq bəxş edir. Naxçıvanda həm Uşaq teatrının, həm də Kukla teatrının fəaliyyət göstərməsi də böyük mədəni nailiyyətlərdən xəbər verir. Artıq uşaqlar da teatr sahəsində öz qabiliyyətləri ilə iştirak edir və yeni inkişaf yollarına qədəm basırlar. Bundan başqa hər bir rayonumuzda müxtəlif mədəniyyət müəssisələri, teatr binaları fəaliyyət göstərir. Bu mədəniyyət müəssisələri də öz funksiyalarına uyğun olaraq xalqın mədəni istirahətinin təşkili, maariflənməsi üçün öz vəzifələrini uğurla həyata keçirməyə çalışırlar. Bu mədəniyyət ocaqlarında keçirilən müxtəlif tədbirlər, şənliklər, ümumxalq bayramları, habelə müxtəlif teatr qruplarının ifasında göstərilən teatr tamaşaları, səhnəciklər əhalinin razılığı ilə qarşılanır. Tamaşalar nəinki, ölkə daxilində hətta qonşu İran, qardaş Türkiyə respublikasında da rəğbətlə qarşılanır. Teatrın aktyorları Xalq artistləri Rövşən Hüseynov, Kamran Quliyev, Rza Xudiyev, Yasəmən Ramazanova, əməkdar artistlər Bəhruz Haqverdiyev, Səməd Canbaxşıyev, Əbülfəz İmanov, Əli Əliyev, Vidadi Rəcəbli, Nazlı Hüseynquluyeva və başqaları maraqlı obrazları ilə tamaşaçıların rəğbətini qazanan sənət fədailəridirlər. Bizlərdə bu yolda sənət fədailərimizə uğurlar arzulayırıq....

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# DÖVRÜN ƏN BÖYÜK VƏ EFFEKTİV SİLAHI-İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

***İctimaiyyətlə əlaqələr fenomeni***

İctimaiyyətlə əlaqələr XX əsrin fenomeni olsa da alimlər yaxın keçmişdə yaranmış bir sıra fəaliyyət növləri kimi ictimaiyyətlə əlaqələr fəaliyyətinin də köklərini uzaq keçmişdə axtarmağa çalışırlar. Onlar Qədim Şərqdə, Yunanıstanda, Romada, Çində baş vermiş bir sıra ideoloji və dini hərəkatların ardıcıllarını, məsələn, xristianlığı yayan apostolları, Maninin, Məzdəkin ardıcıllarını, sufiləri az qala ilk ictimaiyyətlə əlaqələr mütəxəssisləri adlandırırlar.

XIX əsrin əvvəllərində Britaniya hökumətində təmsil olunmuş mətbuat katibləri ictimaiyyətlə əlaqələr sahəsində ilk funksionerlər hesab edilir. 70-80-ci illərdə özündə sosial psixologiyanın, məntiqin, informatikanın, marketinqin müxtəlif sahələrini birləşdirən bu fəaliyyət növü qərb ölkələrində bir çox dövlət və özəl qurumların, kommersiya və qeyri-kommersiya təşkilatlarının əlində ictimai fikrə təsir etmək üçün güclü bir vasitəyə çevrildi.

PR (ingilis dilində: public relations) və ya ictimaiyyətlə əlaqələr təşkilatın məqsədləri istiqamətində hər hansı mal, insan, şirkət, hadisə, ictimai hərəkat, partiya, qeyri-hökumət təşkilatı və s. haqqında ictimai rəyin formalaşması, ictimai informasiyanın verilməsi və onunla əməkdaşlığa əsaslanan kompleks tədbirlərdir.

PR əlaqələr inşa edir. Bu gün texnologiyanın inkişafı sayəsində informasiya axımı son dərəcə sürətlidir. Bu sürətli inkişaf içərisində ictimaiyyətlə əlaqələr bütün informasiya elementləri ilə əməkdaşlıq edir.

Mətbuat xidmətinin öncədən iki başlıca funksiyası olub: maraqlarını qoruduğu təşkilatın mətbuatla və mətbuat vasitəsi ilə cəmiyyətlə əlaqələrini təmin etmək, onun fəaliyyəti haqqında ictimaiyyəti məlumatlandırmaq və həmin təşkilatın rəhbərliyini müxtəlif sahələr üzrə mətbuatda gedən informasiya ilə, habelə ictimai rəylə tanış etmək. Son dövrlər mətbuat xidmətlərinə üçüncü bir funksiya da aid edilməyə başlayıb: imic yaratmaq, pablik rileyşnz (PR) sahəsində tədbirlər həyata keçirmək.

Mətbuat xidmətlərinin konkret vəzifələrinə press-relizlər və rəsmi məlumatlar tərtib etməkdən savayı, brifinqlər keçirmək, rəhbərlərin mətbuat-konfranslarını və müsahibələrini hazırlamaq, bəzən hətta onların çıxışlarını yazmaq da daxildir.

Nəzərdə saxlamaq lazımdır ki, mətbuat xidməti də, prinsipcə, kütləvi informasiya vasitəsidir: onun öz efiri yoxdur, amma ağıllı tərpənsə, eyni vaxtda bir neçə kanalla efirə çıxa bilər; onun qəzeti yoxdur, lakin işini düz qursa, bir gündə bütün aparıcı nəşrlərin birinci səhifəsini tuta bilər. Sadəcə olaraq o, konkret maraqlara xidmət edir və mətbuat xidmətinin hazırladığı məhsul tamam başqa - spesifik bir prosesin nəticəsidir.

***Media ilə qarşılıqlı əlaqələr***

Mesajın hədəf kütləyə ən geniş şəkildə çatdırılması media vasitəsilə olur. Qurumun planının tətbiqində ən böyük köməkçisi, hər zaman üçün mediadır. Mediada yer ala bilmək və dolayısıyla qurum üçün üstünlük gətirəcək mesajları ictimaiyyətə çatdırmaq üçün doğru media quruluşlarını və doğru mesajları seçmək gərəkdir. Bunun üçün mətbuat xidməti yazılı medianın, radio və televiziya quruluşlarının özəlliklərini, güclü və zəif yönlərini yaxşı bilməlidir.

Media ilə qurulan bütün münasibətlər bir fürsət olaraq dəyərləndirilməlidir. Bu fürsətlər hər kəs üçün fərqlidir. Media ilə münasibət qurarkən gərəkən bir xüsus, internet də daxil olmaqla, bütün kommunikasiya vasitələrinin eyni dərəcədə önəmli olduğudur. Media ilə əlaqələrin təməl daşını məlumat formalaşdırır. Bir işi uğurlu icra etməyimiz, o iş haqqında nə qədər məlumat sahibi olmağımızla bağlıdır.

Elektron kütləvi informasiya vasitələri hər hansı yeniliyi milyonlarla insana eyni zamanda çatdırmaq gücünə malikdir. Radio və televiziya - olduqca dinamik kütləvi informasiya vasitələridir və bu, onların ən üstün cəhətidir. Mətbuat xidmətləri həmişə bunu nəzərdə saxlamalı və efirdə yayılmaq üçün hazırladıqları materialların yığcam olmasının qayğısına qalmalıdırlar. Efir vaxtı ciddi şəkildə məhdudlaşdırılır. Buna görə də televiziyada və radioda yeniliklər mümkün qədər sürətlə təqdim olunmalı, təqdimat üçün seçilmiş janrın tələblərinə tam riayət edilməlidir.

Daha bir cəhət mətbuat xidmətini efir vaxtına xüsusi ehtiyatla yanaşmağa vadar edir: televiziya tamaşaçılarının və radio dinləyicilərinin bir düyməni basmaqla kanalı çevirmək və sizin materialınızdan birdəfəlik imtina etmək imkanı vardır. Bu səbəbdən də təqdim etdiyiniz mətn və süjetlər auditoriyanı daim cəlb edə biləcək səviyyədə maraqlı olmalıdır.

Efir üçün çıxışa hazırlaşarkən mətbuat xidməti özünün və ya təşkilatın hər hansı digər nümayəndəsinin mövzu üzrə bütün mümkün suallara hazır olduğuna əmin olmalıdır. Amma unutmamalıdır ki, jurnalist istədiyi sualı vermək hüququnu özündə saxlayır. Bu suallar, efirdən əvvəl aparılmış söhbətdə toxunulmamış mövzularla da bağlı ola bilər.

Radioda müsahibələr, adətən, televiziya müsahibələri qədər gərgin olmur. Televiziya müsahibəsi təcrübəsiz çıxışçı üçün daha çətin keçə bilər. Üzə tuşlanmış kamera, projektorlar, studiyadakı atmosfer fikrini cəmləməyə mane olur. Buna görə də mətbuat xidməti ilk dəfə efirə çıxırsa, çalışmalıdır ki, bu, canlı veriliş olmasın, efirə getməmişdən qabaq ona baxmaq və müəyyən məqamları redaktə etmək imkanı olsun. Beləliklə, elektron kütləvi informasiya vasitələri ilə təmasda təcrübə mühüm rol oynayır.

İctimaiyyətlə əlaqə üzrə məsləhətçilər elektron kütləvi iformasiya vasitələri ilə necə işləməyin qaydalarını xüsusilə bilməli və həmin qaydalara xüsusi əhəmiyyət verməlidirlər. Çünki maraqlı layihələrin və ideyaların ictimaiyyətə çatdırılmasında bu növ KİV-nin rolu durmadan artır və təşkilat onlarla əməkdaşlığa nə qədər yaxşı hazırlaşarsa, özünə bir o qədər yüksək ictimai nüfuz qazana bilər.

Nəşrlər – bülletenlər, broşüralar, kataloqlar və s. ictimaiyyətlə əlaqələnin həyata keçirilməsi üçün olduqca səmərəli vasitədir. Dövri mətbuat




və elektron kütləvi informasiya vasitələri daha operativ olduqları üçün belə nəşrlərin əhəmiyyətinə müəyyən mənada kölgə salırlar. Lakin nəşrlərin öz üstünlükləri var. Siz hər şeyi məhz özünüz istədiyiniz kimi hazırlaya bilərsiniz, çünki redaktə etmək, mətndə, illüstrasiyada, kompozisiyada düzəlişlər aparmaq üçün xeyli vaxtınız olur. Həmçinin siz materialı istədiyiniz qədər genişləndirə bilərsiniz ki, oxucular müxtəlif aspektlərin dərinliyinə varsınlar. Belə nəşrlər daha uzunömürlü olur, həm də əldən-ələ ötürülə bilir. Bir sözlə, siz hər şeyi idarə edirsiniz.

***İnandırıcı olmaq***

İctimaiyyətlə əlaqələr işinin əsas prinsiplərindən biri də mesajların təqdimatında inandırıcı olmaqdır. Verilən mesajların bir neçə dəfə təkrar edilməsinin vacibliyi və önəmi danılmazdır. Hədəf kütlənin diqqətini mövzuya çəkmək və onun üzərində durulub danışılmasını təmin etmək, ancaq bu halda mümkündür. İnsanlar bir dəfə eşidib gördükləri hadisə və ya xud mövzu haqqında çox danışmazlar. Mesajın onların yaddaşında qalması və unudulmaması üçün bu prinsip mütləq tətbiq edilməlidir.

Bundan başqa, dili rahat şəkildə və diqqətlə istifadə edə bilən şəxsin inandırıcı olma şansı daha çoxdur. Dili ən incə xüsusiyyətlərinə qədər öyrənmək, hər bir ictimaiyyətlə əlaqələr mütəxəssisinin peşəkarlığını artıran amildir.

***Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr***

İctimaiyyətlə əlaqələrin əsas hədəflərindən biri dialoq rejimində effektiv ikitərəfli və çoxtərəfli kommunikasiyanın yaradılması və dəstəklənməsidir. Bu kommunikasiyalar dövlətə və ya şirkətə öz mövqeyini, məqsədlərini, məramlarını tez və effektiv bir şəkildə onu maraqlandıran auditoriyaya çatdırmaq və eyni operativliklə auditoriyadakıların fikrini öyrənmək imkanı verir.

İctimaiyyətlə əlaqələr mütəxəssislərinin dövlət siyasəti sahəsində vəzifələrinə aşağıdakılar daxildir:

• Dövlət qurumlarının fəaliyyəti haqqında vətəndaşların məlumatlandırılması;

• Dövlət proqramlarının həyata keçirilməsində vətəndaşların fəal iştirakının təmin olunması.

Buraya bir vəzifəni də əlavə etmək olar. Bu da dövlət strukturunun müsbət imicinin yaradılmasıdır.

Qurumların ictimaiyyətlə doğru qurulmuş əlaqələri nəticəsində dövlətin apardığı sosial-iqtisadi siyasətin yerlərdə vətəndaşlara təbliğatı yaxşı şəkildə aparılır, dövlət ilə vətəndaşlar arasında informasiya qıtlığı minimum səviyyədə olur, vətəndaşların müraciətlərinin dövlət orqanları tərəfindən dinlənilməsi, yönləndirilməsi və həlli sahəsində iş aparılır, vətəndaşlarla görüşlər təkcə dövlət orqanlarında deyil, yerlərdə səyyar görüşlərdə də aparılır.

Bu gün dövlət idarəçiliyini daha çox vətəndaşlarla yaxınlaşdıran, vətəndaşların ehtiyaclarını və tələblərini daha yaxşı qarşılayan elektron xidmətlərin göstərilməsidir. Dövlət orqanlarında ictimaiyyətlə əlaqələrin təşkilində texnologiya mühüm rol oynamaqdadır. Belə ki, məlumatların vətəndaşlara ötürülməsi eyni zamanda vətəndaşların idarəetmədə iştirakı texnoloji yeniliklər vasitəsilə reallaşmaqdadır.

***Naxçıvan modeli***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli müvafiq Sərəncamı ilə dövlət orqanlarında “mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi” ştatı təsis olunub, orqanların mətbuat və ictimaiyyətlə əlaqələr üzrə fəaliyyətlərinin təşkili bu sahələr üzrə məsul əməkdaşlara həvalə edilib. Bununla yanaşı, ictimaiyyətin vaxtında və düzgün məlumatlandırılması işi də diqqətdə saxlanılaraq, dövlət orqanlarının rəsmi internet saytları yaradılıb ki, bu da işin daha səmərəli təşkilinə imkan yaradır.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni texnologiyaların tətbiqi və sürətli internetə çıxış imkanlarının yaradılması informasiya-məlumatlandırma işini müasir dövrün tələblərinə uyğun təşkil etməyə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığına uyğun olaraq muxtar respublikada dövlət orqanlarının mətbuat xidmətlərinin əməkdaşları ilə kütləvi informasiya vasitələri nümayəndələrinin görüşlərinin keçirilməsi bu sahədə fəaliyyətin gücləndirilməsi və qarşılıqlı əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlət orqanlarının mətbuat xidmətlərinin öz işini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi ilə uzlaşdırması görülən işlərin daha effektiv və səmərəli olmasına şərait yaradır.

Onu da qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbirdə qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək məqsədilə Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşlarının attestasiyası keçirilib. Bu isə mətbuat xidmətlərinin işinə diqqətin daha da artırılmasına və mətbuat xidməti əməkdaşlarının öz işinə daha diqqətli yanaşmalarına, işlərini günün tələbləri səviyyəsində qurmalarına imkan vermiş olur.

Dövlət orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifəsinə işə qəbul üçün esse imtahanının keçirilməsi daha peşəkar kadrların seçilməsinə imkan yaradır. Yazılan esseyə əsasən namizədlər ixtisas bacarığı, mövzunun əhatə olunması və faktlara istinad, üslub, orfoqrafik qaydalara riayət və yaradıcılıq qabiliyyəti baxımından qiymətləndirilir.

İşə qəbul olmaq istəyənlərin iddia etdikləri vəzifələrə uyğunluğu müəyyən edilərkən, eyni zamanda onların bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü də yoxlanılır. Namizədin emosional sabitliyi, məsuliyyətliliyi, məqsədyönlülüyü, dürüstlüyü, özünütənqid, nüfuzetmə, təhliletmə, ünsiyyətqurma bacarıqları vəzifə üçün zəruri keyfiyyətlər kimi müəyyənləşdirilir.

***Təşkilatın siması olmaq asandırmı?***

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis həm də təşkilatın simasıdır. KİV ilə formalaşmış kontaktlar, bilik və səriştə, yüksək intellekt və səlis danışıq qabiliyyətinə malik olmaq onun əsas xüsusiyyətlərindən olmalıdır.

Digər adı ilə “PR menecer”in nə ilə məşğul olduğu elə onun peşəsinin adından görünür, o təşkilatla cəmiyyət arasında dialoq qurur. İctimaiyyətlə əlaqələr mütəxəssisinin vəzifələrini bu cür qruplaşdırmaq olar:

• informasiya materiallarının yayılması üçün ən əlverişli kütləvi informasiya vasitələrinin seçilməsi və onlarla əlaqələrin qurulması;

• mətbuatın monitorinqi;

• əsas əlaqələr, informasiya kanalları və s. üzrə məlumat banklarının yaradılması;

• press-relizlərin hazırlanması;

• dövlət strukturları və mühüm ictimai institutlarla münasibətlərin qurulması.

İctimaiyyətlə əlaqələr üzrə məsləhətçinin işə qəbul edilməsi üçün işəgötürənlərin də tələbləri var. Bunun üçün ictimai əlaqələr, jurnalistika və ya filologiya sahəsində təhsil, iş təcrübəsi, savadlı şifahi və yazılı nitq, əla kommunikasiya bacarıqları, məhdud zaman çərçivəsində əla nəticə göstərmək qabiliyyəti, analitik düşüncə tərzi, böyük həcmlərdə informasiyanı qəbul etmək və qavramaq bacarığı və s.şərtləri ödəmək tələb olunur.

***İctimaiyyətlə əlaqələr üzrə mütəxəssis diqqət etməlidir***

Mətbuat xidmətləri fəaliyyətlərini kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində qurmalıdırlar. Dövlət qurumlarının mətbuat xidmətləri tərəfindən qəzet və televiziyalara peşəkar arayış və hesabatlar təqdim edilməli, müsahibələr verilməli, həmin əməkdaşlar təşkilatın fəaliyyəti barədə veriliş və məqalələrin hazırlanmasında yaxından iştirak etməlidirlər.

Mətbuatla əlaqələr üzrə məsul şəxslər mövcud qanunvericiliyi öyrənməli və fəaliyyətlərini bu istiqamətdə qurmağa çalışmalıdır. Kütləvi informasiya vasitələrinə məlumatlar təqdim edilərkən dövlət orqanlarının fəaliyyət istiqamətinə uyğun açıq informasiyaların verilməsi əsas götürülməli, Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılan və ya dövlət sirri hesab edilən informasiyaların ictimailəşdirilməsinin qarşısı alınmalıdır.

Müasir cəmiyyətdə informasiya siyasətinin düzgün qurulmasına yalnız qarşılıqlı əməkdaşlığın səmərəli təşkili ilə nail olmaq mümkündür. Mərkəzi icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya – məlumatlandırma işi təşkili düzgün qurulmalı, kütləvi informasiya vasitələri ilə dövlət orqanlarının mətbuat xidmətlərinin qarşılıqlı əməkdaşlığına nail olunmalıdır.

Mətbuat xidmətləri dövlət proqramlarının icra vəziyyəti barədə məqalələr işləməli, kütləvi informasiya vasitələrindən daxil olan sorğuları operativ formada araşdırmalı və qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə cavablandırmalıdırlar.

Teleradio və qəzetlərin əməkdaşları araşdırma apardıqları mövzu ilə bağlı sorğuları aydın, əhatəli və peşəkar formada təqdim etməli, həmin informasiyalar yayılarkən mətbuat xidmətlərinə istinad olunmalıdır.

PS. Bu günlərdə mətbuat xidmətləri həm də qurumun internet-sosial məkanlardakı obrazını formalaşdırmağa çalışırlar, bu zaman PR və internet marketinqin vəzifələri bir-birinə qarışır. Onlar sosial şəbəkələrdəki forumlarda iştirak edir, qurumun səhifəsini yaradır və onun məzmununa nəzarət edir, digər səhifələrdə qurum haqqında gedən söhbətlərdə onun nüfuzunu və maraqlarını qorumağa çalışır. Bir növ sosial şəbəkələr vasitəsi ilə ictimaiyyətlə əlaqələr yaradır. Bütün bunlar isə mətbuat xidməti əməkdaşlarından öz işini günün tələbləri səviyyəsində qurmağı, çalışdıqları qurumun müsbət imicinin yaradılması, obyektiv məlumatın kütləvi informasiya vasitələrinə zamanında, aydın şəkildə çatdırılması üçün səy göstərməyi və daima öz üzərində çalışmağı tələb edir. Çünki böyük bir auditoriya bir qurumu bəzən məhz mətbuat xidmətinin simasında tanıyır.

**Məmməd Babayev**
***“Jurnalistika və xarici ölkələr ədəbiyyatı” kafedrasının müəllimi***

# ARZULARI ÇİN OLAN ZABİT



Vətən müharibəsinin bitməsindən aylar ötsə də hələ tanımalı neçə -neçə igidlərimiz var ki,ömürlərini vətənə xidmətə həsr edib. Onların hər birini tanıdıqca insan qürurdan dağa dönür. Bu gün qələmim ömrünün 27 ilini Vətənə xidmətəhəsr edən bir zabitimizi, Naxçıvan igidini tanıtdırmaq üçün yazır.

Allahverdiyev Babək Asəf oğlu 1976-cı il avqustun 15-də Kəngərli rayonunun Qarabağlar kəndində dünyaya göz açıb. Atası Asəf əmi ona tarixdə hamının çox yaxşı tanıdığı Babəkin adını vermişdi ki, oğlu da xalq qəhrəmanı kimi igid olsun. İnsan adı ilə bütünləşirmiş. Babək hələ uşaq yaşlarından öz yaşıdlarından təfəkkürü, düşüncə tərzi, nümunəvi davranışı ilə seçilirdi. Orta məktəbi əla qiymətlərlə bitirən Babək ali məktəbə qəbul olsa da burada təhsil almaqdan imtina edərək vətənin keşiyində durmaq üçün 1994-cü ildə əsgər gedir. Vətənin keşiyində əsgər kimi durduğu vaxtlar isə artıq öz ixtisasını seçmişdi. O anladı ki, elə mübarizəsi ilə tarix yazan adaşı Babək kimi onun da ən ülvi vəzifəsi anam dediyi Azərbaycanın keşiyini çəkməkdi. Öz istəyini komandirlərə bildirən Babək Türkiyə Respublikasında Quru Qoşunların Ali Hərbi Komandir Məktəbinə sənəd verir. İmtahanları müvəffəqiyyətlə keçir və Ankara şəhərində yerləşən Ali hərbi məktəbə qəbul olur. Təhsil aldığı dörd il müddətində qarşısına bir məqsəd qoyur "mən bütün hərbi sirləri mükəmməl öyrənəcəyəm ki, bu biliklər də məni Qarabağa aparacaq". Allahverdiyev Babək 1999-cü ildə təhsil aldığı hərbi məktəbi birinciliklə bitirir. Türkiyədə təhsil aldığı müddətdə o həmçinin türk, rus və ingilis dillərini də mükəmməl öyrənir. 1999 -cu ildə isə Türkiyənin İstanbul şəhərində yerləşən Quru Qoşunların Ali Hərbi Komandirlər məktəbinin Zabit ixtisası kursunu motoatıcı ixtisası üzrəbitirib. 2000-ci ildən Azərbaycan Respublikasının ordu sıralarında zabit kimi xidmət etməyə başlayıb .O hər zaman çalışır ki, həməsgərləri ilə yaxın dost olsun, həm də onları bu vətənə layiqli , nizam-intizamlı əsgərlər kimi yetişdirsin. O öz əsgərlərini öz doğma balası kimi sevir onları vətən fədailəri kimi yetişdirir. Yüksək səviyyəli biliyə malik olan Babək Allahverdiyev müxtəlif dövrlərdə Azərbaycanı başqa ölkələrdə yüksək səviyyədə təmsil etmişdi. O həmçinin Macarıstan Respublikasının Zrini Miklos adına Beynəlxalq müdafiə Universiteti nəzdindəsülhnaminə tərəfdaşlıq proqramı çərçivəsində "Hərbi ingilis dili təlim mərkəzində" ingilis dili kursu (2003), Türkiyə Respublikasının Ankara şəhərində Türkiyəsülhnaminə tərəfdaşlıq təlim mərkəzində Birləşmiş Millətlərin Hərbi müşahidəçi kursunu (2005), Almaniyada NATO məktəbinin nəzdində Çoxmillətli maddi-texniki təminat kursunu (2006), Bolqarıstanda NATO strukturları üzrə Birləşmiş qərargah kursunu (2007) müvəffəqiyyətlə keçmişdi. 2012-ci ildə isə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasına qəbul olur və 2014-cü ildə Akademiyanı "Hərbi və dövlət idarəetməsi " ixtisaslaşması üzrəmagistr dərəcəsi alır. Xidmətində göstərdiyi yüksək səviyyəli fəaliyyətinə görə polkovnik-leytenant rütbəsinə qədər yüksələn Babək Allahverdiyev müxtəlif dövrlərdə Azərbaycan Respublikasının 85,90, 95 illiyi Yubiley,Qüsursuz xidmətə görə III, II və I dərəcəli, Hərbi xidmətdə fərqlənməyə görə III dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin veteranı"medalların layiq görülüb. Polkovnik-leytenant Babək Allahverdiyev ailəlidir, onun dörd övladı var. Lakin o vaxtını övladlarından çox səngərdəəsgəri ilə keçirən bir komandirdir. O, sanki bu vətənlə bütünləşib. Bircə dəfə belə olsun "yorulmaq" kəlməsini dilinə gətirmədən təmiz vicdanı ilə bu vətənə xidmət edib, ətrafında olan yoldaşları tərəfindən isə vədinəəməl edən ,özü sözü bir qorxmaz, məğrur zabit kimi tanınır. Onun ailəsinə verdiyi sözdə vətənlə bağlı idi. O həmişə övladlarına söz verirdi ki, bir gün sizin timsalınızda bütün Azərbaycana Qarabağı qaytaracağam.

2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Vətən Müharibəsində bu döyüş ruhlu zabit öz əsgərləri ilə ön cəbhəyə yollandı. Yetişdirdiyi, illərlə təlim keçdiyi əsgərləri, zabitləri ilə çiyin-çiyinə döyüşdü. Düşmənə qan uddurdu. Göstərdiyi şəxsi şücaət və qəhrəmanlıqlarına görə müzəffər Azərbaycan ordusunun Ali Baş Komandanı tərəfindən "Vətən müharibəsi iştirakçısı" və "Kəlbəcərin azad olunmasına" görə medalları ilə təltif olundu. Amma onun ən böyük mükafatı doğma, gözəl Qarabağda xidmət etməsi oldu. Babək Allahverdiyevin arzusu çin olub. İndi onun qollarına vətən torpağının gücü, gözlərinə azadlığın işığı hopub. Belə zabitlərimizin sayəsində bu Vətən daim var olacaq.

Bu gün sizin gününüzdür, Şanlı ordumuzun əsgər və zabitləri! Qarabağda qeyd etdiyiniz Silahlı Qüvvələr Gününüz mübarək olsun! Cənab polkovnik-leytenant, sizinlə isə həmişə digər dalib zabitlərimiz kimi qürur duyuruq!

**İlahə Alahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***




Salam dəmir yumruqlu,zəfər çalmış Azərbaycan əsgəri! Sizin sayənizdə artıq biz qürurla deyirik ki, qalib ölkənin vətəndaşlarıyıq! Bu qələbə sevincini bizə siz yaşatdınız. Bu hissi yaşayan hər kəs xoşbəxtdir. Xoşbəxtdir ki, bütövləşən doğma yurdu, müstəqil dövləti, çiçəklənən bu günü, parlaq gələcəyi var. Vətənimiz də xoşbəxtdir ki, ona ürəkdən bağlı xalqı var. Onu yağılardan qoruyan güclü ordusu var. Təmkinliyi, qabiliyyəti, mərdliyi, qorxmazlığı və mübarizliyi ilə seçilən Prezidenti var. Dəmir yumruqlu, qətiyyətli, yenilməz Ali Baş Komandanı var.

Rayonlarımızın bir-bir işğaldan azad edildiyini cənab Ali Baş Komandan elan edəndə sevincimiz yerəgöyə sığmırdı. Bir anlıq ruhumuz gəlib o dağlarda sizinlə görüşdü. Bilirsiniz nə qəribə bir hisdir? Siz hansı ərazimizi işğaldan qurtarırdınızsa, biz həmin an dönüb o yurd olurduq. Bilirsiniz, siz necə xoşbəxt insansınız? Bir elin, bir yurdun sevincində əməyi, qanı, canı olmaqdan daha üstün nə ola bilərdi ki?... Kənar, yad ünsürlərin yalan məlumatları sizi ruhdan salmadı igid əsgərim! Düzdür, çoxları bizim ərazi bütövlüyümüzün tamamlanmasına qarşıydı. Amma həmişə olduğu kimi Can Türkiyə "Can Azərbaycan!" deyərək bu şərəfli yolda bizim yanımızda oldu. Bir daha sübut etdi ki, türkün türkdən başqa dostu ola bilməz.

Mənim əsgər qardaşım, sizin əməyiniz, zəfəriniz sayəsində hazırda işğaldan azad olunan ərazilərdə böyük layihələr həyata keçirilməkdədir. Bu layihələr azad olunan ərazilərin inzibati, tarixi və mədəni abidələrinin bərpası ilə yanaşı, həm də tarixi torpaqlarımızda illərdir keçirilməyən mədəni tədbirlərimizin, ənənələrimizin bərpasını əhatə edir. Beləliklə, işğaldan azad olunan torpaqlarımız hazırda mənəvi dinclik tapır.

Mayın 12-13 də Cıdır düzündə keçirilən "Xarı bülbül musiqi festivalı" bunun əyani sübutudur. Türkiyə Prezidenti Recep Tayyip Erdoğanın 2021-ci il iyunun 15-i Qarabağa səfəri Azərbaycan tarixində daha bir əlamətdar gün kimi qalacaq. Tariximizdə ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti xarici dövlətin başçısını Qarabağda qarşıladı. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması, sözsüz ki, gələcək dərsliklərə yazılan mühüm tarixi hadisə kimi yaddaşlarımızda qalacaq.

44 günlük Vətən müharibəsindən sonra qələbə sevinci bizim immunitetimizi daha da gücləndirdiyinə görə "Covid-19"a yoluxanların sayı da azaldı. Artıq biz "Covid-19"a da qalib gələcəyik sizlərin sayəsində.

Nəzərinizə çatdırım ki, mən düşmən postları ilə 1 km məsafədə olan keçmiş təmas xətti sayılan Tapqaraqoyunludanam. Mən gözümü açandan bizim pəncərələrimizdə düşmən gülləsindən qorunmaq üçün dəmir qapılar görmüşəm. Bu gün artıq sizin sayənizdə o dəmir qapıları götürmüşük. Mənim otağım artıq işıqlıdır. Günəş şüaları birbaşa düşür. Bu gün bu məktubu rahat, işıqlı, sərbəst sizə yazıramsa hamısı sizin sayənizdədir. Bizim kəndimizdən əzəmətli Murovdağı çox aydın görünür. Bu vüqarlı dağa biz başımız dik baxa bilmirdik. Müəllim Yafəz Camalov öz şeirində belə demişdir:

Murovdağın başı duman,qar olar,
Bir gün düşmən zəlil olar,xar olar.
Qisas qalsa qiyamətə ar olar,
Belə bir gün var,gələcək,ellərim.

Bəli, belə bir gün gəldi artıq. Sizin sayəsində düşmən zəlil oldu, xar oldu. Murovdağın dumanı çəkilib, dağlarımızda günəş doğub. Nəhayət, başı uca, qürurlu dağa qürurla baxırıq.

Bu gün Azərbaycan xalqı tariximizin ən şərəfli günlərindən birini bayram edir. Bu günün bayram kimi tarixləşməsinin müəllifi müstəqil dövlətimizin memarı və qurucusu, qüdrətli Azərbaycan ordusunun yaradıcısı Heydər Əliyevdir. O, görkəmli dövlət xadimi, böyük siyasətçi, həm də peşəkar hərbiçi idi. Elə buna görə də ulu öndərin hakimiyyətə gəlişindən sonra əsası qoyulan ordunun bu gün əldə etdiyi uğuru İlham Əliyev uğurla davam etdirir. Bütün azərbaycanlılar üçün böyük məna daşıyan 26 iyun- tarixini, həyatını Azəybaycanın rifahına həsr edən, hər zaman qəlbi Azərbaycan ilə döyünən Ulu Öndər Heydər Əliyevin böyük inamla dilədiyi ərazi bütövlüyümzün bərpası ilə qarşılayırıq!

Sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm. Bu gün böyük bayramdır, çünki Azərbaycan ordusu Hərbi Paradını Şuşada keçirir. Bu gün ordumuz cəbhə boyu deyil, sərhəd boyu düzülüb. Güclü, sarsılmaz orduya malik olmaq hər bir millət üçün qürur mənbəyi hesab olunmalıdır. Hazırda qüdrətli orduya malik Azərbaycanımın taleyi etibarlı əllərdədir. Sizin sayənizdə mənim üçün doğma, əziz diyarımız olan gözəl Naxçıvanımıza quru yolu ilə də gözəl, görməli, doğma, qədim torpaqlarımızla sərbəst keçərək gələcəm. Bu qələbə Ali Baş Komandanın uzaqgörənliyi, müdrikliyi, Sakit okean dərinliyi qədər zəkası ilə torpaqlarımızı azad edərək dünyada Azərbaycanımızı Everest yüksəkliyinə qaldırdı.

Eşq olsun Ali Baş Komandanımız! Var olun, mənim igid qardaşlarım!

Zəfərin mübarək,Azərbaycan əsgəri!
Yaşasın müstəqil, azad, bütöv Azərbaycan!

**Cəmilə Abbaszadə**
***"Müalicə işi" ixtisası üzrə II kurs tələbəsi***

# VƏTƏN MÜHARİBƏSİNİN QƏHRƏMANI, TƏLƏBƏ-HƏKİM

Bizi qələbəyə aparan 44 günlük Vətən müharibəsində əsgərlərimizlə birlikdə döyüşən, ordumuza könüllü xidmət edən, onların yaralarını sarıb ayağa qaldıran həkimlərimizin xidmətlərini də unutmaq olmaz. Bu yazımın qəhrəmanı Araz Şükürov da vətən müharibəsinin könüllü həkimlərindən biridir. Araz 1993-cü il noyabrın 30-u Füzuli rayonunu Böyük Bəhmənli kəndində həkim ailəsində dünyaya göz açıb. Uşaqkən atasının, həkim olan əmisinin sağaltdığı xəstələrin üzündəki sevinci gördükcə içində həkim sənətinə olan sevgisi daha da artmışdı. Orta məktəbi bitirəndən sonra bu sənətin sirlərinə daha dərindən bələd olmaq üçün Naxçıvan Dövlət Universitetində "Müalicə işi" ixtisasını seçdi. Naxçıvana ilk gəldiyi vaxtlar qayğıları çox idi. Nə də olsa heç bir zaman olmadığı bir yerdə və ailəsindən uzaqda idi. Naxçıvanın mehriban, diqqətcil, qayğıkeş insanları və ona doğma gələn mühiti bu qayğılarını tamamilə unutdurdu. Universitetimizdə tələbələr üçün yaradılan şərait, tələbələrə göstərilən qayğı və təcrübəli müəllimlərin əhatəsində olmaq hər bir tələbə kimi Arazı də sevindirirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyalarin dəstəklənməsin haqqında" 3 aprel 2019-cu il tarixli Sərəncamına əsasən ixtisasların hamiliyə verilməsi isə tələbələr üçün ayrıca bir dəstək və nəzəriyyədə öyrədilən biliyin praktikada tətbiqi ilə qazanılan ən böyük təcrübədir. Araz yaradılan bu şəraitdən istifadə edərək hələ 2-ci kursda oxuduğu müddətdən Naxçıvanda Respublika xəstəxanasında təcrübəli həkimlərdən xəstə müayinəsi və əməliyyatına dair biliklər əldə etmək üçün praktika keçirdi. Onun heç vaxt ağlına gəlməzdi ki, burada öyrəndiyi bilik və təcrübəsi sayəsində ordunun döyünən ürəyi olan zabit, gizir və əsgərlərimizin həyatlarını xilas edəcək. Araz V kursun sonunda Fizuliyə ailəsinin yanına getmişdi. Pandemiya ilə əlaqədar olaraq uçuşlar olmadığından Naxçıvana gələ bilmirdi. Müharibə başlayanda gənc həkim Fizulinin Böyük Bəhmənli kəndində idi. Ürəyindəki vətən sevgisi və həkimlik vicdanı ilə Araz ön cəbhədə yaralılara xidmət etmək üçün müraciət etdi. Sentyabrın 28 -də artıq o könüllü olaraq yaralılara xidmət edən həkimlərin sırasında idi. Həmin günlər Arazın xatirəsində belə qalıb: "Biz Fizulidə köhnə xəstəxanada yaralıları qəbul edirdik. Yeni xəstəxana tikilsə də hələ istifadəyə verilməmişdi. Sentyabrın 28 -də tapşırıq oldu ki, yaralıları Fizulidə yeni tikilmiş Mərkəzi Xəstəxanada qəbul edək. Sentyabrın 28 -dən 29 -na keçən gecə saat 03:30 da yeni xəstəxanaya yerləşdik. Saat yarım sonra yəni saat 05:00 da ermənilər köhnə xəstəxananı raketlə vurdular. Biz yorulmaq bilmədən gecə -gündüz cəbhədən gələn yaralılara xidmət edirdik. Mübarizəmizi iki istiqamətdə aparırdıq. Bir tərəfdən yaralılarımızı sağaltmaq üçün mübarizə aparırdıqsa digər tərəfdən həm xəstələri, həm özümüzü dünyanı cənginə alan Covid-19-dan qoruyurduq. Həkimlər soyuqqanlı olmağı bacarmalıdır, amma çoxsaylı təcili tibbi yardım maşınlarının susmayan səsi, bir saat ərzində çoxlu yaralının xəstəxanaya gətirilməsi onların müayinə, müalicə, təcili əməliyyat edilməsi çətinlik yaradırdı. Bu qədər çətinliyin içərisində cəbhədən gələn yaralılar ordumuzun saatbasaat irəlilədiyini dedikcə sanki bütün yorğunluğumuz gedirdi. Ayağını, qolunu amputasiya etdiyimiz, gözünün itirmiş xəstələr var idi ki , onların dilindən xüsusi bir avazla, məğrurcasına "Vətən sağ olsun!" kəliməsini eşitmək bizə ayrı bir qürur verirdi. Belə bir ordusu olan xalq xoşbəxtdir. Biz yaralıları xəstəxanada saxlaya bilmək üçün onlara yalvarırdıq, onların hamısı isə inadla cəbhəyə, döyüş meydanına qayıtmaq istəyirdi. Başımız qarışıq olduğu üçün bəzən görürdük ki, yenicə sarğı qoyduğumuz yaralı gizlincə yenə cəbhəyə qayıdıb. İçlərində elələri var idi ki, bizdən xahiş edirdi yaralandığımı ailəmə deməyin, onlar ön cəbhədə olduğumu bilmir, qoy narahat olmasınlar.




Mən orada heç vaxt yadımdan çıxmayacaq bir hadisənin şahidi oldum. Bir dəfə yenə cəbhədən burun nahiyəsindən göz çuxuruna böyük bir qəlpə girmiş yaralı gətirilmişdi. Orada bizimlə birlikdə yaralılara xidmət etmək üçün Bakıdan da bir qrup həkim gəlmişdi. Onlar yaralıya baxdı və dedilər ki, xəstəni təcili Bakıya göndərmək lazımdır. Yaralının rentgen nəticələrinə baxdıqdan sonra həkimlərə, mən bu əməliyyatı edə bilərəm, dedim. Yanımda olan həkimlər təəccüb və bir azda qəzəbli üzümə baxıb, sən tələbəsən, təcrübən yoxdur, xəstənin gözünə zərər vura bilərsən, desələr də dinləmədim. Yaralını xəlvətcə əməliyyat otağına aparıb qəlpəni çıxardım. Əməliyyatı qurtardıqdan sonra həkimlər dedilər ki, tibbi yardım maşını gəlib, yaralını göndərin Bakıya. Dedim, ehtiyac yoxdur, mən artıq qəlpəni çıxartmışam. Məndən hansı universitetdə oxuyursan, deyə soruşanda qürurla Naxçıvan Dövlət Universitetinin adını çəkdim. Mən gələcəkdə bizlərin yaxşı həkim kimi yetişməsi üçün yaradılan şəraitə görə ilk növbədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova, Naxçıvanın səhiyyə naziri Niyazi Novruzova, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və başda tibb fakültəsinin dekanı Elsevər Əsədov olmaqla bütün müəllimlərimə dərin minnətdarlığımı bildirirəm. Mən qürur duyuram ki, Naxçıvan Dövlət Universitetində öyrəndiklərimlə müzəffər Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərinə xidmət edə bildim. Vətən qarşısında zərrə də olsa öz borcumu yerinə yetirə bildim".

**İlahə Alahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# BİZ SİLAHLI QÜVVƏLƏR GÜNÜNÜ MÜZƏFFƏR ORDU KİMİ, QALİB XALQ KİMİ QEYD EDİRİK. BU, TARİXİ NAİLİYYƏTDİR!

## BABƏK ŞƏHƏRİNİN QƏHRƏMANI

Xalqımızın istiqlal tarixi şəhidlərimizin birbaşa adı ilə bağlıdır. Torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda həyatından keçərək şəhidlik mərtəbəsinə yüksəlmək böyük şərəf və qürurdur. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistan tərəfindən törədilən terror və işğalçılıq cəhdlərinə qarşı millətimiz həmrəy olaraq vətən uğrunda düşmənə qarşı mübarizəyə qalxmışlar. Bu mübarizələrdə minlərlə qəhrəman oğul və qızlarımız şəhadətə yüksəlmişlər.

Şəhidlik şərəfli ölümə şüurlu şəkildə can atmaqdır. İllər, əsrlər keçsə də, heç zaman unudulmayacaq şəxslərdir şəhidlər. Bu zirvəyə yol Vətəni, torpağı, milləti canından da çox sevməkdən keçir. Bu yol ali bir yoldur. İslam alimlərinin bildirdiyinə görə şəhidlər həyatlarını haqq yolunda fəda etdiklərinə görə Allah onlara dünya həyatına bənzəyən, lakin kədərsiz və qəmsiz bir həyat, bərzəx aləmi deyilən bir həyat ehsan edər. Onlar özlərini ölmüş hiss eləmirlər. Lakin daha yaxşı bir aləmə getdiklərini bilirlər, tam bir səadətlə ləzzət alaraq ölümdəki ayrılığın acısını hiss etmirlər.

Peyğəmbərimiz (s.a.v.) şəhidliyin nə demək olduğunu dəyərli hədislərində bizlərə açıqlamışdır: "Cənnətə girən heç bir kimsə yer üzündəki hər şey özünün olsa belə, dünyaya geri dönməyi arzu etməz. Ancaq şəhid müstəsna! Şəhid gördüyü aşırı etibar və ikram səbəbi ilə təkrar dünyaya dönməyi və on dəfə şəhid olmağı istəyər" .

II Qarabağ müharibəsi şanlı tariximizdə qəhrəmanlarımızın göstərdiyi igidliklərə ən gözəl nümunədir. 27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi ilə başlanan və 44 gün davam edən vətən müharibəsində xalqımızın minlərlə igid övladı ali şəhidlik zirvəsinə ucalmışdır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin də vurğuladığı kimi qazandığımız qələbədə naxçıvanlılar böyük igidlik və qəhrəmanlıq göstərmişlər.

Ömrünü vətənə fəda edən belə şəhidlərimizdən biri də Ramazanov Rasim İsmayıl oğludur. O, 26 iyul 1998-ci ildə Babək qəsəbəsində anadan olub. İlk təhsilini 2004-2015-ci illərdə Babək rayon Babək qəsəbə 1 №-li tam orta məktəbdə almışdır. Rasim 2016-cı ilin iyul ayında ordu sıralarına çağrılmış, 2017-ci ilin dekabrında hərbi xidməti başa vurmuşdur. 2018-ci ilin sentyabr ayında üç aylıq kurs keçmiş və kursu müvəffəqiyətlə başa vurduqdan sonra Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlamışdır. O, 11 oktyabr 2020-ci ildə könüllü olaraq vətən müharibəsinə getmişdir. Babəkin atına qalxan Rasim Füzuli, Cəbrayıl, Hadrut rayonları və Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub.

Rasimi tanıyan əsgər yoldaşları onun haqqında bildirirlər ki, "Rasim igid və fədakar bir oğlan idi. Cəld, qorxmaz və cəsur olduğu üçün bölük komandiri Anar Əliyevlə birgə döyüşə qabaqda gedirdi".

İgid şəhidimiz 19 oktyabr 2020-ci il tarixdə Xocavənd rayonunun Tuğ kəndi uğrunda gedən döyüşdə düşmən tərəfindən snayper silahı ilə boğaz nahiyəsindən vurularaq şəhadətə qovuşmuşdur.

13 noyabr 2020-ci il tarixdə şəhidin cənazəsi Bakıda şanlı bayrağımıza bükülərək Naxçıvan Muxtar Respublikasına gətirilmişdir. Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanaraq, doğulduğu ata ocağına gətirilmiş və Babək şəhər qəbristanlığında uğrunda şəhid olduğu torpağa tapşırılmışdır. Subay idi.

İgid şəhidimizi yaxından tanımaq üçün Rasimin ata ocağını soruşuram: "Döngədən get, hansı qapıdan bayraq asılıb o evlər şəhid evləridir!" deyirlər. Üçrəngli bayrağımıza baş əyib astaca şəhid qapısını döyüb evə keçirəm. Məni qohumlar qarşılayır. Şəhid evini ziyarət edirəm. Bu gün cümə axşamı olduğu üçün Tərlan ana Rasimin məzarını ziyarət etməyə gedib. Gözləyirəm, bir azdan



gəlir. Göz yaşlarını ürəyinə axıtsa da, qürurludur. Ürəyimdə deyirəm, halal olsun sizlərə, şəhid anaları, hamınız Burla xatun kimi mərd xanımsınız, qəhrəman oğul böyüdübsünüz. Rasimin bəy otağını xatirə otağına çeviriblər. Otağın divarına vurulan ağ rəngli lövhə üzərinə "Mən ölməmişəm, şəhid olmuşam. Mən o vaxt ölərəm ki, sizlər məni unudasınız!" sözləri yazılıb. Üç rəngli bayraq və Rasimə aid olan hərbi geyim vitrindən asılıb. Otaq uşaqlıqdan şəhidliyə qədər çəkilən şəkillərlə bəzədilib. Saat, telefon, eynək, çarpayı və s. əşyalar sanki Rasimi gözləyir. Şəhid anası ilə danışmaq çətindir. Tərlan anadan ehtiyatla Rasim haqqında soruşuram, Tərlan ana deyir: "Hərdən zəng vurub çox qısa danışırdı. – Özünüzdən muğayat olun, mama, yaxşıyam sağ olun!., Bir dəfə oğlum səngərdən bizə məktub yazıb!". Şanlı məktubu oxuyuram:

*"Şəhid Məktubu! Canım Anam, ailəm. Yol gedirəm, tapşırığa çıxıram. Nə olacaq bilmirəm, amma qəlbimə, ürəyimə damıb getdiyim yoldan qayıtmıyacam. Amma əgər nəsə olsa, ağlamayın canım atam, anam! Onu bilin ki, siz qəhrəman valideyinisiz. Başıdik durun. Mən cənnətdə olacam onda. Anam, bilirəm çətindi. Amma onu da düşünək ki, vətən sağ olsun. Sən böyütdün boyabaşa çatdırdın. Amma vətən üçün, xalq üçün getməliydim. Onu bilin, şəhidlər ölməz! Mən yanınızda olacam. Sağ olun. Sizi çox sevirəm, inşallah cənnətdə görüşərik. Ramazanov Rasim".*

İsmayıl atanın dedikləri: "Kiçik Zəhra erməni ordusu tərəfindən yatdığı yerdə qanına qəltan ediləndə Rasim əsəbiləşərək yumruğunu divara vurub deyirdi: -"Ali Baş Komandan əmr verən gün müharibəyə öndə gedəcəyəm!". Zəhranın və nənəsinin ölümünə çox sarsılmışdı. Onların qisasını almağa çalışırdı. Vətənpərvər oğul idi. Mil-li Ordumuzu çox sevirdi".

Ata telefonu açır, Rasimin Qarabağda səngərdə əsgər yoldaşları ilə çəkdirdiyi video görüntüyə baxıram. Bu görüntülər ananın gözündən getmir qulaqlarında səslənir. Babəkin varisi olan igidimiz nəsihət edib: "İnşallah yaxşı olar hər şey. Burdan hamını salamlayıram, bəlkə də biz şəhid olduq, heç qismət olmadı... Ama inşallah bizim qohumlar, gələcək nəsillərimiz gəlib bu yerlərdə oturub rahat istirahət edəndə bizə bir "Allah rəhmət eləsin" deyərlər. Hamını öpürəm. İnşallah yaxşıdı, hamımız buradan sağ-salamat qayıdarıq!".

Vətən uğrunda canından keçən qəhrəmanlarımızın göstərdiyi igidliklər daim dövlətimizin diqqətindədir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncamına əsasən şəhidlərimiz müxtəlif ad, orden və medallarla təltif olunmuşlar. Qəhrəman şəhidimiz 15 dekabr 2020-cil tarixli Prezident İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncama əsasən göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğrunda" medalı, Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və şücaət göstərdiyinə görə Prezident İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli sərəncamına əsasən "Şuşanın azad olunmasına görə" medalı ilə və 30 dekabr 2020-ci il tarixli Prezident İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncamına əsasən Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiyinə görə ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir

Xalqımızın azadlığı və torpaqlarımızın ərazi bütövlüyü uğrunda milli mücadiləsində şəhid olan qəhrəmanlarımızın xatirəsi xalqımız tərəfindən ehtiramla yad edilərək, onların ruhlarına dualar oxuyurlar.

Biz sənə borcluyuq Rasim!. Sizin kimi igidlərin sayəsində tarixi torpaqlarımız geri qayıtdı. Babək şəhərinin Babək qeyrətli, mərd, igid qəhraman oğlu Rasim Ramazanov, dünya durduqca sizin adlarınız Azərbaycan tarixində daim yaşayacaq. Allah, Rasim, sənə və vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin!

**Kübra Vəliyeva**
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun elmi işçisi***

## "CANAVAR" LƏQƏBLİ ŞƏHİD

27 sentyabr 2020-ci tarixində xalqımızın şanlı səhifələrinə qanla yazılmış şərəfli səhifələr daxil oldu. Həmin şanlı səhifələr ki, yüzillər belə keçsə, onlar hamı tərəfindən, daim xatırlanacaq, qürurla anılacaq . Çünki bu qəhrəmanlığı qazanan, 30 ildən çox erməni əsirliyində olan əzəli torpaqları uğrunda canından-qanından keçən mübariz igidlərimizi unutmaq, əsla olmaz. 44günlük müharibədə Vətənimiz yüzlərlə şəhid qurban verməli oldu. Mənim isə haqqında danışmaq istədiyim şəhidimiz, doğulub boya-başa çatdığım Xaçmaz şəhərinin onlarla şəhidindən biri olan Veyisov Kərəm Səttar oğludur.

Müharibənin insan həyatına necə ağır təsir göstərdiyini, bir insanın ölümü ilə onun ailəsinin necə yerlə yeksan olmasını bu hadisə ilə anlamaq mümkündür.

Şəhidimiz Veyisov Kərəm 11 dekabr 1998-ci ildə Quba rayonunun Rustov kəndində anadan olmuşdu. Uşaqlıqdan idmanla maraqlanan Kərəm 11 yaşından etibarən idmanla məşğul olmağa başlayır. Kiçik yaşlarından etibarən qəlbi vətən sevgisi ilə alışıb-yanan şəhidimiz hər zaman ölkəmizi qorumaq uğrunda ürəkdən, sanki gələcəkdə başına gələcəkləri bilircəsinə mübarizə aparmışdır. Qeyd edim ki, bu şəhidimizin ikinci hərbi xidmətə gedişi idi. Lakin birincisindən fərqli olaraq bu dəfə Kərəm geri qayıda bilmədi. Şəhidimiz amansız müharibənin qurbanı oldu. Qəlbindəki arzuları,ailəsinin onunla bağlı sevincləri, gələcək düşüncələri-bir sözlə Kərəmin gedişi ilə onunla bağlı hər şey yarım qaldı. Müharibənin ilk günlərindən cəbhəyə yollanan şəhidimiz manqa komandiri olaraq döyüşlərdə iştirak etmişdi. Hər zaman öz şücaəti,qəhrəmanlığı ilə seçilən şəhidimiz ordu sıralarında da öndə getməsi ilə seçilirdi. Evli olan əsgər yoldaşlarına "siz geridə gedin, sizi evdə övladlarınız gözləyir"- deyən igid şəhidimiz öz canını vətəni uğrunda fəda etməkdən heç vaxt qorxmurdu. Hər zaman medalları, diplomaları ilə fərqlənən Kərəm döyüşdə də fərqlənməyi bacarmışdı. Üç dəfə Dünya Çempionu olmuş igid əsgərimizdən də məhz bu gözlənilirdi. Özünün idman sahəsində əldə etdiyi uğurları saymaq-



la bitməyən Kərəm, məşqçi olaraq da fəaliyyət göstərmişdir. İdman yarışlarında dəfələrlə ermənilərlə üzləşən Kərəm, onları məğlub edib, üçrəngli bayrağımızı yüksəklərdə dalğalandırmağa da nail olmuşdu.Vətəninə bağlılığını idman sahəsində də göstərməyi bacaran şəhidimiz ilk məşq yarışını məhz 20 Yanvar şəhidlərinə həsr etmişdir. Bu cür xalqına, dövlətinə bağlı olan bir igidimizin olması, bizim üçün böyük fəxrdir.

Şəhidimiz iyul döyüşlərindən sonra cəbhəyə könüllü olaraq, hətta ailəsindən xəbərsiz yollanmışdı. Əlbəttə ki, uşaqlıqdan qəlbi vətən, yurd sevgisi ilə alışıb- yanan Kərəmi bu mübarizədən saxlamaq mümkün olmazdı. Döyüşə yollandığı ilk gündən etibarən ailəsi ilə əlaqə saxlayan şəhidimiz, müharibənin gedişi, düşmənlərin qorxub çəkilməsi, onların qarşısında tab gətirə bilməməsi haqqında da yaxınlarına söhbət açırdı. Müharibədə göstərdiyi qəhrəmanlığa görə şəhidimizə "Canavar" ləqəbi də verilmişdi.

Oktyabrın 19-da Füzuli uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına iştirak edib, yaralanan Kərəm Beyləqan rayonundakı qospitalların birində müalicəyə göndərilmişdir. Cəmi 2-3 gün xəstəxanada qalmağa razı olan şəhidimiz, tam sağalmamış yenidən cəbhəyə yollanaraq, silaha sarılmışdı. O, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşanın işğaldan azad olunmasında fəal iştirak etmişdi. İllərdir həsrətində olduğumuz, hər cümləmizin əvvəli və sonu "o gün olsun ki, işğal altında olan torpaqlarımıza yenidən qovuşaq" olan, bu istəyimizi reallaşdırmaqda payı olan qəhrəmanımız , məhz bu zaman şəhidlik zirvəsinə ucalmışdır. Döyüş meydanında gücünü bizə göstərməyi bacarmayan mənfur düşmən, döyüş bitəndən sonra əsgərlərimizin qaladığı ocağı görüb, ora atdığı mərmi nəticəsində Kərəm həlak olmuşdur. Və bununla da qəlbindəki doğma vurd, vətən sevgisi dolubdaşan şəhidimiz illərdir həsrətində olduğumuz torpaqları doyunca görməmiş gözlərini əbədi olaraq yumdu.

Kərəm, çoxlarının arzusunda olduğu, lakin bacara bilmədiyi zirvə olan, "Şəhidlik" zirvəsinə yüksəldi. Geridə isə onu boya -başa catdıran anasının acı fəryadı, ailəsinin onunla bağlı düşüncələri, yaxınlarının ona qarşı olan yarımçıq qalan bir sevgisi oldu. O yarımçıq sevgi ki, hələ də ürəklərdə Kərəm deyən kimi yada düşən, göz yaşları ilə axan yarımçıq bir niskil idi. Həsrətində olduğumuz torpaqlara qayıtmaq üçün bizim Kərəm kimi igid oğullarımız öz canlarını fəda etdilər, bu yolda şəhidlik zirvəsinə yüksəldilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Xumar Mikayılova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## 30 İLLİK HƏSRƏTİN SONU...

30 illik həsrətin sonu...

Qarabağ-30 il sandıqda saxladığı açarları çıxaran ananın ümidi ilə iki oğlunun da tabutunu qucaqlayan ananın ağrısı arasındakı uçurumdur. Hər bir Azərbaycanlının qəlbində dərin və ağrılı bir iz qoydu Qarabağ. 30 il ərzində Azərbaycanın qəlbi olan Qarabağın adı hər zaman deyildi, unudulmadı. Yurdundan, yerindən didərgin düşmüş anaların fəryadı, uşaqların qorxusu, nənə-babalarımızın göz yaşları qəlbimizə dağ çəkdi, hər zaman xatırlandı. 30 il ərzində bir an olsun yaddan çıxmadı Qarabağ. Əksinə qan yaddaşımıza çevrildi. Unudulmadı Qarabağ, çünki vətənin bir parçası idi, Vətən idi Qarabağ.

Bü gun yaşananlara diqqət yetirsək elə bunu demək tam yerinə düşər. O torpaqları görmədən, orda yaşamayan amma Qarabağa tükənməz sevgisi olan uşaqlar, gənclər… Elə buna görə də torpaqlarımız uğrunda igidlərimiz döyüşməyə qəlbində qorxu hissi olmadan gedir. Onlar qəlblərində Vətən sevgisi ilə vuruşurlar. "Hər şey Vətən üçün", "Vətən bölünməz" deyib irəli gedən azərbaycanlı qəhrəmanları var Qarabağın.

Vətən yetişdirdiyi igid oğulları ilə fəxr edir. Vətənə olan sevgisindən şəhidlik zirvəsinə ucalan oğulları ilə, ölümü gözə alıb geriyə dönməyən oğulları ilə. Çünki "Torpaq qanla qarışarsa, Vətən olar".

Burdan balasını qurban verən analara, qürurlu atalara, yoldaşlarını itirmiş qadınlara və ölməz şəhidlərə səslənirəm: "Haqqınızı halal edin!" Bu millət, bu xalq sizi, etdiyiniz qəhramanlıqları heç vaxt unutmayacaq! Bu gün mən bir Azərbaycan vətəndaşı olaraq bizi qorumaq uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbr diləyirəm. Rəşadətli Azərbaycan ordusuna isə minnətdarlığımı bildirirəm. Bizə birliyi, mübarizəni siz öyrətdiniz. Siz bizə alnıaçıqlıq, başıdiklik gətirdiniz. Siz Azərbaycanlı olmağın fəxrini yaşatdınız. Haqqınızı ödəyə bilmərik!

Hər birimiz bu gözəl bağçalara çatmaq üçün tikanlı yollardan keçdik. Qanında Azərbaycan qanı axan hər bir vətəndaş inamla, səbrlə, dözümlə qələbəni gözlədi. Hər kəs əlindən gələnin ən yaxşısını etməyə çalışdı, qəhrəmanlarımıza yardımlar edildi, vətənpərvər musiqilərlə igidlərimizə ruh yüksəkliyi bəxş edildi. Qəlbi, mərhəməti, vətən eşqi dünyadan daha böyükdür millətimin. İndi hər bir Azərbaycanlının nəbzi tarixi zəfərlə döyünür. O zəfər ki bizi Qarabağa qovuşdurdu! O zəfər ki, şəhidlərimizin qanı yerdə qalmadı. O zəfər ki, dünyanın hər yerində "Qarabağ Azərbaycanındır" deyilir! O zəfər ki, üçrəngli bayrağımızı ən yüksəklərə qaldırdı. Bu qürur izah olunmaz bir hissdir. Bu hissi isə sadəcə yaşayanlar bilər. Mən özümü çox xoşbəxt hiss edirəm ki, bu qələbə sevincini yaşamaq, bu tarixi zəfərin şahidi olmaq mənə də nəsib oldu. Mən gələcəyin jurnalisti olaraq, o torpaqlara ayaq basacağım üçün özümü şanslı hiss edirəm.

Bu gün mən fəxr edirəm ki, belə bir dövlətdə yaşayıram, belə bir millətim var, uzaqgörən, dediyindən dönməyən Ali Baş Komandanımız, dövlət başçımız var. O, bütün dünyaya Azərbaycan ordusunun gücünü göstərdi və dünya buna şahid oldu. Bu gün bizi müdafiə edən dövlətlər çoxdur, bu da ulu öndər Heydər Əliyevin siyasi davamçısı olan möhtərəm İlham Əliyevin müdrikliyi, uzaqgörən siyasəti, əzmkarlığının nəticəsindərdir.

Qələbə bizimlədir! Bu inam bizə qələbə bəxş etdi. O inam ki, Ali Baş Komandanımız xalqına dönədönə aşılıyırdı. Xalqının sevimli qəhrəmanına çevrilən İlham Əliyevin qətiyyətli siyasətində bü gun bütün dünya yalnız bunu deyir: "Qarabağ Azərbaycanındır!" Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan xalqı!

**Püstə Əhmədova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# NAXÇIVAN ƏDƏBİ SƏNƏT MƏKTƏBİ, YARADICILIQ OCAĞIDIR

Bəşər sivilzasiyasının mədəniyyət ocağı olan Naxçıvanımızda rəssamlığın tarixi lap qədim zamanlardan, Gəmiqaya təsvirlərindən başlamış, tarixin bütün dövrləri ilə səsləşən intibah mədəniyyətinin, memarlıq məktəbinin təsiri ilə inkişaf etmiş, diyarımızın təbiət gözəlliklərini öz fırçası ilə tariximizə həkk edən realist rəssamlığın banisi Bəhruz Kəngərli ilə özünün ən qüdrətli dövrünə çatmışdır. Bu gün isə vaxtilə Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatı kimi fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yarıməsirlik bir sənət tarixi ilə daha da zənginləşir və inkişaf edir.

Muxtar respublikamızda rəssamlıq sənətinə verilən qiymətin parlıq təzahürüdür ki, Ümumilli lider Heydər Əliyevin 98-ci ildönümünə həsr olunmuş, növbəti "Naxçıvan bəşəriyyətin beşiyi" adlı rəsm festivalı keçirilib. Qeyd edək ki, bu artıq diyarımızda keçirilən 5-ci böyük rəsm festivalıdır.

"Saat Meydanı" turistlik istirahət mərkəzində Beynəlxalq Rəsm Festivalında iştirak edən rəssamlar tərəfindən çəkilmiş əsərlərdən ibarət sərgi açılması xəbərini eşitdikdə, mən də sərgidə əsərləri nümayiş olunan rəsamlarla həmsöhbət olmaq, onların Naxçıvanımız haqqında təəssüratlarını eşitmək üçün həmin məkana üz tutdum. Öyrəndim ki, sərgidə 40 rəssamın 44 rəsm əsəri nümaiş olunur.

İlk müsahibim festivalda ilk dəfədir iştirak edən Təranə Seyid oldu. O, deyir ki, mən Naxçıvanı tamam başqa cür sevirəm. Çünki buranın tarixi çox qədimdir, bəşəriyyətin əzəli məncə bu diyardan başlayır. Festivalda kətan üzərinə Qoç heykəl şəkli köçürmüşəm. Ana adına ucaldılan bitkin bir xatirə abidəsi Möminə Xatun türbəsinin ətrafında rəsm çəkməyimiz bizə unudulmaz anlar yaşatdı. Bir sözlə desək, Naxçıvan o qədər gözəl şəhərdir ki, seyr etməklə doymursan. Müsahibim yaradılan şəraitin və göstərilən diqqətin təqdirəlayiq olduğunu bildirdi.



Burada olduğum müddətdə bir nəfərin sənətkarlıq nümunələrini xüsusi maraqla seyr etdiyini görüb ona yaxınlaşdım. Türkiyə vətəndaşı Alaaddin Koral ilə söhbətimiz zamanı bildirdi ki, mən ilk dəfədir buraya gəlirəm. Naxçıvan təbiəti, tarixi, coğrafi mövqeyi ilə əhəmiyyətli bir yerdir. Bu gün Saat meydanını gəzməyə gəlmişdim, təsadüfən çox gözəl bir sərgi ilə qarşılaşdım. Və bu sənətçilərin heç birini tanımıram, amma onu deyə bilərəm ki, çəkdikləri rəsm əsərləri valehedicidir. Ən çox diqqətimi çəkən məqam isə sənət əsərlərinin hər birində Naxçıvan motivlərinin olmasıdır. Necə deyərlər sanki, bütün rəsimlər də Naxçıvanın melodiyası səsələnir. Təbii ki, bu coğrafiya da belə rəsimləri çəkməmək mümkün deyil. Ümumi təəssüratım belədir ki, Naxçıvanda tarixi keçmişə, milli dəyərlərə, ənənələrə böyük qayğı göstərilir və bu yaşadılaraq gənc nəslə ötürülür.

Azərbaycan Respublikasının Əməkdar Rəssamı Eldar Qurbanov deyir ki, sərgidə cənab Vasif Talıbovun iştirak etməsi bizi çox sevindirdi. Bu rəssam əməyinə verilmiş dəyərin parlaq nümunəsidir. Bu, mənim, artıq Naxçıvana festival üçün etdiyim dördüncü səfərimdir və hər gəlişimdə xoş təəssüratlarla burdan ayrılıram. Həqiqətən Naxçıvan insana yaradıcılıq həvəsi verir. Onun füsünkar gözəlliklərini kətan üzərinə həkk etmək isə bizim üçün böyük xoşbəxtlikdi. Məndə bu festivalın ab-havasını elə çəkdiyim "Festival" əsərində əks etdirdim.

Naxçıvan Muxtar Respublikasının Şaxtaxtı kəndində doğulan rəssam, pedaqoq Rəna Məmmədova deyir ki, 2012-ci ildə məni ilk festival üçün Naxçıvana dəvət etdikdə çox xoşbəxt oldum, 25 ildən sonra doğulduğum torpağa qayıdırdım. Xoşbəxtliyimin həddi-hüdudu yox idi. Gözlərimdə uşaqlıq xatirələrim canlanırdı. Bu xatirələri sərgi üçün çəkdiyim rəsm əsərində də göstərməyə çalışdım. Əsərimdə Möminə Xatun türbəsi fonunda üç çarşablı qadını təsvir etmişdim. Çünki, o dövrdə, mən uşaq olarkən analarımız başlarına çarşab bağlıyardı. Bundan sonra da keçirilən silsilə festivallarda Naxçıvanda iştirak etməyimiz, bizi bu gözəl yurdun seyrinə tamaşa etməyə, onun əsrarəngiz mənzərələrini yaradıcılığımızda əks etdirməyə imkan verdi. Bu yurda ayaq qoyduğum anda keçirdiyim hissləri dillə ifadə etmək çətin olduğu üçün onu çəkdiyim əsərlərdə göstərməyə çalışıram.

Əsərində İlandağı təsvir edən rəssam Cavid Məmmədov deyir ki, dağ ucalıq rəmzidir. Naxçıvan dedikdə, həmişə ağlıma dağların qoynunda, ecazkar təbiət mənzərələri ilə göz oxşayan məkan gəlir. Buranın gözəllikləri bizə sözün həqiqi mənasında yaradıcılıq həvəsi verib. Rəssam üçün yaradıcılığa bir təbəssümdə kifayətdir, o təbəssümüdə Naxçıvanın qonaqpərvər insanlarının simasında daim görmək mümkündür. Naxçıvana gəlməyi həm də ona görə sevirəm ki, burda Bəhruz Kəngərli yaradıcılığı ilə daha yaxından tanış olmaq imkanı qazanıram. Biz Bəhruz Kəngərli muzeyində olarkən müşahidə etdik ki, o, çəkdiyi bütün şəkilləri qəlbən çəkib və Naxçıvanın rəssamlıq tarixinə öz adını qızıl hərflərlə yazdırıb. Naxçıvan əsl ədəbi-sənət məktəbi, yaradıcılıq ocağıdır. Hər daşında-qayasında şahidi olduğu tarixin izi var. Bu qədim diyarın gözəlliyi qarşısında sözdə aciz qalır, rəng də, fırça da. Naxçıvandan ayrılacağımı düşünəndə çox təəssüflənirəm. Bir daha bura gəlməyi səbirsizliklə gözlüyürəm.

Sərginin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdıran rəssam Ramina Səadətxan bildirdi ki, belə festivalların keçirilməsi Naxçıvan da rəssamlar üçün yaradılan şəraitin eyni zamanda sənətə verilən qiymətin bariz nümunəsidir. Naxçıvan daha qədim zamanlardan Şərqin mədəni mərkəzlərindən biri kimi şöhrət tapıb. Bu festivalın keçirilməsi əlamətdar hadisədir. Ona görə ki, festival ümumilli liderimiz Heydər Əliyevin 98-ci il dönümünə həsr olunub. Heydər Əliyev yolu, Heydər Əliyev şəxsiyyəti gənc nəslə öyrədilir, həmçinin biz rəssamlara və digər sahələrin əməkdaşlarına çatdırılır. Bunu da nəzərinizə çatdırmaq istərdim ki, gördüklərimdən o qədər təsirlənmişəm ki, buraya bir daha gəlməyi düşünürəm. Nuh peyğəmbərin yenidən həyat verdiyi bəşəriyyətin ilk məskəni olan Naxçıvanın insanları da mənə elə gəlir ki, məhz buna görə istedatlı, yaradıcı, qurucudurlar.

Qonaqlarımızın yurdumuz haqqında bu cür gözəl fikirlərini, yaxşı təəssüratlarını eşitdikcə məndə xoşbəxt olur, qürur duyurdum. Rəssamlarımızı bu qədim diyarda bir daha görmək, onların xoş təəssüratlarını eşitmək ümidi ilə...

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# XƏZƏRİN SƏSSİZ ŞAHİDİ "NARGİN"

Bayırda zərif və çiskin yağan yağış damlaları daxmamın xəzərə baxan pəncərəsini elə döyür ki, sanki illərdir yoxluğuyla varlığa çevrilən birindən xəbər gətirir. Qapı çırpıntısına səksənib oyanıram xəyallarımdan. Sənələrin arxasından gələn məhzun baxışlı, qəmli yolçunun çəkdiyi qəm karvanı elə qocaltmışdı ki onu, kölgəsini itirmiş günəş kimi öz şəfəqlərində buz kəsmişdi. Saçlarının bəyazından asılan bu qadının siması, nuru və zülməti xatırladırdı. Saçındakı barmaq yarasından ,üzündəki göz yarasından tanıdım və sınıq bir budaq kimi bağrıma basmaq istədim Dilbəri. Lakin mərhəmətsiz bir sükut qollarımı çiynimdən kəsib yanıma saldı. Susur Xəzər, Susur Nargin, Susur sükut! Sükutun dili yansın! Yandırır bizi köz kimi. Danışan sadəcə lal xatirələrdir. Köksündən bir şəkil çıxararaq mənə tərəf uzatdı. Ağ fondakı qara bəxtli şəklin üzərindəki rəqəmlərə sataşır gözüm...1109!!! Sükutun, qorxuya müş "yarım qalan" Müşfiqim!!! Rəsul rzaya "söz, bir daha çəkməyəcəm" dediyin halda sözünə xilaf çıxan Müşfiqim. Necə əhdə vəfa edə bilərdin ki? Gecə qaranlığa qərq olanları gündüz kim axtarar? Ümid bəzən "cəftəsinə əl dəyməyən qapı" kimi öz içində ölü tapılır. Vəzifənin verdiyi səlahiyyətlərdən mənfəətləri üçün istifadə edən Xorenlər, Makaryanlar, Petrovlar kreslolarında qəlyanlarının tüstüsünü otağa buraxaraq "ölüm əmri verilmiş" yazılı vərəqə imza ataraq mənən öldüyü halda, zülmət zindanlarda "Cahan fikrimizlə süslənəcəkdir" deyən Müşfiqlər, "Mənim Tanrım gözəllikdir, sevgidir" səslənən Cavidlər, "Allahdan gəldik, ona da qayıdacağıq" deyən Seyid Hüseynlər əbədi yaşadı bu millətin və torpağın bağrında. Dostların Kitablarını kitabxanalarının məhrəm kölgəsində qucaq açıb qoruyarkən, anaları Kərbala ətirli səccadələrində və gözlərindən ovucllarına tökülən dualarda gizlətdi tutuşdurar. İllər keçdikcə sən bizdən uzaqlaşır bizsə sənə daha da yaxınlaşırıq Müşfiqim. Ən böyük acıya belə üzündəki təbəssümü qoruyaraq təhəmmül edən Müşfiq xəyalı bizi illər keçsə də tərk etməyəcək. İllərin digər günlərdən nə fərqi var ki? Təbiət onu hər hansı bir şəkildə ayırıbmı? Ömürümüzdən bir bir il keçdiyini göstərməsi belə o qədər mühüm deyil çünki, ömrü illərə ayırmaq da uydurmadı... İnsan ömrü doğumdan ölümə qədər uzanan tək bir yoldan ibarətdir.

Dərdini ömrünün qaranlıq macərasında gizlədən, səsi hıçqırıq, nəfəsi buz kəsmiş, hər ahı bir duman olub, öz yolunu kəsən Müşfiqim! Həyat ondan küsənləri incidər, ömrünü kəsər. Yarım ömürlər ilə öz ömür yazısından bir çiçək belə dərə bilməyən Müşfiqim çəkdiyin papirosların xəfif dalğaları qocaltmış taleyini indi maviliklərdə boğur. Kirpiyimdən çıxan tikanlar səni necə də, tikanlar üstündə yuxuya aparıb?! Oyan daha



dayanan bu tərəddüdün daha zərərli olduğunu, irəli atılmayan hər addımın bizi geriyə götürdüyünü və yaxınlaşdırmayan anların mütləq uzaqlaşdırdığını qaranlıq bir şəkildə sezir və içimdə səssizcə yanan, fəqət təlaşla böyüyən bir qayğının yer etməyə başladığını hiss edincə, qapının küncünə qısılan Dilbər məsumca pıçıldadı: Qaranlıqda qürub etdi qəlbimdəki ümid, intizar. Gözlərim qapıda asılı qaldı. Gedənlər bilir gedən qalandan necə getdi, bir gecənin içində "yoldaş" dan dönüb, "vətəndaş" olub getdi...Müşfiqim!!! Bəs mənim nakam məhəbbətimin, intizar gözlərimin, zülmət gündüzlərimin, açılmayan gecələrimin, ölən ümidlərimin müqəssiri kimdir?

Məhəbbəti yarım, səadəti sınıq, iztirabı üzündə, sözü dilində, qəmi saçında, hekayəsi gözündə yaşayan, dərdi ömrünü saralmış səhifələrində gizlənən Dilbərim... Elə baxırsan ki, sanki Müşfiqin Dilbərinin gözlərini də həbs edib həbsxanaya aparıb, bu gözlərin görünən tərəfindəki Müşfiq məhəbbətini soyundurub, yerinə dərd yüklü qara tül asıblar. Fəqət bu gözlərin görünməyən tərəfində isə bir Müşfiq yaşayır... Bəli yaşamaq, təbiətin ən məsum tərpənişlərini sezərək, həyatın sarsılmaz bir məntiq ilə axıb gedişini seyr edərək yaşamaq, hərkəsdən daha çox, daha mücadiləli yaşadığını, bir ana bir ömür qədər çox həyat doldurduğunu bilərək yaşamaq və xüsusilə bütün bunları danışacaq bir insanın var olduğunu düşünərək, onu gözləyərək yaşamaq!!!

Öz dibinə işıq salmayan şam kimi, göz yaşlarım da yanağımı yox qəlbimi isladır. Közü-közə caladığın, papirosunun xısı belə rəsminə çöksəni. Bəzi dahilər dünyaya gözlərində ölüm gətirərək əbədi yaşam aparır. "Yel döyən oğlu Səba" səndə küləklərlə gəldiyin kimi dalğalara qarışıb ənginliklərdə elə hey "yaşam" pıçıldadın.

Bax elə indicə, elə bu an çırpınan xəzərin lallaşan qayalarında fəryad qoparan Narginindən yazıram. O Xəzər ki, odlu, alovlu, yandıqca yanan 29 illik ömür yolunu bir göz qırpımında söndürən, saçın kimi qıvrılan dalğalarında, xəyallarını öz ləpələrində rəssam təki oxşuyan, hər dalğası kişniyən bir bəyaz at kimi ömründən ömür aldı. O Xəzər ki, Günlərcə yağmurla, fırtınayla, soyuqla can alar, sonra bu qədər əziyyət çəkdirdiyinə peşman olmuş kimi lal bir maviliyə bürünər, vəfasız bir sevgili kimi bizə həmişə xəyanət edər, bizsə onu günahsızcasına bağışlayaraq bağrımıza basar, sevməkdən doymarıq.

Acımasız ucsuz-bucaqsız maviliklərə sürüklənən ölüm sisindən, arxasınca coşğun dənizi gətirərək sel olub dünyaya axan, fikri qanadlanıb uçmaq dilərkən, göy üzündən yerə yıxılan Müşfiqdən yazıram. O Müşfiq ki, ömrünün vərəqləri bir rəngdə qalmadı. O Müşfiq ki, dalğalar əndamını həvəslə qucaqlayarkən, qısqanclıqdan doğan hislər, cumub səni dalğaların əlindən almadı. Adı şövqlü, həvəsli mələk idi...nə etdilər o mələyə?! Qanadlarını qırıb, qəlbinimi sıxdılar?! Hər çiyinə qonaraq şeir fısıldayan Müşfiqimin səsinimi batırdılar?! Cismimizi oxşayan günəş şüaları bir nöqtədən keçdikdən sonra başqa bir nöqtədə toplanar və yandırmağa başlayarsa, dirayətini davamlı artıran Müşfiq sevgisi də bizi sararaq hər an bugün qabarıb xəzər, qalxıb tərlan ləpələr, qanadlarını açaraq bu tarixə acıyır...Oyan ki həyat qayğını alıb ölümdən, keçmişi vurub yıxaq, dalğalardan üzə sağlam çıxaq. Oyan ey Müşfiq! Ürkək baxışlarınla ruhumuzu dindir. Gilə-gilə saxladığımız göz yaşlarımızda sən oyanıb yuyunasan deyə gözünə çəkdiyimiz baxışlarımızda gizlətdik səni. Xoş bir dövranla dargın zamanın, xəzanla-baharın, qocayla-gəncin, qəmlə-sevincin, ölümlə-həyatın arasındakı körpü kimi, öz pəncərəsində ay kimi doğub, gün kimi batan, göylərin dodağından yağmur kimi tökülüb, sel kimi axan Müşfiqim. Hələ uşaqkən nənənin tikdiyi məktəbli heybəsi ilə şəhərin küçələrini dolaşarkən siyasi inqilabların ən məsum iştirakçısına çevrilmiş, sərsəri bir rüzgara dönərək əriyə-əriyə şeir qəlibinə tökülmüş, könlünün gözləri ilə Günəbaxanın Günəşə baxdığı kimi baxmışdın Xəzərə. İndi yarımçıq şeirinin dağınıq sətrləri arasına boylanarkən sındırılmış qələminin kağızda yeri qaldığına şahidlik edir "Xəzər"!!!

Dargın zaman xoş dövranını xarabalığa, gülüstanını bustana, gəncliyini qocalığa, həyatını ölüm körpüsünə kükrədərək başlamadan bitən həyat qissənin izlərini Dilbərinin sən qoxan hisslərinə bürüyüb. Dünyaya çalğısız bir əyləncə kimi gəlib, tüstüsüz ocaq, yelkənsiz gəmi kimi Xəzərə qucaq açaraq ruhsuz cəsədinlə başlamadan bitən həyat qissən yaşıl ruhlu təzə yarpaq kimi mənə mehman olan Dilbərin baxışları ilə bunu deyir: Müşfiqim! Hərşeydin, hərşeysən, hərşey olmusan!!!

**Fariz Əhmədov**
***Elmi Kitabxananın direktoru***

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

NAXÇIVAN DÖVLƏT UNIVERSITETI NDU

Qeydiyyat №330
Sifariş № 524
Tiraj 500

Redaktor:
Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.